QƏNİ CAMALZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

15 cilddə

I cild

## HEKAYƏLƏR

**Qəni Camalzadə. HEKAYƏLƏR.** I cild
Bakı, Qanun nəşriyyatı, 2022, 368 səh.

Korrektor: Əyyar Tahir

Yazıçının seçilmiş əsərlərinin birinci cildində toplanan hekayələrinin əksəriyyəti müxtəlif illərdə dövrü mətbuatda dərc olunub. İncə yumor, kəskin sarkazmla yazılan hekayələrin süjetləri real həyat həqiqətlərinə söykənir. Hətta, alleqorik nağıllarında da bir həyatilik var. Yazıçı müasirlərimizin həyatda rast gəldikləri çətinliklərdən, onların dövr-zaman, sosial ədalət, ailə dəyərləri haqqında düşüncələrindən bəhs edir, insanın şəxsiyyətinə toxunmadan, alçaltmadan, sevərək tənqid edir.

ISBN 978-9952-38-

© Hacı Qəni Camalzadə, 2022
© Qanun nəşriyyatı, 2022

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

# ƏDƏBİYYATIN KÖHNƏ BAZARINA TƏZƏ NIRX

Qəni Camalzadənin hekayələri 1976-cı ildən "Ədəbiyyat və İncəsənət" qəzetində və "Kirpi" jurnalında vaxtaşırı çap olunsa da, mən onun yaradıcılığını 1984-cü ildən izləyirəm. Qəninin "Borc" adlı yumoristik hekayəsini də çap olunmaq üçün "Azərbaycan" jurnalına mən təqdim etmişdim. Yadımdadır, səksən dördüncü ildə bu hekayə "Azərbaycan" jurnalında çap olunandan sonra qələm dostlarım tez-tez məndən soruşurdular: kimdi bu Qəni Camalzadə? O zaman Qəni Politexnik institutunu təzə bitirmişdi və ixtisasına uyğun hansısa bir istehsalat müəssisəsində çalışırdı. Düzü, o zaman mənə elə gəlirdi ki, Qəni Camalzadənin yumoristik hekayələr yazması ötərgi həvəsdir. Amma sonrakı illər sübut elədi ki, Qəni ədəbiyyata çox ciddi yanaşır. "Yazıçı" nəşriyyatının səksən beşinci ildə çapdan buraxdığı "Yeni səslər" almanaxında Qəninin daha dörd hekayəsi çap olunmuş-

du və bu hekayələrdə artıq hiss olunurdu ki, Qəninin öz dəsti-xətti, öz üslubu var, yumoristik hekayə yazan yaşıdlarından seçilir.

Qəni Camalzadənin səksən beşinci ildə çap olunan "Yaxşı oğlanın dahısı" kitabı isə sübut elədi ki, mühəndis Qəni Camalzadə ədəbiyyata təsadüfən gəlməyib. Bu kitab sübut elədi ki, mühəndis Qəni mövzu seçməyi və aktual mövzuları yumoristik nəsrin süzgəcindən keçirməyi bacarır. O, illərin ədəbi tənqidində Qəninin "Təcrübə", "Məktub", "Sibirə ezamiyyət", "Hər şeyin öz adı", "Füzuli və elektrotexnika" kimi hekayələrinin təhlil olunması səbəbsiz deyildi. Qəni ədəbiyyatın köhnə bazarına "təzə nırx" qoymaq istəyirdi. Və şəxsən mən Qəni Camalzadənin yaradıcılığını buna görə izləyirdim. Səksən yeddinci ildə Qəninin hekayələrinin rus dilinə tərcümə olunması və "Literaturnıy Azerbaycan" jurnalında çap olunması da təsadüf deyildi.

1988-ci ildən sonra Qəni ilə əlaqələrimiz kəsildi. Uzun zaman heç onun imzasını da mətbuatda görmədim. Bu günlərdə isə təsadüfən qarşılaşdıq. Məlum oldu ki, o hələ 1992-ci ildə qələmini süngü ilə əvəz edib cavan Azərbaycan Ordusunda xidmətə gedib. 1993-cü ildə ordudan tərxis olunmuş, mülki həyata yenidən başlayıb, yenə yumoristik hekayələr yazır və çap etdirir.

*Məmməd Oruc*

# Hekayələr

## HEÇ NƏ İTMİR

“Get, 90 nömrəli açarı gətir!” Gətirirdim. “Kabeli aç!” Açırdım. “İzolyasiya tap, məftil tap!” Həm onu, həm də bunu tapırdım. “Baş energetiki çağır!” Çağırırdım. Bəzən də çox qorxduğum tapşırığı verirdi: “Vışkaya qalx, elektrik xəttini yoxla!” Külək olanda, yağış yağanda çıx, yoxla, görüm, necə yoxlayırsan! Buna baxmayıb, qalxırdım. Bütün bu buyruqlardan sonra oturub bir az dincəlmək istəyirdim, rahatlanmaq istəyirdim, əzazil adam isə əmri əmrə calayırdı: “Qaç, su gətir!” Mən də qaçırdım. Çünki... o, iyirmi il işləyib VI dərəcəli elektrik olmuşdu, mənim briqadirim idi, mənsə hazırına nazir olmuşdum, institutda beş il “baş girrəyib” aldığım mühəndis-energetik ixtisası ilə V dərəcəli elektrik işləyirdim... Yadına gəlir də, qurtaranda təyinatımı bura vermişdilər. İdarə rəhbərləri bir-iki gün gözlədilər, gördülər dalımca “mürəbbi-filan” gəlmir, zəng edən də yoxdur, dedilər:

– Bir ay, ay yarım elektrik işlə, təcrübə qazan, şəraitlə tanış ol, sonra səni mühəndisliyə keçirərik.

Gördüm çığır-bağır salmağın yeri deyil, dedim:

– Neynək, işlərəm!

O işləməklə səkkiz ay montyor işlədim. İnsafən pis də qazanmırdım. Bir az da elə buna görə tərpənmirdim. Bu neçə vaxtı sən neyləyirdin? Mərdəkanda, DRES-də mühəndis işləyirdin? İndi də? Babətdir. Ancaq deyəsən bizimlə qurtaranlardan elə qabaqda gedəni mənəm. … Hə, sonra nə cür olacaq ki? Beş il məftil dartmaq üçün oxumamışdım ki. Bir gün yapışdım rəisimizin yaxasından:

– Yoldaş rəis, məni mühəndis ştatına keçirt.

Gördüm, nəm-nüm edir, daha durmadım, elə sabahısı getdim nazirliyə. Nazir müavini məni qəbul etdi. Dərd-sərimi danışdım. Uzun sorğu-sual etmədən, məni birbaşa öz idarəmizə böyük energetik təyin etdi. Necə? Rəisimiz hirslənmədi? Əh... Rəhmətliyin nəvəsi, hirslənib neyləyəcək. İndi texniki təhlükəsizlik şöbəsinə başçılıq edirəm. Maaşım da pis deyil!

…Sənin axtarıb məni tapmağın əla oldu. Çoxdandır uşaqlarımızdan heç kimi görmürəm. Gedərik restorana, düm deyənəcən "qırmızıgözdən", "ağbaşdan" vurarıq. Tələbə deyilik ki, qəpik güdək. Bilirsən, qardaş, dünyada heç nə itmir, heç nə yaddan çıxmır...

Onu deyirdim, axı, yaxınlarda bizdə qəza baş verdi. Günahı da elektriklərdə olub. Odur ki, texniki təhlükəsizlik şöbəsi qərara aldı ki, elektriklərin ixtisas səviyyələri yoxlanılsın. Komissiya təşkil edib imtahan keçirt-

dim. Bəzilərinin dərəcələrini aşağı saldıq, bəzilərinin iş sahələrini dəyişdik. Köhnə briqadirim özünü biabır etdi, ən adi suallara cavab verə bilmədi. Kəsdim dərəcəsini, iki ay müddətində II dərəcəyə endirdim. Yalvardı, yaxardı:

– Balalarım var, kəsmə çörəyimi!

Deyirəm: "Ə kişi, bəs, o boyda buruq yansa, yaxşımı olar?" Axır, o qədər sıtqadı ki, cəza müddətini bir aya endirdim. Amma nahaq, gərək endirməyəydim. Niyə?... Əvvələn, ona görə ki, bu dünyada heç nə itmir. İkincisi də budur ki, mən fiziki əməyin əleyhinə deyiləm, əksinə, bəzən zehni əməyə görə nisbətdə fiziki əməyə üstünlük verirəm. Amma o briqadir məni elə insafsızcasına o yan-bu yana qovurdu ki, yadıma düşəndə tüstüm təpəmdən çıxır. İnanmazsan, əvvəllər əllərimin, ayaqlarımın ağrısından gecə səhərədək yatmazdım. Bəli, dünyada heç nə itmir... Pəncərədən bax, görürsən, aşağıdan keçən odur. Ə kişi, onu yox, əlində məftil aparan o yoğunu deyirəm. Sən, deyəsən, bayaq çay istəyirdin? Bu saat gətirdim. Elə pəncərə də açıqdır.

– Briqadir, ay briqadir! Ə kişi, başını yuxarı qaldır, buradayam, kabinetimdə. Əleykəssalam, hara gedirsən? 445-ci buruğa? Nə olub ki? Xətt yanıb? Deməli, onu təmir etmək istəyirsən? Qulaq as, briqadir, qaç bir termos çay gətir... Eybi yox, gözləyərlər. Daha yubanma. Yolüstü evimizə dəy, deginən bu gün gec gələcəyəm, işim var. Di, daha durma!...

# MİNARƏNİN ƏRİ

Minarə dükan-bazarı, ev-eşiyi bütöv tapşırmışdı ərinə. Bunu ona eyib tutan qohum-qardaşa cavabı bu idi: "Mən elmlə məşğulam, mətbəx arvadı deyiləm". O, elmi-tədqiqat institutunda işləyirdi. Səhər saat səkkizdə gedər, axşam saat altıda qayıdardı. Qohum-qardaş səbrlə gözləyirdi ki, haçan onun elmi bəhrə verəcək. Elə əri də gözləyirdi. Gözləyə-gözləyə də cibi dükan-bazar torbası gəzdirməkdən torbalaşmışdı.

Minarənin əri (madam ki, qohum-qonşu onu bu adla tanıyır, biz də çox dərinə getməyək, kişiyə bir ayrı ad qoymayaq) hansı orkestrdəsə, əyri boru, musiqiçi dililə desək, tranbon çalırdı. Axır vaxtlar bədii rəhbəri əvəz edirdi. Qazancı azdan az, çoxdan çox idi. Yəni aydan-gündən asılı idi. İnsafən pis çalmırdı. Minarədən savayı dünyada sevdiyi ikinci şey vardısa, biri işdə çalıb elə işdə qoyduğu tranbonu, digəri isə məşq üçün evdə çalıb elə evdə də saxladığı əyri borusu idi. Niyə də sevməyəydi?! Bu borunu çalanda hansı şənlikdəsə Minarəni gördü. Bir könüldən min könülə necə vuruldusa, elə çala-çala evləndi. Daha sonra uşaqları oldu. İndi də çox şükür çala-çala onları ərsəyə çatdırırdı.

Dünyada bir gileyi vardısa, o da Minarənin deyinməyi idi. Kişi onun açılıb-yumulan ağzını, titrəyən buxağını görəndə canına vicvicə düşürdü, deyirdi bəs, üstünə

ikiağızlı əjdaha gəlir. Minarəni dünyalar qədər sevsə də, ürəyindən keçirdi ki, kaş, bu arvad lal doğulaydı, onda qiyməti olmazdı!...

İstirahət günü, günorta idi. Minarənin əri mətbəxdə qapı-pəncərəni basdırıb borunu əlinə almışdı. Bu xoş yaz günü bala-bala püləyirdi. Dünya-aləm yaddan çıxmışdı. Arvad nə vaxt başının üstünü almışdı, nə demişdi eşitməmişdi. Minarə də çıxdı özündən. Əlini necə yellətdisə, az qala boru kişinin boğazına gedə.

Minarə dedi:

– Uşaq əmziyə dadanan kimi, sən də boruya dadanmısan! – Sonra hökm elədi. – Dur, divara bir-iki mıx çal! Şəklimi böyütmüşəm, çarpayının üstündən asacağam. Al, bu çəkic, bu da mıx.

Kişi dinməzcə qalxdı, sözü çevirmədi. Otağa keçəndə soruşdu:

– Bir mıx çalım, iki mıx?

Arvad qəti:

– İki dənə, – dedi. – O boyda şəkli bir mıx saxlayar heç!! Bəlkə divara hayfın gəlir?!

Kişi cavab vermədi. Bilirdi ki, söz sözü çəkəcək. Göstərilən yerə mismar qoyub çəkiclə çaldı. Amma mismar bir dırnaqdan artıq divara işləmədi. Bir parça suvaq qoparıb əyildi. Minarə ufuldadı:

– Bir az asta! – dedi. – Divarı dağıtdın. Heç elə də çəkic tutarlar, mıx çalarlar?! O qədər tranbon çalırsan ki, mıx çalmağa da hey qalmayıb səndə.

Kişi dinməzcə ikinci mismarı onun əlindən aldı... Bu da əyildi. Minarə hikkələndi. Döşəməyə səpilən suvağa yana-yana baxdı. Boğma çıxartdı:

– Uff... Day bu nə kişilik oldu?! İki mıxdan birini divara çala bilmirsən! – dedi və süpürgəni götürdü. – Nənəm elə düz deyir ki, indikilər nə kişidir! Allahın mağmunudurlar. Babam bir küt balta ilə ərəbə təkəri də yonardı, qaşıq içi də çıxarardı. Bəs, sən? Odur televizor orda, radio burda zəlil! Soyuducunun gurultusu qulaq batırır.

Kişi astadan:

– Mini, bəsdi, – dedi.

Minarə körüklənmiş alova dönmüşdü:

– Nə bəsdi, əşi, – dedi. – Ömrün boyu özgələrinə çalançılıq etmisən, mənim üçün iki mıx çala bilmirsən.

Kişi yalvardı:

– Ay başına dönüm! Nə etmək olar, divar betondu! Elektroburğu taparam, sabah mıx yeri açaram, qurtarar gedər də!

Minarə bu sözdən az qala dəli oldu:

– Kiri! Kiri! – dedi. – Xalxın kişiləri betona yox, dəmirə mıx çalır, dəmirə! Divarbir qonşunu götür... – Və səsini xırp kəsdi. Minarənin ərinə bircə anlığa yazığı gəldi. Sonra isə valın o biri üzünü çevirdi. – Gedib özünə iş tapmısan da, “tranbonçalan”. Soruşurlar: “Ərin nəçidir?” Qalırsan belə. Deyirəm ki, “Musiqiçidir”. Yenə soruşurlar: “Nədə çalır?” Candərdi deyirəm: “Nəfəsli

alətdə". Bundan sonrakı sualdan adamın nəfəsi gedir, day bir də qayıtmır. Heç olmazsa klarnet çalaydın. O qaraca Şərif qədər də deyilsən. Klarnet çala-çala Bakının yarısını ərə verib, yarısına da arvad alıb.

"Ay allah, mən onu necə susdurum? Qışqırım? Yox, bu ona təsir etməz. Vurum? Qaçıb qohum-əqrəbanı tökər bura. Gərək onda əlimə alam tranbonumu, çala-çala gedəm bu şəhərdən!" – deyə kişi fikirləşir, əlac tapmırdı.

Bu ara Minarə, həmsöhbətinin səsinə ehtiyac duydu. Soruşdu:

– Hə, nə gözünü döyürsən, yalan deyirəm?

– Sözündən belə çıxır, kim klarnet çalır, betona da mıx çalır?! – Soruşdu.

– A a a! Kişidə üzə bax ey! – Minarə təəccübləndi. – Mən elə dedim?

– Yaxşı, bəs, dərdin nədir? Az gətirirəm? Pis çalıram?

Minarə yenidən od aldı:

– Əh... Bu da söz dedi! "Pis çalıram?" Yaxşı çaldın xeyri nədir?!

Kişinin dərddən ürəyi çəkilirdi. Əgər bu dəm əlinə əyri borusu keçsəydi, elə bir "yetim segah" çalardı ki, bütün çalğıçılar onun yanından çala-çala keçərdilər. O, birdən yerindən atıldı, elə bil kişini ilan çaldı. Minarənin qolundan tutdu:

– Bəsdi, daha! – Qışqırdı. – Bəsdi! İşdə hamı mən deyənlə oturub-durur, amma mən evdə, hələ də sən çalanla oynayıram... Bəsdi!

Və darta-darta onu mətbəxə apardı. Minarənin bişirdiyi xörəkdən cəld bir çömçə çəkdi boşqaba. Yedi. Sonra bir çömçə də çəkdi, "piş-piş" – çağırdı.

Qoydu boşqabı yerə. Pişik qaça-qaça gəldi. Bir ağız yedi, geri sıçradı. Yazıq-yazıq miyoldadı. Qapıya getdi. Kişi qışqırdı:

– Gördün?! Allahın pişiyi də yemədi. Mənsə hər gün bunu yeyirəm. Çala-çala ağzımın dadını itirmişəm. – Onun gözləri yaşardı. – Dublyonkan üçün çalıram, qolbağın-saatın üçün çalıram, gül kimi balalarımız var, onlar üçün çalıram, toy gəldi çalıram, yas gəldi çalıram... Ömrüm çala-çala gedir. Ay məni çala-çala qəbrə qoyasan! Bəsdi də!

Minarə döyükə-döyükə baxırdı. Əri ilk dəfə idi ki, belə "bül-bül" kimi ötürdü. Sözlər sanılı qoz kimi çıxırdı ağzından və dəyirdi Minarənin başına.

Bu çalhaçal çox çəkəcəkdi. Amma iki qəribə iş oldu. Əvvəla, bu oldu ki, Minarə ağladı. Gözündən gildir-gildir yaş gəldi. Elə ağlaya-ağlaya da:

– Daha bəsdi! – dedi.

Sonrası qəribəlik yox, möcüzə idi. Dünyanın yeddi möcüzəsinin yeddisi də yalandı bunun yanında. O, da bu idi ki, o gündən Minarənin əri nə hava çalırdı, Minarə də o havaya oynayırdı.

Bu belə! Amma kişinin ürəyində bir nisgili qaldı. Bu da nə ola-nə olmaya, ola ad məsələsi. Qonum-qonşu yenə də biçarəni Minarənin əri kimi tanıyırdı. Kişi bircə bu ad məsələsində çala-çala qaldı.

## DAŞ HASAR

İslam kişi bir köhnə kişidir. Vaxt var idi, dik bığları göz çıxarırdı. Onda cavan idi. Gec evlənmişdi. “Allah, Allah” deyirdi ki, bir oğul qırığı olsun, o öləndən sonra onun çırağını yandırsın. Amma qızı qız üstündə gəlirdi. Birincisinə sevindi; ikincisinə “Nə olar!” – dedi, üçüncüsünə “Bəsdi!” – dedi, arvad durmadı, “Qızbəs!” – dedi, arvad dayanmadı, “Kifayət!” – dedi, gördü, yox ey, deməknən murad hasil olmur, elə bil qızların yolu asfaltdandı. Cavanlıqda dik dayanan bığları şaxını itirdi, gün-gündən sallandı aşağı.

İslam kişi qızları əl-ayaq açandan iki gözü vardısa, ikisini də borc aldı. Evin ətrafındakı çəpəri sökdü, daşdan adamboyu hasar qaldırdı. Beşinci qızdan sonra hasarı bir daş da qaldırdı. Yeddinci qızdan sonra eyvana çıxanı heç təyyarədən də görmək olmazdı. İndi onun evi qalaçaya oxşayırdı. Kimsə də o həndəvərdə dolanmazdı.

Qızlar böyüyürdü. Onların yaşıdları çoxdan ərə getmişdilər. Hərə bir hasarsız evdə gəlinlik edirdi. İslamın qızları isə hər dəf-dumbul səsinə evdən çıxır, daş üstə daş qoyub hasardan boylanırdılar. Elə boylana-boylana da qalmışdılar. Gözəl-gözəl, çirkin-çirkin qızlar ev oldular, ər sahibi oldular, onlarınsa adını çəkən yox idi. İslam kişi isə fikirləşirdi ki, hasarı bir daş da qaldırsın, ya yox? Qorxurdu ki, yad nəzərlər qızlarına sədəmə toxundurar.

Ürəyini gecə-gündüz şübhələr üzürdü: “Bır də gördün bir atasından bixəbər çıxdı yolun qırağındakı tut ağacına, boylandı həyətə...Yox, o ağacı da kəsmək lazımdır. Qoy, bu yay keçsin...” – deyə öz-özlüyündə qərarlaşdırdı.

Yay idi. Axşamüstü İslam kişi eyvana çıxmışdı. Hasarın yanındakı tut ağacında rəhmətlik Əlinin oğlunu gördü. Hirs vurdu təpəsinə, bığları deşərəm ha deşərəm qalxdı. Qeyzlə soruşdu:

– Adə, neynəyirsən orda?!

– Axşamınız xeyir, İslam əmi! – deyə oğlan sakitcə dilləndi. – Tut yeyirəm. İki ildi bu xar tutun üzünə həsrətdim.

Onun adı Vəli idi. Əsgərlikdən təzə qayıtmışdı. Sürücü işləyirdi. Yekəpərin biri idi. Maşına qalxanda, yalan olmasın, maşının bir yanı yatırdı yerə.

– Düş, aşağı! – İslam qışqırdı, sonra eyvana çıxmış qızlara acıqlandı. – İtilin evə! İndi sənə tut yeməyi göstərərəm.

Axırıncı söz Vəliyə aid idi.

– Heç dəxli var! – Vəli təəccübləndi. – İndi qoymazsan bu ehsan tutundan doyunca yeyim?

İslam dəli kimi qışqırdı:

– Kəs, haramzada! Sən tut yeyən yetim deyilsən! Özgə həyətinə boylanırsan!

Oğlan quruyub qaldı.

– İslam əmi, nə danışırsınız? – dedi. – Dörd-beş il qabaq olduğum həyət deyil? Axı, orda nə var ki, baxım da?!

Bu sözdən İslam kişi daha bərk acıqlandı:

– Məni qana salma, küçük, düş aşağı! – Və hələ də evə keçməmiş ortancıl qızına qolaylandı, amma qız üzünü tutub kənara çəkildi, yenə də evə keçmədi. Bu qız Vəli ilə yaşıd idi, səkkizinci sinfə qədər bir yerdə oxumuşdular.

Vəli qıpqırmızı oldu. Elə bil şapalaq ona dəymişdi.

– İndi ki, belə oldu, – deyə qışqırdı, – mən bu hasarın daşını daş üstə qoymaram.

Ayağını hasara dayadı. Güc verdi. Bir sıra daşla qaldırılan hasardan daşlar salbalanmış qoz kimi yerə töküldü.

– Adə!!!... Adə!!!... – İslam kişi özünü yetirincə, hasar darvaza boyda açıldı.

Onlar əlbəyaxa oldular.

Qonum-qonşu töküldü gəldi. Onları araladılar. İslam o gündən yatağa düşdü. Vəli isə aradan çıxdı. Bir il haralardasa itib-batdı. Günlərin bir günü onu kənddə gördülər.

Bu il ərzində çox sular axmışdı. İslamın üç qızından başqa qalanları ərə getmişdi. Qızların qalan ikisi xırda idi, ərlik yaşı yoxdu. O birisi isə Vəli ilə yaşıd olandı, bütün elçiləri də geri qaytarmışdı.

Vəli bütün bunların hamısına qulaq asandan sonra elə gəldiyi axşam İslamın qızına elçi göndərdi. Elçisi atasının dostu idi. Vəli onu güclə razı saldı. İslam xeyli fikirləşəndən sonra: “Razıyam!” – dedi. Bununla da elçini lap heyrətləndirdi.

Toy oldu.

İslam kişi hasarın dağılmış yerinə hələ də əl vurmamışdı. Əvvəl nasaz idi, sonra xeyir iş xeyir iş üstünə oldu. Hasar da helə elə qaldı. Vəli bir dəfə utana-utana dedi ki, gəlim oranı qaldırım.

İslam yenidən dikəlmiş bığlarını sığallayıb, gülümsədi:

– Lazım deyil, oğul! – dedi. – Qorxuram, hasarı təzələyəm, iki xırda qızın bəxti bağlana. İnşallah, gələn ildə-zadda onları da köçürəcəyəm. Evdə daha kim qalacaq ki?! Heç kim! Bir qarım qalacaq, ona da çoxdandır hasar-filan lazım deyil...

## DƏDƏMİN TƏSBEHİ

Nə vaxtdandı dədəm mənə göz verib işıq vermirdi. Bir söz əzbər olub düşmüşdü dilinə. Otururdu deyirdi, dururdu deyirdi, çörək üstə deyirdi, çay içəndə deyirdi. Bir əli bığında, bir əli təsbehində deyirdi. Qara bığın tərpənişi, qara təsbehin dən-dən şıqqıltısı həmin sözlə elə bir trio idi ki, ahəngi məni dəli eləyirdi. Dediyi nə olsa, yaxşıdır? Nə olsa, yaxşıdır?

– Ay oğul, gəl, səni evləndirək!

Mən də doldururdum ətəyimə daşları, bir-bir atır, başımı da qabağa tuturdum.

– Evlənmək nədir, əşi, – deyirdim. – İndi evlənənin gərək yeddi başı olsun.

Dədəmin təsbehi dən-dən olurdu, məni dilə çəkirdi

– Sən, gəl, bu daşı ətəyindən tök. Bir halal südəmmiş alaq sənin üçün. Daha çənəmin çüyü çıxıb, saqqalım ağarıb, bu gün varıq, sabah yoxuq. Hələ onu demirəm, səndən də kiçikləri var, axı... Onları da yola yetirənə qədər bizimki bizə yetəcək... Hə, oğul…

Bu qəmli söhbətdən ürəyim bir tikə olur. Əlim boşalır, daşlar tökülür ətəyimdən. Deyirəm:

– Dədə, başına dönüm, razıyam, amma əhd eləmişəm. Əhdim yerinə yetməsə, evləndi yoxdu.

Kişi sevincindən təsbehi cibinə atdı və dedi:

– Hə... Sözünü de! – dedi.

Üzümə ələk tutub əhdimi birnəfəsə düdülədim:

– Əhdim maşındır, dədə! Bir maşın al, elə günü sabah evlənim!

Dədəm necə çeçədisə, yalan olmasın beş dəqiqə özünə gələ bilmədi. Anamın gətirdiyi çaydan bir qurtum alandan sonra sinəsi yumşaldı. Dili söz tutar-tutmaz dedi:

– Ə qırışmal, atam məni heç at-arabaya da şərik eləmirdi, gərək evlənməyəydim?

– Şərik etmədi deyəndə, sonra arabanı bütöv sənə verdimi?!

Dədəm mərd-mərdanə:

– Verdi! – dedi.

– İndiki zəmanənin də at-arabası maşındır... Özün deyirdin ki?

Kişi təsbehi əlinə alır, bir dərin ah çəkir, soruşur:

– Oğul, neçə ildir institutu qurtarmısan? Beş il olar?

– Olar! – deyə mən də mərd-mərdanə cavab verirəm.

– Belə! – Təsbehdə bir dən düşdü. – İnsafnan de görüm, bu beş ildə qazancın nə olub?!

Bu yerdə dilxor oluram:

– Hə, olub olub da!

– Yox, ay oğul, xətrinə dəyməsin. Görək bir maşın təkəri qədər evə xeyir veribsənmi?

Mən qulağımın ardını qaşıdım:

– Maşın təkəri qədər xeyir vermişəm! – dedim.

Atam təsbehində bir dən də saldı. Üzünü anama tutdu.

– Arvad, xəzinədarımız sənsən! Oğlun düz deyir?

Anam baltanı kökündən vurdu:

– Daha burda özgəsi yoxdur ki! Aldığın yüz olub, yüz otuz olub, indi də yüz əllidir! O yandan vermisən, bu yandan almısan. O üz-bu üz yol xərcin, cib xərcin, üst başın…

Atam təsbehdə saldığı dəni geri qaytardı. Özündən razı:

– Bu belə! Bəs eləsə, mən maşını nə ilə alım, ay oğul? Beş hazır yeyənim var, səni çıxıram. Bunlarla heç velosiped də almaq olmaz, – deyə təsbehi mizin üstünə atdı.

Mən əlimi uzadıb götürdüm:

– Dədə, təsbehi olar? – Soruşdum.

Dədəm tərs-tərs mənə baxdı, amma dinmədi. O, təsbehini heç kimə vermirdi. Mən özümü o yerə qoymayıb, bir dən saldım:

– Ay dədə, deyək mən heç, – dedim. – Sən ki adlı-sanlı maşinistsən. Elədirmi? Elədir. Ayda üç yüz, dörd yüz qazanırsanmı? Qazanırsan. Allahın bir maşını nədir, axı, ala bilmirsən? Qonşunu götür... Elə Kəblağanı deyək. Dükandardır, yetmiş-həştad manata satıcı işləyir. Maşınları qoşa-qoşa! Bu biri... Cəfər kişi zavodda qarovulçudur, bir təzə "Qaz-24"-ü var. Bu ikisi. Zərgər Ağanı day demirəm. Alt-üst tikdirdiyi evini satsa, on dənə "Qaz-24" alar. Daha qapısındakı bir cüt maşını demirəm... Bu üçü…

Mən dedikcə təsbehin dənələri bir-bir düşür, şaqqıldayırdı. Yarıya çatmışdım ki, dədəm dartıb təsbehi əlimdən aldı. Ayağa qalxdı, acıqlandı mənə:

– Sənə min kərə demişəm ki, təsbehə əl vurma! – dedi və o biri otağa keçdi.

Mən rahat nəfəs aldım! Amma bilmədim dədəmi hirsləndirən nə oldu, təsbehi icazəsiz əlimə götürməyim, ya təsbehdə saldığım hesab?!

## MƏŞQ

Gülmirzənin gözünə səhərə qədər yuxu getmədi. Çevrikməkdən yatağı zorxana döşəyi kimi əzik-əzik olmuşdu. Atacağı addımı bir də götür-qoy edəndən sonra belə nəticəyə gəldi ki, bunsuz onun işi düzələnə oxşamır. "Qərar qətidir, geriyə yol yoxdur! İrəli!" – deyə Gülmirzə qızdırmalı adamlar kimi yerindən qalxdı.

Saat yeddi idi. Tələsmək lazımdı. Künc-bucağı ələk-vələk edəndən sonra köhnə, yaxası qırışmış, ətəyi süzülmüş pencəyini, elə o kökdə olan şalvarını tapdı, geyindi. Bədənnuma güzgünün qabağına keçdi, əksini görəndə dünya gözünə qaraldı. Acizlikdən dodaqları əsdi: "Kül başına, Gülü! – Pıçıldadı. – Gör, nə günlərə qalmısan?! – Sonra özünə ürək-dirək verdi: – Başını dik tut, burnunu sallama. Eybi yoxdur... Bu gün də zaçotu verə bilməsək bizə yaşamaq haramdır! Adə, başına hava gəlir, deyəsən?! Qərar qətidir, püşk atılıb! İrəli!"

Gülmirzə titrək barmaqları ilə pencəyinin yaxasını, ətəyini dartışdırır, ürəyinə dolan şübhələrdən xilas olmaq üçün cəngavər romanlarından yadında qalan ayrı-ayrı ifadələri pıçıldayırdı. Paltosunu asılqandan aldı, geyinmək istəyirdi, anası Çimnaz xala içəri girdi:

– Gəl, çay-çörəyin hazırdır... – dedi və onun solğun üzünə diqqətlə baxdı. – Ay bala, imtahanlar yaxınlaşan kimi rəng-ruhun niyə bozarır?... Nolub?! Nöş qorxur-

san?! – Birdən arvadın gözü onun əyninə sataşdı. – Booy! A bala, Gülü, bu nə üst-başdır belə?

– Paltardı də! – Gülmirzə qondarma bir laqeydliklə dilləndi. – Onuncunu qurtaranda tikdirdiz mənə... Yadına gəlmirmi, ana, dədəmlə mübahisəniz də düşdü o vədə. Sən deyirdin qəhveyi parça yaxşıdır, dədəm dedi, yox, göy yaxşıdır... Axırda dədəm deyən oldu... Həmişə olduğu kimi...

Çimnaz xala irəli şığıdı, onu ikiəlli silkələndi:

– Nağıl danışma, əşi! – dedi. – Başımı qatma! Odey, təzə qəstumların orda qala-qala bunları niyə əyninə taxmısan?!

Gülmirzə əsəbiləşdi, birdən anasına bozardı:

– Burax yaxamı! – dedi və qapıya meylləndi. – Yolumdan eləyirsən məni, instituta gecikirəm...

– Səfehləmə görüm! – Çimnaz xala əl çəkmədi. – Bu nə deyir, əşi? Gecikir! Bir başa sal, ali məktəb tələbəsi də belə geyinərmi?! Vaxsey, biabır olduq! Yox! Təzələrini geyməsən səni qapıdan buraxdı yoxdur! – Oğlunun qarşısını kəsdi.

– Ana, sən Allahın, boşla yaxamı! – Gülmirzə lövbərlənmiş qayıq kimi atılıb-düşsə də, yerindən tərpənə bilmədi. Hirsindən az qaldı onu ağlamaq tutsun. – Axı, belə də zulum olar mənə edirlər?!

Çimnaz xalanın ürəyi yumşaldı. Cəld oğlunun başını sinəsinə sıxdı:

– Ağrın mənə gəlsin, Gülü, belə danışma! Hər nə deyirəm xeyrinə demirəmmi?! Qurban olum, şəhərə çıxır-

san, adam arasında olacaqsan, dost-düşmən var, niyə bizi xəcil edirsən?! Nə olsun atan şoferdir? O da beş kişinin biri deyilmi?! – Çimnaz xala qılıqla Gülmirzəni yola gətirmək istəyirdi. – Dilə tutaram atanı, neynək, o cinsdir-nədir, ondan da alarsan. Daha bizdən niyə inciyirsən?!

Gülmirzə qalınlaşmaqda olan sarı bığlarını sığalladı, valideyn əliaçıqlığından ürəyi toxdasa da, üzü gülmədi. Birdən yadına nə düşdüsə, şabalıd kimi partladı:

– Bütün günahlar sizdədi!... Sizdədi! – Qışqırdı.

– Nə?! – Çimnaz xala diksindi, əsə-əsə pıçıldadı. – Bu uşağın başına, deyəsən, hava gəlir!

– Sizə dedim, axı, oxumaq istəmirəm, qulaq asmadız, zorla dürtdünüz məni institutа... Elə deyirdin dayın da ordadır, kömək edər... Alim adamdır, bir aləm hörməti var... Bəs, hanı! Daha bu üç ildə oxumaqdan gözlərimin qarası getdi. Haçan kömək edəcək?

Çimnaz haqq sözə dinə bilmədi. "Düz deyir də! Belə də qardaş olar?! – deyindi. – Deyir, mən bir də Gülmirzəyə görə xahişə getməyəcəm... Nə var, nə var, uşağın atasından inciyib. Gözümün ağı-qarası bircə oğlum var, ona da kömək etməyəsən?! Axxx! Bivec qardaş! Elə atadan belə oğul? Neynək...!" Qolları boşalsa da, qapıdan çəkilmədi. Gülmirzə isə ürəyində düyün salmış acığını tökəndən sonra sakitləşdi, keçib divanda oturdu.

– Daha əl çəkmirsən də, – dedi. – Ana, sən istəyirsən mən təzə kostyumlarımı toz-torpağa batırım?!

– Yooox! – Çimnaz xala sualın belə qoyuluşundan çaşdı. – Yenə qarğa dili danışırsan ha!

– Lap yaxşı! – Gülmirzə anasının axırıncı sözlərinin başına ip salmadı, davam etdi. – Heç mən də istəmirəm! Kişi bir ətək pul verib tikdirib. – Birdən yüngül bir istehza ilə enli çənəsini dikəltdi. – Bəlkə könlündən keçir mən kursda qalım, hə?!

– Yox! Bala, ürəyimi üzmə! – Çimnaz xalanın dodaqları təpidi. – Necə dilin gəlir?!

– Lap yaxşı, heç mən da istəmirəm! Atam əməlli-başlı maya qoyub, batırmaq yaxşı deyil! – Gülmirzənin dişləri ağardı. – Əşi qəribə adamdılar ha! Camaatın oğlanları imtahanda "tanışsız" dil tərpətmirlər! Mən yazıq bu üç ildə ilan kimi qabıq qoymuşam, yenə də narazıdırlar... Ana, indi lazımdı ki, bu köhnə-külənі geymişəm də. Hər şeyi demək olmur axı.

– Gülü, eşit məni, – Çimnaz xala yavaş-yavaş təbdən çıxırdı. – Bu oyunun səbəbini deməsən səni qapıdan buraxdı yoxdur! İndi kefivə bax!

– Daha əl çəkmirsən də! – Gülmirzə utana-utana qulağının ardını qaşıdı. – Ana, bir əzazil müəlliməmiz var, bizə qan uddurur. Əvvəllər xətrimi çox istəyirdi, keçən ay deyirlər, dayımla arası dəydiyindən məndən də zəhləsi gedir. Tərs kimi bir yol dərsindən da qaçmışam. Tək məni yox, məndən savayı da beş nəfər vardı. İndi düşüb üstümə ki, onları da yoldan sən çıxarmışam... And-aman edirəm ki, işim vardı, inanmır. Elə deyir, qırxdır,

biri əskik! Neçə gündür avara edib bizi. Zaçot vermir... Axırıncı gündür, dekabrın otuz biridir... Qiymət verməsə, batdıq, qalırıq kursda.

Çimnaz xalanın matı-qutu qurudu.

– Can bala! – Arvad odsuz-ocaqsız tüstüləndi. – Bəyəm o canıyanmışın dərsini bilmirsən?!

Gülmirzə əlini yellətdi:

– Əh, danışdın də! Onun mühazirələrini əzbərdən bilirəm, xeyri nədir?! Hər dəfə çıxıram danışıram, danışıram, o da qulaq asır, başını tərpədir, axırda qayıdır ki, bilmirsən! Deyirəm: "Səmayə xanım, vallah, bilirəm!" Deyir: "Ola bilməz. O dərsdən qaçdığın gün keçdiyim mövzunu bilmirsən!" Başlayıram danışmağa, sözümü kəsir: "Özünə zəhmət vermə, Əkbər müəllimin bacısı oğlu! Bilmirsən! Mənim də adətim belədir, fənni tam bilməyənə qiymət yazdı yoxdur. Gedin, gələn il, inşallah, bu mövzunu bir də təkrar edərik, bəlkə onda ağlınız başınıza gəldi!" Beşimiz də qalmışıq sapdan asılı... Ana, yaman arvaddır, dediyini eləməsə, əl çəkməyəcək...

Çimnaz xalanın qıçları daha yer tutmadı, keçib oğlunun yanında oturdu, dizini şappıldatdı:

– Bəs, indi neynəyək?! Bəlkə gedib dayına deyəsən?! – Gülmirzənin hirsləndiyini görüb sözü çevirdi. – Nə hərcayı arvaddır müəllimən! Köhnə paltarları geymisən ki, ürəyi rəhmə gəlsin?!

Gülmirzə pıqqıldadı:

– Səmayə xanımın heç özünə rəhmi gəlib ki, bizə də rəhm eləyə?! Bu gün-sabah əlli yaşı olacaq, hələ də ərə

getməyib. Əşi, qorxma! – Birdən nə fikirləşdisə anasına ürək-dirək verdi. – Hünəri var bu gün də qiymət yazmasın, başına gör, nə oyun açacağam!

– Sən allah, bizi xataya salma! – Çimnaz xala narahat oldu. – Yaşlı arvaddır, yazıqdır, ürəyi xarab olar, səni işə salar...

– Sən bilmirsən, ana, uşaqlarla dilbir olmuşuq. Lövhə qabağına birinci mən çıxacağam, elə ki, qiymət verməmədi, gərək dərhal ürəyim getsin, tappıltı ilə yıxılam yerə... Başlayam çabalamağa...

– Ay aman! Doğrudan ürəyin gedəcək?!

– Ana, yalandan ey, yalandan... Sən narahat olma, ürəyim qənbər kimidir...

– Hə?!

– Əlbəttə! Elə ki, yıxıldım yerə tappıltı ilə...

– Can bala! Əziləcəksən axı!

– Heç bir şey olmaz, ana, yavaş-yavaş yıxılacağam..., dünən axşam bir saat məşq eləmişəm... – Gülmirzə onu xatircəm etdi.

– Sonra, sonra?! Bəs?

– Hə... Elə ki, başladım çabalamağa yoldaşlarımın bir parası qaçacaq üstümə, bir parası qaçacaq həkim dalınca, biri də dəhlizə çıxıb mərtəbəyə hay salacaq, bəs, Səmayə müəllimənin qrupunda tələbələrin ürəyi gedib... Səmayə xanım da qorxacaq, qiymət yazacaq... Mənə qiymət versə, bil ki, bütün uşaqlara qiymət yazacaq...

– Birdən verməsə?!

– Verəcək, ana, verəcək! – Gülmirzə inamla dilləndi. – Deyirlər, üç il qabaq bir oğlan da ondan bu yolla qiymət alıb. Ürəyi gedəni görən kimi, deyirlər, Səmayə xanımın da az qala ürəyi gedibmiş...

– Birdən olmadı elə?... – Ana bir də şübhəsini bildirdi.

Gülmirzəni fikir götürdü, yerindən qalxdı, otağı narahat halda dolandı, qapıya getdi. Geri çevrilmədən pıçıldadı:

– Onda..., onda, heç olmasa, təzə paltarım toza bulanmaz... Bu da qənimətdir...

Oğlu gedəndən sonra Çimnaz xala dərin xəyala daldı. Birdən dik atıldı yerindən. Ürəyində fikirləşdi: "Uşaq yalandan yıxılanda əzilməsə yaxşıdır... Çox da deyir məşq eləmişəm..."

Amma daha gec idi...

## BORC

Gün uzunu göydən od ələyən payız günəşinin batmasına bir az qalmış kənd çayxanasının qabağına yığılan camaat şirin söhbət edirdi. Birdən hamının nəzəri onların dayandığı bazar meydanına tərəf uzanan yola tuşlandı. Yekəpər bir adam sısqa bir kişini qoltuqlayıb gətirirdi. Sürüyən kişi dərzi Qulamhüseyn idi. Onun yekə qarnı, iri dana gözləri, lopa bığı, iki gündən bir taraşlanan qırmızı sifəti vardı. Yeddi pud ağırlığı olan

Qulamhüseynin əmək aləti iynə olduğundan iş başında onu görmək kimə qismət olmuşdusa, gülməyini güclə gizlətmişdi. O, hərbə-zorbalı bir cayıldı. Yaxşı da dərzi idi. Təzəbəy kostyumunu işdir, axşam sifariş etsəydi, səhər hazır apardı. Qulamhüseyn sözübütöv kişi idi...

Dərzinin qoltuqlayıb sürüdüyü çəkməçi Ələddinin qarnı yapışmışdı belinə, ikilik taxtadan seçilmirdi. Arıq çiyinləri nimdaş çəkmə-çust üstündə əyilməkdən qalxmışdı qulaqlarına tərəf. Onun rəngdən, yağdan qaralmış əl-üzünü təmizləməyə Kür çayı da suyu çətin çatdıraydı. Həftədə bir dəfə yollandığı kənd hamamında kisəçi Süleyman kişi onun üstündə çox tər töksə də, dərisinə illərdən bəri hopmuş, məsamələrini qaraltmış çirk-pası sürtüb çıxara bilmirdi. Ələddinin ağaran dişləri gəlib-gedən müştərilərindən tutmuş, qonum-qonşuya qədər hamının canını boğazına yığırdı.

Hər ikisi kənddə məşhurdu. Çayxanaya yığılanların da marağına səbəb bu idi.

Həmin dərzi Qulamhüseyn dişlərini bir-birinə sıxıb fısıldayır, dinmədən elə həmin Ələddini, dil boğaza qoymadan danışan, loğazlanan kişini sürüyürdü. Çayxanaya çatmağa bir yüz-yüz əlli addım qalmışdı ki, Ələddin bütün gücünü toplayıb ayağını yerə dirədi, dayandı, başladı yalvarmağa:

– Qədeş, sənə sözüm var, – dedi. – Sən Allah, dayan!

Qulamhüseyn dayandı və mızıldadı:

– Hə?!

Ələddin nəfəsini dərdi:

– Adə, heç insafın yoxdur?! – dedi. – Məni çəkməxanadan bura qədər sürümüsən, bir səbəbini de də!

– Orda deyərəm! Camaatın yanında... Düş qabağıma! – Qulamhüseyn ona baxmadan cavab verdi.

– Sən allah, burda de! Ya burax gedim işimin-gücümün dalınca... Sən o bir olan oğlunun canı, qoy gedim, məni biabır eləmə...

– Oğlumun canına and vermə, qurumsaq, onu yeddi qızdan sonra Allah mənə verib... Düş qabağıma!

Qulamhüseyn bu sözləri deyəndən sonra daha Ələddinə qulaq asmadı, qolundan yapışıb dalınca çəkib apardı. Çayxanaya az qalmış çəkməçi birdən dartınıb onun əlindən qurtuldu, qaçıb aradan çıxmağa ümid etmədiyindən, yolun qırağındakı telefon dirəklərindən birinə sarmaşdı:

– Vallah, qədeş, öldürsən də daha getməyəcəm! – deyə çığırdı.

– Ay sən öləsən! – Qulamhüseyn dirəkdən qayım yapışmış “əsirinə” tərs-tərs baxdı. – Öz xoşunla getməsən, zorla apararam... Qorxma, heç nə eləmərəm, iki kəlmə sənə sözüm var...

– Adə, de də, nə sözün var, de də! – Ələddin çımxırdı.

– Gedək, orda deyəcəm.

– Getməyəcəm! Vallah, oğlanlarım bilsə qan salacaqlar... Burax yaxamı!

– İndi ki belə oldu?! – Qulamhüseyn qeyzləndi və bir nərə çəkdi, onun quru-qaxac bədənini pərçim olduğu dirəkdən ayırdı, ikiqat edib vurdu qoltuğuna, yol aldı çayxanaya. Çayxanadakılar bir-biri ilə mübahisə edir, gülüşür, söhbətləşirdilər.

Qulamhüseyn bu ara Ələddini çayxanaya yetirdi, buraxdı yerə, qapıdan içəri saldı.

– Ənvər əmi, bu stola bir kasa piti, göy-göyərti, bir dənə də araq qoy. – Qulamhüseyn özünü stula yıxdı:

– Baş üstə! – Çayçı Ənvərin əvvəl səsi, sonra özü göründü. – Bah! Kimi görürəm? Bu gününü görməyəydim, a kişi! Hə, elə bilirdin hamı Ənvərdi?!

Ənvərin çayxanasının elə adı çayxana idi, əslində restoran kimi bir yerdi. Yeməyə-içməyə nə desəydin burda tapardın. Əlaltıları göz açıb-yumunca sifarişi yerinə yetirdilər. Qulamhüseyn çəkməçini çiynindən basıb oturtdu.

– Ye! – Əmr etdi.

Ələddin ətrafa baxdı, duruxdu. Gülüşmə çayxananı başına aldı. Hamıya lağ edən bir adamın bu halı yığılanların kefini yaman açmışdı.

– Yemirəm...

– Yeyəcəksən! – Qulamhüseyn ona gözünü ağartdı.

– Gücnəndir?! – Ələddin inad etdi. – Sözünü de, çıxıb gedim.

– Sözüm bundan sonra olacaq... Qorxma, deyəcəyəm. Başla!

Ələddin çar-naçar pitini çəkdi qabağına, bir az çörək doğrayıb qaşıqladı. Qulamhüseyn arağı açdı, stəkana süzdü, ona tərəf sürüşdürərək:

– İç! – dedi.

Ələddin daha naz eləmədən taraş stəkandakı mayeni boğaz yoluna boşaltdı. Bir daha dərzinin təklifini gözləmədən yeməyə döşəndi. Çayxanadakılar dövrələmə durub, baxır, söz atırdılar:

– Zalım oğlu arağı su kimi içir...

– Elə bil dədəsi pinəçi Alı da ömrü boyu "vurub"...

– Əşi, bu qonaqlığın bir səbəbi varmı?!

Ələddin pitinin axırıncı tikəsini ağzına aparmışdı ki, Qulamhüseyn onun qolundan yapışdı:

– Camaat, bu kişini də hamı tanıyır, məni də! Bu adam borcumu qaytarmayıb. İndiyə qədər iki oğlunun toyuna getmişəm, bir tikə çörək, yüz-yüz əlli qram araq içmişəm, pulumu atmışam... Osa mənim gözümün ağı-qarası bir oğlumun sünnət toyuna gəlməyib... Borcunu verməyib... – Sonra Ələddinə çevrildi. – Tez ol, iyirmi manatımı çıxar ver..., yoxsa gözünü oyaram...

Dərzinin gözləri irilənmişdi, bəbəklərindən kasa keçərdi. Üzü kərpic kimi qızarmışdı... İynədən deşik-deşik barmaqlarını başını aşağı salmış Ələddinin burnu önündə yellədirdi. Elə bircə söz deyirdi: "Mən borcumu səndən almamış buraxmayacağam!"

## TƏCRÜBƏ

Şəmşiyev milis məktəbinin müdavimi Sarıyevi səhərdən yanına salıb gəzdirir, illərlə topladığı təcrübəsini onunla yarı bölürdü. Bir-iki ilə təqaüdə çıxacaqdı, bildiklərini Sarıyevə ürəkdən öyrədirdi:

– Qaqaş, milis işçisi öz sahəsini əla bilməli və gözüyumulu gəzməlidir. Hər xırda-xuruşa əl aparmamalıdır. Ucdantutma hamını qılınclasan, qılınc tez kəsərdən düşəcək. Gərək seçəsən ki, hansı hadisə dövlətə zərər verir. Bax, onda gözünü açmalısan, açan kimi də elə çapmalısan ki, o yerdə ot da bitməsin...

Onların sahəsi geniş idi. Bura beş dəmiryol dayanacağı, iki böyük stansiya daxildi. Məntəqədən dörd dayanacaq aralı stansiyada qatara minəndə axşam saat altı idi. Şəmşiyev Sarıyevə dedi:

– Qaqaş, qanunu hərə bir cür pozur... Bundan qabaqkı dayanacaq hansıdı?! Düzdür, "Fabrik" dayanacağıdır... Deməli, diqqətli olmaq lazımdır...

Starşina Şəmşiyev vaqona girdi. Kursant Sarıyev çəkdiyi siqareti söndürdü, şinelini axırıncı düyməsinə qədər düymələdi, papağını gözünün üstünə endirdi, düşdü onun dalınca. Bu gün neçənci dəfə idi ki, yenə də mat qalırdı. Şəmşiyevin az qala tavana dəyən boyunu, ciddi sifətini görən tumçırtlayanlar, siqaretçəkənlər, əprimiş kartlarla hay-küylə kart oynayanlar özlərini elə yığışdırırdılar ki, onlara baxanda adamın gülməyi gələrdi. Ət-

rafa sakitlik çökdü, qatarın taqqıltısından başqa bir səs eşidilmirdi. Şəmşiyev isə dediyi kimi "gözünü yumub" addımlayırdı.

Üçüncü vaqondan çıxanda Sarıyev həyəcanla dilləndi:

– Yoldaş starşina, burada bir qarabığ oğlan o sarısaç qıza sataşır. Qulağımla eşitdim ki, qız ona acıqlanır, deyir, əl çək məndən!

Şəmşiyev başını çevirmədən:

– Gördüm! – dedi. – Təklifin nədir?!

– Necə yəni?! Çağırıb oğlana bir təhər çəkmək lazımdır. Qız, deyəsən, turistdir, gəlməyə oxşayır...

– Nəyə əsasən oğlana təhər çəkəcəksən?! – Şəmşiyev təəccüblə ona baxdı.

– Daha nə əsas?! Gözüm görmürmü?! – Sarıyev starşinanın laqeydliyindən rəncidə oldu...

Şəmşiyev şüşəli qapıdan vaqona xeyli baxdı, kursanta tərəf çevrildi:

– Hirslənmə! Havayı işdir... – dedi.

– Niyə?!

– Birincisi, sən demişkən, qız gəlməyə oxşayır. Bakıya niyə gəlirlər?! Dincəlməyə! Qız üçün də oğlansız dincəlməyin nə ləzzəti. İkincisi, oğlanın söz atması onun könlündəndir... Başqa cür olsaydı, bizi köməyə çağırardı... Bir də ki, bu yoldur, uşaq bağçası deyil. Ay səni, Sarıyev! Bayaqları dedim axı, gözünü yum, yeri, açdın gərək çapasan!

Sarıyevin şümal üzü allandı, utandığından başını aşağı saldı. Qonşu vaqona adlayan Şəmşiyevin dalınca tələsdi. "Əlillər və uşaqlar üçün" yazılı skamyanın böyründə küncə çəkili, rəndəli, altı dənə qalın taxta söykədilmişdi. Şəmşiyevin yarıyumulu gözləri bir balaca aralandı, həmişə aralı qalın dodaqları kip sıxıldı. Bundan sallaq buxağı bir az da sallandı. Taxtanın sahibi şirin mürgü döyürdü. Qapının səsinə dikəldi, Şəmşiyevin şalban boyunu qarşısında gördükdə yuxusu tamam qaçdı. Qondarma bir şənliklə:

– Ay səni xoş gördük, nəçərnik? – dedi. – Nə var, nə yox?

Şəmşiyev buz soyuqluğu ilə onun sözünü kəsdi:

– Taxtalar sənindirsə, hardandır elə?

– Əşi, fabrikdən olmayıb daha hardan olacaq! – Taxta sahibi tüklü üzünü övkələdi. – Çoxdandır səni gəzirəm ki, bir ürəyimi boşaldım...

Şəmşiyev ona ürəyini boşaltmağa macal vermədi:

– Deməli, fabrikdəndir?! – Nərildədi və qıraqda dayanmış kursanta döndü. – Sarıyev, çıxart dəftər-qələmini, aktlaşdıracağıq...

Bayaqdan gülümsəyən kişinin ağzı getdi qulağının dibinə. Nitqi kəsildi. Dili söz tutmadı, kəkələdi:

– Şəmşiyev, bunlar... bunlar tullantıdır, axı! Yandırırdılar, fabrikin həyətindəki zibillikdən götürmüşəm... Vallah!

– Ay inandım ha! Sarıyev, yaz, buna qulaq asma, dildən pərgardır...

Taxta sahibi əlini boğazına apardı:

– Mən ölüm, məni qapılara salma! Bir işdir olub! Evdə qapı-pəncərələrimiz çürüyüb, düzəltmək istəyirdim. Onu da mənə haram eləmə də! Hökumət nə itirir, axı?!

– Kimi xam sayırsan, usta Qara?! – Şəmşiyev istehza ilə güldü. – Hər gün, çox yox, bircə taxta aparsan, bu, ayda neçə edir?! Otuz taxta. Hə, necə hesabdır?! Adını bilirik, familini de! Demirsən?! Neynək məntəqəyə gedərik, orda deyərsən! Orda dedirdən maşınımız var... Sarıyev, hal şahidləri çağır, iki nəfər olsa bəsdir...

Kursant vaqonun ortasına yeridi. İçəridə olanlar arabir söz atsalar da, yaxına gələn yoxdu. Taxta sahibi aranı xəlvət görüb dilləndi:

– Əşi, başa düşürəm də! Demə ki, qanmır. Sifarişinə hələ də əl yetirə bilməmişəm... Bir az səbr elə, vallah, düzələr...

Şəmşiyev onunla yanaşı oturdu, əlini usta Qaranın çiyninə qoydu, sıxdı:

– Altı aydır məni süründürürsən, ay zalım! Evi üç il idi gözləyirdim, axır aldım... Bir qapı nədir, axı, onu bu gün-sabaha salmısan! Yox, usta Qara, səninlə qurtardıq... İncimə, sənə dolaşacağam! Zirzəmidəki emalatxananı da üzə çıxaracağam...

Usta Qara qızarıb başını aşağı saldı.

– Əşi, mən boyda kişi indiyə qədər sənə dəymirəm, deyirəm, insan adamdır... Amma görürəm, yox! Verə-

cəyəm səni kapitanın əlinə. Görərsən, analar necə oğullar doğub! Hamı mənim kimi ürəyiyumşaq deyil, usta Qara!

– Başına dönüm, Şəmşiyev, gəl, qapını sabah apar, amma məni kapitanın cənginə vermə! – Usta Qara əlini boğazına çəkdi.

Starşinanın bığının altında dodağı qaçdı:

– Hə, belə qorxarsan ha! Necəsən deyim istəmirəm, qoyum səni yana-yana!... Yaxşı, yaxşı, ürək-göbəyin düşməsin! Zarafat edirəm... De, görüm neçə verəcəyəm?!

– Heç nə! – Usta Qara bunu ürəkdən dedi. – Hesabdan mənim də bir az başım çıxır!

– Bax, bu oldu kişi söhbəti, – dedi. – Amma bizim kapitandan yaman qorxdun ha! Yaxşı oğlandır mənim rəisim, elə adı çıxıb...

– Elə hamınız yaxşı oğlanlarsınız! – Usta Qara lağ elədi. – Bir az o yan-bu yan edən kimi salırsınız qanuna! Səni belə görəndə ondan qorxaram da!

– Elə niyə?! – Şəmşiyev gülümsədi.

– Sən hələ starşinasan, arzun bir qapıdır, o səndən rütbədə-vəzifədə beş-altı dəfə böyükdür... Bir qapının maliyyəti nədir?! Heç nə! Kapitanın arzusu isə sənin arzundan beş dəfə qiymətli olmalıdır... İndi bir qapı ilə haqq-hesabı çürütdüm, onun üçünsə gərək stenkə-mebel düzəldəydim ki, canımı qurtaraydım əlindən...

– Ha-ha-ha! – Şəmşiyev uğundu. – Yox, pis deyilsən, usta, gəlirini-çıxarını bilirsən...

Qatar dayandı, usta Qara taxtaları qoltuğuna vurdu, sağollaşdı. Sarıyev iki nəfərlə yaxınlaşanda qatar yerindən tərpəndi.

– Daha lazım olmadı, şahidləri burax getsin, Sarıyev! – Şəmşiyev gözünü döyə-döyə qalmış kursanta izah elədi. – Yazığım gəldi... buraxdım...

Kursant Şəmşiyevin yenidən yumulmuş gözlərinə baxdı, heyfsiləndi:

– Lap nahaq! – dedi. – Gərək aparaydıq...

Şəmşiyev yumulu gözləri ilə şahidliyə çağırılmışları müşayiət etdi, kədərlə dilləndi:

– Sarıyev, hayıf sənə çəkdiyim zəhmətə! – dedi.

– Elə niyə?! – Kursant pərt halda soruşdu.

– Səhərdən sənə bir kitablıq söz demişəm, biri də yadında qalmayıb. Axı, demişəm sənə, nə qədər mümkündür, gözlərini yum! Gözünü açdın, gərək çapasan! Usta Qara çapılmalı adamdırmı?! Yox! Onun əllərinə əl vursaydın görərdin, qabar-qabardır... Eybi yoxdur, qaqaş, hələ cavansan, bir az keçər, təcrübən artar, sən də düzələcəksən... Bizim kapitan da bir zamanlar qırıb-çatmaq tərəfdarı idi... Yumşaldı, indi hamı başına and içir... Tərpənəkmi?!

Onlar qonşu vaqona adladılar... Sarıyevin təcrübəsi davam edirdi...

# MƏKTUB

“Əziz oğlum, biz sağ-salamat varıq, sənin də o qərib şəhərdə salamatlığını istəyirik. Anan səninçün yaman narahatdır, qorxur özünü soyuğa verəsən. Hələm-həlbət tapşırır ki, özünə baxasan, isti geyinəsən, küləkli gündə şəhərə çıxmayasan. Yatanda üstünü açmağın var deyənə, alt paltarını qalın elə. Bunlar ananın tapşırıqları idi. Bacıların da darıxıblar, yalvarırlar ki, tətildə səni görmək üçün onları yanına gətirim. Ya qismət, o vaxta qədər yaşayaq, baxarıq. Kənd elə köhnə kənddir. Qoyub getdiyin kimidir, nə artıb, nə azalıb. Briqadir Alxasın oğlu qırmızı “Jiquli”sində adam basıb, indi qəzəmətdədir. Atası başına-gözünə döyür ki, bu nə işdir mən elədim. Qırmızı “Jiquli”yə qara bağlayıb, həyətin bir küncünə atıb. İndi keçək öz işlərimizə.

Oğul, gedib-gələndən bir xəbər eşitmişəm, eşitcəyin ciyərim od tutub yanır, ürəyim pörşələnir. Hayıf ki, başım əlimdə deyil, yoxsa yolumu salardım o yanlardan, sənin aşının suyunu qatardım ağız-burnunun qanına! Çox da sənin iyirmi yaşın var, bığ buraxmısan, başına şlyapa qoyub boynuva qalistok bağlayırsan. Elə bilirsən əlim sənə yetəndə bütün bunlar mənim qabağımı saxlayacaq? Ay saxladı ha! Onda məni pis tanıyırsan. Qurumsaq nəvəsi, mənə, doğma atana xəbər eləməmiş o nə qələtdir qarışdırmısan? Mən səni silistçi məktəbinə

yola salmışam, səninsə sorağın artistlikdən gəlir. Bu iki ildə demək, bizi aldadırsan? Daha sənə sözüm yoxdur! Ədə, qiryətsiz oğlu, səni yola salanda demədim ki, get oxu, gəl mənə arxa ol, beş kişi bizə "xox" gələndə, biz də birinə "xox" deyək.

Gözünə su ver, sənin bəyənmədiyin, uşaqlıqda lağ elədiyin kisəçi oğlu gəlib bazarda məni tutub, itin sözünü deyib. Nə var, nə var, bizim məhəllənin "uçaskovu"sudur. Abrımı it əskisinə büküb başıma çırpıb. Gör, mənə nə deyir: "Vətəndaş Miri! Sənin həyətin ovuc boydadır, on addım eni, iyirmi addım uzunudur. Orda hansı üsulla kartof yetişdirirsən ki, hər il bazara on ton kartof çıxarırsan. Bəlkə bu sirri bizə də deyəsən? Nə olar ki! Qonşuyuq, həmkəndliyik, yaxşılığın itməz. Sən Allahın, gizlətmə. Təcrübənizi yayarıq, gələcəkdə də çalışarıq ki, bazarınız daha da rəvac tapsın!"

Başımı, bu çallaşmış başımı aşağı salıb bu düdəmənin sözünə qulaq asıram. Durub belə nacinsə neynəyəsən, axı? Ancaq bircə əlacı var, oğlum, bircə. Əngini əzəsən! Ancaq olmaz. Belə bir iş görsəm, ömrüm boyu yığdığımı versəm canımı qurtara bilmərəm, ipli-mıxlı gedərəm. Nə olsun ki, kisəçi oğludur, vücudu beş qəpiyə dəyməz, kişi vəzifə başındadır.

Qərəz, oğlum, mənə yaman sataşırlar. Yoldan ötənin lağlağısına dözməyə məcburam. Neçə vaxtdır get-gəldəyəm. Gah ora, gah bura çağırırlar. Kartofun kilosu-

nun manata gedən vaxtıdır, bazarda mallarım qalıb başlı-başına. İşimdən-gücümdən məni ayırıb gündə silistə çağırırlar. Soruşurlar: "Kimdən almısan?" Deyirəm, öz həyətimdəndir, bu da kağızı. "Bəs, baha niyə satırsan?" Deyirəm ki, nəçənnik, yüz zəhmətlə becərmişəm, qan-tər tökmüşəm bunun üstündə, bazara çıxartmışam. Müştəri istəyir alsın, istəmir, getsin alsın ucuz satandan. Kim onu məcbur edir, axı?

Başlayırlar məni dolamağa: "Ovuc boyda həyətində bu qədər kartofu yan-yana düzsən yerləşər, ya yerləşməz? Yerləşərsə neçə lay üst-üstə?" – soruşana hirslə baxdımsa da, hətərən sualın pətərən cavabını vermədim, qorxuram ki, silistçi məni anlamasın. Gülürəm. O da gülür.

Amma, oğlum, dinmə. Məndə mənəm ha! Xırda-xırda boyunlarına qoyuram ki, həyətimizdə on ton kartof becərmək olar. Axtarsan, deyirəm, hələ bir az da artıq əkmək olar. Kisəçi oğlu yavaş-yavaş yola gəlir. Elə olar da! Kisəçi dədəsi ona xəzinə qoymayıb ki! Kişi maşın almalıdır, ev tikməlidir...

Canına sağlıq, yaxamı qurtarıram, amma talanmışam. Oğlum, düz bir illik qazancımı badi-fənaya verdim. Manat-manat yığdığım birkərəmlik getdi.

İndi, ay oğul, at ərtesliyin daşını, bəsdi mütrüf kimi atılıb-düşdüyün, onun-bunun yalan-palanını təkrar etdiyin. Kimə lazımdır sənin nağılların, yalançı göz yaş-

ların, yalançı andların. Gir silistçi məktəbinə, vallah, oxuyub qurtarandan sonra tavanının dirəyi də qızıldan olacaq. Gəlib üstümdə göz olarsan. Özgələrindən demirəm, bunun qorxusu var, sənin kimi sütül uşağı hər düdəmə ilişdirə bilər, elə bir məndən alsan bəsindi. Mən də bilirəm ki, əməyim zay olmur. İnan, oğlum, elə verdiklərimi üst-üstə yığsam, yeddi arxa-dönəninə bəs edər. Sözümə əməl eləməsən, hər ay sənə göndərdiyim yüz manatı halal etmərəm...”

*Atan Miri*

## QARAQABAQ XALAM

Buruqdan təpəsi üstə yıxılandan sonra bir müddət xəstəxanaya düşdüm. Daha məndən işləyən çıxmazdı. Təqaüd alırdım. Şəhərin qırağındakı birmərtəbəli evin üç otağında ailəmlə yaşayırdım. Kiçik həyətyanı sahəm vardı. Bala-bala burda qurdalanır, fikrimi dağıdırdım. Göy-göyərti əkirdim. Daha uşaqların anası bir dəstə keşniş üçün bazara qaçmırdı. Həkimlər bərk-bərk tapmışdılar ki, nə badə ürəyini qısasan, axırın pis olar. Süddən-qatıqdan da özünə korluq vermə, ən yaxşı dərman yeməkdir.

Ailənin ağırlığı düşmüşdü arvadımın üstünə. Hər əzaba qatlaşırdı, bircə dəfə də onu şikayətlənən gör-

mürdüm. Haçan yatıb-durduğundan xəbər tutmurdum. Həkimdən ağartının xəstəyə xeyrini eşidən kimi süfrədə süd-qatığı əskik eləmirdi. Üç uşaq qalmışdı bir yana, mən bir yana. Bu arıq, çəlimsiz insanda bir belə dözüm hardandı, başım çıxmırdı. Bir stəkan süd, bir bərni qatıq üçün ora-bura getmək onu əldən salırdı. Xədicə xalam dadımıza çatdı...

Başıma gələnləri eşidən kimi rayondan özünü yetirdi. Bir-iki gün qaldı bizdə, ürək-dirək verdi, geri qayıtdı. Üç aydan sonra yetirhayetirdə olan bir düyəni qapımızda maşından düşürtdü. Dedi: "Sənə bağışlayıram, bacıoğlu. Kalxozun "Mərcan" adında ursiyyət inəyinin balasıdır. Keçənlərdə əkiz doğmuşdu. Balasının biri zəifdi, lap ölən yeri idi. Götürüb saxladım, bəslədim, gördüm dirçəldi. Kalxoz sədri ilə danışdım, aldım. Sənə ağartı vacibdir, yerin də var, saxla, dolanacaq elə... İndi olacağa çar yoxdur, şükür ki, sağ-salamatsan..."

Bir-iki aya düyəmiz doğdu. Süd-qatıqdan indi boluq. Az vaxtda balalarım da, elə özüm də rəngə-rufa gəlmişik. Nə qədər yesək-içsək də süd artıq qalır. Qonşular elə bil haya bənddilər, xəbər eliyən kimi tökülüşdülər. İndi südün artığını litri əlli qəpikdən satıram. Hamı da razıdır, çünki bazarda bir az bahadır, keyfiyyəti də aşağıdır. Müştərilərim o qədər artıb ki, çox vaxt süd üstündə dava düşür. Qonşularımın dili ağzına sığmır, hamı tərifləyir: "Süd deyil ey, – deyirlər. – Çim yağdır". Qalmaqaldan

yaxa qurtarmaq üçün indi bir gün əvvəldən sifarişləri qəbul edirəm. Əməlli-başlı hesab-kitab açmışam...

Rayondan xəbər gəldi ki, Xədicə xalam oğluna toy edəcək. Yığışdım, böyük oğlumu da yanıma salıb iki gün qabaqdan getdim kəndə. İyirmi ildi ki, çıxmışdım rayondan. Bir kimsənəm yoxdu. Onuncunu qurtarandan sonra Bakıya getdim, instituta girdim, qurtarandan sonra şəhərdə yer-yurd üçün əlləşdim, yaxşı işim-gücüm vardı, amma şeytan çaşdırdı məni, dırmaşdım vışkaya. "Axı, sən baş energetiksən, buruğun təpəsində nə işin vardı?!" – deyə öz-özümə sual edirəm, cavab tapa bilmirəm. Nə var, nə var, küləkdə çıxıb xətti düzəltmək istəməyən iki montyor məni öz qorxaqlıqları ilə hirsləndirmişdi.

Gəlməyimi eşidən qohum-əqrəba başıma yığışdı. Ata-anam öləndən sonra mənə pasibanlıq edən, oxudan Xədicə xalam boynuma sarıldı, gözləri yaşardı, məni də ağlamsındırdı. Bu iyirmi ildə məni arayıb-axtaran bircə o olmuşdu. Qalan qohumlarla çox soyuq görüşdüm. Xədicə xala anamın uzaq qohumlarındandır. Bir az qəribəliyi olsa da, xətrini çox istəyirəm. Öz övladı kimi məni böyütmüşdü.

İndi məclisdə qabaq-qənşər otursa da, dinib-danışmırdı, söhbətə qulaq asırdı. O, adlı-sanlı sağıcıdır. Az qala bütün rayon onu tanıyır. Məclis olmazdı ki, Xədicə xalamı başda oturtmasınlar. Arvad qaraqabaq, azdanı-

şan bir adamdı. Məşhurlaşandan sonra sözü kəlbətinlə də ondan çəkmək olmurdu. Ayaq qoyduğu məclislərdə zəhmi hamını basırdı. Elə əri də yanında çəkinə-çəkinə dil tərpədirdi.

Düyədən söz saldım, bəlkə xalamın qırışığı açıla:

– Sağ ol səni, ay xala! – dedim. – Yaxşı pay vermisən mənə! Sən olmasaydın görəsən mən neyləyərdim?!

– Qurtardıq bu söhbətləri! – Xalam acıqlandı. – Pay?! Nə pay?!

– Mərcan inək necədir, xala?! – Mən dərhal sözü çevirdim.

Xədicə xala başını endirdi, mızıldandı:

– İnəkdir də, başına dönüm, necə olasıdır?

– Südü necədir?! – Mənim xətrimə danışan xalamı bir az da söhbətə çəkmək istədim.

– Yaxşı da olur, pis də olur...

Kolxoz sədri narahat-narahat yerində qurcuxdu, öskürdü. Xədicə xala onunla gözləşdi, başını tərpətdi. Bundan bir şey kəsdirməsəm də bir məna vermədim.

– Dünən neçə vedrə süd verib?!

– Dörd vedrə, a bala. – Xalam qaşlarını çatdı. – Bütün bunlar nəyinə lazımdır, axı?!

– Yox, əşi?! – Heyrətləndim. – Ay xala, ola bilməz! Dörd?!

Sədr özünü itirmiş xalamın köməyinə gəldi:

– Sözündən belə çıxır bu boyda arvad yalan danışır?!

Ay-yay-yay! – Zarafata saldı. – Əşi, siz cavanlarda bir tikə hörmət-filan qalmayıb ha!

– Sədr qağa, niyə elə danışırsan?! – İncidim. – Kim deyir ki, xalam yalan danışır?! Bilmək istəyirəm də! Mənim də inəyim var, amma iki vedrədən artıq süd vermir, axı? Özü də "Mərcan" inəyin cinsindən ola-ola. – Birdən ağlıma nə gəldisə soruşdum. – Əşi, bəlkə sağın vaxtı oxuyursan, oxşayırsan ona görə?...

Xədicə xala gülümsədi:

– Hardan, ay rəhmətliyin oğlu! Heyvana qənsert verməyə vaxtım hanı?! – dedi. – Öhdəmdə iyirmi inək var...

Kənardan biri söz atdı:

– Bacıoğlu, sən xalanı birəlli tutma ey, böyük adamdır. Sorağı gah Bakıdan, gah da Moskvadan gəlir...

– Bilirəm, bilirəm. Xoş sorağını biz də alırıq. Amma... Amma. – Mən çətinliklə soruşdum. – Xala, istəsən hər inəkdən indi sağdığından da artıq süd sağa bilərsənmi?!

Məclisdə oturanları gülmək tutdu. Papağını dizinin üstünə qoymuş bir kişi uğuna-uğuna dilləndi:

– Qardaşoğlu lap əməlli-başlı şəhərli olub ha!

– Lap bizim o köhnə raykom kimi danışdı. – Başqa birisi dilləndi. – Beş il qabaq kolxoza gəldiyi yadınızdadır?! Hər yeri gəzdi, tövlələrə də baş çəkdi... Birdən qayıdıb məndən nə soruşsa yaxşıdır: "Bu öküzlərin hmmm... qarajı nə pis gündədir?!" – Soruşdu... ha-ha-ha! Tövlə yox, qaraj, vallah!

– Elə o deyildimi sağıcılardan soruşan ki, bu öküzləri neçə yol gündə sağırsınız?! – Sədr qəhqəhə çəkdi.

Məclis şirinləşdi, söhbət uzandı. Mən təslim olmadım:

– Axı, niyə kolxoz inəyi mənim inəyimdən çox süd versin?! Sədr qağa, sirr deyilsə əgər...

– Bala, hər şeyin başı zəhmətdədir. Heyvana gərək qulluq edəsən, yaxşı baxasan. Rahat, isti, işıqlı tövlələrimiz, qidalı yemimiz. İnəyin ağzı nədir istədiyimiz qədər süd verməsin, hə?!

– Bəlkə...

– Dayan, sözümü qurtarmamışam. – Sədr barmağını qaldırdı. – Ailədə neçə nəfərsiniz?

– Üç uşağım var...

– Allah saxlasın! Sağdığının üç-dörd litrini ailən içdi, ağartının qalanını neyləyirsən?!

– Qonşularım pulnan aparır... Heyvana çəkdiyim zəhmət hədər getmir...

– Araya ki, pul söhbəti düşdü, iş dəyişir! – Sədr güldü.

– Niyə elə deyirsiniz?! – Doğrudan da hirsləndim. – Dünyasında pulgir olmamışam, axı! Adam yanır, axı?! Bir cinsdən ola-ola, niyə kolxozun inəyi mənim şəxsi inəyimdən çox süd versin? Gözümün yağını ona yedirdirəm... O yandan lap elə düz deyirsən, bir vedrə süd az pul deyil. Vışkadan yerə gələndən sonra yapışmışam

yerə, təqaüdlə bu boyda ailəni saxlamaq asandır bəyəm! Arvadın alacağı nədir ki? Doxsan manat!

Söhbət uzandı. Ağsaqqallardan biri uzun bir əhvalat danışdı. Məclis qulaq kəsildi. Gecədən xeyli keçmiş camaat dağılışdı.

Xalam qonaq otağında yerimizi hazır edəndən sonra bizi eyvandan içəri çağırdı. Aranı xəlvət görüb soruşdum:

– Sən canın, o südün sirrini de də! O boyda inəyi vermisən...

– Əşi, sən lap türkəsayansan ha! – Xədicə xalanın gözləri qıyıldı. – Gərək elə dilimlə deyim?! O boyda şəhərdə su yoxdur?!

– Can xala, suyumuza nə gəlib?! Amma suyun südə nə dəxli var?!

Xədicə xala üstümə yeridi, qolumdan tutdu, silkələdi:

– Əşi, nə annamazsan?! – dedi. – Bir yerdə su var, biri iki etməyə nə var! Satmırsanmı?! Pul istəmirsənmi? Dediyim kimi elə... Bu da sirri. Yıxıl yat, daha gecdir!

Bunu deyib qapıya getdi. Mən daha ona baş qoşmadım. Əməlli-başlı incidim Xədicə xalamdan. Fikirləşdim ki, bu zalım qızı düzələnə heç oxşamır. Uşaqlıqda necə görmüşəm, elə də qalıb... Suyun südə nə dəxli var?! Elə sədr qağa yaxşı edir, qoymur özbaşına dil tərpətsin.

## SİBİRƏ EZAMİYYƏT

– Ay səni xoş gördük! – deyə tüklü papağını qulaqlarına kimi keçirən enlikürək, lopabığ kişi bütün küçəyə qışqırdı. Elə bil itkin düşmüş qardaşına rast gəlmişdi. Qarın üstündə oynaqlaşan və bu şaxtada nə axtardıqları məlum olmayan qara qarğalar lopabığın səsindən hürküşüb pırıltı ilə uçuşdular, yaxındakı küknar ağacına qondular. Ehtiyatla səs sahibinə baxdılar.

Bığsız, qarayanız, papağını təşəxxüslə təpəsinə dikəltmiş, yaxası açıq, paltosunun ətəkləri yellənən kişi elə həmin ağacın altında durmuşdu. O, bərk fikirli olduğundan diksindi. Həm də səsdən çox, qarğaların uçuşundan, qonduqları budaqlardan tökülüb boynuna dolan qardan. Bığsız üstünü çırpa-çırpa gözünü ətrafa dolandırdı. Nəzəri yanından ötən şubalı arvadın üzündə qaldı, dodaqlarına təbəssüm qondu, dalınca bir-iki qədəm atdı, amma özünü ona yetirməmiş lopabığı görüb dayandı:

– Adə, mən kimi görürəm! Sən hara, balam, Sibir hara? Qışın bu qiyamətində isti Bakıdan kim səni perikdirib?! – Çığırdı və lopabığ onun üstünə yeridi.

Görüşəndə sonra lopabığ soruşdu:

– Bakıdan çoxdan çıxmısan?

– Yox, adə, sırağagün...

– Nə əcəb səndən, ezamiyyətdəsən? O günləri and-aman edirdin, öldürsələr də daha getmərəm, deyirdin. Necə oldu, saqqızını oğurladılar?

– Daha demə, qədeş! Bu ezamiyyətlər lap məni dəng eləyib. Vallah, Sibir adını çəkən kimi dedim, getməyəcəyəm. Rəisimiz başladı dilə tutmağa ki, vacibdir, sənsiz bu işi heç kim yerinə qoya bilməz. Hirs vurdu təpəmə. Dedim, adə, ezamiyyətə getməkdən cibimdə siçanlar oynaşır, evdəkilərin üzünə baxa bilmirəm. İnanırsan, qədeş, anam daha mənə tərs-tərs baxır. Yəqin fikirləşir ki, bu tərəflərdə ilişikli yerim var. Yoxsa həftə səkkiz-mən doqquz ezamiyyət olar?

– Yaxşı, yaxşı, özünü təmizə çıxartma! – Lopabığ istehza elədi. – Tanıyırıq səni! Rəisindən danış...

– Hə, harda qaldım?! – Bığsız qulağının ardını qaşıdı. – Hə, qırğın-qiyamətdən sonra rəisimizlə razılığa gəldik. Sözümüz bu oldu ki, getməyinə gedirəm, amma ilin axırına kimi ezamiyyət məsələsində adım tutulmayacaq. Səndə nə var, nə yox? Haçan gəlmisən?

– Elə bu gün gəlib düşmüşəm...

– Hə? Lap yaxşı! Yoldaşlı ezamiyyətin qiyməti yoxdu. – Bığsız əllərini bir-birinə sürtdü. – Dükan-bazara da dəyərik.

Lopabığ həmyerlisinin şakərini bildiyindən yüngül bir istehza ilə:

– Nədir, sifarişin çoxdur?

– Sifariş deyəndə ki... – Bığsız dilini sürüdü. – Çaxçux üçün lazımdır. Ezamiyyət xərclərini birtəhər çıxarmalıyıq, ya yox?!

– Ürəyini sıxma! – Lopabığ xatircəm etdi. – Lələşin bu şəhərdə iki dəfə olub. Hər yeri tanıyıram.

– De, sən ol! – Bığsız heyrətləndi.

– Səni istəməyənlər ölsün! Amma əvvəl iş, sonra dükan-bazar, restoran, kef! Mənim qaydam belədir...

– Mən razı. – Bığsızın soyuqdan göyərmiş burnu işin avand gətirməsindən yavaş-yavaş qızarırdı. – Mən məktubla gəlmişəm. Şöbə üçün alacağım var. Amma kağızı, deyirlər, düz hazırlamamısınız...

– Hansına gəlmisən?! Bu arada, axı, zavod çoxdur...

– Bax, yolun o üzündəki zavoda gəlmişəm...

Lopabığ əlini qoltuğundakı meşin qovluğa vurdu:

– Məndəki kağızlar da o zavodadır... Qol çəkdirib geri qayıtmalıyam...

– Eyni zavoda gəlmişik?! – Bığsız təəccübləndi.

– Hə, belə çıxır da! Heç içəridə olmusan?! Mənim buraxılış vərəqəm nahardan sonra hazır olacaq...

– Mən iki dəfə olmuşam...

– Hə, havası necədir? – Lopabığ cavan həmkarına güldü. – Top kimi dığırlatmırlar ki, səni?

Bığsız keyimiş barmaqları ilə bir siqaret yandırdı, qoydu damağına:

– Canınçün, elə ki, başlayırlar, çıxıram aradan...

– Burda yaxşı oğlanlar çoxdur, tanış edərəm səni...

– Vallah, bunları elə pis öyrədiblər ki, içəri girən kimi soruşurlar: "Baku?" Başuvi tərpətməyini görürsən, dərhal deyirlər: "Çto, bez qranata priyexal?" Elə bil dədəmin Göyçayda nar bağı var!...

Lopabığ uğundu:

– Ha, ha, ha! İnsafsız, bir-iki kilo gətirəydin də! İş dalınca gəlməmisən?!

– Danışdın da! – Bığsız burnunu çəkdi. – Qışın bu vədəsi narın kilosu Bakıda beş manatdır...

– Bunlar heç, düzələn işlərdir... Dünən sənin rəisini yaman tərifləyirdilər... İclasda ey...

– Hazırlıq gedir... – Bığsız xəbərdarlıqla qaşlarını oynatdı. – Deyəsən, baş mühəndisin boşalmış kürsüsünə namizəddir...

– Yox, canım?... – Lopabığ fikrə getdi. – Amma pis oğlan deyil, layiqdir... Nəyi gözləyirsən, bəs, ay əfəl, aranı sazla da onunla.

– İşində ol, adə, kim atdır, biz ona nalıq! – Bığsız laqeyd dilləndi. – Fərq ondadır ki, mənim rəisimin bir az adamlığı var, sənin rəisin isə klassik kötükdür...

– Klassik kötük dedin, qoydun. – Lopabığ onu bu soyuqda ezamiyyətə göndərən rəisinin dalınca deyindi. – Amma nə tutarlı ləqəbdir. Qayıdan kimi şöbə işçiləri arasında bunu yayacağam...

Bığsız həvəsə gəldi:

– Eləsə dalına qulaq as! Sənin rəisinə söz qandırmaq üçün gərək ayağının altına kürsü qoyasan, çıxasan üstünə ki, boyun çata çənəsinə. Bir dənə ilişdirəsən. İlişdirən kimi də soruşasan: "Qandın?" Qanmayıbsa, bu əməliyyatı təkrar edəsən...

Lopabığ şaqqanaq çəkib güldü:

– Əşi, səndə sözlər varmış ki! – dedi. – Bilirsən, o günləri gedib neynəsə yaxşıdır, direktora Dilarədən, bizim laborant qızdan şikayət edib ki, bəs, onun sözünə qulaq asmır...

– Hansı Dilarə, o dikburundan?

– Hə də! Ləğəbi "balalayka" olanı deyirəm...

– Yaxşı, direktor deməyib ki, daha nə rəissən?

– Əşi, ondan pisini deyib. Axıra qədər qulaq asandan sonra direktor qayıdıb ki, işdir, evdə arvad-uşaq da sözünə baxıb eləməsə, utanma, gəl, mənə de!

– Nə deyib?! Bu söyüşdən də pisdir ki!

– Başa düşən üçün! Kötüyə belə şeylər təsir eləməz! – Lopabığ saatına baxdı. – Vaxtdır, gedək. Fasilə qurtarır...

Onlar zavoda tərəf yol aldılar. Lopabığ dayandı:

– Qəribədir ha! – dedi. – Bir şəhərdən o biri şəhərə getmək az xərc deyil. Bizim ikimizin işini bir nəfər iki gündə görüb qayıdardı... Bizi isə eyni zavoda ezamiyyətə göndəriblər... İlin axırında, baxarsan, Bakıdan Gəncəyə uçmağa zavodun ezamiyyət pulu olmayacaq. Çünki günahkar sənin rəisindir, xəbərdar etməyib bizi...

Bığsız istehza ilə:

– Gərək kimi xəbərdar edəydi?

– Bizim rəisi də...

– Onlar ki, neçə vaxtdır küsülüdürlər...

İkisi də qımışdı. Eyni müəssisədə işləyən iki mühəndis, hərəsinin qoltuğunda bir məktub zavodun buraxılış vərəqələri bürosuna girdi...

## HƏR ŞEYİN ÖZ ADI

Bir sabah (belə sabah üzümə açılmayaydı) sol ayağımın üstə sərsəm oyandım. Elə o ayaq üstə də qərara aldım ki, indən belə hər şeyi öz adı ilə çağıracağam. “Kifayətdir! İnsan ikiüzlülüyünün bir sonu olmalıdır, ya yox?!”

Səhər iclasına özümü güclə çatdırdım. Mübahisə düşmüşdü. Rəis birdən dikəldi, bircə kəlmə ilə hər şeyə yekun vurdu. Bu bircə kəlmənin mənası bu idi ki, qatıq qaradır. Hamı razılaşdı. Bircə mən etiraz elədim. Rəis tərs-tərs süzdü məni. Bir quruca kef-əhval da soruşmadı bu gün. Eşitdim ki, dalımca bir “yeməkxana” gupayıb. Deyib: “Məsələ heç də qatığın rəngində deyil, sadəcə, insan gərək böyük-kiçik bilsin. Nə qədər yaxşılıqlar etmişəm ona, burnundan gəlsin!”

Bu məni dayandırmadı.

Rəisin katibəsi Fayaya yaxınlaşdım.

– Ay Fatma, – dedim. – Bu nə işdir? Özünü bu kökə niyə salmısan? Gecə qəfildən səni görənin, vallah, ürəyi getməsə yaxşıdır.

Fayanın üç qat rəng altında üzü pis-pis əyildi, turşudu, elə gözümün içinə çəmkirdi:

– Fu! – dedi. – Köntöy! Qadınla danışmağına bax! Hələ özünü müasir çuvak sayır!

Mənə dünən gətirəcəyini söz verdiyi xarici estradanın maqnitofon lentlərini dərhal gizlətdi. Yazdığım hesabatları da üstündə "Təcili" sözü olan qovluqdan çıxardıb, stolunun alt gözünə atdı. Aydındır ki, kağızlar rəisin mübarək qolunu bu yaxın zamanlarda çətin görsün.

Bu da məni dayandırmadı.

Bizim laborant Zulyaya "Züleyxa!" dedim. Kaş dilim quruyaydı, belə deyən yerdə. Həmin gün masamın üstündəki fincan çay üzünə həsrət qaldı.

Laboratoriyanın böyük mühəndisini çağırdım. O, bir ildir ki, bir sxem yığır. Sxem xəttə qoşulanda adi səslərdən başqa hər cürə heyvan səsi, it, pişik, quş səsi çıxarır.

– Vilayət, iş nə yerdədir?! – Soruşuram.

Danışdı. Ah çəkdim, ona "bivec" dedim. O da borclu qalmadı:

– Hə?! Bəs bilmirsən atı atın yanına bağlarsan... Dalı məlumdur da! – dedi.

Bütün bunlar qərarımı laxlatdımı? Əsla!

Bufetdə xırdanı qaytarmayan satıcıya: "Qarətçi" dedim. Onun cavabında mən: "Qəpik güdən demaqoq" oldum. Növbəsiz mənə xörək vermədi. Xeyli gözlədim. Aldığımı yeyəndə gördüm ət əvəzinə qabıma sür-sümük qoyub.

Axşama qərarımı geri götürdüm.

Səhər rəis nə deyirdi, başımı tərpədirdim: "Bu dahiyanədir, şef!" – deyirdim. O, üzümə güldü. Konfransa getmək istəyib-istəmədiyimi soruşdu. Şadlıqdan az qala uçacaqdım. "Bizim rəis mələkdir!" – Fikirləşdim.

Rəisin katibəsinə:

– Oooo! Faya! – dedim. – Bu gün nə qiyamət olmusunuz! Lap Bricit Bardoya oxşayırsınız.

Faya əl boyda güzgüdə öz boyalı üz-gözünə, ağız-burnuna vurğun-vurğun baxdı. Çıxarıb maqnitofon lentlərini dinməzcə verdi.

On dəqiqədən sonra isə şöbənin hesabatlarını rəisin dərkənarı ilə gətirdi.

Züleyxaya "Zulya!" dedim. O, çayın çiçəyini mənə süzdü. Nəlbəkimə də bir "napalyon" pirojnası qoydu.

Vilayətdən soruşdum:

– Qədeş, işlər necədir?!

O danışdı. Sxem, heç demə, indi ayı səsi çıxarırmış. Onu təriflədim.

– Elə bu cür də davam elə! – dedim. – Axır bir şey çıxacaq...

Vilayət mənə ucuz qiymətə yapon maqnitofonu boyun oldu. O, neçə illərdi ki, elektron cihazları alqı-satqısı üzrə ixtisaslaşırdı.

Bufetdə xırdanı almadım. Satıcı qulağıma pıçıldadı: "Uzağa getmə, təzə mal olacaq".

Kefim qalxdı kəllə-çarxa. Dünya gözümdə gül açdı.

Yox, hər halda yaşamaq maraqlıdır. Yaşasın həyat! Özümə də qəti tapşırdım ki, məbadə, hər şeyi öz adı ilə çağırasan. Dünyanı mən düzəltməyəcəyəm ha?!

## İSTEHSALAT TƏCRÜBƏSİ

Onlar bir-bir çıxdılar, rəisi gözləməkdən bezar olmuşdular. Lap əvvəl Sərdar ayağa durdu ki, "su içmək istəyirəm, indi qayıdacağam". Stol arxasında oturmuş şöbə rəisləri bir-birinə baxdılar, heç biri dinmədi. Qapı açıldı-örtüldü. Sonra Cəlalı öskürək tutdu, o da dəsmalı ağzına tutub çölə çıxdı. Biri də: "Otaq istidir, – dedi. – Adamın nəfəsi kəsilir". Və ...qapı səssiz örtüldü. Daha sonra qalan üç nəfər çıxdı. Onlar heç bir üzr-bəhanə gətirmədilər. Heç lazım da deyildi. Şöbə rəislərinin başı söhbətə qarışmışdı, divar boyu düzülmüş oturacaqların boşalmasını görmürdülər. Axıra çəkingən Gülbala qalmışdı. Kudu kimi iri başı üstündə iki eynəkli gözü yerində qərar tutmurdu, gah onun, gah da bunun üzündə

gəzirdi. Kəsdirə bilmirdi ki, o da çıxsın, ya hələ otursun. Nəhayət, bu çətin vəziyyətdə qərar qəbul etmişdi ki, qapı açıldı, amma örtülmədi. Astanada intizarla gözlənilən rəis göründü. Otaq hərəkətə gəldi, hamı canlandı. Birinci şöbənin rəisi Xəlilov masanın üstündəki təqvimin yerini dəyişdi. İkinci şöbənin rəisi qalstukunu düzəltdi. Üçüncü şöbənin rəisi isə hətta bir balaca dikəldi də. Rəis tələsmədən xalça ayaqaltının bir ucundan tutub o biri ucunadək addımladı. Cəmi iyirmi addım. O, başdakı stolun arxasına keçdi. Yalnız bundan sonra geniş kabinetə gözdolusu baxdı:

– Təcrübəçi tələbələr hanı, bəs? – Ağır-ağır soruşdu və sağ yanağındakı çapıq ipək corabdan çəkilmiş sap yeri kimi büzüşdü.

– Burdadırlar. Su içməyə çıxıblar, – deyə birinci şöbənin rəisi dilləndi və üzünü Gülbalaya tutub. – Çıx, çağır uşaqları.

Onlar bir-bir getdikləri kimi, bir-bir də qayıtdılar. Əvvəlki qayda üzrə də oturdular. Hamı gözünü başdakı stola dikdi. Rəis başını dolandırıb, hamını nəzərdən keçirtdi və birdən başladı:

– Yoldaşlar, bir həftə qabaq yanıma iki tələbə gəlmişdi, adlarını deməyəcəyəm. Şikayətləndilər ki, onlar bu iki ayda heç nə öyrənə bilməyiblər, vaxtları hədər keçib, ümumiyyətlə, təcrübə pis təşkil olunub... Eşidirsiniz? Biz təcrübəni təşkil edə bilməmişik! Mən onlarla

razıyam. Elə hesabımı ondan götürürəm ki, bir həftədir bizdə təcrübədə olan on beş tələbənin on beşini də bir yerə toplamaq istəyirəm, mümkün edə bilmirəm. Beşi gələndə onu gəlmir, onu gələndə beşi. Biabırçılıqdır... Səbəb? Onlara pis nəzarət edirik. Onların gəlib-getməyi heç kim tərəfindən qeydə alınmır. Odur ki, tələbələr günlərlə zavoda gəlmirlər... Bu işlər üçün cavabdeh birinci növbədə İsmayılov yoldaşdır. Dayanın, İsmayılov, etirazı sonraya saxlayın, sizə fikrinizi söyləməyə vaxt veriləcək... Bəli, bu iş gərək əvvəldən diqqətimizdən kənarda qalmayaydı. Əgər bizdə doğrudan da, təcrübəni keçirmək imkanı yox idisə, mənə xəbər verəydiniz. Sabahın istehsalat rəhbərlərinə belə məsuliyyətsiz yanaşmağa nə haqqımız var?! Əgər bu işi hərtərəfli təşkil edə bilməyəcəkdinizsə, vaxtınız yox idisə, mənə deyəydiniz, mən istehsalatın idarə edilməsinə sərf etdiyim vaxtdan, istirahətimdən kəsib bu işi yoluna qoyardım.

Rəis dərindən köksünü ötürdü. Sifəti döyülmüş mis kimi işıldadı. Ona fəxr və hörmətlə dikilən gənc baxışlar altında sözünə davam etdi:

– İndi bu cavan yoldaşlar bizim müəssisə haqqında nə fikirləşəcəklər? Öz böyük yoldaşları olan bizlərə hansı gözlə baxacaqlar?! Təsəvvür edin ki, onlar dördüncü kurs tələbəsi, sabahkı həmkarlarımızdır. – Tələsik qarşısındakı kağızlardan birini götürdü. – Budur, birinci şöbəyə dörd nəfər göndərilib. Onlar haqqında nə deyə bilərsiniz, yoldaş Xəlilov? Həmişə gəlirlərmi?

– Bəli, Rizvan Musayeviç, – deyə Xəlilov dərhal dilləndi! – İndi ikisi burdadır. Səhər-səhər də ikisi gəlmişdi. Bilmədim ki, bu gün yığışırıq, yoxsa saxlardım. Dördünün də gündəlikləri, qeydləri hazırdır. Xasiyyətnamələrini də yazmışam, qol çəkməyiniz qalıb.

– Belə... Üçüncü şöbədə vəziyyət necədir?

– Rizvan Musayeviç, hər şey yerli-yerindədir, – deyə şöbənin rəisi cavab verdi.

Şöbə rəisləri azca dikəlmiş, sədaqətlə başdakı stola baxan üçüncü şöbə rəisindən gözlərini çəkdilər. "Yaltaqlıq olar, amma bir belə yox də!" – Hər biri öz-özlüyündə fikirləşdi.

– Belə... İkinci şöbə, gündəliklər hazırdırmı?

Şöbə rəisinin monqolsayağı gözləri qıyıldı:

– Rizvan Musayeviç, mən heç bir gündəlik görməmişəm, – dedi.

Rəisin təlx sifəti təəccübdən uzandı:

– Necə yəni? Siz onların gündəliklərini təcrübə rəhbəri kimi qəbul etməmisiniz məgər?

İkinci şöbə rəisi:

– Bilirsinizmi, tələbələr gələndə mən məzuniyyətdə olmuşam... Onlara təcrübə rəhbəri aparıcı mühəndis Salmanov təyin edilmişdi. O, indi məzuniyyətdədir.

Salmanov rəisin qohumu idi. İnstitutu keçən il qurtarmışdı.

Tələbələr bunu təsdiq etdilər:

– Belə... – Rəis tutqun gözləri ilə şöbə rəisinə baxdı. – Deməli, Salmanov ona həvalə olunmuş vəzifəni yerinə yetirmədən dincəlməyə gedib? Bir belə sayğısızlıq olarmı?! Kiməsə demək olmazdımı? Olardı... İnsan da öz işinə bu qədər laqeyd yanaşarmı?! Bəs vicdan, ictimai borc. Eh... Gəl, baş çıxart... İkinci şöbə elmi problemləri, tapşırıqları çox dəqiq, vaxtında yerinə yetirir. Amma elə ki, məsələ ictimai bir işdən getdikdə, hər şey kəlləmayallaq olur... Bu nə vaxta qədər davam edəcək?

İkinci şöbə rəisinin qanı qaraldı. Rəis susdu. İçəri bürkü idi. İyun ayının istisi hamını tərlətmişdi. Rəisin stolunun üstündə isə "Abşeron" sərinkeşi sürətlə fırlanırdı. Soyuq hava onun üz-gözünü yalayır, çapığının bürüşüyü açılırdı. Rəis daha məsələni uzatmadı:

– Bundan sonra zavod istehsalat təcrübəsini götürməməlidir, ya da onu əməlli təşkil etməlidir. Belə deyilmi, yoldaş İsmayılov?...

İsmayılov başını tərpətdi. Rəis davam etdi:

– Sənədləri gətirin, qol çəkim. Daha keçib, gələcəkdə belə olmamalıdır. Mən qurtardım, yoldaş İsmayılov, bəlkə bir sözünüz var?

İsmayılov bezgin bir əda ilə:

– Yoxdur! – dedi.

Düzü, onun uşaq-muşaq qarşısında hər il oynanılan bu cür, buna oxşar komediyalardan xoşu gəlmirdi. "Zalım balası, gör, beş şahılıq dərisi üçün necə əsir? Gah onu günahlandırır, gah da bunu..." – fikirləşdi.

Bu ara rəis davam edirdi:

– Təcrübənin tam qurtarmasına nə qədər vaxt qalıb? Bir həftə? Hmm... Mənə elə gəlir ki, uzatmağın mənası yoxdur, buraxın uşaqları, qoy, gedib dincəlsinlər. Yay istirahətinin cana xeyri var...

## QIŞ YUXUSU

Zəhrimar qış gecələri qurtarmaq bilmir ki! Bayır soyuq, içəri isti, adam hey yatmaq istəyir... Sexi bir o başa, bir bu başa dolandım. Yuxusuzluqdan gözləri qızarmış növbə ustası ilə bir az söhbətləşdik. Onunla zarafatımız var. Uzaqdan söz atdım:

– Tarixin çarxı dönüb, ya dönməyib?!

– Sənin kimi oğul yetirən tarixin çarxı dönər də!

Bizim növbə ustası ali məktəbin tarix fakültəsini qurtarıb. Müəllimdir. Amma ixtisası üzrə hələ indiyə qədər işləməyib. Neçə illərdi ki, zavodda çalışırdı. Tarixdən etdiyi söhbətlərinin aşiqi idim.

– Nə olub, kefin yoxdur?! – Soruşdum.

– Evdən nigaranam. – Növbə ustası üz-gözünü turşutdu. – Kiçik oğlum vurub pəncərənin şüşəsini sındırıb. İndi otaqlar buzxanaya dönüb... Vaxt eləyə bilmədim şüşə saldırım...

Gördüm, danışmağa həvəsi yoxdur, söhbəti kəsdim. Növbə ustası qapıya tərəf yollandı. Yəqin daha səhərə

kimi buralarda görünməz. Getdi keşikçi dostlarının yanında yatmağa.

Üçüncü növbə iki saat idi ki, başlamışdı. Dəzgahlardan nasazı yoxdu. Bircə tornaçı dostum Məhəmməd dilxor idi. Dedi ki, onun dəzgahı şıltaqlıq eləyir, zay məhsul verir, ölçünü saxlamır.

– Ya Əlinin zibilidir, ya da Əsgərin! Həmişə başıma bu oyunu açırlar. Korlayırlar, sonra da atıb gedirlər. Xəbər etsəydilər ki, dəzgah bu gündədir, heç işə çıxmazdım.

Məhəmməd əl-qolunu ölçə-ölçə danışırdı. Birinci və ikinci növbə onun dəzgahında işləyən tornaçıların dalınca alıb-verirdi. Yekə burnu inciklikdənmi, soyuqdanmı, ya gündüz möhkəm "vurduğundanmı" qızarmışdı.

– Baxarsanmı?! – Məhəmməd ümidlə soruşdu.

– Qorxma, səni darda qoymaram. – Ona ürək-dirək verdim.

Özgəsi olsaydı vecimə almazdım, zarafata salıb ötərdim. İndi isə qollarımı çırmayıb, alət çantamı aldım, xeyli qurdalandım. Bir şey çıxmadı. Özümü sındırmadım:

– Hələlik işlə, – dedim. – Bir azdan yaxınlaşaram. Bəlkə bir şey fikirləşdik...

Sexin ayağına tərəf getdim. Hər iki yanda düzülmüş dəzgahlarda qızğın iş gedirdi.

Təmirçilər otağına girdim. Sexin yeknəsəq səs-küyü, gurultusu qapı arxasında qaldı. Müşənbəli divan divara

söykədilmişdi, ortada uzun stol qoyulmuşdu. Biz burda dincəlirdik. Yalnız təmirə çağırılanda burdan çıxırdıq.

Özümü divana yıxdım. Uzandım. Üstümə pencəyimi saldım. Saat birin yarısı idi. Gözlərimi yumdum. Bir şey çıxmadı, elə bil yuxum ceyran belində getmişdi. Fikirləşməyə başladım. Məhəmmədin dəzgahına nə olsun? Harası nasazdır? Yəqin diyircəyinə bir şey düşüb. Belə şeylər tez-tez olur, axı. Bəlkə oxu kip oturmayıb?!... Eh, çox fərsiz təmirçiyəm. Bu dilsiz ələngənin əlində necə də girinc qalmışam. Qoy, cəhənnəm olsun! Yatmaq lazımdır. Sabah bir aləm işim var. Gündüz dincələ bilməyəcəm. Məktəbə çağırıblar, gedim görüm mənim vələdüzina oğlum neyləyib yenə? Müəllim onun gündəliyinə bir kitablıq söz yazıb. Kim bilir, neyləyib?! Oğlan uşaqları nadinc olurlar. Mənimki isə lap şitini-şorunu çıxarıb...

Gecə növbələri yaman xoşuma gəlir. Başının üstündə dayanan yox, dinən yox, tələsdirən yox. Növbə ustası sexin o başında yatır, mən də bu başında. Səkkiz saat olmasa da, altı saat nağd yatıram. Gündüz növbəsində isə adam az-çox işləyir. Necə ola bilər ki, təmirçi yoldaşların iş görsün, sən oturasan? Üz üzdən utanır.

Heç bilmirəm niyə belə tənbəlləşmişəm? Qabaqlar belə deyildim. Od parçası idim.

Görən dəzgahın nəyidir?! Olmur da! Dostdur, darda qoya bilmərəm. Arada duz-çörək, hörmət-izzət var. Sabah deməz ki, ay namərd, dar ayaqda kömək etmədin mənə! Axı, o, ikinci sexin tornaçısı ilə yarışır.

Haçan yatdığımı bilmirəm. Amma həmin gecə gördüyüm yuxu yadımdadır. Yuxuda gördüm ki, yatmışam. Gecənin bir aləmi səs eşidirəm. Kimsə qapını zərifcə döyürdü. Yuxulu-yuxulu fikirləşdim ki, yenə hansınınsa dəzgahı xarab olub. Ancaq məndən nə kömək!

Birdən vızıltı eşidirəm. Sinəm üstünə qoyduğum sağ əlimə bir ağcaqanad qonmuşdu. İstəyirdim onu vurub öldürəm, qəflətən səs eşitdim:

– Vurma! Mən sənin ilham atınam!

Qorxudan gözlərimi bərk-bərk yumdum. Yuxuda fikirləşdim ki, bu nə pis yuxudur görürəm. Ağcaqanad da danışar? İxtiyarsız soruşuram:

– Belə balaca at? Bəs, məni sən necə aparacaqsan?

– Səni yox, fikrini, düşüncəni aparacağam. Dəzgahları təmir eləmək əlində su içmək kimi asan olacaq. Sən bilmədiyini dərhal biləcəksən, gözlə görmədiyini görəcəksən, heç vaxt eşitmədiyini eşidəcəksən, bacarmadığını bacaracaqsan...

Yarıyumulu gözlərimi qapadım. "İlham atı" şirin-şirin vızıldayır, elə bil laylay çalırdı. Birdən sanki əlimə iynə batırdılar:

– Yatma, eşidirsən, yatma! Sən istəsən...

Yuxu başıma vurmuşdu. Hərasan olmuşdum. Necə özümdən çıxdımsa sol əlimi qaldırıb "ilham atının" başına endirdim və qışqırdım:

– Əl çək də, gəlməyə vaxt tapmırsan?! Növbə ustası kimi niyə canımı boğazıma yığırsan? Qoy, yataq da!

Yuxudan öz qışqırığıma oyandım. Gözümü açıb dirsəkləndim. Təəccüb elədim. Məhəmməd də böyrümdə fısıltı ilə yatırdı. Yəqin dəzgahı tamam dayanıb, əlləşib, yorulub. Məni də oyatmağa qıymayıb. Onun əlində açar vardı. "İlham atının" dişlədiyi yerə söykənmişdi.

Məhəmmədin üstünü örtdüm. Saata baxdım. Yenidən uzandım. Qış gecəsinin yuxuları yaman şirin olur.

## İLK MƏHƏBBƏT

Onun yaşı otuz beşdən çox olardı, az olmazdı. Hələ də evlənməmişdi, subay dayça kimi dingildəyirdi. Əslində İsmayıl çox da səsli-küylü adam deyildi. Sakit, həlim, işlək bir oğlandı. Nə kardı, nə şildi, hər şeyi yerli yerindəydi. Bir az qaraşındı.

Bəlkə onun evlənməyinə pəl vuran var?! Baxırsan, yox, ana da, ata da, bacı-qardaş da toya-şadlığa razıdır. Bu münasibətlə birini yeyib, beşini də yetim-yesirə verərdilər. Bəlkə qonum-qonşuda bəd deyəni var?! Xeyr a, elə şeymi olar?! Əvvəla, oğlan özü böyük-kiçik yeri biləndir. İkincisi də, binadakıların çoxusunun radio-televizoru onun əlində sazlanır. Nəhayət, öz aramızdır, evlənmək də elə bir xoşbəxtçilik deyil, axı, bu arzuya düşənə mane olan tapılsın...

Daha hamı ondan əlini üzmüşdü. Bu keçənlərin söhbətidir, aradüzəldən bir qarı qohumcanlılıqla axtardı,

axtardı, axır ki, İsmayıla bir qız bələdlədi. Qız elə İsmayıla bab idi. Yaşı iyirmi səkkiz-iyirmi doqquz olardı. Qaraqabaq bir qızdı. Zavodda iqtisadçı işləyirdi. Hansı məclisdəsə onları tanış etdilər.

Bir dəfə işdən gələndə yolları bir düşdü. Bir gün də gəzməyə çıxdılar. İlk görüş! Qanın damarlarda dağ çayı kimi çırpınmasını kim yaddan çıxarar? İnsanın daxilində bütün axarların sızaraq birləşdiyini, daşdığını, ağlın qurduğu çoxmərtəbəli planları bircə göz qırpımında qoynuna alıb daşlara çırpdığını unutmaq olarmı?! Amma keçmiş ola! O vaxtlar arxada qalmışdı. İndi İsmayılın haçansa könül açdığı qızlar dəstə-dəstə keçirdi. Neçə-neçə uğursuzluq! Hamısı da bir-birinə oxşar! Görürdün hər şey yağ kimi gedir. Qızın razılığı da alınıb, lap son anda, ilk məhəbbətindən söz açan kimi hər şey məhv olurdu. İşin qəribəliyi onda idi ki, İsmayıl əhvalatı danışan kimi könül açdığı qızı ya ağlamaq tuturdu, ya da gülmək. O, orta hala rast gəlməmişdi. Qızların ağlağanı ələ salınmış kimi xeyli hıçqırdıqdan sonra onu dinləmədən çıxıb gedirdi, güləyəni də elə uğunurdu ki, İsmayıl acığa düşüb, özü onu tərk eləyirdi.

Belə-belə dünyada il üstünə il gəlirdi, yanar ürəklərdə də kül üstünə kül. Axırıncı dəfə İsmayıl özünə söz vermişdi ki, lənətə gəlmiş ilk məhəbbətindən daha bir kimsəyə danışmasın. Fikirləşdi: "Yəqin qadınları həqiqət heç vaxt maraqlandırmayıb. Bu onlara ya tamam dəhşətli gəlir, ya da gülməli!"

İsmayılla qız dənizkənarı parkda gəzirdilər. Əvvəl o yan-bu yandan, iş-gücdən söhbət etdilər, sonra yaxşıdan, pisdən, daha sonra gözdən-qaşdan. Sıxıntı get-gedə hər ikisini tərk edirdi.

– İndiyə qədər niyə ərə getməmisiniz?! – İsmayıl maraqla soruşdu, öz-özünə düşündü ki, pis qız deyil, bircə qaşqabaqlı olmasaydı, ona gözəl də demək olardı.

Qız sadəcə:

– Ürəyim tutan olmayıb! – dedi və fikrindən istəklisinin çıxıb getdiyi gün keçdi. Oğlan elə-belə getməmişdi, qızın insanlara olan inamını da aparmışdı. Əgər anasının göz yaşı, ah-zarı olmasaydı yerindən tərpənməzdi. Qız gizlicə ah çəkdi.

– Elə mənim də... – deyə İsmayıl gizlətmədən ondan daha yanıqlı ah çəkdi.

Bu dünyadır! Ən yaxşı adamlar da bəzən yalan danışırlar. Əgər bu yalan bir kimsəyə zərər gətirmirsə, nə eybi var, qoy danışsın.

Onlar lövbər naxışlı dəmir məhəccərə söykəndilər. Susdular. Dəniz də, Günəş də onların ayağı altında idi. Dəniz dalğa-dalğa köksünü yırtırdı, Günəşin suya düşmüş əksi isə bir top kimi atılıb-düşürdü.

– Eşitdiyimə görə, zavodunuz bu il üçün yeni öhdəlik götürüb?

Bunu İsmayıl dedi. Dedi, dediyinə də peşman oldu. “Allah kəssin, bu nə söhbətdir mən saldım?!”

– Elədir, – deyə qız cavab verdi. – Çox adama mükafat verdilər!

İsmayılın həyəcanı keçdi, söhbətə nərdivan qoydu:

– Bura baxın, gəlin, biz də bir iş görək...

– Nə iş?

– Belə bu qurtaran il var ha, onun üçün öhdəlik götürək.

– Nə cür? – Qız laqeyd soruşdu və birdən başa düşüb pörtdü.

İsmayıl onun soyuq barmaqlarından yapışdı, ovcunda isitdi, daha dərinə getdi:

– Etiraz qəbul olunmayacaq ha! – Gülümsədi.

Qız dənizə baxırdı.

– Susmaq hər halda etiraz deyil... – Pıçıldadı.

Görürsən üstünü kül örtmüş közün yanından yel ötür, kül uçub yerə tökülür, köz ulduz kimi işarır. Bir müddətdən sonra yenidən üstünü kül örtür, yenidən külək vurub onu közərdir... və yanıb qurtarana kimi bu davam edir... İndi dənizdən meh əsdikcə İsmayılın xatirələri də çözəlirdi. O, dodaqlarını bir-birinə sıxdı, dəhşətli hiss etdi ki, könlündən öz ilk məhəbbətindən danışmaq keçir.

– Biz uşaq deyilik. – İsmayıl daha dözə bilmədi. – İstəyirəm hər işimiz düznəqulu olsun. Aramızda yalan olmasın. Mən çox-çox qabaqlar da birini sevmişəm, indiyə qədər unuda bilmirəm...

Qız başını qaldırmadan pıçıldadı:

– Eybi yoxdur, – dedi və əlavə elədi. – Kimin başına gəlməyib ki?!

İsmayıl xatirələrindən cuşa gəldi:

– Bu çoxdan olub... Lap çoxdan. Qohumlarımızdan biri qız qaçırmışdı. Kəndin bütün arvadları onlara yığışmışdı. Qulaq asırsınız?

Qız onun işıqlanmış üzünə baxdı, gülməkdən özünü güclə saxladı: "Vallah, qiyamət oğlandır" – fikirləşdi.

– Eşidirəm, İsmayıl, – dedi.

– Həə. Anam məni də özü ilə ora aparmışdı. Gəlini geyindirmiş, bəzəmiş, ortada oturtmuşdular. Arvadlar dövrə vurub söhbət edir, arada gəlini danışdırırdılar. Görünür, gəlin utanırdı, sorğulu-qınaqlı baxışlar isə ona aman vermirdi. O, əl-ayağına yer tapmırdı. Mən anamın ətəyini buraxdım, gəlinə yaxın getdim. O, göz-qaşı ilə məni çağırdı. Qucağına aldı, sipər kimi sinəsinə sıxdı. Altdan-yuxarı onun gözlərinə baxdım. İndiyə qədər o nəmli gözləri unuda bilmirəm. Ürəyim o vaxt az qaldı yerindən qopsun. Bəlkə bu hiss sonradan yaranıb, ya onda da varmış, deyə bilmərəm, amma hələ də o gəlini unuda bilmirəm...

Məhəccər tir-tir əsdi. İsmayıl cəld çevrildi. Qız elə uğunurdu ki, ətrafda keçənlər qibtə ilə ayaq saxlayır, onlara baxır, sonra hərə bir hisslə yoluna davam edirdi.

– Onda, onda sizin... – Qız uğuna-uğuna soruşdu. – Sizin neçə yaşınız vardı?! Bir, ya iki?

İsmayıl qızın gülüşdən, doğrudan da, gözəlləşmiş üzünə baxdıqca mat qalırdı. Gözünü heç cürə yığa bilmirdi:

– Dörd. – Cavab verdi.

– Dörd?! – Qız təkrar etdi və yenidən qəhqəhə çəkdi. – Aman allah! Ha, ha, ha! Nə zarafatcıl adamsınız?!

İsmayıl qaş-qabağını tökdü:

– Axı, nəyə gülürsünüz?

– İnciməyin, siz Allah. – Qız çantasından dəsmal çıxardıb gözlərini sildi. – Belə aşiq-məşuqluğa heç bizim klassik ədəbiyyatımızda rast gəlməzsən! Buna gülməyəsən, nə edəsən?!

– Amma ağlayanı da olub... – İsmayıl hədə ilə dilləndi.

Qız isə əməlli-başlı açılmışdı:

– Biz buna birgə gülsək dünyamı qopar?! – dedi və onun qoluna toxundu. – Elə deyilmi?!

İsmayıl qızın təbəssüm dolu gözlərini gördü, ixtiyarsız özü də gülümsədi. Qəflətən ağlına gəldi ki, əslinə qalsa, onun ilk məhəbbəti özgəsi yox, elə qarşısındakı qızdır...

## OMBA AĞRISI

Səhərin gözü açılmamış bu qırılmışlar oyanırdılar. Yorğan-döşəkdə oynaqlaşır, süpürləşir, ağnaşır, didişir, bir sözlə, bütün evə haray salırdılar. İslam kişi sərsəm yuxudan oyanar, altdan geydiyi ağ gecə tumanının aşıq bağlarını tapdalaya-büdrəyə özünü onlara çatdırar, böyüyünə böyük çəkərdi, kiçiyinə kiçik. Bu "hay-küyçüləri" bir-birinə qatanda günahkarı-günahsızı ayırmaz, səmimi-qəlbdən inanardı ki, bu qırılmışların hamısı bir bezin qırağıdır. Taxsır varsa hamısındadır, yoxsa deməli, heç birində. Bir əlli əl çalmaq müşkül məsələdir! Əlin biri qalxanda, o biri açılmasa, araya şappıltı düşməz ki!

Sonra İslam kişi yerinə qayıdar, uzanar, yorğanı başına möhkəm çəkərdi ki, onların hönkürtüsünü eşitməsin. Amma nə fayda, "günahkarlar" bir-birinə züy tuta-tuta ağlayar, onun ürəyini qana döndərirdilər. "Bu içini çəkən Validədir. – İslam kişi fikirləşirdi. – Ölmüş ürəyində ağlayır, əti kəsilsə də səsini bərkdən çıxartmaz. Hə! Bu oxşaya-oxşaya hönkürən Xalidədir. Uzanıb dam boyda olub, bir tikə də ağlı yoxdur! Əslində, bütün fitnə-fəsadın mayası odur. Barmağın da ona toxundumu, qurtardı getdi, şivən salır... Bu mızıldayan Cəmilədir! Şapalağın yekəsi həmişə bu yazığa dəyir. İstəyirdim o ölmüş Kəmaləni çapım, Cəmilə özünü verdi qabağa. Xasiyyətdə lap Xalidəyə oxşayır, yaman ürəyiyumşaqdır.

Bah! Bu hıqqıldayan kimdir?! Hə, körpə Cəmalədir... Deginən, sənə nə olub?! Sənə ki toxunub eləməmişəm?..."

İslam kişi gördü daha yatmaq yoxdur, yerindən qalxdı. Qızlar dərhal kiridilər. Qıvrım başları getdi yorğanın altına. Kişi geyindi, bayıra çıxanda gözü böyük qızların yatdığı otağın qapısına sataşdı, dayandı. Sonra keçib getdi: "Qoy, yatsınlar. – Fikirləşdi. – Bir azdan oyadaram, hələ saat altıdır. İstirahət günüdür. Eh! Bu at ilxısı qoyar bəyəm, barı asudə vaxtımda bir doyunca yatım... Bütün həftəni o qədər ora-bura qaçıram ki, ayaqlarımı su alır... Baxanda neyləyəsən, çörəyi qazanmaq lazımdır... Səkkiz qızdır, maşallah, elə onların bircə yemək-içməyi maaşımı bütöv udur... Nə qədər uşaq idilər, geyimləri eynimə deyildi... İndi böyüyüblər, tələbləri də artıb... Əvvəl çit alardıq, indi o adı nədir..., deyə də bilmirəm ha, ondan istəyirlər... Əvvəl bir ayağı geyimli, bir ayağı yalın ili başa vururdular, indi ayaqqabısı gərək nəmənə olsun, özü də impırtnı! Bə nə?! İslamın qızları kimin qızından əskikdir?!"

Fikirli olduğundan iki ayağını bir başmağa dirədi. Büdrədi. Deyinə-deyinə bayıra çıxdı. Eyvanın tör-töküntüsünə, həyətin zibilinə baxdı, qanı qaraldı. Bir də deyindi: "Zalım qızı, deginən, nə gedib yanını qoymusan balniskədə! Düz bir həftədir ha azad olur, hələ də azad olmayıb... Haçan gələcək, bu cığ-vığın yemək-içməklərini sahmana salacaq, üst-başlarına bir əl gəzdirə-

cək! Bağrım çatladı, axı! Eh, o keçənlərdə yaxşı idi, arvadı doğum evinə güclə çatdırardım. İndi, deginən, ay rəhmətliyin qızı, nə düşüb sənə tirrənmisən oralarda? Vur, özünü öldür, oğlan ki doğmayacaqsan!" Deyindikcə dərdləri çözələnirdi. Bir yekə arzusu vardı, amma kiminsə yanında dilinə gətirməzdi. "Kərəm Allaha qalıb! – Ah çəkdi. Ürəyi qovrula-qovrula fikirləşdi. – Çıraq yandıran! Oğul! Qızdan nə olsun? Tüstüsündən göz çıxır, istisindən can qızmır".

Yaz günəşi çeşt yerinə qalxanda həyət səs-küylə doldu. Qızların iş görəni işləyir, oynayanı oynayırdı. Bal arıları kimi vızıldaşırdılar. İslam kişi onlara baxır, acığından gülürdü.

O, haçandan-haçana tol, karıstı, mıx götürüb dama qalxdı. Keçən yağışda ev bir-iki yerdən dammışdı. Asudə vaxtı bu gün idi. Bilirdi, indi sahmana salmasa, əldən qalar. Oranı yamadı, buranı suvaqladı, gün günorta yerinə çatdı. İşini qurtarıb aşağı düşəndə, ayağı nərdivandan sürüşdü və yanı üstə gəldi yerə. İslam kişi yerdə fikirləşdi ki, nə yaxşı torpaq qalağının üstünə düşmüşəm, yoxsa şikəst olacaqdım. Bir yeri əzilməsə də, deyəsən, ombası bərk sərpmişdi. Ölüm-zülüm yerindən qalxdı, bir ayaq-bir ayaq özünü evə saldı.

Radioda muğam saatı idi. Kimsə "Simayi-şəms" oxuyurdu. Qızların də səs-küyü yenə evlə bir olmuşdu. İslam kişi necə hirsləndisə, az qaldı ağlı başından çıxsın.

Ciyildəşən qızların üstünə hücum çəkmək istədi. Amma ombasının ağrısı daha da artdı. Bir yannı özünü çarpayıya saldı, inildədi... Böyük qız yaxın gəldi:

– Nə olub, ay dədə?! – Soruşdu. – Haran ağrıyır?!

– Qızım, damdan düşəndə yıxıldım, deyəsən, ombamdır, – dedi və ağrıdan də sızıldadı.

Künc-bucaqda ağlaşan qızlar səslərini kəsdilər... Onun ətrafına yığışdılar. Biri ayağını ovuşdurdu, biri çay gətirdi, biri tərini sildi, biri başının altını düzəltdi... Qərəz, bu canıyananlıq bir az da davam etsəydi, İslam kişi kövrəlib ağlayacaqdı. Qızlar da atalarının pambıq kimi yumşaq ürəyini görüb daha ondan, bəlkə də, ömürlük çəkinməyəcəkdilər. Hirslənəndə onları kötəkləyən bu adamın şapalaqları baldan da şirin gələrdi...

Elə bu ara qapı açıldı, içəri qonşunun on-on iki yaşlı qızı təpildi... Astanadan qışqırdı:

– İslam əmi, İslam əmi, muştuluğumu verin!...

İslam kişinin ürəyi evlənəndən bəri doqquzuncu dəfə idi gedirdi ayağının altına. İndi pıçıldadı: "Qız, ya oğlan? Qız, ya oğlan! Kərəm Allaha!"

– Nədi bala?! – Amma yerindən tərpənməyə heyi qalmamışdı.

– Muştuluğumu verin... – Qız gülə-gülə dilləndi, sonra özünü saxlaya bilmədi... – Oğlunuz olub ey, oğlunuz! Anam indicə zəng eləmişdi, dedi ki, sizə xəbər verim.

Onun anası doğum evində şəfqət bacısı işləyirdi. İslam kişi çarpayıdan quş kimi qalxdı! "Oğul! Çıraq yandıran!" – Fərəhləndi.

– Qızlarım, tez özünüzü qardaşınıza yetirin, mənə bir səhih xəbər çatdırın.

Məmə yeyəndən pəpə deyənə qapıya cumdu. İslam kişi əlini qaldırıb onları dayandırdı:

– Daha ilxı ilə yox da! Dördünüz getsə bəsdir! Qalanı sabah gedər! İnşallah!

İslam kişi təzədən çarpayıya uzandıqda ortancıl qızı soruşdu:

– Dədə, omban yenə ağrıyır?

– Azca ağrıyır...

İslam kişi yalan deyirdi. Onun ombasının ağrısı çoxdan keçmişdi.

## HASARIN SÖKÜYÜ

Doqquza iyirmi dəqiqə qalmışdı. Arıq, uzun, üzü çilli gənc mühəndis Dadaşov təngnəfəs binanın beşinci mərtəbəsinə qalxırdı. Onun iyirmi iki yaşı vardı. İnstitutu bu il qurtarmışdı.

Dadaşov əmək fəaliyyətinə bir həftə qabaq başladığı laboratoriyaya ayı kimi gurultu ilə soxuldu. Yaylı qapı onun dalınca yaylım atəşinə oxşar bir səslə çırpıldı.

Divarlar boyu sıralanmış, cihazlardan ləm vuran stollar boş idi. Otağın dərinliyində, xəlvəti bir bucaqda dəm-dəsgahla sahmana salınmış çay masasının başına cəm olmuş işçilər şirin söhbətdə idilər. Qapının səsinə hamı diksindi. Xavər çaydanı az qaldı dizinə qoysun. Zərifə mili əlinə batırdı, yanıqlı-yanıqlı ufuldadı. Laboratoriya müdiri sözünü yarımçıq kəsib yağ-pendir yaxmacını əlindən salmış aparıcı mühəndisə gülürdü. Böyük mühəndis isə isti çayı dağıtmışdı üstünə, hay-küylə hoppanıb düşürdü ki, dərisi pörşələnməsin. Hamı intizarla qapıya çevrilmişdi.

Bu qarışıqlığa səbəb olan Dadaşov astanada quruyub qalmışdı. Beş cüt gözün nişanından qaçmağa yer yoxdu. Zərifə tikməni halsız halda sinəsinə sıxmışdı. Pıçıltı ilə inildədi:

– Uff! Bu uşaq məni ürəkqopmasına salacaq!...

– Nədir, dalınca atlı salıblar?! – Xavər çaydanı qeyzlə yerə çırpdı.

– Bu sənsən?! Çox xoş gəlmisən, Dadaşov! – Laboratoriya müdiri istehza ilə dilləndi və ayağa qalxdı. Ona tərəf bir addım atdı, üz-gözünü turşutdu. – Hardasan, bala?

“Balası” ondan altı-yeddi yaş kiçik olardı, amma müdir əlinin altında işləyənlərlə atalıq mövqeyində söhbət etməyi xoşlayardı. Dadaşov tərləyə-tərləyə üzrxahlıq etdi:

– Bağışlayın, oldu da... Gecikdim! – Əllərini əsəbiliklə ovuşdurdu.

Müdir nırçıldadı, sağ əlinin şəhadət barmağıyla eynəyini dikəltdi.

– Yoxxx! – dedi. – Belə olmaz, cavan oğlan, belə olmaz! Bura dövlət müəssisəsidir, dədəmin evi deyil ki, mən bağışlamaqla qurtarsın. Saat doqquza iyirmi dəqiqə qalır... Deməli, yarım saat gecikmisən...

– Neyləyim, axı, avtobus yox idi də... – Dadaşov boynunu bükdü.

– Bu əzginiş bəhanələri boşla! – Müdirin eynək altında olan gözləri birdən parıldadı, sürətlə qırpıldı, elə bil, göydə ulduz axını oldu. – Eşitmişik! Sən suya gedəndə biz sudan qayıdırdıq... Hamı necə, sən də elə! Əh! İş bilmişdik! Hər yerindən duran yarım saat gecikəcək, mən cəfasını çəkəcəyəm...

Dadaşov dəsmal çıxartdı, tərini sildi, astadan xahiş etdi:

– Vallah, bir də gecikmərəm...

Dadaşovun alışıb-yanan çilləri Zərifənin ürəyinə od saldı, barmağının zoqqultusu hələ kəsilməsə də, yumşaldı, müdirə minnət elədi:

– Ay müdir, sən o bir balanın canı, keç bu uşağın günahından... Kişi kimi söz verir də, daha gecikməz!

Müdir fikrə getdi, haçandan-haçana dilləndi:

– Köhnə vaxtlar olsaydı, ay Zərifə bacı, nə vardı ki?! Lap bir həftə də gəlməsəydi, dinən deyildim. Siz ki məni

yaxşı tanıyırsınız! Amma indi vaxt başqadır. Odur, institutun qapısında bir sürü ictimai nəzarətçi dayanır. Gecikənlərin adını ucdantutma yazırlar. Dadaşov da dəftərə düşməmiş olmaz. Bir yandan da təzə direktor dişini üstümə qıcıdıb. Nizam-intizamda ad çıxarmış laboratoriyamız "Qara dəftərə" düşsə, batdıq! Qorxuram, hamımızın aylıq mükafatı kəsilsin! Keçən ay qonşu laboratoriyanın başına belə bir iş gəlmədimi?! Nə var, nə var, iki nəfər işdən tez çıxmışdı.

Müdir sözünü bitirə bilmədi, hamı vəlvələyə düşdü. Otağı deyinti başına götürdü:

– Nə?! Mükafatımızı kəsəcəklər?!

– O gecikəcək, bizim nə günahımız?!

– Əcəb işdir! Gəldiyi bir həftədir, gör, başımıza nə oyunlar açır!

Dadaşov tələsik dilləndi:

– Əşi, qorxmayın, məni heç kim görməyib... – dedi və irəli gəldi.

– Yoxsa, sən gözbağlayıcısan?! Qoy mənim mükafatımı kəssinlər, gör, sənə mən neyləyəcəyəm! – Mükafatın kəsiləcəyindən hamıdan çox qorxuya düşmüş böyük mühəndis bağırdı. – Bəs mənim üç balamı kim saxlayacaq?!

– Mən... Mən hasardan gəlmişəm, ona görə görən olmadı. – Dadaşov utana-utana izah etdi...

Hamının üstünə elə bil su ələndi. Müdir dərindən nəfəs aldı, razılıqla dilləndi:

– Ay sənin gözünü yeyim!

– Bir həftəlik stajı olan gənc üçün pis başlanğıc deyil. Afərin! – Bunu asta-asta yerdən qaldırdığı yaxmacı gəvələyən, qarın bağlamış aparıcı mühəndis dedi. – Sənin gələcəyin çox parlaq olacaq, Dadaşov! Mən işə girəndən iki ay sonra hasardan aşmağı təcrübə eləmişəm...

Müdir tələsmədən yerinə adladı, nəlbəkisinə pirojna qoyulmuş fincanı qabağına çəkdi. Çaydan ləzzətlə bir qurtum aldı:

– Hə! – dedi. – Camaat, təklifiniz nə oldu? – Soruşdu və cavab gözləmədən pirojnaya girişdi.

Otaqdakılar baxışdılar. Hamının fikrini tikməsini yenidən əlinə almış, əsəbləri sakitləşmiş Zərifə ifadə etdi:

– Maadam ki, onun gecikməyindən bizə bir zərər toxunmayacaq – bağışlansın! Cavandır, hələ qanmır, inşallah, bəlkə düzəldi...

Müdir gülümsədi. Dadaşovu əlilə çağırdı:

– Yaxşı, daha qapıda bitmə, gəl, otur! – Tərəddüdlə onun böyründə yerini rahatlayan gənc mühəndisə baxdı. – Zərifə bacı, bizim bu gənc kadra da bir çay süz!

Aparıcı mühəndis birdən pıqqıldadı:

– Dadaşov, amma daha hasardan aşmazsan ha!

– Niyə?! – Gənc oğlan bir aparıcı mühəndisin istehzalı gözlərinə, bir də müdirə baxdı.

– Onunçun ki, bundan daha rahat yol var... – Müdir izah etdi. – O yanda, ağacların sıx yerində hasarın darvaza boyda söküyü var... İşdi, gecikib eləsən ordan

gələrsən. Yoxsa Allah eləməmiş, hasardan aşanda yıxılarsan, bizi də xataya salarsan...

Dadaşov ağzını açdı ki, danışsın, amma dinmədi, Zərifənin gətirdiyi stəkanı yanğı ilə başına çəkdi.

Çay dəsgahı, bu qaydada, saat ona qədər davam elədi...

## "XAN" DÜYÜSÜ

Seyfəli dayıya bir qırx kilo "xan" düyüsü lazım idi. Qabaqda oğlunun xeyir işi dururdu. Xırda-xırda hazırlığını görürdü ki, toy ərəfəsində qaça-qaça düşməsin.

Axtarmadığı yer qalmadı, düyüdən soraq verən olmadı. Ordan-burdan tapdığı bir-iki kilo ilə yara sağalmırdı. Getdi Sərdarın yanına. Fikirləşdi: "Cəhənnəmə ki! Qoy, bir-iki manat baha olsun, amma tez olsun. İndi neynək daha?!"

Sərdar məhəllə dükanının həm müdiri, həm də satıcısı idi. Mızının biri, pişim-pişimlə dolanan bir adamdı. Hələ indiyə qədər onun bərkdən danışdığını, hirsləndiyini görən olmamışdı. Üzünə də söysən dinməzdi, gülümsəyərdi.

Məhəllə camaatı Sərdarı yola verirdi, tərəzisinə çox da ilişmirdi. O da camaatı yola verirdi. Kimə nə lazımdı, əlüstü tapıb gətirirdi. Birə-üç qiymətinə də sırısa, kimsəni əlamanda qoymamışdı. Adam üçün əldən-ayaqdan

gedirdi. Mağazaya bir naşı adam baş çəksəydi Sərdar "başına dönüm"-ləri ilə onun yuyar, on ildən qalma mallarını tərifləyə-tərifləyə sırıyardı.

Qonum-qonşu yaxşı bilirdi Seyfəli dayı hər adama ağız açmır. Əlli ildi belə yaşayırdı, ömür vəfa etsəydi, bir əlli il də belə yaşayardı. Dörd oğlu, iki qızı vardı. Hamısını yerbəyer eləmişdi, qalırdı kiçik oğlu, onu da iki baş-dörd ayaq edəndən sonra Seyfəli dayı rahat olacaqdı.

Sərdarın dükanına girəndə Seyfəli dayı özünü bir az naqolay hiss edirdi. Qərəz, çətinliklə də olsa xahişini elədi. Allah kömək olmuş Sərdar da şadlıqla gülümsədi:

– Əşi, bu nə minnətli işdir ki, xahiş edirsən? Sən mənə əmr elə! Belə xeyir işdə də bir-birimizə kömək eləməyəcəyiksə, bəs, havaxt edəcəyik? Get, ürəyini buz kimi saxla, sabah axşam hazır olacaq...

– Haqqı nə olacaq, qonşu? – Seyfəli dayı bir əli siçanlar oynaşan cibində, bir əli ağarmaqda olan bığında soruşdu.

– Əşi, bu nə sözdür?! – Sərdar şirin dilini işə saldı. – At deyil, dəvə deyil... Sabah danışarıq...

Seyfəli dayı bir istədi desin ki, qonşuluqda bir az ucuz olsa, pis olmaz. Amma dinmədi. Bir az arxayınlaşdı, evə qayıtdı. Bilirdi, Sərdar dedi, qurtardı getdi. Elə bil öz əlinlə aparıb qoymusan, get, götür.

O, simic adam deyildi. Əlində-ovcundakını dost-aşnaya xərcləməyə hazırdı. Amma axır illər elədiyi iki-üç

toy Seyfəli dayını çökürtmüşdü. Əli də daha kardan düşmüşdü, pul sarıdan korluq çəkirdi.

Sabahısı işdən icazə aldı, üç olmamış qayıtdı. Daş karxanasında maşinist idi. Paltarını dəyişdi. Qapıdan çıxanda arvadı qayıtdı ki, bəs, Sərdarın oğlu əsgərlikdən gəlib. Seyfəli dayı fikrə getdi: "Yaxşı olmaz, gözaydınlığına getmək lazımdır... Düyü isə yenə qaldı..." Dinmədi.

– Hamı ordadır, sən də get. Qonşudur... – Arvadı dilləndi.

– Sən deməmiş də başa düşürəm ki, getmək lazımdır.

Altı uşaq doğub-böyütmüş, yaşlandıqca əndazəsiz kökələn arvadı başını aşağı saldı. Bircə bunu tapşırdı ki, Seyfəli içməsin. Bilirdi ki, kişinin dilinə bircə damcı dəydimi, vəssalam, daha dalını-qabağını gözləməyəcək, başlayacaq qonum-qonşunu bəzəməyə. Seyfəli içməyəcəyini qərara alıb yola düzəldi. Gedib süfrə üstünə çıxdı. Sərdar oğlunun qayıtmağını əməlli-başlı qeyd edirdi.

Həyətdəki ağac kölgəsində stollar açılmışdı. Bir az aralıda kabab çəkilir, yaxın-uzaq qonşular da bir illik qoçların ətindən yeyir, bala-bala da "vururdular".

Ev sahibi evdə idi. Deyəsən, daha hörmətli qonaqları içəridə oturtmuşdu. Seyfəli dayı stol arxasına keçmək istəmədi.

– Bir girim əsgər oğlanla görüşüm, Sərdara gözaydınlığı verim, sonra yanınıza qayıdaram...

Babaş kişi qır-saqqız oldu ki, buraxmaram. Gecikmisən, gərək "cərimə" badəsini içəsən, dedi.

– Yox, yox, istəmirəm. – Seyfəli dayı əllərini qaldırdı. – Arvada söz vermişəm, evə ayıq qayıtmalıyam.

Nüsrət kişi hırıldadı:

– Qocaldıqca xərifləyirsən ha! Adam da noxtasını arvad əlinə verərmi?!... Götür stəkanı, Seyfəli, ayıbdır...

Babaş kişi gülə-gülə, yarıxoş, yarızor kabab şişini onun bir əlinə, dolu stəkanı isə o biri əlinə dürtdü. Seyfəli dayı tamahlandı. Tikələrdən yağ damırdı. Səbrlə gözləyən qonşular onun dil-dodağı pörşələnə-yana bir səkil tikəni şişin üstündəcə dişinə çəkdiyini görüb rahatlandılar. Seyfəli dayı əlindəki stəkanı bir nəfəsə boşaltdı. Gözləri yaşardı. Demə, zəhrimar təmiz spirtmiş. Yanğısını öldürmək üçün yeməyə girişdi. İçalatı qovrula-qovrula fikirləşdi: "Zalım oğlu süfrəyə gör, nə qoyub! Ay sənin hərci-betərini nə deyim, Sərdar. Milyon üstündə oturursan. Bir mərifətli şey versəydin, canın çıxardı?! Aman-zaman bircə oğlun var da, kimin üçün yığırsan?!" Sərdarın arvadı tibb məntəqəsində laborant işləyirdi. Bu içki də ora malına oxşayırdı.

Seyfəli dayı bir azdan dəmləndi. May günəşi, təzə ətin kababı, ağac kölgəsi! Bütün bunlar hamısı birdən başına vurdu. Gözaydınlığa gəldiyini gücnən yadına saldı. Ayağa durdu. Yapışdı Babaşın yaxasından, dili topuq çala-çala dilləndi:

– Durrr... Məni apar ora!

Babaşın ağzı getdi qulağının dibinə, hırıldadı:

– Hara, inşallah? – Soruşdu.

– Deyirəm... deyirəm... – Seyfəli dayı hıçqırdı və fikrə getdi. – Hə... yadıma düşdü... Deyirəm, bir Sərdara deyim... Əşi, dükançımızı deyirəm də. Axı, oğlu gəlib əsgərlikdən...

Babaşın qırmızı sifətində tavada oynayan günəbaxan tumuna oxşar gözlərindən savayı hər bir əzası xumarlanırdı. O, pıqqıldadı:

– Neynək, gedək... – dedi. – Amma gözaydınlığını əvvəl-əvvəl Bəxşəliyə ver. Yoxsa Bəxşəli dadaş səndən inciyər...

Bu sözə masa arxasındakılar hırıldaşdılar. Seyfəli dayı Babaşa yuxarıdan aşağı küt-küt baxdı. Hərəsinin ağzından bir avaz gələn qonşulara fikir vermədən soruşdu:

– Bəs, Bəxşəliyə niyə, a Babaş?! Oğul ki, Sərdarındır...

– Sən mənim canım, Seyfəli, o uşağa bir də yaxşı-yaxşı diqqət edərsən... – Babaş kişi ayıq olanlara göz basdı. – Gör, kimə çox oxşayır?! Sərdara, ya Bəxşəliyə...

Seyfəli dayı çənəsinin altına girmiş Babaşı əlinin dalı ilə kənar etdi, mızıldandı:

– Kəs səsini! Qurumsaq! – dedi. – Onun süfrəsinin başında oturmusan, axı... Yerə girmirsən?!

Bəxşəli Sərdarın arvadı ilə tibb məntəqəsində işləyirdi. İkisi də feldşer idi. Bəxşəli Sərdar gilə öz evi kimi gedib-gəlirdi. Qonşu məhəllədə olurdu. Evlərinə yatandan-yatana gedirdi. O da hər gün yox. Çox vaxt Sərdarın aynabəndində gecələyirdi. Qarabuğdayı, pəzəvəng

kişi idi. Hər şaqqasından iki dənə Sərdar kimisi çıxardı. Məhəllə sakinləri iyirmi il idi ki, bu "ailəli" dostluğun şahidi idilər.

Seyfəlinin ayaqları bir-birinə dolaşırdı. Sərdarın eyvanına qalxdı. Əsgər oğlanla qapıda rastlaşdı. Qucaqlayıb onu öpdü.

– Həmişə evində-eşiyində, qardaşoğlu! – dedi. – Atan hardadı?!

Oğlan dinməzcə kişini içəri apardı. Otaqda "onu yemə, bunu ye", "onu içmə, bunu iç" idi. Seyfəli dayını görüb ikisi də – Sərdar da, Bəxşəli də masa arxasından qalxdı. Əsgər oğlan keçib onlarla yanaşı durdu.

Seyfəli dayı gözü onlarda, yaxınlaşdı. Babaşın sözləri yadına düşdü, birdən dayandı. Bir Sərdarın oğluna, bir də Bəxşəliyə baxdı. Özünə itirdi: "Baho! Qurumsaq Babaş elə düz deyirmiş də! – Fikirləşdi. – Gör necə də oxşayırlar... Heç ayırmaq olmur. Lap Bəxşəlinin cavanlığıdır ki, var. O qalın qaşlardır, o qıyıq gözlərdir ki, güləndə qarası yox olur, ağı parıldayır... Ata-oğul, vallah, bunlardır". Sonra Seyfəli dayı açarını tamam itirdi. "Yaxşı, əsgər oğlan Bəxşəlinin dost-doğma oğludur! Bu məlum oldu. Bəs, bu dükançı haramzada niyə özünü atıb ortaya? Hmm... Mən niyə burdayam?! Hə?... Zəhrimar yaman tutub məni. Evi də ev deyil, muzeydir..."

O asta-asta irəlilədi, ayağı az qala otağın döşəməsini bütöv örtən xalçanın qırağına ilişdi, büdrədi. "Keçən il

bu yox idi, iki xırdası dururdu. Bu il alıb... Alar da! O da almasın, kim alsın?! Əşi, Sərdarın pulunu balta kəsməz! Sən öl, kəsməz! Hə? Kəsər, ya kəsməz?" Bir də səntirlədi. Bəxşəli cəld tərpənib onu tutdu. Seyfəli onu qucaqladı.

– Gözün aydın, Bəxşəli qardaş! – Çığırdı. – Böyük toyuna gələk, Bəxşəli! Oğlun sənə yaman oxşayır! Əsgərliyini çəkib, borcunu verib, daha toy tədarükünə başlaya bilərsən... İnşallah...

Bu sözdən qonaqlar tərpəşdi, çoxunun dişi ağardı. Bəxşəli Sərdara gözaltı baxdı, cəld üzünü döndərdi. Tələsik Seyfəli dayını qucaqladı, necə sıxdısa kişinin sümükləri şaqqıldadı. Dedi:

– Elədir, Seyfəli kişi, mənim oğlum Aydın mənə yaman oxşayır... Gələn ayda onun sünnət toyunu edirəm. Gözləyirəm dərslər qurtarsın, tətilə çıxsın. Kirvəm də sən olacaqsan... – Və gözünü necə ağartdısa, Seyfəli dayının huşu üstünə qayıtdı.

Quruyub qalmış Sərdarı gözü aldıqda, təmiz ayıldı. Bəxşəlini kənar edib, ona yön aldı. Əlini yellədib, astadan dedi:

– Gözün aydın, qonşu... Ürəyini sıxma, elə yaxşı igid gərək dayısına oxşaya...

Yer-yerdən "Əlbəttə!", "Düz deyirsən" sədaları eşidildi. Sərdar dinmədi. Nə isə mızıldandı, çevrildi, masanın üstündəki badəni qaldırdı, bir nəfəsə içdi. Gülümsədi.

– Bəlkə oturasan, Seyfəli?! – Dilləndi.

Amma Seyfəli kişidə oturası hal qalmamışdı, səntirləyə-səntirləyə qapıya getdi. Bəxşəli onu ötürməyə çıxdı. Eyvandan Babaşa qışqırdı:

– Gəl, Seyfəlini evinə apar! Halı üstündə deyil.

Qəsəbə kiçikdi. Otuz iki dişin dibindən çıxan sözdən hamı xəbər tuturdu. Sabahısı Seyfəlinin qəribə gözaydınlığı camaatın ağzına düşdü. Onun and-amanına qulaq asan yox idi. “Vallah, dəm idim, nə dediyimi özüm də bilmirəm”. – Deyirdi.

İnan tapılmırdı.

Seyfəli dayı sabahısı qalmışdı belə, bilmirdi, getsin düyü üçün, ya getməsin. Arvadı onu divara qısnadıqda, əlacsız qaldı, daban aldı. Sərdar Seyfəlini gülə-gülə qarşıladı. Xoş-beş elədi. Bu rəftardan onun qırışığı təzə açılırdı ki, Sərdar ləzzətlə dilini nırçıldatdı:

– Qonşu, gərək bağışlayasan, düyü tapa bilmədim.

Seyfəli dayının ürəyi düşdü. Geri qayıdanda yol uzunu kişi düşünürdü: “Elə belə də olmalıdır! Bir adamın əlindən aman-zaman oğlunu alasan, o sənə düyü verər ki, qabağa düşəsən? Hə?” Seyfəli bu sualın cavabını ürəyi ağrıya-ağrıya pıçıldadı: “Yox, verməz!”

## FÜZULİ VƏ ELEKTRONİKA

Hamının "Xəlil müəllim" çağırdığı laboratoriya müdiri qırx yaşında, hündür bir kişi idi. Çəkisi beş puddan az olmazdı. Yerindən tərpənəndə, deyirdin, dağ tərpənir. Əlinin altında işləyənlər onunla yanaşı çox cılız görünürdülər. Xəlil müəllimin mülayimliyinə baxmayaraq nədənsə hamı ondan çəkinirdi.

Keçən həftə səhər yoxlaması vaxtı Muradın qarşısında Aşıq Ələsgərin qoşmalar kitabını gördü. Üstü müasir elektron cihazları ilə qalaqlanmış stolun arxasında oturmuş oğlanın üzü işıq saçırdı. Deyəsən, xəyalı ala buludlarla dolaşırdı. Bu Xəlili çox təəccübləndirdi, amma bir söz demədi, keçib getdi. "Hmm! Aşıq Ələsgər! – Öz-özünə söyləndi. – Elektronika və gözəlləmə! Təzada bir bax! Yəqin biz azərbaycanlılar sabah kosmosa da uçsaq Aşıq Ələsgərin qoşmalar kitabını qoltuğumuza vuracağıq".

Bu gün laboratoriyanı gəzəndə isə Muradın stolunun üstündə Füzulinin "Qəzəllər"inə gözü sataşdı. Cavan mühəndis də arabir ah çəkir, qaşqabaqlı nəsə hesablayırdı. Xəlil xeyli fikrə getdi, amma yenə dinmədi, çünki nə Aşıq Ələsgər, nə də Məhəmməd Füzuli Muradın apardığı sınağı yubatmırdı. "Nə olar, qoy oxusun! – Fikirləşdi. – Yəqin bir səbəb var ki, oxuyur da! Bir o pisdir ki, bu uşağın işi gəlib dirənib Füzuli qəzəllərinə. Bəli,

qibtə olunası hal deyil. Onu işdən soyutmasa yaxşıdır".

Laboratoriya böyük idi. Müxtəlif otaqlarda iyirmi mühəndis və texnik işləyirdi. Murad keçən il institutu qurtarmışdı. Qaraca-qaraqabaq bir oğlandı. Gördüyünü, deyiləni əlüstü dərk edər, verilən tapşırığı yerinə yetirməmiş əlini işdən çəkməzdi. Bir kimsənə ilə zarafat etməz, qaynayıb-qarışmaz, az danışardı. Füzulinin qəzəlləri onun stolunun üstünə gəlib çıxandan sonra bir az da üstünə gəlmişdi. İndi gün uzunu dindirməsən, dinən deyildi. Hamıdan küsülü kimi çəkilmişdi stolunun qoyulduğu küncə.

Xəlil kürsünü geri itələdi, ayağa qalxdı. Gəzindi. Hamı öz işi ilə məşğul idi. O birdən dünən şöbə rəisinə təqdim etdiyi hesabatını xatırladı, dodaqları qaçdı. Başını buladı. Hesabatı Murad tərtib etmişdi. Vərəğin birinin arxasına Füzulinin bir beyti yazılmışdı. "Necə idi o beyt?! – Xəlil yaddaşını cəmləşdirdi. – "Heyrət ey büt, surətin gördükdə lal eylər məni!" Yaman deyib ha! "Surəti-halim görən surət xəyal eylər məni!" Füzuli, Füzuli! Dərdə düşən, ona pənah aparır. Deyəsən, onun doğanağından keçməyən bir örkən yoxdur... Bəs, mənim Füzulilik yaşım haçan olub? Eh! Çoxdan, lap çoxdan... İndi otuz doqquz yaşım var, qoşma-qəzəl əzbərlədiyim vaxtlar çoxdan keçib... Öz aramızdır, o vaxt yaman usta tərpəndim, heç qoymadım iş gəlib Füzuliyə çatsın. Əsli xanımın saqqızını necə oğurladımsa, o, adım çəkiləndə

daş atıb başını tutan ata-anasının dediyinə qulaq asmadı. Mən də fürsəti əldən vermədim, qızıl quş kimi caynağıma keçirib apardım. İndi iki qız, bir oğlum var. Əslinin qocaları ilə də çoxdan barışmışıq. İşə bax ha, kürəkənlər içində ən əzizi indi mənəm..."

Murad bir aydı ki, sərbəst çalışırdı. Apardığı sınağın nəticələri Xəlili yaman sevindirirdi. "Afərin, qarabala! Kişinin oğlu səy edir də! – Fikirləşdi. – Amma səfeh hər şeyi ürəyinə salır. Bilmir ki, həyat ümidsizləri sevmir. Aşıq Ələsgər də keçib gedəcək, Füzuli də, cızdıq çıxaran bu od da! Bu həyatdır..."

Murad kədərlə cihazlara baxırdı, düyməni təkrar-təkrar basır, tezlikölçənin ekranında rəqəmlər dəyişilirdi. O birdən əlini stola çırpdı, cihazları hirslə xətdən ayırdı, yorğun halda gözünü pəncərəyə dikdi.

Xəlil Murada yanaşdı:

– Nə olub?! – Soruşdu. – Cihazların nə günahı var. Don Kixot kimi onların üstünə düşmüsən?!

Xəlilin zarafatına Murad döndü. Müdirin iri gövdəsinə altdan yuxarı nəzər saldı, köksünü ötürdü:

– Düz gəlmir, Xəlil müəllim! – dedi. – İki gündür girinc eləyib məni... Sxemin girişlərinə nə qədər məntiqi vahid verirəm yenə də sıfır alınır. – Ayağa durdu, qırağa çəkildi. – Zəhmət olmazsa, oturun, baxın!

Xəlil onun yerinə keçdi, stul beş pudluq ağırlıqdan yazıq-yazıq cırıldadı.

– Xətti axıra qədər yoxlamısan?

– Bəli, iki dəfə yoxlamışam. Özüm də şübhələnmişdim, gördüm, yox, düzdür.

– Lehim yerləri?...

– Düyün yerlərini təkrar lehimləmişəm... – Murad müdirin yarımçıq sualını dərhal başa düşdü...

– Yarımkeçirici elementləri?

– Ucdantutma dəyişmişəm...

Xəlil daha heç nə soruşmadı, başı sxemi araşdırmağa qarışdı. Nəhayət, nəzərlərini cihazdan ayırdıqda Murad ah çəkdi.

– Əslinə qalsa elə belə də olmalıdır, Xəlil müəllim!

– Niyə ki? – Müdir təəccübləndi.

Murad pəncərədən uzaqlara baxdı. Musabəyovun təzə büstü yaşıl bağçanın yaşıllığında bərq verirdi. Yaz günəşi o qədər parlaq idi ki, göz qamaşırdı.

– Çünki həyatda da belədir. Görürsən, illərlə nazını çəkdiyin qız səni yana-yana qoyur, başqasına ərə gedir. Əgər bu "başqası" səndən yaxşı olsaydı, adamı yandırmazdı. İdbarın biridir... Vallah, qəribədir dünyanın işləri. Çalışırsan, əlləşirsən, buyur aldığın da sıfır! İnsan özü kimilərini yaradır... Yox, bu sxemdə günah yoxdur, o da dünyanın işlərini təkrarlayır. Ona nə var ki!

Xəlil əlini işdən çəkdi. Müdrik görkəm almış Muradı diqqətlə süzdü. Qəhqəhə çəkib güldü.

– Yox, qaqaş! – dedi. – Ola bilsin həyatda, doğrudan da, belədir. Vahid verib, sıfır alırsan... Amma elmdə belə deyil. Səhv edirsən!...

Muradın gözləri alacalaşdı, xəyalı göylərdən endi.

– Səhv etmişəm? – Soruşdu.

Xəlil barmağını bir elementin üstünə qoydu:

– Bunu görürsənmi?! – dedi. – Sən "və yox" elementini lehimləmisən, sxemdə isə "Və ya yox" elementi durmalıdır. Belə eləsən onda girişə verəcəyin vahidlərin sayından asılı olaraq çıxışda istədiyin rəqəmi alacaqsan... Belə-belə işlər, qaqaş... – Sonra dayandı, o biri işçilər eşitməsin deyə astadan dilləndi: – Qaqaş, bağışla, sənin şəxsi işlərinə qarışmaq istəməzdim, amma məcburam! – Başını aşağı salmış Murada dostcasına gülümsədi. – Bilirəm. Füzuli də lazımdır, Aşıq Ələsgər də! Amma, vallah, elektronika onların yeri deyil. Çox demirəm, onlara sərf etdiyin vaxtın yarısını öz işinə sərf etsən, daha yaxşı olar. Səni inandırıram, gələcəkdə dahi olmasan da "Və yox" elementini "Və ya yox" elementindən ayıra biləcəksən... Bu isə az şey deyil. Həyatda bilmirəm, heç olmazsa, elmdə daha vahid verib sıfır almazsan...

## MİLÇƏK RUZİSİ

Humay xala arxa otağa, mal anbarına tələsik əl gəzirdi. Piştaxtaya yorğun halda söykənmiş satıcı qız Gülarə geyinmişdi, səbirsizliklə saata nəzər salırdı. Barmaqları çötkənin gündəlik təmasdan pardaqlanmış aşıqlarını əsəbiliklə oynadırdı. Dodaqaltı deyinirdi:

– Bu zalım oğlu gəlib çıxmaz ha! Qızlar klubun qabağında məni gözləyəcəklər, mən də ilişib qalmışam burda. Eh! Ramiz hardasa Cəfərlədir... Yaman dostlaşıblar, Allah axırını xeyirə calasan... Hər gün gəlir mağazaya...

Humay xala həmişə gəlin kimi bəzəkli olan bu qızdan bir az çəkinirdi. Onun deyintisini öz ünvanına qəbul etdiyindən tələsik hay verdi:

– Bu saat, qızım. – Özü də bu tərəfə keçdi. – Daha da az qalıb...

– İşində ol, havaxt qurtararsan qurtararsan da! Onsuz da plomb-açar Ramizdədir. Bəxtim belədir, vallah, həmişə özümdən axmağı ilə işləmişəm...

– Elə demə, bizim müdir ağıllı baladır. – Humay xala dükanın xırda-para təmizlik işlərini görüb qurtardı, döşəməni yumağa hazırlaşdı. – Qızım, bayaqkı oğlan kim idi? Rəisinizdir?

– Müdirimizi soruşanmı?!

– Hə. O forslu kişini deyirəm... İçəri girdi, quru bir salam da vermədi...

Gülarə əlini laqeydliklə yellətdi:

– Rəis nədir, xala? Anbardardır!

– Sən canın? – Humay xala heyrətdən çirkli döşlüyü ilə ağzını sildi. – Qalstuklu, geyimli, anbardar? Lap mat qalmalı işdir, vallah! Zalım balası iddiasından az qala partlayacaqdı... Elə bil bu yanlar hamısı onun hökmündədir. Deyir: "Ramizə deyin yanıma gəlsin!"

Güların kefi açıldı, arvadın avamlığına qəhqəhə ilə güldü.

– Canınacan, ay xala! – dedi. – Düz tapmısan elə, anbardar Cəfər vacib adamdır. İdarədə rəisdən çox hörməti var. Yaxşı, tezgedən, lazımlı malları kimdən xoşu gəlir ona ötürür. Bəs nə! Haqqına minnət! Vay o gündən ki, bir mağaza müdiri onun bığının altından keçməsin, işi başlayır dolaşmağa. Cəfər o mağaza müdirini salır get-gələ, gözümçıxdıya, aylarla planını qoyur kəsrdə... Bəs nə! – Qız könülsüz güldü, qəşəng dişləri mirvari kimi parıldadı, yorğun-yorğun köksünü ötürdü. – Eh, xala, elə mağazanın bu işinə görə müdirliyi götürmədim də! Vallah, bezmişəm mağazada camaatla çənə-boğaz olmaqdan...

– Ərə getsənə, nəyi gözləyirsən?! – Humay xala dünənki söhbəti təzələmək istədi.

– Müdir zalım bir papaq eləyir ki?!

– Özün bilirsən ki, Ramiz dərdindən divanədir... – deyə Humay xala şübhə ilə Gülarənin qəşəng qamətinə nəzər saldı.

Qız şıltaqlıqla çiyinlərini atdı, nəsə demək istədi, amma qapı açıldı, mağazanın müdiri içəri təngnəfəs girdi. Çantası çiynində hazır dayanmış Gülarəyə günahkar-günahkar baxdı:

– Yubatdım səni, deyəsən?!

– Xoşdur! – Gülarə nazla dilləndi. – Cəfər gəlmişdi bayaqları...

– Bilirəm, yolda rastlaşdıq...

– Nə deyir?!

– Tanımırsan onu?! – Müdir narazılıqla dilləndi. – İşi düşüb ki, durub gəlib də. Deyir, səhər gəl, bir yeşik "servelat" kolbasası apar. Fakturasız-filansız. Haqqını da bir kərəmlik istəyir...

– Razı oldun?! – Gülarə qorxa-qorxa soruşdu.

– Başıma at təpib-nədir?! Kağızsız mal satım, özümü cəncələ salım?! Sonra Bolqar siqareti təklif etdi, hər blokuna bir manat "dilxoşluq" istəyirdi, götürmədim...

– Cəfər lap qudurub ey!

Müdirin qanı qaraldı, qaşqabaqlı halda:

– Yaxşı, get, dükanı mən bağlayacağam... – dedi.

Gülarə gedəndən sonra cavan müdir siyirmədən çıxartdığı bir neçə şirəli kağızı Humay xalaya uzatdı. Gözünü qıydı, uzada-uzada dedi:

– Xala, al bunları, səliqə ilə şirni artığı tökülən yerlərə sərərsən!

– O niyə, xala qurban?! – Humay xala döşəmə əskisini vedrəyə sıxıb belini dikəltdi.

– Əşi, bu milçəklər məni cana yığıb! İstəyirəm kökünü kəsim. Al, iki-iki sər! –Mağaza müdiri kağızları verib, bayıra çıxmaq istədi.

Humay xala alnının tərini barmağı ilə siyirdi, döşlüyünə sürtdü:

– Bala, elə şey eləmə. Allahın yaratdığıdır, yaranıb ruzisini də verəcək! – dedi. – Milçəyin sənə nə ziyanı! Sənin-mənim boğazıma ortaq deyillər ki?!

Müdir şumal bir oğlandı. Mağazanın təhər-töhürünə yaman fikir verirdi. Təmizliyə görə az qala satıcıların gözünü çıxarırdı. Humay xalanın xətrini çox istəyirdi. Görürdü ki, arvad can yandırır, hər yanı gül kimi saxlayır. İndi geri dönüb təəccüblə:

– Nə danışırsan, xala! – dedi. – Görmürsən, yay gələli bu milçəklər necə artıb? Nə gəlir mağazaya, doluşurlar üstünə! Bir deyil, iki deyil, sürü ilə daraşırlar. Yeyib dağıtdılar, axı!

Humay xala onun qabağına yeridi:

– Nə olar, a bala? – Soruşdu. – Onların yediyi ilə kasıbmı düşəcəksən? Maşallah, dükana top vursan dağılmaz. Onların yediyi nədir ki?! Dəryada bir damla... Sən özün də, sənin neçə satıcın da bu mağazadan dolanmırlarmı? Mən bir qoca arvadam, işim buraların sil-süpürüdür... Hərdən mənə də görüm-baxım edirsiniz... İndi beş-on milçəyin yediyinə niyə darılırsan?!

Mağaza müdiri həsdədi:

– Ağ eləmə də, ay arvad! – dedi. – Deyənimiz az idi, sən də bu yandan de! Bal tutan barmaq yalamasın, deyirsən?!

– Xala qurban, acığın tutmasın. – Humay xala işini görə-görə davam elədi. – Dediyim odur ki, bu mağazaya girənlərin hamısı da ağlasa, sən və sənin satıcıların gərək ağlamasın... Bu boyda qəsəbənin bircə dükanı var. Hamı şey almağa bura gəlir. Hərəsindən beşcə qram qırtsan bəsdir... Qoy, milçək yesin bu beş qramın bircə

qramını. Nə olar ki? Allah səni yaradıb, ruzini də verib, Allahın yaratdığı milçək də gərək dolansın da! Kəsərsən onun ruzisini, kəsərlər sənin ruzini! Nə qədər ki, camaat danışmır, daş-tərəzidən şikayət etmir, sənin də bu milçəklərlə işin olmasın... Ahı tutar səni...

Müdir başını bulayıb ağzını nırçıldatdı:

– Deyirsən də, ay xala! Deməyə nə var ki?! Birini bilirsən, beşini yox...

– Nə olar, qadan mənə! – Humay xala əl saxladı. – Qoca arvadam, bilmədiyimi deyərsən, mən də bilərəm! Ürəyim yandığından danışıram da, qərəzçilikdən yox ki!

– Ay arvad, belə başa düş! – Dərdi təzələnmiş müdir başladı: – Mənə qalan elə o milçəklər yeyəndir... O beş qramı ki, deyirsən, onun işi uzundur. Onda çox adamın gözü var. Gələn onun həvəsinə bura ayaq basır... Hərəsinə yarım qram verəndə bu beş qramdan elə bircə qram qalır, ona da milçəklər yoldaşdır... Bir pay da onlara ayırsam işim olar “aldım qoz, satdım qoz, – mənə qaldı şaxşaxı!” İndi başa düşdünmü, ay xala?

– Düşdüm, a bala! – Humay xala ah çəkdi. – Demə, o beş qramın başı bəlalıdır...

– Onda, dediyimi elə, çıxıb gedək xarabamıza, gecə düşür!

Müdir bunu deyib təmiz havaya çıxdı. Humay xala şirəli kağızları götürdü, başladı milçək gur olan yerlərə döşəməyə...

## GÖZ AĞRISI

Aşbaz Ağəmi pıqhapıq qaynayan nəhəng qazanın qapağını qaldırdı, bozbaşın buxarı onun üz-gözünü qarsıladı, payız dumanı kimi ətrafı bürüdü. Onun nəfəsi darıxdı, gözləri torlandı, halı birdən-birə qarışdı, səntirlədi, az qaldı sürüşüb yıxılsın. Ağəmi ocaq yerinə qalxan pillələrdən atıldı aşağı. Yarım metrlik hündürlükdən hoppansa da ürəyi ağzına gəldi. Oturdu, durdu, gəzindi, amma gözlərini örtən tor çəkilmədi. Canına vahimə düşdü. Ağəmi qazanları əlaltısına tapşırdı, yeməkxanadan çıxdı. Haçansa ağ rəngdə olan, indi rəngi bilinməyən aşbaz xalatında və qalpağında götürüldü. Yaz idi. Səhər günəşi təzə-təzə ağacların arasından çıxıb dikəlirdi.

Zavod yeməkxanası tibb məntəqəsi ilə yanaşı idi. Ağəmi ayaqları bir-birinə dolaşa-dolaşa yeriyirdi. Tor görən gözləri ilə tibb məntəqəsinin şüşəli qapısını axtardı, tapan kimi də irəli şığıdı. Zərblə açılıb-örtülmüş qapı çərçivəni yerindən oynatdı. Qeydiyyat otağındakı qız dik atıldı, təcrübəsindən bilirdi ki, bu hökmlə gələn ya baş həkimdi, ya da canı ağzında olan xəstə. Qeydiyyatçı qız hər ikisindən qorxurdu. Kiçik pəncərədən boylandı, zavod yeməkxanasının aşbazı Ağəmini görəndən sonra ürəyini tutub astadan ah çəkdi, hirslə çığırdı:

– Ay əmi, asta ola bilmirsən?! – Acıqlandı və Ağəminin peşəsini yada salıb istehza ilə. – Ocaq üstə yağ qoyub gəlmisən?!

Ağəmi qızın sözünü anlayacaq halda deyildi, əlini gözünün üstünə basıb:

– A qızım, a qızım, oxx! Ölürəm! Hanı göz həkimi?! – dedi və başını hövllə pəncərədən içəri saldı. Onun ah-ofundan kiçik masanın üstündəki xəstəlik tarixçələri qanad açıb yerə töküldü...

Qız qorxa-qorxa geri çəkildi, həyəcanla soruşdu:

– Nə olub, ay əmi?!

– Qızım, tez elə, məni göz həkiminə yetir... – Aşbaz Ağəmi yalvardı. – Nahar uşaq-muşaq umuduna qalıb. Qorxuram xörəyi korlasınlar... Ay gözüm!

– Bu saat, əmi. – Qeydiyyatçı qız əl-ayağa düşdü. – Gözə baş həkim baxır. Birinci mərtəbə, on ikinci otaq. Gedin, mən də xəstəlik tarixçənizi tapıb gətirərəm... Familinizi deyin.

Qeydiyyatçı bu sözü deməyini gördü, Ağəmi kişi bozbaş qazanı kimi qaynayıb daşdı, qurşağa kimi pəncərədən içəri təpildi, şüşəli arakəsmə onun bağırtısından titrədi:

– Bu da deyir baş, bu da deyir baş! Gör, nə günlərə qalmışam ki, bu da deyir baş! Belə başı xarab sənin nəslindir, cəddi-əqrəbandır!

Qızın rəngi qaçdı, dili dolaşa-dolaşa pıçıldadı:

– Sakit olun, ay əmi, sakit olun. Mən sizə bir pis söz demədim, axı?!

– Kəs səsini! Mən göz həkiminə gəlmişəm, sən məni baş həkiminə göndərirsən. Mən boyda kişiyə lağ edir-

sən? Ay bihəya, kimdən eşitmisən?! Hansı nacinsin sözlərini təkrar edirsən?

– Söymə, əmi! Əşi, bir səbrin olsun da! – Qız onu sakitləşdirmək istəsə də müvəffəq olmadı. – İndi ki, belə oldu. Mənəm bihəya?!... Rədd ol, yoxsa dəlixanaya zəng edərəm!

Dəhlizdən keçən yaşlı, ağ saçları gözünə tökülmüş can həkimi qalmaqalı eşidib yaxın gəldi, siqareti damağından almadan soruşdu:

– Nə olub, Zərifə? Bu nə səs-küydü?...

– Görürsünüz, bu kişi məni təhqir edir... – Zərifəni ağlamaq tutdu. – Bilmirəm məndən nə istəyir?! Gözü ağrıyır, göndərirəm onu baş həkimin kabinetinə, söyür məni...

Yaşlı həkim saçını geri daraqladı, qaş-qabağını tökdü. Çənəsi hələ də hirsdən titrəyən Ağəmiyə tərəf döndü:

– Yaşıd, ağsaqqal vaxtında bu nə şuluqluqdur salırsan?! Eyib deyil? Qızı niyə təhqir edirsən?

– Qızın canı çıxsın hər yetənin sözünü təkrar etməsin! Gözüm ağrıyır, o isə məni baş həkiminə yollayır...

Yaşlı həkim heç nə başa düşmədi. O, Ağəmini bu məntəqədə işə başlayandan tanıyırdı. Aşbaz sənətini yaxşı bilirdi. Onun əlinin duzundandı ki, ətraf müəssisələrin işçiləri də nahara zavod yeməkxanasına gəlirdilər.

– Qulaq as, yaşıd. – Həkim mülayimliklə onu başa salırdı. – Zərifə xanım işini bilən qızdır. Xəstəni hara gön-

dərməyi yaxşı bilir. Tibb institutunun tələbəsidir. Bir-iki ilə həkim olacaq... Pis söz onun dilindən çıxa bilməz... Bəlkə sən başa düşməmisən?!

Ağəmi əlini gözündən ayırdı, səbrsizliklə çığırdı:

– Yox, sən bilmirsən, həkim! Onun dediyi özgə sözdür. Dediyi budur ki, sənin gözlərin yox, başın o söz... – Ağəmi barmağını gicgahına aparıb fırlatdı. – Yəni xarabdır. Sözümü kəsmə, həkim, onsuz da bunu hamı deyir. Bu qız da hardansa eşidib təkrar edir. Mən boyda kişini başı xarab edir, baş həkiminə yollayır.

Həkimi birdən gülmək tutdu, əlini bığlarına çəkdi, çiynini divara söykədi. Aşbazın pərləri titrəyən burnuna, sallaq çənəsinə maraqla baxdı.

– Buna bir səbəb varmı?! – Soruşdu və ehtiyatla əlavə etdi. – Əgər gizli deyilsə, qulaq asmağa hazıram...

Lal-dinməz tanıdığı bir adamın belə dil açması həkimi mat qoymuşdu.

– Nə sirr, rəhmətliyin oğlu! – Ağəmi yaşlı həkimin diqqətindən razı qaldı, həvəslə ürəyini boşaltdı. – Sənə kimdən deyim, bizim yeməkxananın təzə müdirindən. O, altı ay qabaq məni yanına çağırdı. Dedi: “Ağəmi, elə məccani işləyirik ha! Belə olmaz, axı! Hər gün beş-altı yüz adama xörək bişirirsən. Hər paydan beş-on qram kəssən, özün də dolanarsan, biz də. Gündə beş-on kilo yağ, bir eylə də ət qalsa, bəsimizdir. Dolanarıq”. Hirs vurdu təpəmə: “Bərəkallah! – dedim. – Mən yaşımın bu çağında qazanıma haram qatım? Utanmırsan?” Müdir

üz-gözünü turşutdu: "Yaxşı, yaxşı, hay salma, – dedi. – Deyəsən, şariklərinin bir-ikisi düşüb. Vaxtın olanda özünü bir baş həkiminə göstər!" Şagirdlərim də yağdan-ətdən aparmaq istəyəndə qoymuram. Onlar da inciyirlər: "Qocaldıqca başın xarab olur, usta, – deyirlər. – Heç elə bil bu zəmanə adamı deyilsən?!" İşə bax ki, arvadım da onlar deyəni deyir...

Həkim qaşlarını çatdı, heyrətlə aşbaza baxdı. Elə bil onu birinci dəfə idi ki, görürdü.

– O nə deyir ki, qardaş?! – Soruşdu.

– Dərinə getsən, çox şey! Keçən axşam qayıtdı ki, xalaqızının ad günüdür, bir az ət-yağ gətir, aparaq onlara, qoy qonaqlığı ucuz başa gəlsin... Soruşuram ki, hardan? Deyir, o boyda yeməkxananın böyük aşbazısan, əlində deyilmi? Gözüm çıxdı kəlləmə, dedim: "Kəs səsini! Ət-yağ lazımsa, evdə pul var, götür, get al! Mən camaatdan oğurlamayacağam!" Arvad tərs-tərs məni süzdü və nə desə yaxşıdır? "Ə kişi, sənin başında yel vurur, yengələr oynayırmış ki! Camaat qaz vurur, qazan doldurur, sən isə... Sən Allah, bir baş həkiminə dəyərsən..." – dedi. İndi bildinmi, sənin bu tərifli Zərifən kimlərin sözünü təkrar edir?! Hə?

Həkim Zərifənin təzədən qara-qışqırıq salacağını görüb əlini qaldırdı, Ağəmini qoltuqlayıb qırağa çəkdi:

– Ağəmi qardaş, səhv edirsən, – dedi. – Bura kiçik tibb məntəqəsidir. Göz həkimi birdir, onu da qoyublar

bizə baş həkim... Qız səni onun üstünə yollayanda düzgün iş görüb. İnandın?!

– Bu boyda kişinin sözünə necə inanmayım... – Ağəmi haçandan-haçana dilləndi. – İndi, Allah eləməmiş, başım ağrısa, onda da baş həkiminə getməliyəm?!

Həkim yüz kiloluq kişinin uşaq sadəlövhlüyünə təəccübləndi:

– Yox, a kişi, bunun üçün can həkimi var! – dedi. – İndi isə get həkimə gözünü göstər...

Ağəmi başını buladı:

– İstəməz, daha gözümün ağrısı keçdi, yəqin nahara bişirdiyim bozbaşın buxarı tutubmuş məni... Amma bir az da burda qalsam, qorxuram, başım xarab ola. Gedim, qazanlar köməkçimin umuduna qalıb. Çox cüvəllağı uşaqdır, bilmirəm müdir hardan tapır bələlərini. Üstündən gözünü çəkən kimi qaynar qazandan əti-yağı çırpışdırır...

Aşbaz tibb məntəqəsindən çıxdı. Həkim onun dalınca baxa-baxa qaldı...

## XEYİR İŞ

Rəşid kişinin əlli yaşı vardı. İyirmi ildi sex rəisi işləyirdi. Bütün zavod işçiləri onu "dayı" çağırırdı. O, səhər sexi dolanandan sonra kabinetinə qalxmaq istəyirdi ki, lağla "zavod idmanının atası" adlandırdığı Şahbazı gör-

dü. Özünü dəzgahların arasına verməyə macal tapmadı, gecikdi. Yaxası Şahbazın kəlbətin cənginə keçdikdə o, ah çəkdi. "İdmanın atası" şadlıqla:

– Dayı can, sənə atəşin idman salamı! – dedi.

Sex rəisi istər-istəməz bu atəşin salamı adi bir salamla da olsa rədd eləməli idi ki, yanğın ondan yan ötsün. Amma Şahbaz düz onun üstünə gəlirdi. Rəşid dayı içəridən tüstülənə-tüstülənə çal bığlarını sığalladı və dodaqaltı mızıldandı: "Belə Rəşid dayın ölsün, canı sənin əlindən qurtarsın! Günah məndədir, axı, sexdə əlimin altında işləyəndə niyə başını yemədim ki, indi qabağında əsir-yesir qalmışam. Qırışmal! Məndən əl çəkmir ha!"

Şahbaz institutu qurtarana kimi fəhlə işləyirdi. Sonra Rəşid dayının tövsiyəsi ilə onu irəli çəkdilər. İndi o, köhnə rəisinin deyinməsini vecinə almadı, qılıqla qoluna girdi və çəkib uğuldayan sexdən bayıra çıxartdı. Rəşid dayı ondan bir boy hündür Şahbaza çəp-çəp baxdıqda az qaldı papaq başından düşsün.

– Nə var, yenə gəlmisən? – Soruşdu və keçmiş işçisinin qılığına aldanmadığını nümayiş etdirdi.

– Can dayı, zavod idmanının sənə bir kiçik işi düşüb. – Şahbaz adət etdiyi qaydada sözə başladı.

Rəşid dayı elə bil bunu gözləyirdi, barıt kimi partladı:

– Batsın zavod idmanı! – Bağırdı və dərhal səsini alçaltdı. – Adə, insafın yoxdur?! Niyə məndən əl çəkmirsən? Elə düz deyirlər, kor atlanar, öz kəndini çapar! Axı, sən də bu sexdə işləmisən... İndi iki gündən bir, atıla-atı-

la üstümə qaçırsan... Bəsdi də, dörd idmançın sexin ştatındadır, bir dənə də klarnetçalan! Daha nə istəyirsən?!

Şahbazı belə hay-küylə qorxutmaq olmazdı, sex rəisləri ilə cəngi-cidal eləməyə adət etmişdi. Hündürboy bir oğlandı, yalançılar sözü, nərdivansız minarəyə çıxardı. Gülə-gülə Rəşid dayını sakitləşdirdi:

– Ürəyin düşməsin, dayı, xeyir işdir! – dedi.

Bu sözdən sonra Rəşid dayının bir az eyni açılsa da, sayıqlığını itirmədi. Hər dəfə Şahbazı görəndə onun dalağı sancırdı. İndi dodaqları qaçdı:

– Doğrudan?! – Soruşdu. – İnanan daşa dönsün! Xeyrin dədən Vəliyə çatsın, mən istəmədim...

– Zarafatsız, dayı, bir yaxşı təklifim olacaq... Bu Arıqovdan yaman narazıyam... Bilmirəm nə edim?

Rəşid dayı götür-qoya vaxt qazanmaq üçün özünü anlamazlığa vurdu:

– Hansının? – Soruşdu. – Sexdə Arıqov ikidir... Biri yaxşı tornaçıdır, o birisi isə...

– Elə onu deyirəm, o birinci dərəcəli boksçunu! – Şahbaz istehza ilə onun sözünü kəsdi. – Guya bilmirsən? Tornaçı ilə mənim nə işim var?

– Nə xəbərdir elə?! – Rəşid dayı şübhə ilə ayağını götürüb qoydu. – Keçən il yüz minnət-xahişlə saqqızımı oğurladın. Belə vurur, belə yıxır, əla idmançıdır, zavod üçün yaxşı boksçular yetişdirəcək... İşə götürdük. İndi nə oldu?

– Bilirsən, dayı, Arıqov o günləri yanıma gəlib deyir ki, maaşımı artırın. Varımdan yox oldum. Zalım oğlu gündə bir-iki saat uşaqlarla atılıb-düşür, aldığı yüz əlli manata qane olmur.

Sex rəisinin alnındakı damarlar şişdi, təəccüblə:

– Necə? – dedi. – Bu avaranı dördüncü dərəcəli çilingərin maaşı təmin eləmir? Onda başına at təpib ki?

Şahbazın iynəsi tikiş tutdu:

– Elə onu de də! – dedi və davam etdi. – Adətidir, hər dəfə yarış qabağı başlayır naz-qoza, həyasızlıq edir, dayı. Bir aydan sonra rayonlararası yarışlar başlayır, qabağıma şərt qoyur. Məşqləri də boşlayıb.

– Ay səni! İpini yığa bilmirsən? – Rəşid dayı heyrətləndi.

– Olur ki! – Şahbaz sızıldadı. – Başımı itirmişəm lap! Direktor o günləri məni çağırmışdı. Deyir ki, rayonun şərəfini bizim futbol və boks komandamız qoruyacaq, yaxşı hazırlaşın... Arıqov da bizimlə belə başlayıb. Nə qədər gec deyil hərəkət eləmək lazımdır, yoxsa bütün rayonda biabır olarıq. Direktor da dərimə saman təpər!

– Təklifini elə! – Rəşid dayı dilxor oldu. – İşçilər indi məni gözləyir. Sən də qurtarmırsan... Gəlib boks komandasına məşqçilik edəsi deyiləm ki, məni dilə tutursan!

Şahbaz Rəşid dayını rinqə çıxan təsəvvür elədi, kefi açıldı:

– Amma nə qiyamət olar! – dedi və ciddiləşdi. – Başına dönüm, Rəşid dayı, Arıqovu çağır, de, ərizəsini yazsın, qovaq getsin...

Rəşid dayının bığları qabardı, tələsik dilləndi:

– Yox, yox! Bu sözü ona deyə bilmərəm. İşçi sizindir, sən gətirmisən, özünüz də qovun. Məni bura qatmayın.

– Elə niyə? – Şahbaz qalın qaşlarını qaldırıb-endirdi. – Bəlkə qorxursan?

– Qorxursan deyəndə ki, lap elə də qorxmuram. – Sex rəisi dodaqlarını dili ilə yaladı. – Ehtiyat edirəm...

Sexdə hamının çəkindiyi, bir çoxunun tük saldığı sex rəisinin səsi elə nazik çıxdı ki, Şahbaz özünü saxlaya bilmədi, ürəkdən qəhqəhə çəkdi. Rəşid dayı utandı, qımışa-qımışa dilləndi:

– Gülərsən də, ay qırışmal! Sənə nə var ki! Mənim yaxam qalacaq o dəli-qudurmuşun əlində. Yaşlı adamam, bir haya bəndəm. Arıqovsa cinninin biridir. "Ərizəni yaz" desəm, bir yumruq tutuzdursa mənə, kim harayıma çatacaq? İldən çoxdur adı sexdədir. Bir dəfə çağırdım yanıma. Dedim, a bala, ayın axırında, cədvəl bağlananda gəl, üzünü görüm barı. Hirsləndi, az qaldı kürsünü başıma geydirsin... Yox, kadr sizindir, özünüz də bilərsiniz...

– Axı sexin hesabındadır, bu işi sən eləməlisən! – Şahbaz onu inandırmağa çalışdı. – İzalə elə başımızdan Arıqovu, yerinə fərli adam götürək...

– Dedim, üz vurma! – Sex rəisi onun əlini kənar elədi. – Sənin xətrin üçün futbolçunu futbol topu kimi dığırladaram, voleybolçunu tordan da yuxarı ataram, klarnetçalanın əlinə elə bir düdük verərəm ki, çala-çala gedər,

amma Arıqova toxuna bilmərəm. Atam, başa düş, kişi birinci dərəcəli boksçudur, yumruqları kudu boydadır... Yox, qardaş, hələ canımdan bezməmişəm.

Şahbaz birdən dirçəldi, sevinclə:

– Tapdım, dayı! – dedi. – Əlacını tapdım! İşə boks üzrə idman ustası dəvət edərik. Canınçün, keşikçi kimi dalınca gəzəcək. Qoymaz ki, gözünü də piləsinlər...

Rəşid dayı fikrə getdi, sonra başını buladı:

– Yox, razı deyiləm! – dedi.

– Niyə, axı?

– Birdən sabah boks ustasının da gicliyi tutdu, arada qalan yenə mən olacağam. Onda neyləyəcəksən? Gedib, Məhəmməd Əlini gətirməyəcəksən ki? İstəmirəm. Ömrüm onsuz da, sənin idmançılarının yanında girovdur. Axır biri məni şikəst edəcək... Nə fərqi var, yumruq yumruqdur da! Amma birinci dərəcəli idmançının yumruğu, deyəsən, ustanınkından yüngüldür. Baxanda yenə Arıqov yaxşıdır. Dilə tutun işlədin... Nə özünüzü incidin, nə məni... Mənə belə xeyir iş lazım deyil.

Şahbaz aciz-aciz pıçıldadı:

– Yenə qaldıq Arıqovun əlində ... – dedi.

Rəşid dayı əllərini yana açdı və gülümsədi:

– Bu da sənin xeyir işin! Baş tutmadı, – dedi və tələsmədən sexə girdi.

## YAXŞI OĞLANIN "DAYISI"

Məhiş yaxşı oğlandır, amma dərd yaxşı-pis qanmır. Qismət olanda elə yaxşıya qismət olur. O, çevrikdikcə yazıq-yazıq cırıldayan, fələk kimi yerə qarın vuran yataqxana çarpayısından qalxanda gün günorta olmuşdu. Qaynayıb-qarışmadığı otaq yoldaşları, iki yuxarı kurs tələbəsi imtahana getmişdi. Məhiş fikrini dağıtmaq üçün aşağı düşdü.

O, birinci kursda oxuyurdu. Şəhərə uzaq dağ kəndindən gəlmişdi. Riyaziyyatdan qışdan bəri dalınca sürünən "quyruqdan" lap yaxınlarda izalə olmuşdusa da, yay imtahanları kəsmişdi qapını. Sabah imtahandı. Yeni qorxu almışdı başının üstünü. Riyaziyyat müəllimi Məhişin inadla, hər həftə nə yolnan aldığı məlum olmayan göndərişlərdən bezikib axırıncısına qiymət yazmışdı. Amma yaxşı heç nə vəd etməyən bir sakitliklə demişdi: "Əgər bir də cəngimə düşəcəyini ümid eləməsəydim, çətin ki, səni əlimdən buraxaydım. Oxuya bilmirsən, qabiliyyətin yoxdur, ali cəbri bilmirsən, get, özünə iş tap, camaatın da vaxtını alma! Yay imtahanından onsuz da, çıxmayacaqsan. Lap bilsən də, qiymət yazmayacağam! Yaxşısı budur, sənədlərini al, üzüsulu qayıt kəndə, dədənin yanına. Qoy, çomağın birini də səninçün sazlasın. Gedib birgə çobanlığınızı edərsiniz!" Məhiş bütün bunlara Tamillanın xətrinə dözdü, amma bilirdi, bu dəfə tab gətirməyəcək!

Məhiş birinci mərtəbəyə düşdü. Ehtiyatla bayır qapını araladı, yağlanmamış həncamələrin səsi foyeni başına götürdü. Yataqxana növbətçisi pilləkənaltı otaqçasından başını dışarı uzatdıqda oğlanın ürəyi üzüldü: "Yaxam keçdi Züleyxa xalanın əlinə. – Fikirləşdi. – İndi bir saat da bu döşəyəcək qabırğama!" O, əlini qapıdan çəkdikdə növbətçi arvad ərklə çımxırdı:

– Adə, dərslərini oxusana! – dedi. – Niyə veyillənirsən? Qışdakı kimi kəsilsən, yaxşımı olar? Daha sənə göndəriş yazdırmaqdan yorulmuşdum...

Məhiş Züleyxa xalanın sözündən rəncidə olsa da, dinmədi. Dekanın katibəsi, doğrudan da, onun adına üçmü, ya dördmü göndəriş yazmışdı. Qız növbətçi arvadın qohumu idi.

Yoğun, acıdil, sonsuz və kişi səsli Züleyxa xalanın Məhişə quşu qonmuşdu, almışdı qanadının altına, çətin məqamda əl uzadırdı. Təqaüddən əli üzülmüş tələbəni yaxınlıqdakı uşaq bağçasına gözətçi düzəltmişdi. Məhiş indi canına cəfa bassa da, həftənin iki-üç gecəsini quru taxtın üstündə keçirtsə də, maaşını alır, minnətsiz dolanırdı. Atasından qorxduğundan "kəsildiyini" evə yazmamışdı. Bilirdi, kişi xəbər tutsa, çomağını çiyninə atıb şəhərə gələcək, zor-xoş, söylənə-söyə onu qabağına qatıb kəndə aparacaq, "oxumasan səni qoyuna göndərəcəyəm" vədini yerinə yetirəcək. Bir kimsə də atasını bu fikirdən döndərə bilməyəcək.

– Züleyxa xala, istəyirəm bağçaya dəyim, kitablarım orda qalıb. – Məhiş çəkinə-çəkinə dilləndi. – Sabah imtahandır.

Xala qara bulud kimi aldı başının üstünü. Qolundan tutub Məhişi zorla saldı pilləkənaltı otaqçasına. Çiynindən basıb kətilə oturtdu. Bir fincan çayı sürüşdürdü qabağına, qənddanın qapağını qaldırdı. Qonaqpərvərlik mərasimini dinməz yerinə yetirdikdən sonra yoğun şəhadət barmağını ona tuşladı:

– Ağzımı boza vermə! – Züleyxa xala aldanmadığını nümayiş etdirdi. – Bala, rayonda qoyub gəldiyin ata-anana yazığın gəlsin. Onlar əyin-başından kəsib sənə pul yollayırlar. Oxu da! Nə düşmüsən bu küçələrin canına? Dünyada qısatuman, uzuntuman, şalvarlı, şalvarsız qız qəhətliyidir?! Belənçiklərin sayı-hesabı yoxdur. Mən səni bağçaya işə düzəltdim ki, sən başını dolandırasan, demədim ki, Fatmanisənin nəvəsinin dalınca düşəsən! İyirmi bir yaşında şəkil kimi bir oğlansan, bir oturuma bir kitab əzbərləyirsən... Riyaziyyat müəllimini cinləndirmə, o da qiymətini versin. Fatmanisənin nəvəsi dost-doğma baldızıdır. Vermək istəmir sənə! Zornan deyil ki! Bilsəydim ki, qızla çoxdan alışıb-verişirsən, səni ora işə düzəldərdimmi?! Pah atonnan! O boyda kişi ilə çıxmısan cəngi-cidaya, necə olsa, o, kafedra müdiridir, inadına salacaq, axır, səni institutdan qovduracaq! Adə, nə qələtdir mən elədim!

Məhiş arvadın ağzına səbrlə baxır, iki gündən bir eşitdiyi bu nəsihətlərə vərdiş etdiyindən etiraz etməyi ağlına belə gətirmirdi. Yalnız xalanın çənəsi yorulandan sonra söz leysanı kəsildi. Məhiş nazik bığlarının üstündə olan tüklü xalı didişdirirdi. Ayağa durdu. Qurumuş dodaqlarını dili ilə islatdıqda iri hulqumu qalxıb endi.

– Axı, bağçada bu vaxt nə işin var? – Züleyxa xala nəfəsini dərmişdi, yeni nitq irad etmək istəyirdi.

Məhiş onu qabaqladı. Xalanın marağını təmin edəcək bir cavab verə bilməyəcəyini görüb zarafatla dedi:

– İtkin düşmüş oğlumu axtarıram, ay xala. Deyirlər, hardasa bu yaxınlarda görüblər...

– Yeri, adə! Bu da doluyur məni! – Bazburutlu Züleyxa xala onu otaqçasından bayıra saldı və qapıya çatmış tələbəyə qışqırdı. – Sabah istirahət günümdür, burda olmayacağam, evə gələrsən. Ürəyimə damıb ki, riyaziyyat müəllimi sənə qiymət yazmayacaq. İmtahana getməsən də olar. İndidən adam axtarmaq lazımdır... Sabah gələrsən. Görək tədbirimiz nə olacaq!

Məhiş başını tərpətdi, öz dərdi ilə tək qalmaq istəyirdi. Odur ki, bu cür asanlıqla xalanın çənəsinin altından çıxmasına sevindi.

Uşaq bağçası ilə yataqxananın arası heç bir tin də olmazdı. Qapıdan keçməyə ərinən Məhiş hasarın sökük yerindən adladı. Yaşıllığa batmış bağça həyəti sərindi. Uzaqdan uşaqları qaçışan, oynayan görüb dayandı. O, ağacların altındakı xəlvəti guşəsinə çəkildi. Gözlədi ki,

uşaqları nahara aparsınlar. İndi ora getmək istəmirdi. Əlindən cürbəcür oyuncaqlar düzəltmək gəldiyindən uşaqlar ondan yapışıb əl çəkmirdilər. Bu gün isə qanı qara idi.

Tərbiyəçinin ölçülü-biçili səsi dalaşanları, şuluq salanları sülhə çağırırdı. Danışan Tamilla idi. Məhişin onunla tanışlığı qəribə olmuşdu. Yataqxanadan çıxıb instituta gedirdi. Məhiş şose ilə sürətlə gələn maşını, fikri hardasa olan və tələsmədən yolu keçən qızı görəndə özünü itirdi. Çağırmaq gec idi. Bu, qızı daha da çaşdıra bilərdi. Məhiş özünü var gücü ilə atdı qabağa, qızın çiyinlərindən tutub iki əli ilə itələdikdə, maşının qanadı ayağına toxunub onu yerə çırpdı. Qalxanda yolun qırağındakı kolluğa uçmuş qız artıq ayaq üstə idi. Üz-gözü, əl-ayağı sıyrılmış halda Məhişə baxır, gözünün yaşını sel kimi axıdırdı.

Məhiş hirslə deyindi: “Bu da mənim zəhmətimin müqabili. Onunla tanış olalı riyaziyyat müəllimi mənimlə düşmən nədir, lap qanlıbıçaqdır. Baldızına söz deyə bilmir, məni incidir. Deyən lazımdır, nə olsun kafedra müdirisən! Bir qız bir oğlanın deyil, bəyəm? Kimdən əskiyəm? Atam iyirmi qoyun satsa, sənin bir illik maaşından artıq pul götürər. Nə olsun ki, çobandır?” O, fikrə getdi, birdən uşaqlıq çağları yadına düşdü, burnunun ucu göynədi: “Kaş bir də uşaq olaydım! Bu oxumaq əzabından canım qurtaraydı. Deginən, ay axmaq, nəyinə lazımdır ali məktəb? Əsgərliyini çəkmişdin, gedəy-

din atanla çobanlığını eləyəydin də. Nə düşmüsən bir qızın dalınca, əl çəkmirsən... Yox, heç elə şey olar, öldü var, döndü yoxdur. "Çoban oğlu, çoban oğlu" deyənlərin acığına mən Tamillanı alacağam... Arada məhəbbət var... Tamilla isə lap nağıllardakı kimi danışır. Deyir, ölümün əlindən məni sən almısan, demək səninəm... Ata əvəzi yeznəsinin sözünü eləyib iki qara qəpik, məni gözündən iraq qoymur".

Məhiş birdən boynunun ardına sıçradılan sudan diksindi. Qanrıldı. Kəkilli bir oğlan uşağı yaş əllərini dalında gizlədib, gözləri qıyıla-qıyıla gülürdü. Toppuş yanaqları qızarmışdı. Uşağın beş-altı yaşı ancaq olardı.

– Durub qulağını qopararam, qırışmal! – Məhiş yerini rahatlayıb ona acıqlandı.

– Hop! Əlin çatmaz! – Uşaq geri sıçradı, qaragilə gözlərinin bəbəkləri işıldadı. – Gəl, gizlənpaç oynayaq. Hə? Uşaqları çağırımmı?

– Bu gün qanım qaradır, Elçin, mane olma! – Məhiş qaş-qabağını salladı, üzünü çevirdi.

Elçin gəlib onun önündə dayandı, gözlərini döydü:

– Kim səni incidib? – Soruşdu. – Döyüblər?

Məhişi gülmək tutdu:

– Eh, sən lap pıtrağ kimi yapışırsan, əl çəkmirsən. Mən boyda kişini kim döyə bilər? – dedi və uşağı başından eləmək üçün dərdini xırdalamalı oldu. – Elçin, sabah imtahandır, mən də dərsimi bilmirəm. Qorxuram, iki alam. Anladın? Di, get!

Elçin donuxdu. Məhiş maraqla ona baxdı. Böyük-böyük danışan bu uşaqdan xoşu gəlirdi.

– İki almaq pisdir? Hə?

– Oho, qardaş, pis dedin qoydun, biabırçılıqdır! – Məhişin kefi açıldı. – Mən boyda kişi iki alsa, utandığından, gərək adam arasına çıxmasın.

– Dərslərini oxu da! – Elçin məsləhət gördü.

– Kim deyir ki, oxumuram? – Məhiş istər-istəməz, uşaq gözündə özünü təmizə çıxarmalı oldu. – Oxuyuram, yadımda qalmır. Oho, riyaziyyatı sən zarafat bilmə, qardaş, çətin elmdir... Həm də oxumağın faydası yoxdur. Müəllimin məndən zəhləsi gedir.

– Axı, sən yaxşı oğlansan...

– Qardaş, kimdi baxan, mən yaxşıyam, ya pisəm? – Məhiş üzündəki xalın tükünü dartışdırdı. – İkini elə yaxşı oğlanlara verirlər də! İncidirlər bizi...

– Səni incidən pis oğlanlardır?

– Hə! – Məhiş ah çəkdi.

– Pis oğlanlar güclüdürlər?

– Güclü yox, çoxdurlar... – Məhiş Elçinə öz fikrini izah etməkdən indi ləzzət alırdı. – Birinin əlindən çıxırsan, o birinin əlinə düşürsən. Yeddibaşlı əjdaha kimidirlər...

– Sənlə oxuyanların hamısına iki yazacaqlar?

– Baxır da! İki alan da olacaq, iki almayan da! – Məhiş köksünü ötürdü. – Çoxu yaxşı qiymət alacaq...

– Niyə?

Məhiş başını qaşıdı, uşağın qavrayacağı bir dildə danışdı:

– Niyəsi çoxdur, Elçin bala! – dedi və təpəsinə taqqıldatdı. – Birinin yaxşı başı var, birinin əmisi var, birinin dayısı var, birinin də karlı pulu var... Hərə işini bir cür yola verir. Arada qalan yaxşı oğlanlar isə iki alırlar...

Elçin onun yanında oturdu, əlini çənəsinə dayadı, qəribə bir kədərlə soruşdu:

– Sənin heç birisindən yoxundur?

Məhiş:

– Yoxdur, qardaş, yoxdur! Olsaydı nə dərdim?! – dedi və başını aşağı saldı.

Elçin kiçik alnını qırışdırdı, burnunu çəkdi və tərəddüdlə dedi:

– İstəyirsən, babama deyim? Babam qoymaz sənə iki yazsınlar.

Məhişin gözləri heyrətdən kəlləsinə çıxdı, quruyub qalmışdı. Haçandan-haçana uşağın dedikləri ona çatdı, qəhqəhə çəkib güldü:

– Ha-ha-ha! Ay səni, Elçin, – dedi. – Get işinə, qırışmal!

Elçin incidi:

– Dişini ağartma! – deyə acıqlandı və hirslə. – Mənim babam böyük adamdır, hamı onu tanıyır, hamı ondan qorxur!... O, direk... yox, rektordur...

– Yaxşı, incimə görək! – Məhiş onu sakitləşdirdi. – Baban haranın direktorudur?

– Böyük məktəbin! – Elçin öyündü.

– Bəlkə kiçik məktəbin? – Məhiş zarafata salmaq istədi.

– Yox!

– Yalan demirsən ki? – Birdən Məhişi qəribə bir həyəcan bürüdü. – Dayan, sənin familin necədir?

Elçin dedi. Məhiş sevinclə:

– Düz gəlir! – dedi və ayağa qalxdı. – Bizim rektorun famili də belədir. Bəs, babanın adı?

Elçin dedi. Məhiş qışqırdı:

– Urra! Bu da düz gəlir...

– Sənə demədimmi? – Elçin razılıqla gülümsədi.

Məhiş dərhal işin əməli tərəfinə keçdi:

– Elçin, deyirsən, babana deyərsən... Lap yaxşı, çox sağ ol! Baban soruşsa, bu adamı hardan tanıyırsan? Nə deyəcəksən? Hə?

– Deyərəm, deyərəm ki, bağçamızda işləyir, dostumdur, qoyma ona iki yazsınlar... Deyərəm, mənə "idmançı" düzəldib. Yaxşı oğlandır... Babam sözümdən çıxmır, nə desəm eləyir.

Məhiş özünü inandırmaq istəyirdi ki, işi düzəlib. Batan saman çöpündən yapışan kimi yapışdı uşağın sözündən. Cibindən kağız çıxartdı, adını-familini, qrupun nömrəsini yazdı. Uzatdı Elçinə:

– Verərsən babana! – dedi. – Deyərsən, bu oğlandır.

– Yaxşı!... – Elçin kağızı cibinə qoydu. – Sən mənə bir yel dəyirmanı düzəlt! Əli üçün düzəltmişdin ha, bax, ondan.

Məhiş hiylə ilə:

– İmtahandan sonra, yaxşımı? – dedi və ümidlə boyu dizinə çatan uşağa baxdıqda, özü öz ümidlərinə güldü. – Elçin, get, uşaqları yatmağa aparırlar. Tamilla müəlliməyə de ki, onu burda gözləyirəm... Bax ha, heç kim bilməsin...

Elçin başını tərpətdi, qaça-qaça getdi. Məhiş onun dalınca baxdı və birdən qət elədi: "Qıza demək lazımdır... Daha keçib, o məni başa düşər. Deyərəm, Tamilla, bir-iki il görüşməsək yaxşıdır. İnstitutu qurtarandan sonra fikrini dəyişməsən, alaram səni. Yeznən əl çəkmir, axır institutdan qovduracaq məni... Bəs, qorxaqlıqda məni təqsirləndirsə, Tamillaya nə deyəcəyəm?" O, oturdu, çiynini ağacın gövdəsinə söykədi, elə fikir-xəyal içində də onu huş apardı...

...Züleyxa xala sabahısı onu günortaya kimi gözlədi. Məhiş gəlib çıxmadı. Yataqxanaya tələsdi. Tələsik ikinci mərtəbəyə qalxdı, otağın qapısını döymədən açdı. Məhiş tək idi, qabağında da bir qalaq çör-çöp, taxta-tuxta, cavan söyüd ağacının budaqları, karıstı vardı. O, fit çala-çala nə isə yontalayır, hamarlayırdı. Stolun üstündə bir oyuncaq dururdu. Məhiş axırıncı hissəni bərkitdi. Ləzzətlə gərnəşdi və süpürgəni götürdükdə Züleyxa xalanı gördü.

Züleyxa xala heyrətlə:

– Adə, imtahanları bir qırağa qoyub dülgərxana açmısan? Nədir elə, düzəltmisən? – Soruşdu.

– Yel dəyirmanıdır... – Məhiş cavab verdi.

– Kiminçündür?

– Dayımçün!

– Dayınçün? – Züleyxa xala onun sözünü təkrar etsə də, başa düşəcək halda deyildi. – Bəs, riyaziyyat nə oldu? Kəsildin?

– Beş almışam...

– Yalan deyirsən! – Xalanın sallaq yanaqları titrədi və inamla. – Tamillanın yeznəsi sənə qiymət yazmaz! Zarafat edirsən...

– Yazdı da! Hələ tapşırdı ki, nə işin olsa, birbaşa yanıma gələrsən. Dedi, qoymaram bir adam sənə gözün üstə qaşın var desin...

– Adə, necə barışdız?!

– Dayımın canı sağ olsun! – Məhiş lağ elədi. – Bir kəlməsi bəs elədi, düşmən dönüb dost oldu.

– Deməli, sənin dayın var?! – Züleyxa xala elə bil hər şeyi başa düşdü və incik soruşdu: – Bəs, mənə niyə demirdin? Harda işləyir dayın?

– İşləmir hələ! – Məhiş çaşqın baxan Züleyxa xalaya güldü.

– Bəs, neynəyir?!

– Bağçaya gedir... – Məhiş bir dəli qəhqəhə çəkdi. – Ha-ha-ha.

Züleyxa xala ehtiyatla qapıdan çıxdı. Əllərini yanına vurdu: “Boy, başıma xeyir! Yazığın ağlı oynayıb! Dayı! Bağçaya gedən dayı! Hətərən-pətərən danışır bu

uşaq! Deyəsən, dərddən başı xarab olub! Mənim əllərim əsir...” Foyeyə düşdü. Bir az oturdu ki, dincini alsın...

Məhiş tələsə-tələsə gəlib yanından ötəndə Züleyxa xalanın bu halsızlığını gördü, pərt oldu, dedi:

– Xala, narahat olma, bir azdan gələrəm, hamısını danışaram! Gözlə məni!

– Əlindəki bağlama nədir? – Xala çəkinə-çəkinə soruşdu.

– Dayıma hədiyyə aparıram... Gözlə, daha yubana bilmərəm.

Məhiş qapıdan güllə kimi çıxdı. Dayısının sifarişini gecikdirməyi ağlına belə gətirmirdi...

## “ŞİRİN DÖRDLÜK...”

Şöbəmiz beşmərtəbəli binanın ikinci mərtəbəsini başdan-başa “zəbt” edib. Hələ bir neçə laboratoriyamız aşağıda, binanın zirzəmisindədi.

Bizim qrupun yerləşdiyi otaq dəhlizin axırında, xəlvəti bir guşədədir. “Hesabda olan inventardı” deyə bayıra atılmamış bir neçə sınıq-salxaq cizgi taxtası, kürsü bu arada qalaqlanmışdı. Uzaqdan baxan qapını seçə bilmirdi. Biz isə öyrəncəli idik. Qalan otaqlarla gediş-gəlişimiz yoxdu. Göstərici lövhəni çıxarandan sonra qapımızı həftələrlə açan olmurdu.

Dörd nəfər idik. Məmməd, Alxan, mən, bir də Sürəyya bacı. Şöbədə adımıza "şirin dördlük" deyirdilər.

Otağımızda artıq heç nə yox idi. Qapının dalında paltarasan və soyuducu, onlarla üzbəüz, pəncərə qabağında kiçik çay dəsgahı üçün dolabça, qarşı-qarşıya qoyulmuş dörd pardaxlı masa durur. Dörd yumşaq kürsünü də bura əlavə etsək, avadanlığın tam siyahısı tamamlanır... Unutdum! Otaqda bir yekə cizgi taxtası da var. Amma çoxdandır ondan istifadə etmirik. Küncə qoymuşuq ki, əl-ayağa dolaşmasın. Allah saxlamış Sürəyya bacı olmasaydı, onu çoxdan toz basardı. Hərdən əlinə əski alıb silir, təmizləyir.

İşə həvəslə gəlirdik, günümüzü mənalı keçirirdik. Mehriban bir ailə kimi dolanırdıq. Daim qaynaşan dəhlizdə dayanıb laqqırtı vurmurduq, qonşu otaqları seyrə çıxmırdıq, bir-birimizdən gedib rəislərə şeytançılıq etmirdik. Yanımıza gələn sözbaz əməkdaşlara elə üz göstərirdik ki, onlar bir də bu həndəvərdə dolanmırdılar.

Sürəyya bacı, anam-bacım olsun, yaxşı qadındır. Millər əlindən yerə düşmür, gün uzunu toxuyur. Əynimizdəki qalın yun köynəklər də onun əməlidir. Dedin, ya demədin, fərqi yoxdur, bircə gün də çayımızı əskik eləmir. Elektrik plitəsinin üstündəki çaydan həmişə xoş bir zümzümə ilə "mahnısını" oxuyur. O, izn vermişdi ki, siqaretimi otaqda çəkim. Mən razı olmadım. Sürəyya bacı səbrlə başa saldı:

– Darqursaq olma, Vəli! – dedi. – Mənə qulaq as. Dəhlizə bir çıxırsan, iki çıxırsan, başlayarlar ki, Vəli bekarçılıq edir. Otağın da adı pis çıxar. İçəridə çək, onsuz da öyrəncəliyəm. Ərim evdə papirosu papirosa calayır. Nə qədər istəyirsən pilə özün üçün... Amma tərgitsən yaxşıdır...

Ondan daha çox özümü inandırmaq üçün deyirdim:

– Gec-tezi var, axır atacağam bunu...

Çox da tütün aludəsi deyiləm. Gündə dörd-beş dənədən artıq çəkmirəm. Aldığım bir qutu "Marlboro" siqareti mənə həftədən çox bəs eləyir. Həkim məsləhət etmişdi: "Cavan oğlansan, – demişdi. – İndidən vermisən qarına. Sənin kor bağırsağını kəsənə kimi mənimki mənə dəydi. Bu yaşda belə köksən, sonra neynəyəcəksən? Gündə bir-iki siqaret çək, piy basmasın səni". Onun məsləhətinin köməyi oldu. "Marlboro" sinəmə düşürdü, öskürtmürdü, amma tapmaq çətindi. Əvvəllər belə deyildi, hər yerdə bu zəhrimardan vardı. Öz qiymətinə olmasa da yarım manat, ya bir manat artığına tapılırdı. Mağazalardan yoxa çıxandan sonra qalırdı bircə əlac, gedib altı-yeddi manata şəhəri başına götürmüş alverçilərdən almağa! Elə də eləyirdim.

Məmməd dissertasiyanı axır ki, müdafiə elədi. İndi boş vaxtı çoxdur. Mütaliəyə girişmişdi. Kitablara da üz çəkirdi ki, nə oxuduğunu görən olmasın. Biz ona həmişə sataşırdıq. Oxuduğu macəra romanları kişinin gözünün

qarasını aparıb, amma o, yenə əl çəkmir. Uzaqdan baxan Məmməd haqqında deyərdi: "Bu qaşqabaqlı, yarımyaş adam həyatından narazıdır". Bu çox səhv fikirdi. Onun güşadlığına domino daşları ortaya qoyulanda baxasan. Məmməd hər şeyi unudurdu. Vurub yıxan, saatlarla eşqnamələr deyən macəra qəhrəmanlarını ya vurduğu yerdə, ya da yıxıldığı yerdə qoyur, irəli şığıyırdı. Gülürdük. "A kişi, – deyirdim. – Dominonu dördlükdə oynayanda ləzzət verir, yerinə müştəri çıxanmı var?! Onsuz da dörd nəfərik də!" Kimə deyirsən! Məmməd oyun vaxtı çox hay-küy salır, cığallıq edir, qaraqabaq kişi çevrilirdi uşağa. Həmin günlər səsimizə qapı açıb boylananlar da olurdu. Keçən il müdirlərdən hansısa (adı yadımdan çıxıb) qəflətən içəri girmişdi. Söz vaxtına çəkər, yazın ortaları idi. Başımız oyuna qarışdığından nahar fasiləsinin qurtardığını unutmuşduq. Müdir baxdı, baxdı, dinmədən çıxdı. Dedik aylıq mükafata rəhmət, amma yaxşı qurtardıq. Səhərisi xəbər tutduq ki, onun vəzifəsini böyüdüblər. Kişinin başı təhvil-təslimə necə qarışdısa, bizi cəzalandırmağı yaddan çıxartdı.

Amma özümüz öz tənbehimizi elədik. Dominonu birkərəmlik yığışdırdıq. İndi daşlara heç nahar fasiləsində də əl vurmuruq. Məmməd hərdən həvəslənib bizi dilə tutur, bizsə fitvaya getmirik. Qulağı dinclikdən bezikməmişik ki!

Masam Alxanınkı ilə yanaşıdır. Dominoda "yanan"-dan sonra aramızdakı boş yerə bir kətil yerləşdirmişik. Şahmat taxtasını qoymuşuq üstünə. Gün uzunu "dava" edirik. Azından dörd-beş əl oynayırıq. Sürəyya bacı ilə Məmməd azarkeşlik edəndə, "müharibə" daha da qızışır. Tamaşaçı marağı bizdəki cavabdehliyi artırırdı. İkimiz də şahmat ölüsüyük, amma əvvəllər Alxan qat-qat yaxşı oynayırdı.

Hamımız mühəndis-konstruktoruq. Maaşımız yüksəkdir. Heç yerdə mühəndislərə bundan artıq pul vermirlər. Hər ay da maaşın otuz faizi qədər mükafatı ovcumuza köz kimi sanıyırlar. Kefi kök dolanırıq. Dördlükdə naharımızı edirik. Kimin əlinə nə düşürdü, gətirib birgə yeyirdik.

Görürsən, saat üçdür, Məmməd başını kitabdan qaldırmır, şirin-şirin əsnəyir, soruşur:

– Sürəyya bacı, çayın varmı?

Sürəyya bacı dərhal hay verir:

– Məmməd qardaş, bu nə sözdür? – deyir. – İnciyərəm səndən. Əlbəttə, varımızdır...

– Eləsə, zəhmət olmasa, bir fincan süzün mənə...

– Bu saat... – Sürəyya bacı toxumanı qırağa qoyur, qalxanda soruşur: – Zoğal mürəbbəsi ilə, ya əncirlə?

Məmməd fikrə gedir. Elə bil ondan elmi problemə cavab istəyirlər. Haçandan-haçana deyir:

– Mürəbbə istəmirəm. O dünənki paxlavadan olsaydı pis olmazdı...

Sürəyya bacı günahkar bir təbəssümlə ona baxır:

– Qalmayıb, Məmməd qardaş! – deyir. – Alxan qardaş bayaqları hamısını yeyib... Amma yaxşı kişmişli tortumuz var. Özüm bişirmişəm. Bir parça soyutma toyuq əti də qalıb. Alxan gətirən qutabdan da var. Hansından istəyirsiniz?

Məmmədin kitab oxumaqdan sulanan gözlərinə işıq gəlir:

– Tortdan bir tikə bəsimdir, Sürəyya bacı! – deyir. – Bir fal da kolbasa kəssəydin, yaxşı olardı...

– Yaxşı! Bəs siz?

Sürəyya bacının axırıncı kəlmələri bizə aid idi. Alxan dərhal dillənirdi:

– Pis olmazdı...

– Eləsə, şahmatı qoyun qırağa, yığılın bura! – Sürəyya bacı əmr eləyirdi. – Şahmat qaçmır ki!

Biz çay dolabçasının ətrafına yığılırdıq. Şirin-şirin söhbət etdir, zarafatlaşır, belə-belə günümüzü başa vururduq.

Məmməd aramızda ən yaşlısı idi. Qırxı haqlamışdı. Bir özü idi, bir də arvadı, uşaqları olmurdu.

Alxanla mən bir yaşdaydıq. Mən hündürboy, iri sümüklü, o isə alçaqboy, arıq bir adamdı. Sürəyya bacının otuz beş yaşını isə biz keçən ay qeyd eləmişik. Amma çox cavan görünür. Gözü yaxşı seçir. Eynəyi əvvəllər fors üçün taxıb. İndi isə öyrəşib. Onu eynəksiz təsəvvür eləmək çətindir. Əri qızıl kimi oğlandır. Zavodda çilin-

gər işləyir. Özləri üzdən gözəl olmasalar da, uşaqları şəkil kimidir.

Onlar ev-eşik sahibi idilər. Bircə mən otuz yaşımda, hələ də subaylığın daşını atmamışam. Sürəyya yazıq beş ildi qızları sadalamaqdan, seçməkdən usanmırdı. Hələ də arzusuna çatmamışdı. Nişan verdiyi qızların hərəsindən bir eyib tapırdım. O, nəhayət, bezikdi, daha yanımda qız-gəlin söhbəti salmırdı. Mən rahat nəfəs aldım.

Yaxınlarda bir iş oldu.

Köhnə müdirin vəzifəsini böyütdülər, yerinə təzəsi gəldi. Düzü, dəyiş-düyüş elə tez-tez olurdu ki, şöbə müdirləri otağımızın işçiləri ilə tanış olmağa vaxt eləmirdilər. Biz buna adətkərdə idik. Şöbəmiz elmi-tədqiqat institutunun ən böyük şöbəsidir. Yüzə yaxın işçisi var. Buranın müdirliyi tramplin kimi bir şeydir. Gələn üç ay, beş ay işləyəndən sonra irəli tullanır.

Bir ay keçdi, üç ay keçdi, beş ay keçdi... Gördük yox, axırıncısı hələ də tullanmır. Deyəsən, şöbədə uzun müddətə lövbər salmışdı. Yerindən tərpənənə oxşamırdı.

Yaşlı adamdı. Yavaş-yavaş, tələsmədən öz qaydalarını yeridirdi. Eşidirdik ki, gah o bölməyə, gah da bu bölməyə əl gəzdirir, laboratoriyaların işinə barmaq qoyur. Bizim qrupsa bunlara fikir vermirdi. "Bu da keçib gedər" – deyə fikirləşirdik.

Şahmatda əməlli başlı irəliləyiş etmişdim. Gündə bir, ya iki oyun qələbəmlə bitirdi. Alxan dözümsüzdür, uduzanda hirslənib, siqaret yandırırdı. Yavaş-yavaş us-

talaşırdım. Alxan indi tez-tez başını tuturdu. Hər dəfə təslim olanda əlini "Marlboro" qutusuna atırdı. O, siqaret yandıranda mənə ləzzət eləyirdi. Bəs, necə?! Birinci dərəcəli şahmatçını məğlub etmək hər adamın hünəri deyildi.

Bu xoş günlərimiz uzun çəkmədi, qara günlərimiz gəldi. Təzə müdirin əli bizə də gəlib çatdı. Gündə bir neçə dəfə otağımıza girib-çıxır, tapşırıqları yoxlayır, iş tələb edir, isti aşımıza soyuq su qatırdı. Alxanla mən şahmatı, Məmməd macəra romanlarını, Sürəyya bacı toxumasını yığışdırmalı olduq. Aylıq mükafatı bir də itirmək istəməzdik.

Müdir hamıdan çox Alxanla düşmüşdü. Nə var, nə var, yazıq keçən iclasda durub demişdi: "Bəzi yoldaşlar elə bilir bura fermadır. Nəzərə almırlar ki, biz elmi-tədqiqat institutunda işləyirik. Yaradıcı adam inək deyil ki, payaya bağlayasan, vedrəni də qoyasan altına "süd ver" – deyəsən, o da versin... İdeya yetişməlidir..."

Müdir yerindən söz atmış və hamımızı güldürmüşdü: "Konstruktorun ideyaları çay stəkanının dibində yetişmir, cizgi taxtası arxasında yetişir."

O gündən Alxanla müdir oldular düşmən. Elə hey didişirdilər. Müdir Alxana tapşırığı tapşırıq üstündə verirdi. O, işdən göz açmağa macal tapmırdı, başını itirmişdi. Dişi bağırsağını kəsə-kəsə çalışırdı. Yaman hirslənirdi. Gündə dörd-beş dəfə əlini atırdı siqaretə. Qoyurdu da-

mağına, deyinə-deyinə qullablayırdı, yerindən oynamış əsəblərini guya sakitləşdirirdi.

Axır vaxtlar bir qutu "Marlboro" həftə nədir, heç iki gün bəs eləmirdi. Alxan başına daş salırdı. İçəridən yanıb-tökülsəm də, dinmirdim. Hirsimdən özüm də çox çəkirdim.

Sürəyya bacının da üzü gülmürdü. Başını aşağı salıb işləyirdi. Çayımıza barmaqarası baxırdı. Ya vaxtında qaynatmırdı, ya da dəmləməyi unudurdu. Axtarsan çay içməyin bir ləzzəti də qalmamışdı. Fincanı dodağına qaldıran kimi, görürdün budur ha, müdir qara lov kimi kəsdi başımızın üstünü. Başlayırdı işləri yoxlamağa. Düzdür, çaya hələ bir söz deməmişdi, amma qırımından anlayırıq ki, hələ içəri verir, bir gün buna görə də partlayacaq.

Məmməd dünən hesabını aldı, işdən çıxdı. Macəra romanlarından əl çəkmədiyindən müdir ona üçüncü töhməti vermiş, demişdi ki, üzüsulu getməyin məsləhətdir, atalar üçəcən deyib, sonrası həmişə pis gəlir. Məmməd də ona bir kök söz deyib: "Qocalıqda yorğalıq eləməyin!" O, indi hansısa institutda müəllim işləyir.

Qaldıq üç nəfər.

Bu gün Alxanı müdirin yanına doqquz dəfə çağırdılar, hər dəfə ürəyimiz "tıp" eləyirdi. Dedik, bu da getdi. Məmməddən sonra səksəkədə idik. Sürəyya bacı Alxanın dalınca eynəyinin altından baxa-baxa dilləndi:

– Müdir Alxanla belə başlayıbsa, bizə növbə tez çatacaq.

– Elədir, – dedim. – İşləmək lazımdır...

Ah çəkdim, yerimdən qalxdım, başladım cizgi taxtasının xətkeşlərini bərkitməyə. Sonra karandaşları itilədim. Müdirin tapşırdığı cizgini çəkmək lazım idi. Vatman kağızını taxtaya düymələdim...

Alxan qayıtdı. Deyəsən, bu dəfə yaxşı qurtarıb, heç nə olmayıb. Amma o gün hər nə oldu mənə oldu. Hirsindən əl-ayağı əsən Alxan siqaretlərimi bir-birinin oduna yandırıb çəkirdi. Qutu göz görəsi boşalırdı.

Sürəyya bacı canıyananlıqla soruşdu:

– Nə deyir, Alxan qardaş?

Alxanın səsi otağı başına götürdü:

– Mən bunu elə qoymaram! Şikayət edəcəyəm. Mən ona Məmməd deyiləm! İllərlə bir idarədə külüng çalan adamları gözümçıxdıya salmağı ona göstərərəm!

Sürəyya bacı:

– Əşi, sakit ol! – dedi və onun qabağına bir fincan çay qoydu. – İç, iç sakitləş...

Alxan ala-yarımçıq çəkdiyi siqareti külqabıya basıb əzəndə az qala tüstüm təpəmdən çıxsın. Tez masanın üstündən, içində bircə dənə qalmış "Marlboro" qutusunu götürüb cibimə qoydum. Sürəyya bir də soruşdu:

– Axı, müdir nə deyir?

– Çox şey! – Alxan fincanı nəlbəkiyə çırpdı. – Deyir, mövzunu bir aya qurtarıb təhvil verməlisən. Mən hava-

yı yeyənləri şöbəmdə saxlaya bilmərəm, deyir. Deyirəm, ay müdir, orda bir aləm iş var, heç iki aya da qurtarmaq olmaz. Deyir, heç nə bilmirəm, bu keçənilki mövzundu... Təzə ildən beş ay keçir, sən isə, deyir, hələ də borclarla qurtarmamısan...

– Həə! – Süräyya bacı dedi. – Elədir, keçənilki mövzunu hələ verməmisən...

Alxan susdu, qanlı-qanlı bizə baxdı, birdən dilləndi:

– Elə sizin kimi! – dedi. – Kor kora kor deməsə, bağrı çatlayar ha!

Süräyya bacı rəng verib, rəng aldı. Burnunun üstündəki eynəyi titrədi. Tez işə qarışdım ki, sözləşmənin qarşısını alım. Onlara çımxırdım:

– Bəsdirin, siz Allah! Günümüzü göy əskiyə az bükürlər, siz də bir yandan başlamısız.

Alxan boğuq səslə:

– Bunu düz dedin! – dedi. – Bir siqaret ver. Zalım oğlu məni elə hirsləndirib ki, ciyərim yanır...

Birinci dəfə üzə durdum. Bərkdən dedim:

– Vermirəm...

– Necə? – Alxanın üzü təəccübdən əyildi. – Sən mənə o zəhrimarı qızırqanırsan?! Sağ ol belə yoldaş!

Səsimi alçaltdım, yarızarafat, yarıciddi dedim:

– Atam balası, sən indən belə hər gün hirslənəcəksən. Müdir ki, belə başlayıb otağımızda çətin ki, bir də sakitlik olsun. Hər gün siqaretimin üçdə ikisini sən çəkirsən. Bunun bahasına pul vermişəm, axı, göydən tökülmür...

Gündə "Marlboro" almaqdan mən talandım, axı! Bir yandan mükafatdan əlimiz çıxıb, bir yandan da sən... Belə, atam balası, siqaret çəkənsən, al, cibində gəzdir. Səni pasportuma yazmayıblar ki?!

Alxan pərt halda mızıldandı:

– Danışdın da! Bir sürü uşağım var, sənin kimi subay-salıq deyiləm ki, siqaretə hər gün altı-yeddi manat verəm...

Əllərimi əlacsızlıqla açdım:

– Mənim nə günahım var ki, sənin "Marlboro"ya gücün çatmır? – dedim. – Onda Bolqar siqareti al! O ki ucuzdur, qiyməti əlli qəpikdir...

Alxanın yanaqları xoruz pipiyi kimi allandı:

– Əlli qəpiyə tapmaq olsaydı, alardım, – dedi. – Bakının hər yerində onu iyirmi-otuz qəpik artığına satırlar. Alverçilər yox ey, mağazada, bığlı-bığlı satıcılar. Bir adamdan da qorxuları yoxdur... Adamın hayıfı gəlir!

Daha dözə bilmədim, şabalıd kimi partladım:

– Onda get, "Prima" al, "Prima"! Onun ki maliyyəti bir abbasıdır! – Bunu deyib axırıncı siqareti çıxartdım. Boş qutunu zibil qutusuna atdım. Siqareti damağıma qoyub bir qədər saxlayandan sonra onu da qutunun dalınca tulladım. – Daha çəkməyəcəm. Tərgidirəm...

Sürəyya bacı ilə Alxan inamsızlıqla bir-birinə baxdılar. Bu sözü çoxdan deyirdim, amma tərgitməyə ürək eləmirdim. İndisə qərarım qəti idi.

Karandaşı əlimə aldım, cizgi taxtasına tərəf çevrildim. Başladım çəkməyə. Şahmat, çay, xoş ovqat olmayan iş yerində bir yaxşı məşğuliyyət qalırdı, işləmək!

Başladım işləməyə. İndi siqareti tərgitsəm də, daha kökəlmirəm. Bəli, şirin dördlüyümüzü beləcə zəhər elədilər...

## QAYÇI

Rəisin kabinetindəki on beş oturacağın on beşi də tutulmuşdu. Hamısı səbrlə gözləyirdi. Qapının ağzında dayanmış cavan başını aşağı salıb, əllərini qoynuna qoymuşdu. Gözünü altdan-altdan gah ona, gah buna dikirdi. Üzü gah saralır, gah qızarır, gah da ağarırdı, bir sözlə, rəngdən-rəngə düşürdü.

Rəis kürsüyə yayxanıb:

– İndi də akta nəzər salaq, – dedi və durğu işarələrini qeyd eləyə-eləyə qarşısındakı kağızı oxumağa başladı. – "Biz aşağıda imza edənlər təsdiq edirik ki, 1982-ci il sentyabrın on üçü saat on yeddi sıfır-sıfırda gündəlik tələbat malları sexinin çilingəri Mahmudov Şakir Məmi oğlu qapıdan zavodumuzun istehsal etdiyi bir ədəd qayçını çıxartdığı yerdə yaxalanmışdır. Dövlət əmlakını hara aparırsan? – sualına adını yuxarıda çəkdiyimiz cinayətkar dikbaşlıqla cavab verib demişdi ki, qayçını daha hara aparарlar? Bu cavab bizi təmin etmədiyindən, qayçını onun əlindən alıb, bu aktı tərtib etmişik".

Daha sonra imzalar gəlir. Keşik rəisi, keşikçi, ictimai nəzarətçi... Sonra arada fasilə vermədən ikinci kağızı çəkdi qabağına, başladı onu da aramla, amma bir nəfəsə oxumağa: "Gündəlik tələbat malları sexinin rəisinə. Tərtib olunmuş aktı sizin sərəncamınıza yollayırıq. Xahiş edirik ki, işçiniz barəsində təcili ölçü götürəsiniz və bizə yazılı şəkildə məlumat verəsiniz. Qeyd: Qayçı əşyayi-dəlil kimi akta əlavə edilir". İmza, keşik rəisi.

Rəis dərindən nəfəs aldı, kağızları əsəbiliklə qırağa itələdi, eynəyini çıxartdı, gözlərini bir müddət ovdu, sonra masanın üstündən qayçını əlinə aldı, qapıda dayanmış oğlanın üstünə silkələdi:

– Ayıb olsun sənə, bala, çox ayıb olsun, – dedi. – Gör, başımıza nə oyunlar açırsan? Elə bilirsən, biz bura bir qayçıdan ötrü yığışmışıq? Səhvin var. İş ondadır ki, bu gün zavoddan qayçı çıxardan sabah dəzgah aparar, biri gün də maşın oğurlamaq sövdasına düşəcək. Bu, köhnədən məlumdur. Oğurluğa yumurtadan başlayırlar da. Xırda-xırda, yavaş-yavaş keçirlər toyuğa, sonra inəyə... – Sonra qayçını bir o yana çevirdi, bir bu yana çevirdi, yana-yana dedi. – Ayıb deyilmi, a bala, bu boyda şeyi o boyda qapıdan keçirə bilməmisən? Bütün seximizi zavodda biabır eləmisən. Öhe-öhe.

Rəis daha nəsə deyəcəkdi ki, sözünün dalını gətirmək istəyəndə onu öskürək tutdu. Amma sadiq müavini bu yerdə də rəisin köməyinə gəldi:

– Kişi düz deyir də. Birincisi, qayçı nədir ki, ona tamah salırsan. İkincisi də ki, məlumdur, indi ki aparırsan… Ə, zalım, deyir çaqqal var gödən dağıdır, qurdun adı bədnamdır. Buna nə ad verəsən?

Sexin baş ustası da söz alıb, cavan oğlana dişindən keçən sözləri dedi.

Adətən belə məqamlarda işçiləri həmişə müdafiə edən sex həmkarlar təşkilatının sədri günahkarı xeyli danladı. Axır sözü bu oldu:

– Biz sənin adını qabaqcıllar siyahısına salmışıq. Sən gör nə hoqqa çıxarırsan? – dedi. – Maliyyəti heç nə olan bir qayçıdan ötrü, əlli qəpiklik bir şeydən ötrü özünü salmısan cəncələ...

Yerdə oturanlar daha sonra başladılar bu cavana cürbəcür suallar verməyə. Qayçını götürəndə kim gördü? Qayçını əkmək fikrinə haçandan düşmüsən? Birinci dəfədir, ya əvvəllər də qayçı aparmısan? Sexin iqtisadçı-mühəndisi çox maraqlı bir qeydlə məsələyə müdaxilə elədi:

– Görəsən, yoldaş Mahmudov bilirmi, işçilərin hərəsi bir qayçı aparsa, zavodumuza nə qədər ziyan dəyəcək?

Belə-belə suallar cavan oğlanın başına dolu kimi yağırdı, o, isə susurdu. Amma axırıncı suala cavab verməli oldu. Soruşdular:

– Qayçı nəyinə lazımdır?

– Qayçını neynəyər ki? – deyə oğlan nəhayət dilləndi. – Bilmirsiz? Mənə bığlarımı düzəltmək üçün lazımdı, sizə bilmirəm...

Bu sözdən sonra hamı diqqətlə baxıb gördü ki, doğrudan da, cavanın bığları əndazəsiz uzanıb, ucları ağzına girir. Baş usta onun haqlı olduğunu görüb, lap hirsləndi:

– Adə, ayda iki yüz əlli manat maaş alırsan, əlli qəpiyin yoxdu ki, bir qayçı alasan? Gedib bığını sahmana salasan? Kişi də oğurluqla bığ düzəldər?

– Vardı əlli qəpik...

– Bəs, niyə almırdın?

Cavan oğlan bu sualı da cavabsız buraxdı. Başında hər şey elə qarışmışdı ki, qayçıdan ötrü dükanlara dəfələrlə baş vurduğunu yada sala bilmədi. Zavodun buraxdığı qayçılar elə bil buxarlanırdı, mağazalara gedib çatmırdı.

Kabinetdə mükalimə davam edirdi. Axı, cinayət başında yaxalanmış cavanı cəzalandırmaq lazımdı. Haçandan-haçana qərara gəldilər ki, ona bir yağlı töhmət versinlər, adını da qabaqcıllar siyahısından silsinlər. Hamı qalxdı, dağılışacaqdılar ki, rəis onları əylədi.

– Əşi, bu qayçını neynəyək, bəs? – Soruşdu.

Bir ara dinən olmadı, bir-birinin üzünə baxdılar. Qəflətən kimsə təklif elədi ki, verin özünə, aparsın evə, bığlarını düzəltsin, amma bu dəfə də qapıda ilişsə, işdən qovarıq.

Hamı gülə-gülə dağılışdı.

## DAŞ KÜÇƏ

Qasım Qafaroviç qarşısında oturanlara dərin bir nəzər saldı. Xüsusi konstruktor şöbəsinin "nəhəngləri" tutduqları vəzifəyə uyğun bir həndəsi ardıcıllıqla baş-başa vermişdilər.

Rəisin kor quyu kimi dərin baxışından sonra pıçıltılar tamam kəsildi. Qasım Qafaroviç onları yanına çağırmazdan qabaq dönə-dönə oxuduğu kağıza tərəf əyildi:

– Bir qəribə teleqram almışıq. Bizə bildirirlər ki, "AL – 80" cihazının istehsalı dayandırılıb, – dedi və davam etdi. – Yazırlar ki, hissələr bir-biri ilə uzlaşmır. Daha sonra teleqramda deyilir ki, dəfələrlə sizə müraciət etməyimizə baxmayaraq, cavab almamışıq. On noyabr və yeddi dekabr tarixli məktublarımızda iradlarımızı sadalamışıq. – Rəis bu yerdə başını kağızdan ayırmadan başqa səslə dedi: – Məktubları təcili tapın. Görün, orda nə yazılıb. Bilmirəm, bizim idarəyə gələn məktublar niyə it-bata düşür ey?… Lap axırda isə tələb edirlər ki, ikitərəfli aktı imzalamaq üçün nümayəndəmizi göndərək… Hıx…

Qasım Qafaroviç bu yerdə hıqqıldadı, damarlı alnını qar kimi təmiz dəsmalla sildi. Onu tərlədən içərinin istisi deyildi. Bayırda yazın şıdırğı çağı idi. Ağacların yaşıl budaqları pəncərələri döyəcləyirdi. Rəis dəsmalı gizləyib, bir anlıq zəifliyinin acığına möhkəm səslə davam etdi:

– Hə, tədbir tökün görüm, – dedi. – Nə cavab verək? Neynəyək?

Baş konstruktor Kərəm əlini yanağından ayırmadan dikəldi. Dişi səhərdən ağrıyırdı. Bircə arzusu vardı, iclas tez qurtarsın, o da gedib dişini çəkdirsin. Rəisin icazəsindən sonra üzü ağrıdan qırışa-qırışa dedi:

– Məncə, heç bir cavab lazım deyil. Yazarlar, yazarlar, axır yorularlar. – Sonra dodaqaltı mızıldandı: – Bu «AL – 80» da başımıza bəla oldu da.

Qasım Qafaroviç bir anlıq fikirdən sonra başını buladı, eynəyini çıxarıb masanın qırağına qoya-qoya:

– Yox, – dedi. – Mən o zavodun direktoruna yaxşı bələdəm. Beş il bir yerdə oxumuşuq, yataqxanada bir yerdə qalmışıq. Hara gəldi yazacaq, suyu bulandıracaq…

Rəis müavini Əli Əkbəroğlu heyrətlə əlini bir-birinə vurdu:

– Mat qalmalı işdir, – dedi. – Zavodla bizim aramız beş-on kilometr ola, ya olmaya. Daş küçəsinin bu başından o başına on dəqiqəyə getmək olar. Telefonla da zəng eləmək olar. Bilmirəm, daha bu məktubbazlıq, teleqramfəşanlıq nəyə lazımmış?

Qasım Qafaroviç bərkə-boşa düşməmiş müavinin uşaq mühakiməsinə dodağı qaçdı:

– Sən lap ayaq üstə yatırsan ki, – dedi. – Hər şey Cabbarlının Şərifi demişkən, sübutalnı, dokumentalnı olmalıdır. Telefon zəngini qovluğa tikməkmi olar? Olmaz.

Qovluqlar kağız tələb edir, kağız hər əmələ dözür, lazım gələndə adamın əlindən də tutur.

Sınaq sahəsinin cavan rəisi utana-utana təklif etdi:

– Bəlkə əl-qolumuzu çırmalayaq, "AL-80"-ın əyər-əskiyini düzəldək? Hamımız bilirik ki, cihaz hələ kaldır…

Rəis əsəbiliklə onun sözünü kəsdi:

– Cihaz kal deyil ey, sənin mühakimələrin kaldır, – dedi və dərhal mülayimliklə izah etdi. – Bala, deyəsən, ağzın isti yerdədir. Cihazı beş il layihə etmişik, sözün nədir, bir il də üstündə işləyək? Təhvil verəndən sonra? Yox, keçməz, məktub yazıblar, məktubla da cavabını verərik… Daş atana, gərək daş atasan. İş bircə cavabın məzmunundadır. Nə yazasan ki, onların nəfəsini kəssin?… Elə buna görə də sizi bura yığmışam.

Hamı bir-birinin üzünə baxdı. Axırda kimsə dedi ki, siz bilən məsləhətdir, yoldaş rəis, biz nəkarəyik?

Qasım Qafaroviç elə bil bunu gözləyirdi, dərhal sözə başladı:

– Deyirəm, belə bir məzmunda məktub yazaq, – deyib gözünü tavana dikdi. – «Sizin qaldırdığınız məsələ bizi çox maraqlandırdı, verdiyiniz təkliflər ağlabatandır, həqiqətən də «AL-80»-ın keyfiyyətini artıra bilər. Cihazın bir neçə cüzi qüsurunu aradan qaldırmağın vacib olduğunu biz dərindən başa düşürük… Və i.a. Amma təəssüf ki, tabeliyində olduğumuz nazirliyin göstərişi olmadan işə başlaya bilmərik, çünki bu məsələ planı-

mızda yoxdur…Və i.a. Yuxarı təşkilatlara müraciət etmənizi xahiş edirik. Və i.a. Hə, necədir, yarayarmı?

Rəis gözünü tavandan ayırıb, otaqdakılara qalib nəzərlə baxdı, amma heç kimin üzündə şadlıq əlaməti görmədi. Kərəm ağrını bir anlıq unutdu:

– Məktuba söz yoxdur, – dedi. – Güclüdür, amma yaxamız yenə onların əlində qalır da.

Rəis izah elədi:

– Eh, sizə də söz qandırmaq olmur ki! – dedi. – Bizə vaxt lazımdır. Elədirmi? Elə. Biz yazacağıq, onlar bizim məktubu alacaqlar. Bir ay. Zavod yazacaq nazirliyə. İki ay. Nazirlik yazacaq tabeliyində olduğumuz birliyə. İki ay. Birlik yazacaq elmi-tədqiqat institutuna. İki ay. İnstitut yazacaq bizə. Bu da eləsin, tutaq ki, bir ay. İnşallah, altı aya-bir ilə göstəriş alaq, ya almayaq. Bəlkə də bu yazışma arada it-bata düşdü. Düşməsə də eybi yoxdur, bir ilə, kim bilir, bəlkə «Daş küçəsi»-nin ya o başında zəlzələ oldu, ya bu başını sel apardı…

Hamı razılıqla rəisə baxdı.

Bir azdan katibə qız makinanı çıqqıldadır, Daş küçəsinin o başındakı idarəyə bu başındakı idarədən məktub yazırdı. Səriştəli qız olduğundanmı, ya məktubun məzmunu ona tanış gəldiyindənmi, məlum deyildi, amma beşcə dəqiqədən sonra işini qurtardı.

## YALANÇI ƏMİLƏR

Uşaqlıqda görürdüm ki, böyük-böyük, bığlı-saqqallı əmilər yalan danışır. Mat qalırdım. Bu yalanların bir çoxunun səbəbini anlamazdım, anladıqlarım isə gülünc idi. Səbəbsiz-filansız yalanlar da vardı. Biri elə evimizə tez-tez gələn uzaq qohumumuz. O, deyən-gülən bir kişiydi, bir işi vardı ki, çox yalan danışırdı. Söz verib, altından qaçmaqda usta idi. Elə ki, eşidirdi bizim evdə filan şey yoxdur, dərhal özünü atırdı ortaya: «Mən gətirəcəyəm". Atam onun sözlərinə əsla inanmazdı.

Qohumumuz mənə qalay əsgərcik vəd etmişdi. Di gəl, özüm əsgərlik yaşına çatdım, qalay əsgərcik gəlib çıxmadı. Onun adını "Yalançı əmi" qoymuşdum. Özümə də söz vermişdim ki, böyüyəndə yalan danışmayacağam.

Amma il keçdi, ərsəyə çatdım, bir günüm də yalansız keçmir. Yalanı istədim, ya istəmədim yediyimə-içdiyimə yavanlıq edirəm.

– Dünən bütün gecəni harda idin, bala? – Anam səhər süfrə başında soruşur.

– Qonşuda nərd atırdıq… – deyirəm.

Daha durub nə deyim?! Deyim ki, yaşıdlarımla ley-peydə olmuşam? Eyibdir!

Həmin gün işdə rəisim soruşur:

– Dəzgahlar hamısı sazdırmı?

Mən usta işləyirəm. İnstitutu qurtaranda təyinatımı bura veriblər. İstehsalatdan hələ fərli baş çıxarmıram.

– Əlbəttə, hamısı! – deyirəm.

Gözümü qırpmadan yalan danışıram. İki dəzgah işləmir. Durub, bunu desəm, qanqaralıq olacaq. Birini o deyəcək, birini mən, mərəkə qopacaq. Rəis yaxşı oğlandır, sözə inanandır. İndi də razı halda:

– Afərin, – deyir. – Həmişə belə işlə.

Onun da könlü xoş olur, mənim də. Hamısı nəyin sayəsində? Bir bekara, iki şahılıq yalan sayəsində.

Sexə düşürəm. Dəzgahları açıb-tökən, təmir edən briqadama yaxınlaşıram.

– Hə, qocalar! – deyirəm. – Güc eləyin! Nə qədər başımızın üstünü almayıblar qurtarın. Yoxsa işimiz yaşdır!

– Mükafat olacaq?

– Əlbəttə! – deyirəm.

Amma yüz faiz bilirəm ki, olmayacaq. Bunu onlara deməkmi olar? İşi yarımçıq qoyacaqlar, mənim yaxam da qalacaq əllərdə. Çibanı deşmək mənə qalmayıb ki! Yetişər, özü partlar.

– Qurtarın, sabah bu barədə danışarıq…

Cəbrayıl məni qırağa çəkir. O, briqadamda çilingər işləyir. Beşinci dərəcəsi var, amma bir az nəzəri cəhətdən axsayır. Soruşur:

– Poliklinikada tanışın varmı?

– Əlbəttə, – deyirəm. – Necə bəyəm?

– Onda bir arayış düzəlt də. Qardaşım hərbi məktəbə gedəcək. Boğazında artıq ət var. Vaxt yoxdur ki, kəsdirək. Arayış iki günə düzəlməsə heç nə, batdı!

– Nə çətin işdir ki! – deyirəm. – Sabah gedərik düzəldərik.

Sabahkı günü fikirləşmək istəmirəm. Çox güman ki, ezamiyyətə gedəcəyəm. Bir aylığa. Odur ki, sabaha qorxusuz nə qədər deyirsən vəd vermək olar!

Belə-belə gün keçirdirik. Məni də aldadırlar, mən də aldadıram. Yaşayırıq.

Dost-tanış evinə gedirəm, söz verirəm, yerinə yetirmirəm. Ünvanıma deyilənləri vecimə almıram. Bu dünyada kimsədən çəkinəcəyim yoxdur, çünki aldatdıqlarım da məni aldadır. Amma balaca-balaca oğlanlardan, qızlardan çəkinirəm. Elə ki, onların mənə dikilmiş gözlərini görürəm, canıma qorxu düşür. Cəld üzümü yana çevirirəm. Qorxuram ki, birdən onlar deyərlər: «Budur ha, yalançı əmi gəldi!»

Ən çox bundan qorxuram.

## SONUNCU YEZNƏ

Ələmdar ağır adamdır. Hündür boyu. İri sümüklü cüssəsi onun astagəlliyinə haqq verirdi. Yaşı qırxı adlasa da, indiyə qədər aya-ulduza baxmağa macal eləməmişdi, amma onun bəxtinə bir kimsə şübhə edə bilməzdi.

İş adamı olduğundan boş söhbətlərdən həmişə qaçardı, amma yeri gələndə basıb-bağlamağı xoşlardı. Belə vaxtlar sinəsinə döyüb, deyərdi ki, mənim çörəyim daşdan-torpaqdan çıxsa da, dünyadan narazı deyiləm. Bu kül bixəbər adamların gözünə atılırdı. Ələmdarı az-dan-çoxdan tanıyanlar isə aldanmırdılar. Bilirdilər ki, o, tikintidə sahə rəisi kimi xudmani bir vəzifə sahibidir. Hər gün işə şövqlə getməyindən, sübh işığında evdən çıxıb, şər qarışanda qayıtmağından məlum olurdu ki, daşdan-torpaqdan «çörək» çıxarmaq heç də pis məşğuliyyət deyilmiş…

Ələmdar, lap nağıllardakı kimi, dünya malından qəni idi, hətta yeznə sarıdan da tale onu qane etməyi unutmamışdı. Kiçik bacısını beş il qabaq köçürəndən sonra yeznələrinin sayı beşə, yəni son həddə çatmışdı. Riyaziyyatçılar demişkən, gələcəkdə onların artma ehtimalı sıfıra yaxınlaşmışdı. Bundan sonra yeznələrinin sayı yalnız azala bilərdi, artması mümkün olan şey deyildi. Bu da bir təsəlli idi. Ələmdarın xoşhallanmasına bu da kifayətdi.

Amma haqq tərəfi o, yeznəcanlı idi. Onların beşinə də bir gözlə baxırdı, aralarına ayrı-seçkilik salmırdı, axırıncı tikəsini belə yeznələrindən qızırqanmazdı, ürəyinin qapıları onların üzünə laybalay açıqdı, amma hamıdan çox, hamıdan artıq… axırıncısından zəhləsi gedirdi.

Sonuncu yeznənin adı Xasaydı. Yaxınlarda otuz beş yaşı tamam olurdu. Tədqiqat institutlarının birində kü-

lüng çalırdı. Düz on ildi müdafiə edirdi, alim olurdu. Yaxınlarda muradına çatmışdı. Elmin qapılarını döydüyü vaxtdan indiyə qədər yuxarı məhəllədə kirayənişin qalırdı. Ev növbəsinin tısbağa sürəti ilə irəliləməsinə iki beşillikdi ki, səbirlə dözürdü. Arvadının qardaşı Ələmdarın sayəsində cehiz gətirdiyi qab-qacağa, taxta-tuxtaya, yorğan-döşəyə bu beş ildə bir əlavəsi olmamışdı. Əlbəttə, iki uşaqdan, bir namizədlik adından savayı.

Ələmdar qohumluqlarının elə birinci ayı Xasayı qarşısında oturdub demişdi: «Yeznə, bardağa girdin, oldun içməli. Axır dediyini yeritdin. Bizimlə qohum oldun. Neynək, xoşbəxt olun. Əsmətlə beş il bir yerdə oxumusunuz, neçə ildi bir yerdə işləyirsiniz, indi də ailə qurdunuz. Dost arası pak gərək, yeznə, bil! Bacımı ona görə vermək istəmirdim ki, sənin maaşınla ailə dolandırmaq olmaz. Bir yandan da evin yox, eşiyin yox. Sən də mənim yerimdə olsaydın razı olmazdın. İndi daha olan olub, gəl, sonrasını fikirləşək. Gəlsənə, alimliyinin daşını atasan ha?» Yeznə təəccüblə soruşmuşdu: "Bəs, neynəyim?" Ələmdar demişdi: «Bunu da fikirləşmişəm. Səni öz yanıma aparacağam. Prorab işləyəcəksən. Vallah, bir ilə, uzaq başı iki ilə ev alacaqsan, bir yandan da dolanışığın düzələcək». Xasay donqar burnunu qarışdırdı: «Danışdın da! Sənədlərimə baxan kimi tullayacaqlar qırağa. Deyəcəklər ki, mühəndis-elektronik hara, inşaat hara!» Ələmdar gülmüşdü: «Sən lələşini pis tanıyırsan, adə. Rəisin yanında mənim bir sözüm iki deyil. Məsələni həll

eləmişəm. Bircə əmək kitabçan lazımdır. Ərizə yazmasan da olar, lap günü sabahdan işə çıxa bilərsən». Xasay ah çəkdi: «Bəs, müdafiə?» Ələmdar ağzını büzmüşdü: «Boşla, sən Allah! Otuz yaşın var, bu saat pul qazanan vaxtındır, yapışmısan alimlikdən… Bundan sonra, nədir o… – Ələmdar masanın üstündəki kitaba bir nəzər fırlatdı. – Landau-Lifşits olmayacaqsan ki!»

Xasay da başını döndərdi, akademik Landaunun professor Lifşitslə birgə yazdığı «Kvant mexanikası» kitabına uzun-uzadı baxdı. Ələmdar onun susmağını razılıq əlaməti sayıb, onların söhbətinə narazılıqla qulaq asan bacısına göz vurdu. Bığının altında gülə-gülə dedi: «Bacılarımın yolunda daha mən nələr etməmişəm. Xalq arasında deyirlər ki, yeznə evin eşşəyidir, amma mən yazıq yeznələrimin dördünü oturtmuşdum boynumun kökündə, qalmışdın sən… Nə qədər canım suludur, istəyirəm sənə də bir gün ağlayım. Dördü minir, sən də min. Qorxma, yeznə, kəl kimi dözümlüyəm, boynum sınıb-eləməz…»

Bu yerdə Xasay başını qaldırmış, qaynının sözünü kəsmişdi: «Qayın, vallah, təklifini qəbul edə bilmərəm. Uşaqlıqdan eşşək minməkdən zəhləm gedir…»

Bu söz Ələmdarı necə tutmuşdusa, o gedən getmişdi. Xasay yeznənin məhəbbətini ürəyindən silmişdi. Cəmi mehrini o biri yeznələrin arasında bölmüşdü. Həyatın hər çətinliyindən çıxmağın yolunu bildiyindən onlar da daraşmışdılar kişinin canına. Ələmdarın işlədiyi tikin-

tilər yerini dəyişsə də, yeznələr bir səyyarə kimi ətrafında fırlanmaqlarından qalmırdılar. Böyüyü anbardardı, ikincisi briqadirdi, üçüncüsünün nə işlədiyi məlum deyildi, Ələmdarın adına olan maşını sürür, qaynını gəzdirirdi. Dördüncüsü keşikçi idi. Yeznələrin işləri oldu, ya olmadı, qayınlarını həlqə-mərəkə edərdilər.

Bircə Xasaydan başqa. Bu neçə ildə bircə dəfə də Ələmdara ağız açmamışdı. Belə şeylər ona bərk yer eləsə də, bacısı Əsmətin xətrinə dözürdü. Əgər Xasay o biri yeznələr kimi bir az qılıqlansaydı, qaynı onun varlığını birtəhər təhəmmül edərdi, elmə aludəçiliyini boğazdan yuxarı da olsa, alqışlardı, hətta adam tapıb, alimlik işini irəli salardı. Həyatın çətinliklərindən çıxmağın yolunu Ələmdardan yaxşı bilənmi vardı. O, istəsəydi yeznəsinə birbaşa doktorluq yazdırardı. Nə çoxdu alim müştəriləri. Təki Xasay dikbaşlığını qoyaydı yerə. Amma Xasay da elə Xasaydı.

Arvadı hərdən Ələmdarı danlayırdı: «Bu yeznələrin axır səni güdaza verəcəklər. Allah axırını xeyrə calasın, yığmısan ətrafına, oturtmusan boynumuzun kökündə…» Arvadın tənəsinə Ələmdar gülürdü: «Ağız, avam olma, tarixi hadisədir də. İstəmirsən adımız kitablara düşsün? Tarixdə qalsın?» – deyirdi. Arvad başını bulayırdı: «Vallah, böyük yeznən skladını dağıdır. Bir gün özün də oda düşəcəksən. Sorağı bilirsən haralardan gəlir? Onun ipini çəkə bilmirsən?» Ələmdar qaşqabağını tökürdü: «Yum ağzını! Sən qanan iş deyil, – deyirdi,

sonra lağlağaya salırdı. – Bilirsənmi, arvad, yeznələrim mənim həyatımdır. Hərdən istəyirəm intihar edim, onları başımdan rədd edim, amma can şirin şeydir, onlarsız nə həyat… Qoy, yaşasınlar...»

Zaman keçdikdə ürəyinin dərin guşəsində peyda olan bir razılıq hissi Ələmdarı sonuncu yeznəsinə doğru sövq edirdi. Qayğılardan asudə vaxtlar o, şükür edirdi ki: «Nə yaxşı, yeznənin biri özünü dolandırır. Xasay da o birilərinə oxşasaydı, evim yıxılmışdı ki!» Amma fikirlərini bir kimsə ilə bölüşməzdi.

Xasay kənək adam da olsa, yavaş-yavaş qaynının təmənnasızlığına, qohumcanlığına iman gətirdi. Üçüncü yeznə qəzaya düşüb şikəst olandan sonra onun yeddi uşaqlı ailəsinin zəhmətini Ələmdar öz üstünə götürmüşdü. Bununla da Xasayı məğlub etmişdi. O, daha Ələmdarın gəlir-çıxarına barmaqarası baxırdı. Bir tərəfdən də Xasay ad almışdı, kirayənişinlikdən canı qurtarmasa da, alimliyi bəhrə vermişdi. Qırışığı bir balaca açılmışdı.

Yaxınlarda Ələmdar dikbaş yeznənin yumşaldığını görüb, birinci addımı atmalı oldu. Bacısıgilə ayaq açdı, ildə bir yol getdiyi evə indi tez-tez baş çəkirdi. Hər dəfə də qanı qaralırdı. Bacısının gün-diriliyi onun ürəyini sıxırdı. Hər gəlişində təəssüflənirdi: «Əsmətin ömrü necə zay oldu! Üç uşaqla nə qədər kirayədə qalmaq olar. Bu quru bəyə də söz qandırmaq olmur ha! Alim də oldu, keçi quyruğu kimi nə artdı, nə azaldı. İstəyirsən tərpədəsən, tərpənmir. Qara daş kimi düşüb yolun ortasına.

Keçib ali məktəblərin birində işləsəydi, yenə dərd yarı idi. Beş-on manat qırtardı, dolanışığını düzəldərdi… Ona da razı olmur». Amma düşündüklərini dilə gətirməyə qorxurdu. Xasay gözünün odunu əvvəldən almışdı.

Bu günlərdə araları yenə dəydi. Oturub çay içirdilər, o yandan-bu yandan söhbət edirdilər. Ələmdar dilini saxlamadı, söz atdı:

– Dostum Rəşid də maşın aldı…

Xasay gözünü qıydı, oxun hayandan atıldığını dərhal aldı. Soruşdu:

– Hansı pula? Onun ki, maaşı, gərək, yüz iyirmidir… Mənim hesabımla o, maşını ikimininci ildə almalıydı…

Ələmdar istehza ilə:

– Elə olmağına elədir… – dedi. – Amma o, alim deyil, ticarətçidir. Onun öz hesabı var, sənin hesabın onun nəyinə lazımdır.

Yeznə üz-gözünü turşutdu:

– Boşla, a kişi! – dedi. – Məni elələrinə tay tutursan?

Ələmdar iynəli-iynəli güldü:

– Haxlısan, alim qardaş, haxlısan! – dedi. – Əlbəttə, Rəşid tayın deyil. Zırramanın biridir… Bəs, Əkrəm necə, o da tayın deyil?

– Nə Əkrəmdir elə? – Xasay təəccübləndi.

Ələmdar asta-asta izah etdi:

– Sənin kurs yoldaşını deyirəm… Beş-altı il qabaq müdafiə elədi, alim oldu. Eşitmişəm, əvvəllər dost ol-

musunuz. İndi bizim binada yaşayır, qapıbir qonşumdur. Yadına düşdü?

– Yadıma düşdü, – Xasay dikəldi.

– Gözünə su ver! – Ələmdar onun ağrıyan yerinə toxundu. – Əkrəm indi ali məktəb müəllimidir. Kişi iki-üç semestrə özünü tutdu. Sonra da məlumdur da! Çıxdı beşə, vurdu onbeşə! Taydı sənə, tay deyil?

Xasay dərindən köksünü ötürdü:

– Əkrəm dostum mənə tay olmadı! – dedi.

Ələmdar bığlarını sığalladı:

– Nə olaydı, sən ona tay olaydın… – dedi.

Əsmət mətbəxdən çıxdı, onların çayını dəyişdi. Ələmdar danışmaq istəyən Xasaya hirslə dedi:

– Adə, bir bu qızın üst-başına əl yetirsənə?! Alim adamsan, gülərlər sənə, axı! Əkrəm arvadına ikinci brilyant dəstini alır, sən isə Əsmətə bir palto ala bilmirsən…

Onların mübahisələrinə az-az qarışan Əsmət qəflətən dilləndi:

– Qardaş, başına dönüm! – dedi. – Əkrəm kimdir? Bütün Bakının tanıdığı bir arvadı saxlayır… Adam tapdın da…

Xasay özünü itirib susmuş qaynına lağ elədi:

– Aldın payını?! – dedi və aşkar bir fəxrlə davam etdi. – Ay gözünə dönüm, Əsmət! A kişi, qayın, bir gün inkir-minkir sənə tən gələn dostlarının başının üstünü kəsdirəcək! Vallah, kəsdirəcək. Onda soruşacaqlar: "Üsuli-din çand əst?", yəni tapındığın dinin üsullarını

say! O dünyada yox ey, bu dünyada. Onda halını soruşacağam…

Daşın onun da bostanına atıldığını Ələmdar yaxşı bilir. Bu yerdə o, bir az həsləyir, sonra hirslə:

– Alə, get-gedə başın xarab olur. Deyəsən, oxuduğun kitabların kəramətindəndir, – deyir.

Xasay ürək dolusu şkafda, pəncərə qabağında, masanın üstündə qalaqlanan kitablara baxır, qaynının kefinin pozulmağından həzz ala-ala gülür:

– Düz deyirsən, qohum! – dedi. – Bu kitablar yaman şeydi. Amanın bir günüdür, nə badə, əlinə kitab-filan götürəsən ha! Mənim günümə düşərsən! Amma yalvarıram, xahiş edirəm, hərdən qəzetlərə bax…

Ələmdar qayğısız halda:

– Nə var o qəzetlərdə? – Soruşdu.

Xasay qəhqəhə çəkdi:

– Bir də gördüm, iraq-iraq, otuz iki hərfin otuz ikisi də yadından çıxıb… haa-haa…

Ələmdar sonrasını düşünmədən ağzından qaçırtdı:

– Adə, çıxsın da! Alim olmayacağam ki! Öz texnikum diplomumu sənin professor adına da dəyişmərəm. Kimi qorxudursan?! Hərflər yadımdan çıxacaq, çıxsın da! Qalcağın mənə nə xeyri var?!

Xasay elə bunu gözləyirdi:

– Baa, ay qohum, ay qohum-qardaşın əzizi, pənahı! Hərflər yadından çıxsa, Allah göstərməsin, türmələrdən bizə necə məktub yazacaqsan? Hə?

Ələmdar diksindi, gözü qaraldı. Xasay onun ağrıyan yerini yaxşı bilirdi.

Atışmalarından bir həftə keçmişdi ki, Ələmdarın halı üstünə qayıtdı, kefi açıldı. Bu gün böyük şövqlə sahəni dolanırdı. Rezin çəkmələrinin altından fırçıldayan palçıq bir mahnı qədər ona xoşdu. Yaz yağışlarından sonra peyda olan gölməçələri dolanıb keçməkdənsə, sevincindən ayağını düz ortasına atırdı.

Səhər evdən çıxanda xoş xəbər almışdı.

Arvadı zərli xalatının ətəklərini yellədə-yellədə masanın ətrafında fırlanır, Ələmdarın səhər yeməyini verirdi. Ordan-burdan danışmağı da unutmurdu. Əslində onun sözü-söhbəti həmişə yeznələri ilə bağlı olurdu. Oturardı deyərdi, durardı deyərdi.

– Dünən qonşumuz gəlini gətirdi. Toyu şənbəyə saxlayıblar. Qəribə adamlar var ha! Toydan sonra nağara budur ey… hə… nə deyəcəkdim, hə, axşam gec gəldin, dərhal da yatdın, söhbət edə bilmədim. Deyirlər, Xasaygil ev alıblar.

Ələmdarın yuxulu gözləri genişləndi. Yağ-bal, qaymaq, mürəbbə, qayğanaq düzülmüş süfrədən dərhal əlini çəkdi, sevinclə qalxdı yerindən:

– Bu oldu əla! – dedi.

Arvadı onun sevincinə şərik olmaq fikrində deyildi. Narazılıqla deyindi:

– Özgəsi sənin yerində olsaydı, pərt olardı, sənsə sevinirsən! Qəribə adamsan ha! Bacıngil dörd-beş gündür

köçüblər, sənə bir quru xəbər verməyiblər… Saymırlar ey, saymırlar. Aləm sənin sözünlə durub-oturur, quru bəy yeznən burnunu dik tutur…

Ələmdar çırtıq çaldı:

– Qandığın elə budur da! Toxunmağına elə mənə də toxunur ey! Məni başqa şey sevindirir…

Arvadının sual dolu baxışları ərinə dikiləndə Ələmdar pıqqıldadı:

– Ay dilbilməz! Alim yeznə daha tordadır! Bundan sonra qapımızı su yoluna döndərəcək… Gündə bir xahişlə gələcək… Başa düşdün?!

İndi bunu yada salıb, uşaq kimi güldü. Gölməçənin üstündən yüngülcə hoppandı. Dünəndən yük altında qalmış maşınlara yaxınlaşdı. Briqadanı başına yığmış Əhmədi əli ilə yanına çağırdı. Briqadir qaça-qaça gəldi. Ələmdar:

– Hə, yeznə, nəyi gözləyirsən? – Soruşdu. – Boşaldın da. Saat doqquz oldu ki!

Əhməd onun ikinci yeznəsi idi. Gözünü qırpa-qırpa dilləndi:

– Dünən dedim, axı! Bu qapı-pəncərə çərçivələrini boşaltmağa briqadanın əli qalxmır. Sən canın, tamaşa elə, bir amana bənddirlər… Ələmdar, razı ol, aktlaşdıraq, qaytaraq kombinata…

Ələmdar qəribə bir maraqla ona baxdı:

– Pis deyilsən, yeznə. Get-gedə əziz bacanağın Xasaya oxşayırsan. İnşallah, yerini tutacaqsan… – dedi və

birdən onun ağzını əydi. – «Aktlaşdıraq»… Adə, qaytarsaq, sonra bunun altında dayanacaqsan? Ay dayandın ha! Bütün sahəni salacaqlar gözümçıxdıya… Onda nə qazanacaqsan?

Əhməd başını aşağı saldıqda Ələmdar yumşaldı, astadan davam etdi:

– Birinci dəfə deyil ki! – dedi. – Birtəhər bərkidərsiniz. Çətini yerinə qoymaqdır. Sonrasını bu beşmərtəbədə yaşayanlar fikirləşərlər… Bizə nə!

– Bunu qəbrə qoyasan, qayın! – Əhməd əlini yanağına şappıldatdı. – Tikdiyimiz binalara köçənlər bizdə var-yox qoymayacaqlar, eninə də söyəcəklər, uzununa da. Vicdan da yaxşı şeydir, axı!… Basməmmədi edirik…

Ələmdar odlandı:

– Kəs səsini! Sənə elə bir gəliş gələrəm ki, adın da yadından çıxar…, hələ desən vicdanın da! Bu da qohum! Gətirib səni adam eləmişəm, indi mənə moral oxuyursan? – dedi və bağıra-bağıra davam etdi. – Elə bilirsən sement yaxşıdır? Çox pisdir. Amma malakeşlər dinmirlər. Bir qalaq kif atmış aboy almışıq. Bəlkə geri qaytarmaq lazımdır? Hə? Buna bax ha, heç kim danışmır, o isə… Adə, olan budur da! Məndən asılıdır bəyəm?… Ayda dörd-beş yüz manata pul demirlər, başlayıblar əngə verməyə. Belə vicdanlısan, aldığın pulun bir hissəsini keçirt böyüdüyün uşaq evinə də! Daha niyə «QAZ-24» növbəsinə durmusan?…

Qaynının qəzəblə üstünə gəldiyini görüb, Əhməd geri atıldı, Ələmdar qulaqlı papağını başından çıxarıb yellətdi:

– Yeri get, sən Allah! Yoxsa Allahın da, bəndənin də hayfını səndən çıxacağam, – dedi.

Əhməd hərdən geri çevrilə-çevrilə, briqadasına tərəf tələsdi. Ələmdar deyindi:

– Əvvəl belə deyildi! Lap Xasaylaşır ha!

Ələmdar daha durmadı, briqadanın işə başladığını görüb, öz vaqonuna tərəf getdi. Çəkmələrini arakəsmənin dalında çıxarıb, ayaqqabılarını geydi. İş masasının arxasına keçmişdi ki, qapı aralandı? İçəri girəni görüb, Ələmdar yerindən sıçradı:

– Adə, alim qardaş, səni xoş gördük… – dedi və astanada dayanmış Xasayın üstünə yeridi. – Evin də mübarək…

Görüşdülər. Bir azdan qayın-yeznə şirin-şirin söhbət edirdilər.

– Beş otaqlıdır, deyirsən? Saraydır ki! – Ələmdar əllərini bir-birinə vurdu. – Orderi alanda bir xərcin-zadın çıxdı?

Xasay göy-göy ona baxdı:

– Nə xərc, əşi?

– Yəni pul? – Ələmdar yeznəsinin belə şeylərdə səriştəsizliyini bildiyindən barmaqlarını bir-birinə sürtdü. – Vermisən?

– Allah vurmuşdu onları! – Xasay qaşqabağını tökdü.

Ələmdar ürəyində öz-özünə güldü: «Ölmüşdü Xasay! Canından pul çıxar? – Fikirləşdi və qəflətən də bu fikrin özü ona qəribə gəldi. – Niyə də verməlidir? Hardan verməlidir?» Amma təcrübəsindən bilirdi ki, alırlar da, verirlər də. Mülayimliklə:

– Gərək üç-dörd yüz ataydın ağızlarına, – dedi.

– Qələt eləyirlər… – Xasay qeyzləndi. – Halal evimdir, illərlə növbəyə durub almışam… Buna da pul?

Ələmdar başını buladı:

– Elə olmağına elədir ey! Amma təzə mənzilin bu keçən yağışlarda damdımı?

Xasay diksindi, yerində dikəldi:

– Damdı…

– İki otağının divarı nəm çəkirmi? – Ələmdar ağır-ağır soruşdu.

– Çəkir… – Xasay alnını övkələdi. – Hardan bilirsən?

Ələmdar istehza ilə ona ürək-dirək verdi:

– Ürəyinə salma, yeznə, beşinci mərtəbədəki mənzillərin əksəriyyəti belədir… İllah da, birinci, ya axırıncı bloklarda… Paneldir də. Aralarından su sızır…

Xasay çaşqın-çaşqın güldü, tələsik dilləndi:

– Mərtəbəni də bilirsən? – dedi. – Yox! Bu kov deyil. Yəqin bacın zəng edib deyib… İndi də məni doluyursan?

Ələmdar yeznəsinin elmdən savayı hər şeydə vecsizliyinə qəti inandı:

– Adə, yox ey! Ev aldığını bu səhər bilmişəm… Hə, təəccüblənmə, mən də öz işimin alimiyəm də! Order alanda ki, bir müxtəsər xərc çəkməmisən, məlumdur da, salıblar belə mənzilə… Qayda belədir…

Xasayın rəngi dəyişdi:

– Hə, deməli sizin qaydanız belədir? Deməli…

Ələmdar imkan vermədi ki, yeznəsi yenə ucundan tutub, ucuzluğa getsin. Xoşluqla:

– Burda hirslənməyin lap nahaqdır, – dedi. – Vaxtında mənə xəbər etsəydin belə olmazdı. İndi suyun da ölə-ölə gələcək, qızdırıcıların da qızdırmayacaq. O yandan hamamın bərbad, vannan sınıq, malaaltı keçən tok məftilləri yanıb… Deyəsən, müvəqqəti işıq çəkmisən…

Xasay səmimi bir heyrətlə:

– Bunları da bilirsən? Telepatsan ki!

Ələmdar özünü çəkdi:

– Danışdın da! Telepat! İnşaatda saç ağartmışam ey! İstəyirsən deyim niyə gəlmisən üstümə?!

Xasay inamsızlıqla güldü:

– Ay tapdın ha! – dedi. – Şerlok Holms deyilsən ki!

– Tapsam nə olsun?

– Tapsan… sənə iman gətirərəm… Həmişəlik…

– Beləsə… – Ələmdar pıqqıldadı. – Qohum, sənə ya qapı lazımdır, ya da…

Xasayın təmiz qırxılmış bığ yerini tər basdı:

– Daha sənə sözüm yoxdur! – dedi. – Bu neçə ildə mən səni necə olub tanımamışam?

Ələmdar ona lağ elədi:

– Başını kitablardan qaldırmağa macal eləyirdin ki?! Gözün ayağının altını görürdü ki, adam da tanıyasan? – dedi və dərhal da ciddiləşdi. – Qapına nə olub?

– Sınıb! – Xasay nəql etdi. – Tələsirdim. Qapını açdım, örtmək istəyəndə əlimdən çıxdı. Mənzil yel çəkir də. Zərblə örtüldü. Bir də onu gördüm ki, çərçivə qarışıq yerdədir. Kartondan olan xonçaları da töküldü. Bacın indi oturub, evin keşiyini çəkir. Mənim də bu gün bir tikə vaxtım yoxdur, saat on ikiyə laboratoriyama vacib adamlar gələcək… Bu da qapının ölçüləridir, çıxarmışam ki…

Ələmdar əl-ayağa düşdü:

– Bayaqdan de də! – dedi. – Hazır qapım var. Dəmirdəndi. Əntiqə şeydir. Onsuz da indiki mənzillərin qapıları standartdır, ölçünü neynəyirəm. Adam da verim, maşın da, apar.

Xasay əli ilə rədd elədi:

– Yox-yox! Dəmir qapı istəmirəm…

– Bay! – Ələmdar təəccübləndi. – Camaat yalvarır, bu istəmir. O günləri bir zavmaq bir saat dil töküb, bu qapını onun sifarişi ilə qayırtdırmışam… Kişi haqqını da əvvəldən sanayıb… Dörd yüz… Bu istəmir… Bazarkom Əli də, qaişnik Cəfər də, sanballı kişilərin hamısı bu qapıdan düzəltdirir… Sən onlardan əskik kişi-zad deyilsən ki!

Xasay istehza ilə cavab verdi:

– Əskik dedin qoydun! Onlarla tərəziyə girməyə məndə qüdrət hanı?! Bir yarımçıq aliməm… O kişilərinsə altı da doludur, üstü də! Onlar bir qapıya dörd-beş yüz maya qoyarlar da!

Ələmdar qalxdı, əlini onun çiyninə qoydu:

– Səndən pul istəyən var?! – Çımxırdı. – Təzə mənzilinin hədiyyəsidi də… İxtiyarım yoxdur?

– İxtiyarından söhbət getmir ey! – Xasay darıxdı. – Amma başa düş. Onlar qorxurlar ki, evlərinə oğru girər, var-dövlətlərinə süpürgə çəkər, ondan ötrü də dəmir qapı qoyurlar… Mən nədən qorxmalıyam? – Xasay birdən şirin-şirin güldü. – Dediyimdən bir şey qandınmı, qohum? Ya xırdalayım?!

Ələmdar əlini onun çiynindən götürdü. Xasayın təhər-töhrünə baxdı, təklifinin yersizliyinə özü də inandı. Yerinə qayıtdı. Boynunun ardını qaşıdı:

– Yaxşı da, dəmirdən istəmirsən, istəmə. Bir dekorativ qapı var, başdan-başa naxışlıdır. Lap apar muzeyə qoy... Bir artist üçün düzəltdirmişəm. Demə, sorağımı professor Qəmərzadədən alıb… Tanıyırsan… Professorun qapısı da mənim əməyimdir, axı! Beləsi işinə yararmı?

Xasay saatına baxıb ufuldadı:

– Sən canın, zəhmətinə hayfın gəlsin… Mən hara, dekorativ qapı hara! Yazıq deyiləmmi?…

Ələmdar başladı onu dolamağa:

– Niyə, adə? – dedi. – Bu gün-sabah professorsan da…

Xasay onu dayandırdı:

– Hələ bir dayan! – dedi. – Dekorativ qapının ağrısı lap ağırdır. Kənddən-kəsəkdən minnətə gələnlərin sayı kirayə qalanda yığışılmırdı… Nə var, nə var alim olmuşam. Əvvəl heç yadlarına düşmürdüm… Bu qapını qoysam, batdım ki! Deyərlər Xasay böyük adamdır…

– Sən lap ağ elədin ha! – Ələmdar əllərini yana açdı. – Bəlkə o preslənmiş yonqardan qayırılmış qapı istəyirsən?! Hə?!

– Lap elə də yox! – Xasay ayağa durdu. – Qapımın açılıb-örtülməyə tabı olsa, kifayətdir… Qayın, daha yubana bilmərəm…

Ələmdar razılaşdı:

– Hə, sən get, bu gün hələm-hələbət qapını düzəldəcəyəm. Narahat olma… Ünvanı de…

Ələmdar yeznəsini yola salandan sonra nə fikirləşdisə başını pəncərədən çıxardıb qışqırdı:

– Adə, Əhməd, Əhməd! Bir qalx bura!

Bir azdan Əhməd içəri girdi. Ələmdar qoymadı ona ağzını açsın:

– Belə elə! – dedi və gözünü qaçırda-qaçırda davam etdi. – Gördün o qapı-pəncərə çərçivələri lap məsrəfsizdir, qoy qırağa. Akt bağlayıb, kombinata qaytaracağıq… Hə, bir də skladçik bacanağına de ki, kif atmış aboyların

siyahısını, miqdarını yazıb gətirsin… Görək onunçün neynəyərik…

Əhmədin qaşqabaqlı üzü açılmışdı. Gözləri şirin-şirin qırpılırdı. Ələmdar ona bir nəzər salıb qımışdı:

– Hə! Sən deyəndir elə! Bina bir, ya ikimərtəbəli olsaydı, yenə dərd yarı idi. Maşallah, beş mərtəbədir, səkkiz blokludu! Bir belə adamın ağzını "aşqa-aşqa, məndən başqa" deməklə bağlamaq olmaz! Hər mənzildə bir yol söysələr, ölənlərimiz qəbirdən xortdarlar… Daha dişini ağartma… Yeri, get…

Briqadir qaça-qaça otaqdan çıxdı. Ələmdar birdən Xasayın dalınca deyindi: «Bu zalım bizi də özünə tay edəcək!»

## PAPAQÇI OĞLU

Bacıoğlu, nahaq başını itirmisən, dünyanı yöndəmə sən salmayacaqsan ki! Rəng-rufun xoşuma gəlmir, gözlərin qızarıb, saçların bir-birinə qarışıb. Səhərdən axşamadək iş olar?! Laboratoriyada bir belə batıb qalırsan, elə bilirsən, sənə heykəl qoyacaqlar?! O qədər sənin kimi adi elm fədailəri var ki, adları heç it dəftərinə də düşməyəcək. Hə? Məsəl də göstərə bilərəm. Eşitmisənsə əgər, lazerlə məşğul olanlardan biri azərbaycanlı Əli Cavandır… İlk ixtiraçılardan biridir. Bunu bilməmək ayıbdır, bacıoğlu. O, Təbrizlidir, Amerikada yaşayır,

Taunsun laboratoriyasında işləyir. Lazerə görə Tauns Nobel mükafatını aldı, Əli Cavana quru zəhmət qaldı… Bu faktdır. Odur, elə işləmək lazımdır ki, can sağlığına xələl gəlməsin. Gözünə su ver, məndən nümunə götür, keçən yay beş pud idim, indisə beş pud yarımam. Güclü olmaq lazımdır. Bunun üçün çox şey gərək deyil, jurnalist dostum Sirus demişkən: «İdman eləmək lazımdır»… Bah, necə yəni, xəbərdən xəbərin yoxdur?! Bala, elə demə, sən keçənləri biz də keçmişik. Biz də cavan olmuşuq, biz də kitab üzü görmüşük, biz də institut qurtarmışıq. Uzağı yox, sən oxuyan institutu. Nə olsun ki, pivəxanada işləyirik! Eh, bacıoğlu, sən hələ böyük Nyutonu başına düşən alma ilə başqa alimlərdən ayırdığın vaxtlar mən diplom almışam. Bir neçə il mühəndislik də etmişəm, amma vaxtında ayıldım, daşını atdım. Şükür Allaha, indi beş kişinin biriyəm. Pivəm də ki, bu yaxınlarda adladır.

Boçka hər dolub-boşalanda pul pivə köpüyü kimi tökülür cibimə. İnsana bundan artıq nə lazımdır?!

…Diplom işin nə yerdədir? Mövzusu təzədir deyirsən? Hm, inanma, bacıoğlu, inanma! Əgər elm aləmində işlənməmiş sahə olsaydı, mən pivəxanaya gəlib çıxmazdım… Niyə olmur? Daimi müştərimçün hər şey olar. Pivəni iç, mən də bura düşməyimin tarixini danışım.

…Heç bilmirəm, nə ili idi mən qurtaran il. Nə üstə təhvil olmuşdu? Dovşan üstəmi, şir üstəmi, bilmirəm. Bircə bu yadımdadır ki, çox sevinirdim. Bəs, nə! Bizim

nəsildən oxuyan olmayıb. Tacir olub, sürücü olub, amma mühəndis olmayıb. Bu mənim ürəyimi qürurla doldururdu. Diplom işlərinin mövzusu divara vurulmuşdu. Baxdım, baxdım, axır birinin üstünə əlimi qoydum. «Bu mənim», – dedim. Kafedra müdiri fikrimi bəyəndi: «Əla! – dedi. – Bu mövzu heç laboratoriya şəraitində də tədqiq olunmayıb. Şamama kimi tərdir, hələ tağdan dərilməyib».

«Bəh-bəhlə» göndəriş yazıb, məni bir zavoda göndərdilər. Diplom işimi orda yazmalı idim. Qol-qoltuğu dolu getdim həmin zavoda. Məni axtardığım şöbəyə ötürdülər. Şöbənin aparıcı mühəndisini nişan verdilər: «Sənin elmi rəhbərin odur! – dedilər. – Çox başlı adamdır. İndiyə qədər yüzdən çox ixtira edib, səmərələşdirici təklif verib». Elmi rəhbərim başını qaldırıb, bir altdan yuxarı baxdı, bir üstdən aşağı. Onda belə bədheybət deyildim, arıq bir uşaqdım, traktor altına düşsəydim, salamat çıxardım. Hə… o, əlini könülsüz uzatdı. Elə bildim görüşmək istəyir. Cəld əlimi uzatdım. O, gülümsədi, barmaqlarını barmaqlarıma toxundurdu. Kağızlarımı istədi, verdim. Yamanca pərt oldum. Qıpqırmızı pörtdüyümü hiss elədim… O, indi də zavodda işləyir. Şöbə müdiridir. Yoldaşları ilə, hərdənbir, bura pivə içməyə gəlir. Köhnə elmi rəhbərim mehriban-mehriban kefimi soruşsa da, onun dolçasını həmişə yarımçıq verirəm. O da yazıq-yazıq baxır, amma dinə bilmir. Kəsilə-kəsilə qalır, bu da mənə ləzzət verir.

Hə, sözüm onda yox. Soruşdu:

– Haralısan, ə?

Dedim.

– Atan necədir?

Dedim. O, hırıldadı:

– Papaqçılıq hara, elektronika şara? – dedi və məsləhət gördü. – Gedəydin dədə-baba sənətinin dalınca da!

Dinmədim. O, başqa sual verdi:

– İşinin adı nədir?

Və cavab gözləmədən kağızlarımı çəkdi qabağına. Gülümsədi. Fikirləşdim: «Deyəsən, yaman ağırından yapışmışam». Soruşdum:

– Çox çətin mövzudur?!

– Sənin kimi igidlər üçün nə çətinliyi?! – Lağ elədi.

– Bəlkə köhnədir, məndən qabaq maraqlanan olub?

– Gecikmisən! – dedi. – Haçansa bu mövzuda mən də diplom işi yazmışam…

«Haçansanı» elə uzatdı ki, elə bil on-on beş ildən yox, bir qərinədən söhbət gedirdi.

– Budur! – dedi və siyirtməni açdı. – Sənin layihə edəcəyin cihaz. Bunu bizim zavod buraxır, bütün sənədlər odur rəfdəki yekə qovluqdadı. Əldən itisən? Yazmaqla aran necədir?

– Özümdən?! – Gözüm kəlləmə çıxdı.

– Əşi, yox, köçürməkdən söhbət gedir… Al, diplom işinə aid nə lazımsa, bu qovlularda var… İki gün vaxt ve-

rirəm, köçürərsən, gətirərsən, sonra cizgilərini verərəm üzünü çıxararsan…

Təəccübüm hələ keçməmişdi:

– Deməli, bu cihaz sizin ixtiranızdır?!

O, üz-gözünü turşutdu:

– Yox, canım! – dedi. – Mənim diplom işim ancaq tədqiqat idi. Bəzi əlavələr eləmişəm… Cihaz qabaqlar da vardı…

Daha işləmək nədir, hesablamaq nədir, bilmədim. Aldım, köçürtdüm. Diplom işim oldu hazır. Müdafiəsini də elədim. Amma ondan sonra hər şeyə həvəsim söndü. Söz verdim ki, ata-baba sənətinə qayıdım, papaqçı olum, camaatın başına qulluq edim. Bir gün, bir gecə atamla mübahisə etdim, kişi fikrimi dəyişdirdi. Onun bir sözü indi də qulağımdadır: «Bala, adamlar indi başdan çox qarınlarına maya qoyurlar! Tərslik eləmə, qarın başdan irəlidir!» Mən də pivəxana açdım. Bu da mənim tarixim... Yenə süzümmü? Yox? Onda yaxşı yol…

…Ey, bacıoğlu, bir dayan, heç demədin, axı, diplom işin nədəndir?! «AA» açarları»? Yox, əşi? Adə, mən yazan diplom işinin də adı belə idi, axı! Gör ey, dünyada hər şey necə də təkrar olur!

## QOY, DOLANSINLAR

Dəllək Əliş işdən yorğun gəlib, özünü yıxmışdı divana və istidən tövşüyürdü. Qapı-pəncərəni təmiz açmışdı ki, bəlkə gün batandan sonra evə bir sərinlik düşdü. Bir azdan meh qalxdı, onu mürgü basdı, amma arvadının deyintisi aman vermədi ki, gözünə yuxu getsin.

– Bu da evdir, bu da dolanacaqdır? Ağcaqanad əlindən tərpənmək olmur. Adamı yeyib tökdülər… Neçə yol deyirsən, istilər yatana qədər, ağcaqanadın kökü kəsilənə qədər apar məni qoy atamın xarabasına, tərpənmirsən. Yüz yol de, gör, heç vecinədir? Buyur, ayaqlarını uzadıb, xorna çəkir. Elə bil daş-divarla danışıram…

Bir dedi, iki dedi, Əliş gördü arvad əl çəkmir, elə bir ucdan döşəyir onun qabırğasına. Təcrübədən bilirdi ki, bunun dalı pis gələcək. İndidən qabağını almaq lazımdı ki, arvadının deyintisi mübahisəyə çevrilməsin.

– Heç bilmirəm bu xarabanın nəyinə aşiq olub, tərpənmir. Yay gəlir, istidən bişirik, qış gəlir, soyuqdan donuruq. Barı bu ağcaqanad olmayaydı, yenə birtəhər dözmək olardı…

Əliş dikəlib oturdu:

– Ay qız, indi bir ağcaqanad dişləməklə sənə nə oldu, axı, evi başına götürmüsən? – Soruşdu.

Arvad gəlib onun başının üstünü kəsdirdi, hirslə dedi:

– Görmürsən, qolum nə boyda qızarıb?

– Az, yaxşı, camaatı bizə güldürmə, maşallah, göz dəyməsin, minarə boydasan, ağcaqanad dişləməklə nə olacaq sənə?

– Yeri ağrıdır ey, dişləməyi üçün demirəm, sonra yara olur…

Əliş tənbəl-tənbəl əsnədi, əlini köynəyinin yaxasından içəri salıb sinəsini qaşıdı.

– İndi nə olsun? – dedi. – Ağcaqanad da yazıq deyilmi? Səni dişləməsin, məni dişləməsin, qonşuya dəyməsin, acındanmı ölsün? Xa-xa…

Arvad Əlişin gülməyindən daha bərk acıqlandı:

– Belə onlara ürəyin yanırsa, çağır, qoy, səni dişləsinlər!

– Eh, arvad, sənin heç insafın yoxmuş ki! Allah onları yaradıb ki, səndən-məndən dolansınlar da. Bir özün fikirləş, ağcaqanadın atası yox, anası yox, cibinə pul qoyanı yox. Bəs, bu yazıqlar necə keçinsinlər?

Əliş arvadının zəif yerini tapmışdı. Elə ki, qalmaqal qoxusunu alırdı, tez aralığa bir fəlsəfi söhbət salırdı. Bir il institutda oxumağı hədər getməmişdi. Bu gün də elə oldu. Arvadının evi başına götürən deyintisi kəsildi, o, gülümsədi:

– Əliş, lap radioda danışanlar kimi danışırsan ha. Nə deyirəm bir qulp qoyursan… O günləri deyirəm ki, dükançı Sədrəddin kilo əvəzinə səkkiz yüz qram çəkir, deyirsən, qoy dolansın. Deyirəm, zalım oğlu, az qala, çay-qəndi də altdan satır. Deyirsən, üstdən satsa, o ya-

zığa nə qalacaq? Altmış-yetmiş manatla necə maşın alacaq, ev tikdirəcək, bağ saldıracaq? Doğrudan sənə bunlar təsir etmir, ya məni ələ salırsan?

Əliş onun daha yumşaldığını görüb gülümsədi:

– Bəlkə keçən bazar yolda maşınımızı saxlayan qaişnik Cəfəri də deyəsən? Saxlayan kimi düşüb cibinə bir kök onluq basdım ha, onu deyirəm… Onda da bir saat deyindin.

Bu yerdə arvadı od götürdü:

– Onu da deyəcəyəm, hələ on beş manat bu «sestraya», beş o «sestraya», on su verənə, çay gətirənə, iyirmi beş uşağı tutana, üç qapıçıya verdiyini də deyəcəyəm…

– Ay qız, kiri, kiri! Sən lap dədən Xası kimi hər şeyi çötkəyə salanlardansan ha. Elə bil hər gün doğum evinə gedir. Əyyamda-ildə olan işdir də. Ürəyinə niyə salırsan, axı?

Arvad yana-yana ona baxdı:

– Belə edirsən, dadandırırsan da. Elə sənin kimiləridir də bizi bu günlərə qoyan, – dedi və birdən yadına düşdü. – Elə dünənkini götür, idarənin çilingəridir, gəlib qazı-suyu təmir edir, sənə nə düşüb, hər dəfə onun cibinə üçdən-beşdən qoyursan?

Əlişin yuxusu təmiz qaçdı. Ucuz ətir-sabun iyi gələn əlləri ilə üzünü övkələdi. Qalxdı ayağa:

– Arvad, daha sən məni dəng elədin? – dedi və əllərini ölçdü. – Bu işin binasını mən qoymamışam ki, kökünü mən də kəsim. Hamı dolanmalıdır, hamı yaşamalıdır.

Götür, məni. Axı, özüm də ondan-bundan dolanıram. Allahdan gizli deyil, səndən nə gizlədim, mən də dəlləkliyimi elə bunların başında öyrənmişəm. İndiyə qədər də işləyirəm. Bir adam da narazılıq etməyib. Sabah, sabah olmasa da, biri gün, elə bu sadaladıqların gələcəklər yanıma, bir baş, bir üz, üççə manat. Qırxıram… Hünəri var verməsin, gələn dəfə başını küt balta ilə qırxaram. Qoy dolansınlar. Ağcaqanadlar da, qanadsızlar da, elə o saydıqların da. Qoy, dolansınlar…

## YALANÇI OĞUL

Onlar sözləşdikləri kimi düz ayın otuzunda Həsənin gen-bol mənzilinə yığışmışdılar. Zarafatın, şirin söhbətin sonu görünmürdü. Düz iyirmi üç gündü ki, ayrılmışdılar. Bir-biri üçün darıxmışdılar.

Həsənin arvadı işdə idi, on yaşlı oğlu mətbəxdə maqnitofon oxudurdu.

Masanın üstündə bir qutu «Çinar» şokoladı, iki şüşə konyak vardı. Pəncərədən içəri dolan yaz günəşinin şüaları içki qədər xoş idi. Şüşənin biri boşalmışdı, dibində bir qədəhlik qala, ya qalmaya. O birisi dolu idi. Yaşda hamıdan kiçik olan Elxan saqilik edirdi, qədəhləri doldururdu.

Atabala boğazını arıtladı, əlinin dalı ilə qədəhini kənara sürüşdürdü. Lopa bığlarını sığalladı. Pardaxlı ma-

saya ləpələnmiş qədəhdən sıçrayan bir neçə damla konyakı Atabala cibindən çıxartdığı dəsmalla sildi. Başını qaldırdı. Hamının diqqətini cəmlədiyinə arxayın olandan sonra sözə başladı:

– Bu qədəhi toqquşdurmazdan qabaq gəlin aydınlaşdıraq. Vağzala kim gedəcək? Yoxsa konyakın birini boşaltmışıq, hələ də qərara gəlməmişik…

Dinən olmadı. Dördünün də gözü qızıl mayeli qədəhə dikilmişdi. Atabala neçə ilin briqadiri idi. Bilirdi ki, belə işləri həmişə məsləhətli yoluna qoyarlar, zordan bir şey çıxmaz.

– Keçən ay mən getmişdim…

Həsən astadan, burnunun altında dedi. Atabala ev sahibi ilə yanaşı oturmuşdu. Ona baxmaq üçün boynunu doxsan dərəcə döndərməli oldu, amma bir söz demədi, üzünü çevirdi. Həsənin haqlı olduğunu Atabala yaxşı bilirdi. Heç özü də onu göndərmək fikrində deyildi.

Səlim utana-utana gülümsədi:

– Canınızçün, gedərdim, amma qorxuram yenə sizi pis vəziyyətə salam. Adama yaxınlaşan kimi dil-dodağım təpiyir. Keçən dəfə də elə oldu. Yaxşı ki, briqadirimiz vağzalda idi. Deyəsən, kimisə yola salırdı… Tez dadıma çatdı… Ona görə ki…

Elxan qoymadı Səlim sözünü bitirsin, əlini şumal yanağına şappıldatdı:

– Bunu qəbirə qoyasınız, bu dünyada səndən maymağı yoxdur. Evi tikilmiş, – dedi və gözlərini bərəlt-

di, – Sibirdə olanda az qalmışdı məni o dünyaya göndərəsən… Sizin xəbəriniz yoxdur, söz açıldı, qoy deyim. Adə, girmişəm dəzgahın dalına, elektron şkafında yanmış məftilləri izolə edirəm. Deyirəm, nə var ki, gərginliyi keçirtmişəm də… Bu maymaq xəbərdarlıq eləmədən açarı qoşur… Allah üzümə baxıb, ayağımın altına rezin atmışdım… Elə orda qalardım…

Həsən ona sataşdı:

– Ay səfehsən ha. Qalaydın da. Pis yerdi bəyəm? Nataşa da hər gün qəbrini ziyarət edərdi, yoxsa qoydun yazığı gözüyaşlı, çıxıb gəldin…

Atabala qəhqəhə çəkdi. Qalanları da ona qoşuldu. Həsən həsədlə davam etdi:

– Zalım qızı Elxanın başına fırfıra kimi dolanırdı. Elə hey bunu dilə tuturdu ki, getmə Bakıya, qal burda, atam səni profilaktoriyada işə düzəldir… Elxan da özünü ay tox tuturdu ha. Elə bil qız onun kənizidi. Səlim yazıq lap yanıb tökülürdü.

– Paxıllıqdan az qalmışdı kişini xosumvay etsin, – Atabala söz atdı.

Səlim bu yerdə dözmədi, səmimi bir gülüşlə etiraz etdi!

– Burda korladız da, – dedi. – Yüz elə qız qurbandı Elxana. Amma bu uşağın burnunu hər yerə dürtməyi müsibətdir lap. De ki, ay Allahın heyvanı, elektriksən, elektronika şkafında sənin nə işin var? Həmişə əl-ayağa dolaşır da… Mən də hardan biləydim ki! Necə…

Gülmirzə öz tın-tın səsi ilə onu tamamlayıb, yoldaşlarını bir də güldürdü.

– …Necə vurmuşdusa başına Nataşanın məhəbbəti, gərginliyi qoşdun… hə? – dedi və sözü çevirdi. – Amma haqq tərəfi, briqadirimiz od-alovdur… Axı, sən necə elədin ki, ezamiyyət vərəqlərinə möhür vurdurdun, amma tarixi qoydurmadın?

Atabala onların hamısından yaşlı idi. Gülmirzə erkən yaz girən kimi başını qırxdırmış, indi neçə gündü ki, timov gəzirdi. Briqadir onun işıldayan başını sığalladı:

– Uşaqsan ki… – dedi və zarafatyana bir xəcalətlə boynunu bükdü. – Bu ağsaqqal vaxtımda günaha batırdınız da məni. Ümumi şöbədəki arvadı yola gətirənə qədər mənimki mənə oldu. Genə bir fərli şey olaydı…

Atabalanın turşumuş üzünə baxan Elxan hırıldadıqda, briqadir ona bir dürtmə vurdu:

– Ay qırışmal, gülərsən də… – dedi və cavanların məclisi üçün hazır saxladığı əhvalatı danışdı. – Mən qocanı itələdiz qabağa, özünüz çəkildiz qırağa. Hansınıza dedim, girişin, heç biriniz boyun olmadı. Özüm hücuma keçməli oldum. Arvad da sağ olsun, borclu qalmadı, möhür vurdu, tarix qoymadı.

Həsən yanağındakı xalı didişdirə-didişdirə güldü:

– Sən insafsız da kağızları alan kimi sivişquluya dəm verdin, heç xudahafizləşməyə də getmədin…

Gülmirzə sözü çevirdi:

– Amma teleqram alanda qanımız yaman qaralmışdı ha. «Sizin göndərdiyiniz dəzgah işləmir, nöqtə, təcili təmir briqadası göndərin, nöqtə, əks təqdirdə yuxarı təşkilatlara müraciət ediləcək, nöqtə». Baş mühəndisimiz də bircə gündə qoparağımızı götürdü.

– Ezamiyyət yaxşı şeydi, amma belə tez olanda adam bezikir. Ev-eşikdən olur adam… –

Elxan fikrini tamamlamağa macal eləmədi, Səlimin əlinə onu dolamağa imkan düşdü:

– Bah, əliuşaqlının yekəsi burada imiş ki… Subay-salıq oğlansan, bizim kimi ailəli deyilsən ki, şikayətlənirsən.

Həsənin oğlu qaça-qaça içəri girdi:

– Ata, olar düşüm həyətə? Oynamaq istəyirəm ey… – dedi.

Atabala qalxdı ayağa, başının üstündəki nəfəsliyi açdı, küçədə oynayan uşaqların səs-küyü içəri doldu.

Həsən diqqətlə oğlunu süzdü:

– Riyaziyyatı eləmisən?

– Hə…

– Gətir dəftərini. Əmilərə göstər. Atabala, oğlum çox zehinli uşaqdır.

Uşaq tutuldu, sonra qızara-pərt dedi:

– Ata, məsələnin cavabını hələ dəftərə yazmamışam, axı.

– Hardadır, bəs?

– Başımda… Axşam yazaram…

Qonaqlar gülüşdülər.

Həsən hirslə qalxdı, uşağın qulağından yapışdı:

– Ay dəyyus, yenə yalan deyirsən? Bunun üstündə səni o günləri kötəkləmədim? Hə?

Uşağın çığırtısını telefonun zəngi tamamladı.

Həsən əlini boşaltdı. Dolabçanın üstündə qoyulmuş telefona əlini uzatdı. Oğluna işarə etdi, dəstəyi qaldırıb, ona uzatdı:

– Qonşumuz Əhməd olsa, de ki, atam evdə yoxdur. Nərdtaxtanı istəsə, de ki, yerini bilmirəm.

– …Kimdir? Əhməd əmi? Yox, atam evdə yoxdur. Bilmirəm hara qoyub… Sağ olun…

Həsən dəstəyi onun əlindən qapıb aparatın üstünə çırpdı, deyindi:

– Zalım oğlu! Belə həvəskarısan, özünə nərdtaxta al da. İki gündən bir nərdtaxtanı istəyir… – dedi və oğlunun üstünə barmağını silkələdi. – Yaxşı, get oyna… Amma bir də yalan danışma, yoxsa qulağını qoparararam.

Atabala onun sözünə qüvvət verdi:

– Bala, atan düz deyir, kişi yalan danışmaz… – dedi.

Uşaq başını tərpətdi, dəhlizə sivişdi. Bir an sonra qapı onun dalınca örtüldü.

Atabala ciddiləşdi:

– Uşaqlar, bir azdan Rostovdan gələn qatar Bakıda olacaq. Vağzala kim getsin? Hərəmizə bir bilet lazımdır, – dedi.

Beş uşağı olan Gülmirzə daim qayğılı olurdu. İndi də nəyinsə fikrini çəkə-çəkə təklif etdi:

– Bəlkə bir həftə də dincələk? İş-gücümüz var… – dedi.

Atabala qəti rədd etdi:

– Həvəsdi, bəsdi. İnsaf da dinin yarısıdır. Bir də ezamiyyət aydan çox çəkəndə sutoçnı yarıbayarı azalır…

– Gəlsənə, təyyarə bileti tapaq? Onun qiyməti bahadır…

Hamı Elxana istehza ilə baxdı. O, cəmi üç aydı onların briqadasında işləyirdi. Çox şeydə naşı idi. Briqada zavodun göndərdiyi dəzgahların yerində bərpası ilə məşğul olurdu. Ölkənin neçə-neçə şəhərində olmuşdular. Bu işlərin hər yolunu bilirdilər. İndi Elxanın birdən-birə təkliflə irəli atılması onlara xoş gəlmədi.

– Təyyarə biletinə familiyə yazılır… – Briqadir başını bulaya-bulaya izah etdi. – Gərək bunu biləydin…

Elxan təslim olmadı:

– Nə olar? Pozub düzəldərik…

– Yox. Geydirmə sənədin axırı yoxdur…

Gülmirzə bir də soruşdu:

– Briqadir, Rostovda qatara minəndə sən provodnika pul verdin, ya yox?

– Yox, canım. Məhəllə uşaqlarındandı. Pul götürmədi. Eybi yox, inşallah, rastıma düşər, xəcalətindən çıxaram…

– Tanış çıxmasaydı da, beşdən-ondan verib, gəlib çıxardıq. Həmişəki kimi… – Həsən araya dedi.

Briqadir təsdiq etdi:

– Əlbəttə, – dedi, – Hesablayanda məlum olur ki, pis alver deyil. İyirmi üç gündür dincəlirik, iki manat altmış qəpikdən də sutoçnı gəlir. Bu elədi altmış manat. Manatdan mehmanxana. Bu da həştad manat. Hərəmizə bir bilet də alsaq olar yüz manat. Allah bərəkət versin. Maaşımız da göz kimi durur kassada.

Elxan heyrətlə soruşdu:

– Bəs, mühasibatda şübhələnmirlər?

Atabala narahat halda qurcalandı.

– Niyə də şübhələnməlidirlər, axı? – dedi və hamıya dərin bir nəzər saldı. – Bir də şübhə hələ əsas deyil…

Gülmirzə əlini qədəhə atdı, ayağa durdu:

– Gəlin, bu badəni bizim briqadirimiz, başbilənimiz Atabalanın sağlığına içək, dedi. – O kişinin sayəsində biz pis dolanmırıq… İçək…

Atabala etiraz etdi:

– Yox, yox… Axırıncı badəni bu gün vağzala gedənin sağlığına içəcəyik… Hə, qeyrətə gəlin, uşaqlar…

Elxan qalxdı, əlini sinəsinə qoydu. Hamı dərindən nəfəs aldı. Büllur qədəhlər bir-birinə dəydi, havada görünməyən bir qövs cızıb, boşaldılar…

## ŞORBA

Yarım saatdan sonra nahar verilməli idi. Firəngiz xala tələsirdi. Elə tələsdiyindəndi ki, iri şorba qazanını sobadan endirəndə dağıtdı. Ümidi şorbaya idi, nahara başqa xörək bişirməmişdi. Bağça müdirəsi ilə səhər götür-qoy edəndə belə qərara almışdılar ki, uşaqlar bu gün ikinci xörək olmadan da ötüşərlər. Firəngiz xala da şorbanı çox eləmişdi. Daha suya qızırqanmayacaqdı ki. Balalar nə qədər istəsəydilər, veriləcəkdi. Bu da belə oldu.

Firəngiz xala yaman qorxmuşdu. Əgər qaynar qazan üstünə dağılsaydı, yanıb pörşələnəcəyinə söz yoxdu. Doxsan kilo ağırlığında arvad yoluq cücə kimi büzüşmüşdü.

Müdirə mətbəxin qapısından içəri boylandı. Firəngiz xala inildədi, amma yerindən qalxmağa halı yoxdu.

– Az, yanını niyə yerə vermisən? – deyə müdirə təəccübləndi və mətbəxə göz gəzdirəndən sonra vaysılandı. – Vay-vay… Bu nədir?

Firəngiz xala uşaq kimi doluxsundu.

– Ay başına dönüm, gör, başıma nə gəldi? Əhə… – dedi. – Şorbanı dağıtdım, balaları yenə ac qoydum…

Müdirə bacı otuz yaşında xanım-xatın bir qadındı. Qaş, göz, gərdən, bir sözlə, hər şeyi yerli-yerində idi. İki il əvvəl, burda təzəcə işləməyə başlayanda isə arıq, bekarə bir gəlindi. İndi isə işım-işım işıldayırdı. Tərbiyəçilər də ondan tük salırdı. O, diqqətlə hisli əllərini yana-

ğına çəkdiyindən ala-bula çalan Firəngiz xalaya baxdı, şaqqanaq çəkdi.

– Ha-ha… Ay canı yanmış, – dedi. – Gözlə, bir gün qazana düşərsən. Gör, neçə dəfədir bu iş başına gəlir…

Firəngiz xala müdirədən halına həmdəmlik görməyib bir az soyudu, içini çəkə-çəkə söyləndi:

– Heç səni dərdə yarıyan görmədim də, – dedi. – Məni fikir alıb, sənsə lağlağından qalmırsan. İndi çolma-çocuğun qarnını nəylə dolduracağam? Qoymadın səhər, yoxsa ikincini hazırlayacaqdım…

Müdirə sözün hardan çözələndiyini dərhal başa düşdü, onun ağzından vurdu:

– Guya bir mənə qalır? – dedi və dərhal sözü çevirdi. – Sakit ol, görüm. Bəlkə dünəndən qalma bir şey var?

Firəngiz xala bir an fikirdən sonra sevinclə dedi:

– Doğrudan ey… Dünəndən yüz əlli yağlı kökə qalıb, axı. Necə də yadımdan çıxmışdı…

Müdirənin ağzı əyildi, qaşqabağını tökdü:

– Yüz əlli? Belə niyə çox bişirmişdin ki? – dedi və tənə ilə başını buladı. – Bircə gün işdə olmamışam, yeməyi dağıdırsınız. Belə edirsən ki, yağı-yağa çatdıra bilmirik… Bir də sənə nə var ki, at özgənin, örkən özgənin…

Firəngiz xala əl-ayağa düşdü:

– Müdirə bacı, elə niyə deyirsən? – dedi. – Dünən uşaqları bir sıyıqaşı ilə yola vermişəm. Kökələr bir az yanmışdı. Fikrim qalmışdı o ölmüş Xanımın paltarında. Vermədim uşaqlara, dedim, qarın ağrısına düşərlər. Yığ-

dım qazana, dedim, Bikə arvad aparar heyvanları üçün. O da hələ gəlib çıxmayıb.

Müdirənin ağız-burnu bir balaca düzəldi. Mülayimliklə:

– Barı yemək olarmı? – Soruşdu.

Firəngiz cəld yerindən qalxdı, küncdəki alümin qazanın qapağını qaldırdı, bir dənə kökə götürdü, uzatdı ona:

– Sən allah, al, bir dad, gör, yeməlidirmi? – dedi.

Müdirə hikkə ilə onun əlini yana itələdi:

– Ay sən öləsən. Özün dad, – dedi və lağ elədi. – Bizim mahir aşpazın bişirdiyi kökəyə baxın. Qapqara, kösöv kimi. Zalım qızı hər gün bir qazan xörəyi xarab edir. Elə bil əl-ayağını pişik yeyib…

Firəngiz xalanın aşpazlığına lağ edən adamlardan bərk acığı gəlirdi. İndi də yekə ağzı getdi qulağının dibinə.

– Aşpazlığıma lağ edirsən, bəs, bu neçə ili mən deyiləm səni dolandıran? Bir qazan suya görə məni danlayırsan. Bəyəm bu şorba idi? Əti yox, yağı yox, harası şorbadır bunun? Dağılıb, belə finnarə dağılsın. Sözbaşı bunu de, xeyir apararsan, İnşallah. Bütün zibilinizi mən ört-basdır edirəm. Ətini, yağını, düyüsünü, kartofunu daşıyıb aparırsan, mənə deyirsən, uşaqlara xörək bişir… İndi bir işdir olub, yol göstərməkdənsə, başlamısan köhnə palan içi tökməyə…

– Sən aparmırsan? – Müdirə onu acıladı.

– Mən də aparıram… – Firəngiz xala boynuna aldı. – Amma sənin kimi daha danışmıram…

Müdirə üzrxahlıqla dedi:

– Yaxşı, yaxşı, heç zarafat-zad qanmırsan ha. Bir sözdü dedim də… – Sonra Firəngiz xalanın hələ də əlində tutduğu kökəyə işarə etdi. – Deyirsən yeməlidir?

Firəngiz xala kökədən bir dişdəm aldı, bir az çeynədi, zibil vedrəsinə tüpürdü. Onun cavabını səbirlə gözləyən müdirəyə dedi:

– Bir az qurudur, amma yemək olar. Eybi yox, hər payın üstünə bir qaşıq sous da tökərəm, olar əntiqə. Amma tərbiyəçilərə tapşır, daha burda mənimlə çənəbazarına çıxmasınlar…

– Onunçün narahat olma, az, – deyə müdirə qapıdan çəkildi…

Bir azdan Firəngiz xala mətbəxdə işini qurtardı. Kökələr paylanmışdı, çaylar süzülmüşdü, hətta arvadın nazik ürəyi dözməmişdi, hər uşağa bir peçenye də əlavə etmişdi. Nəfəsini dərmək üçün bayıra çıxdı. İkimərtəbəli uşaq bağçasının pəncərələrindən qab-qaşıq səsi gəlirdi. Tərbiyəçilərdən hansısa ucadan soruşurdu:

– Uşaqlar, deyin görüm, siz bu gün çoxlu oynamaq istəyirsiniz, ya birinci xörəyi yemək?

Uşaqlar xorla cavab verdilər. Səsdən az qalmışdı Firəngiz xalanın qulağı batsın.

– Oynamaq istəyirik, müəllimə, oynamaq…

– Eləsə… – Tərbiyəçi eyni uca səslə davam etdi. – Kökələrinizi yeyin, çayınızı için, peçenyelərinizi də götürün, gedək bayıra. Tez olun…

Firəngiz xala rahat nəfəs aldı.

## XƏZİNƏ

Nahar fasiləsi qurtarırdı. Bir ağaclıqdan göz çıxaran nəhəng elektron lövhə bu gün havada istiliyin müsbət iyirmi beş dərəcə, təzyiqin yeddi yüz altmış atmosfer olduğunu xırda rəqəmlərlə, amma vaxtı, yalançılar sözü, bir arşınlıq rəqəmlərlə, həm də saniyəsinə kimi göstərirdi.

Zavodun giriş qapısında kadrlar şöbəsinin rəisi, bir-iki ictimai nəzarətçi əllərində dəftər-qələm hazır dayanmışdılar. Onlar gah qol saatlarına, gah da elektron lövhəsinə nəzər salırdılar.

Nəzarətçilərin əllərindəki dəftər «qara» dəftər idi. Girə keçənlərin adı yarım saatdan sonra zavod radio qovşağından gur-gur səslənəcəkdi: «Bizim kollektivi bu gün biabır edən aşağıdakı işçilərdir. Birinci. Filankəsov Filankəs, Filan sexin işçisi. İkincisi, Bəhmənkəsov Bəhmənkəs, Bəhmən sexin işçisi… və i. a.»

«Simsiz teleqraf» reyd keçirildiyini, deyəsən, camaata xəbər vermişdi. Zavoddan xeyli aralı olan yeməkxanada gecikənlər baş qapıya tərəf yox, hasarın xəlvəti

yerinə tərəf üz tutmuşdular. Əlbəttə, hasardan aşmağın xatası vardı, amma neynəyəsən, adın qara dəftərə düşməyi ondan da betərdi.

Yeməkxanadan təzə çıxmış usta Səlim elektron saata nəzər salan kimi özünü itirdi. Bu vaxt indicə yediyinin-içdiyinin adını soruşsaydın, yadına sala bilməzdi. Bir istədi cavanlığını xatırlasın, qaçsın hasara tərəf, amma qorxdu aşa bilməsin. Çünki yaş o yaş deyildi. O, bir o yana baxdı, bir bu yana baxdı, gördü çarə yoxdur. Nahardan on dəqiqə keçmişdi. Usta Səlim qapıya tərəf irəlilədi. Xəlvətə çəkilmiş əli dəftərlilərin əlinə düşdü. Kadrlar şöbəsi rəisinin ağzı getdi qulağının dibinə. Təəccüblə:

– Usta, səndəmi?! – dedi.

Onun heyrətinin böyüklüyünü ancaq yaxın silahdaşı Brutu qəsdçilər arasında görmüş Yuli Sezarın heyrəti ilə müqayisə etmək olardı. Rəis cavan oğlandı, bir az da artistliyi vardı. Kişi incəsənət institutunu qurtarmışdı. Bir vaxtlar qəsəbə klubunda teatr-filan çıxarırdı. Zavoda gəlib çıxmağı taleyin sirri olduğundan izah etməyəcəyik. O, səhnəvari bir pafosla davam etdi:

– Daha sənə sözüm yoxdur, usta Səlim! Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış! – Rəis bir xeyli atılıb-düşəndən sonra məsələnin lirik tərəfini yoluna qoyub, nəhayət, adam kimi soruşdu. – Vacib işinmi vardı?! Yoxsa sən hara, gecikdi hara?

Usta Səlim onu intizarda qoymadı, mərd-mərdanə dedi:

– İş günü nə vacib iş ola bilər! – dedi. – Nahardan gəlirəm.

Rəis onun şax cavabından alındı, başını bulayıb mızıldandı:

– Başına dönüm, usta, intizam, axı, hamı üçündür… – dedi və ictimai nəzarətçilərlə gözləşib, birdən partladı. – Elə bilirsən sənin adını dəftərə salmayacağam? Elə bilirsən onu Səlimənin dilindən eşitməyəcəksən?

Səlimə zavod radio qovşağının diktoru idi. Qara dəftərdəki adları-familiyaları elə şirin bir səslə oxuyurdu ki, hər kəlməsi adamın yeddi qatından keçirdi.

Usta Səlim çiyinlərini atdı, laqeyd-laqeyd dedi:

– Boşla, sən Allahın! Araya qan düşməyib ki, hay-küy salmısan!

Onun sakit səsindən rəis odlandı:

– Nəəə? Bir də de! – Bağırdı.

Usta Səlim onun arzusunu yerinə yetirdi, gülə-gülə:

– Deyirəm ki, qan düşməyib ha! Gecikəndə nə olar? – dedi.

Rəisin yanaqları lalə kimi allanmışdı, hirsdən bilmirdi nə eləsin:

– Daha sənə nə deyəsən? Sağ ol, usta! Başımızı uca elədin, – dedi və köksünü ötürdü. – Zavod boyda ad-sanı olan fəhlə belə edəndə daha uşaq-muşaqdan nə gözləyəsən?!… Usta, zavodun altı min işçisi var… Hərəsi

də, çox yox, on dəqiqə geciksə, bilirsən bu hara vurar?! Min saat! – deyə rəis barmağını yuxarı qaldırdı və əlüstü hesablamağından məlum olurdu ki, o, bu məsəli tez-tez çəkir. – Yəni yüz iyirmi beş iş günü! Belə ha! Zavoda hər gün bir xəzinə zərər dəyir. Budur bizim evimizi yıxan! Budur…

Usta Səlimin onsuz da çəp olan gözləri bir az da çəpləşdi. Mat qalmışdı. Hesabın bu üzünü nəzərə almamışdı. Haçandan-haçana özünə gəldi, bir siqaret yandırdı, tüstünü ağzından buraxa-buraxa dedi:

– Bah, bu da deyir xəzinə tapmışam! Yüz iyirmi beş iş günü nə böyük şeymiş! Mən bundan yekəsinin yerini bilirəm…

Rəisin səsi batdı. Usta Səlim onun nə dediyini eşitməsə də, çənəsinin atılıb-düşməyindən bildi ki, soruşur: «Harda?»

– Gedək bizim sexə! – Usta Səlim onun qolundan tutdu. – Əsəbiləşmə, bala, cana ziyandır. Mənim xəzinəm üçün də bir az hövsələ saxla. Burdakı heç, ordakını görsən, ürəyin gedəcək…

Rəis özünü itirdi, şübhə ilə:

– O nə xəzinədir elə? – Soruşdu.

– Əşi, gedib orda görərsən də!

– Usta, yaşda məndən böyüksən, amma mən dolamalı adam deyiləm ha! – deyə rəis qaşlarını çatıb onu sakitcə xəbərdar elədi.

Usta Səlim onu dilə tutdu:

– Dolamaq nədir, oğul, – dedi. – İki addım yoldur da. Nə olar ki? Xəncərinin qaşı düşər sexə getsək?! Elə orda, söz verirəm, gecikməyimin səbəbini də sənə deyəcəyəm…

Rəis yarıkönül onun dalınca getdi. İctimai nəzarətçilər də onların dalınca tərpəndilər. Sexə girdilər.

Dəzgahlar dayandırılmış, işləyən gözə dəymirdi. İşçilər orda-burda yığılıb, şirin-şirin domino, nərd vururdular. Kadrlar şöbəsinin rəisinin ağzı bu gün neçənci dəfə idi ki, gedirdi qulağının dibinə. Dinmək istədi, amma bu dəfə ağız geri, yerinə qayıtmaq istəmirdi. Pəltəklədi:

– Bunlar… niyə… işləmirlər? – soruşdu. – Nahar yarım saatdır qurtarıb!…

Usta Səlim istehza ilə:

– On gündür biz belə işləyirik, – dedi. – Bir misqal da material yoxdur zavodda! Ayın iyirmisi oldu, gətirib tökəcəklər… Onda başlayacaq verhaver…

Rəis qəzəblə:

– Bəs belə de! – dedi. – Bəs, sexin o başıbatmış rəisi hara baxır?

Usta Səlim lağ elədi:

– Hamının baxdığı yerə! – dedi.

– Yəni…?

– Rəhmətliyin oğlu, yəni saata! – Usta Səlim iri divar saatına işarə etdi. – O da gözləyir ki, haçan iş qurtaracaq….

– Bəs, bunu direktora niyə demir? – Rəis boynunu naçar dolandırdı. – Axı… axı, bu biabırçılıqdır.

Usta Səlim onunla razılaşdı:

– Biabırçılıq olmasına söz yoxdur, – dedi. – Amma nə bilirsən ki, direktorun bundan xəbəri yoxdur?!

Şöbə rəisinin deməyə sözü qalmadı, elə-belə soruşdu:

– Rəisiniz indi hardadır?

– Kabinetində…

– Niyə görünmür, bəs?

– Bizdən utanır! Yaxşı adamdır… – deyə usta Səlim ürəkdən güldü. – Ha-ha-ha! Bir çoxları kimi üzü patoşdan deyil ki qapını kəsdirib, nitq irad eləməklə məşğul olsun…

Rəisi bu söz necə götürdüsə, dabanı üstə fırlandı, istədi sexdən çıxsın, usta onun qolundan tutub saxladı:

– Bircə dəqiqə! – dedi. – Şərtimiz, deyəsən, yadından çıxıb…

– Nə şərt?

– Sən adamı siyahıdan silirsən, mən də xəzinəmi sayıram sənə.

Rəis başını dəftər tutmuş qıza yellətdi. O da qələmi usta Səlimin adının üstündən çəkdi.

– Ay sağ ol! – deyə usta Səlim razılıq etdi. – Elə qarala ki, daha oxumaq olmasın. Yoxsa mən hara, gecikdi hara. İndi keçək hesaba! Yaxşı bilirsən ki, bizim sexdə azından yüz adam işləyir… On gündür işimiz domino vurmaqdır. Yüzü ona vuranda edər min! Min iş günü! Min saat

hara, min iş günü hara? İndi, de görüm, ay xalası göyçək, kimin xəzinəsi böyükdür? İstəyirsən, gəl, dəyişək! Vallah, aldatdı demərəm.

## HESAB

Xıdır bazarlıq edib qayıtmışdı evə. İndi mətbəxdə oturub çay içirdi. Ləhləyə-ləhləyə zənbilləri beşinci mərtəbəyə qaldırmaq kişini birtəhər etmişdi. İkinci fincandan sonra yavaş-yavaş özünə gəlirdi. Yanğısı keçdikcə divanda şaquli vəziyyət almaq həvəsi ahənrüba kimi onu özünə çəkirdi. Amma Səlimə hələ yır-yığışı qurtarmamışdı, otaqlar tör-töküntülü idi. Deyinə-deyinə səhərdən əlləşirdi. O, həmişəki kimi şənbə-bazar çıxaranı söyə-söyə süpürgəni qoyub, döşəməsilən taxtadan yapışırdı. Lap yəqindi ki, ərinin divana keçmək arzusunu alqışlamayacaqdı, əksinə, bu, onu olsa-olsa hövsələdən çıxaracaqdı. Xıdır on altı illik təcrübəsindən bunu bildiyindən ürəyinin dərin guşəsində cücərməkdə olan həvəsini boğmalı oldu. Qalxdı. Sayğacı və dükan-bazar xərcləri qeyd olunan dəftəri divardan aldı, qoydu qabağına. Başladı bazarlığını hesablamağa. Aşıqlar millərdə şütüyüb bir-birinə dəydikcə Xıdırın yorğunluğu qaçırdı. Arabir arvadının deyintisini qulağı alsa da, gün ərzində xərclədiyini dəftərə salmağından qalmırdı. Bu quru rəqəmlər çox şeylər deyirdi. Mühasibatın bütün

qayda-qanunları ilə qurulmuş dəftərdə məxaric bölməsi mədaxil bölməsini həmişə üstələyirdi. Xıdır ah çəkdi: "Bəli, heç o yan-bu yanı yoxdur. Sabahkı məclisə hazırlıq mükafata olan bütün ümidlərimi puça çıxartdı. Bəli..." – pıçıldadı. Dünən aldığı otuz manat mədaxil bölməsinə yazılmışdı. Məxaric bölməsində onun necə əridiyinə tamaşa etmək Xıdıra əsl əzab idi.

Dığırlanan aşıqlar deyirdi ki, bu anlaşılmazlıqdır, belə ola bilməz. Onun ciblərinin künc-bucağında dörd-beş manat qalmalıdır. Amma Xıdırın diqqətlə apardığı axtarış göstərirdi ki, elə şey yoxdur, cibləri bomboşdur. O, bir də hesabladı, sayğac dediyindən dönmürdü, elə inadla təkrarlayırdı ki, qalmalıdır, vəssalam. Xıdır bezikib yerindən qalxdı. Dəftəri və sayğacı yerinə asdı. Mühasib olduğundan bilirdi ki, dəftərlə sayğac heç vaxt bir-biri ilə düz deməyib. Onu qəmləndirən, əlbəttə, bu deyildi, başqa şeydi. "Gərək ayaqqabılarımı təmirə verim, – deyə fikirləşirdi. – Lap zayı çıxıb. Təzə ayaqqabıdan vaz keçmək lazımdır... Gözümü bu mükafata dikmişdim, o da belə getdi..."

Bu naxoş düşüncələrdən onu oğlu Əkbərin tappıltı ilə mətbəxə girməsi ayırdı. Uşaq çantasını soyuducunun üstünə atdıqda Xıdır çəp-çəp baxdı, yana daradığı seyrək saçları gözünə töküldü, yerində qurcalandı. Sayğacda saldığı hesabdan onsuz da kişinin halı qarışmışdı. Hirsini tökməyə bəhanə axtarırdı. Qayım səslə dedi:

– Adə, gündəliyini bəri ver görüm.

Əkbər hər şənbə onun məktəbdəki müvəffəqiyyətləri ilə maraqlanan atasının adətinə alışdığından, dərhal qayışının altından gündəliyini çıxartdı, şəstlə masanın qırağına qoydu, amma hər ehtimala qarşı bir addım geri çəkildi, qapının ağzında durdu. İşdir, atası gündəlikdə xoşuna gəlməyən bir şey tapsa, əlini tərpədənə kimi aradan çıxmaq olsun. O, burnunu qarışdırdı: "Böyüklərin işini nə bilmək olur? Bir də gördün boş yerə çıxdı özündən…" – Fikirləşdi…

Xıdır oğlunun sərvaxtlığını bəyəndi, amma gündəliyi səylə varaqlamağından qalmadı. Danlaq yeri lazımdı… Birdən o, sevinclə nərildədi:

– Aha! – dedi və metal dişlərini qıcıdı. – Hesabdan yenə üç almısan? Havaxta qədər, adə? O qızlarcan da deyilsən? Əlaçıdırlar, ey, əlaçı… Bəs, sən?… Ay məndən olub mənə oxşamayan, sən niyə belə avara çıxdın? Mən uşaq olanda məsələ-misalı gözüyumulu həll edirdim… Bəs, sən kimə çəkdin, axı?

Əkbər evin kiçiyi idi. On yaşı vardı. Dördüncüdə oxuyurdu. Xıdırın ondan savayı iki qızı da vardı. Böyüyünün on beş yaşı sabah tamam olurdu. Bugünkü hazırlıq da bu münasibətlə idi. Xıdır hər il ad günü keçirməyin əleyhinə olsa da, on beş yaşı qeyd eləməyi lazım bilmişdi.

Əkbər gözaltı ətrafına baxdı. Aradan çıxmağa hər cür imkan olduğuna əmin olandan sonra cavab gözləyən atasına tərəf çevrildi:

– Ata, vallah, – dedi və yekə-yekə davam etdi. – Bizim hesab sizin uşaqlıqda keçdiyiniz hesabdan deyil. Bu riyaziyyatdır ey, riyaziyyat! O günləri özün gördün ki? Bir məsələni neçə saat həll elədin, elədin, amma cavab düz alınmadı…

Xıdır oğlunun dərrakəli sözündən tutuldu. Onun masadan bir qarış hündürə qalxmış boy-buxununa diqqətlə baxıb, bilmədi nə desin. Öskürüb mızıldandı:

– Avaranın danışığına bax, ey, – dedi və yenidən gündəliyin üstünə əyildi, xeyli varaqladı, amma orada tənbehə layiq başqa bir bəhanə tapmayıb, qayıtdı hesabın üstünə… – Adə, hesabı bilmək lazımdır, o bütün elmlərin açarıdır… harda olsan, nə olsan, fərqi yoxdur, vurma-çıxmasız keçinə bilməzsən… Dostun Elçin də sənin tayındır?

Əkbər başını aşağı saldı:

– Yox, Elçin hesabdan beş alır, qalan dərslərdənsə üç… Ata, bir də o, dostum-zadım deyil, – dedi və qaşqabağını tökdü. – Eləcənə bir partada otururuq… Özü də çox pis oğlandır. Fors edir. Nə var, nə var, atası onu hər gün məktəbə «Volqada» gətirir… Bu günsə məni aldadıb…

Xıdır maraqlandı:

– Aldadıb? – Soruşdu və qarşısındakı kətilə işarə etdi. – Otur, görüm… Bu necə oldu, adə?

Əkbər oturmağına oturdu, amma birdən inad elədi:

– Yox, danışmayacağam, – dedi. – Sonra gülərsən mənə…

Xıdır onu inandırdı ki, gülməyəcək… Əkbər yarıkönül sözə başladı:

– Bax ha, ata, indi ki, söz verirsən, danışaram. Gülüb-eləsən bir də sənə heç nə danışmayacağam… – dedi. – Bu gün Elçin sinfə iki şar gətirmişdi. Dedim. «Birini mənə ver, dost deyilikmi?» O, dedi ki, şarlar satlıqdır, pulunu ver, verim. Qiymətini soruşdum. Dedi, "Biri on beş qəpikdir". Deyirəm ona: "Elçin, biri beş qəpikdən dükanlar doludur ki? Belə baha niyə?" Dedi ki, bunları əmim xaricdən gətirib, heç vaxt partlamır. Anam bulka almaqdan ötrü mənə bir abbası vermişdi. O pula şarın birini aldım. Tənəffüsdə şarı doldurmağımı gördüm…

Əkbər susdu. Xıdır həqiqi bir səbirsizliklə:

– Hə, sonra? – Soruşdu.

– Sonra nə olacaqdı ki… Şar partladı. Tez Elçini axtardım. Bufetdə idi. Qutab yeyirdi. Dedim ki, pulumu ver, şar partladı. Güldü: «Mənə nə partladı? Almayaydın. Zornan satmamışam ki. Pulunu isə budur ey, yeyirəm…» Dalaşdıq onunla…

Əkbər axırıncı sözləri qəhərlə dedi. Xıdır oğluna nə isə demək istəyirdi ki, Səlimənin içəri girməyi mane oldu. Onun qolları çirməkliydi, başına bağladığı yaylığının altından saçları pırtdayıb çıxmışdı. Çöhrəsindən acıq yağırdı. O, süpürgəni divara söykəyib, astadan, amma qeyzlə dedi:

– Ay-hay! Mənim orda canım çıxır, bunlar burda veriblər baş-başa… şirin-şirin söhbət edirlər…

Xıdır istehza ilə soruşdu:

– Bəlkə biz iki kişi durub sənə döşəmə yuyaq? Hə?

Səliməni od götürdü:

– Hə, nə olar ki? Nəyin artıqdır məndən? Şükür, vəzifəmiz bir, sənətimiz bir, maaşımız bir, təhsilimiz bir. Səkkiz saat sən sayğac çəkirsən, səkkiz saat mən. Evdə isə əlini ağdan-qaraya vurmursan… Heç insafdandır?

Xıdır oğluna göz elədi. Səlimənin sevimli mövzusuna ailədə hamı yaxşı bələddi. Ər-arvad neçə illərdi ki, bir zavodda, bir şöbədə işləyirdilər. Hər ikisi mühasibdi. İnstitutu da qoşa qurtarmışdılar. Xıdırın alacağı Səliməninkindən on beş manat artıqdı. Övladları böyüdükcə vəziyyət çətinləşirdi. Xıdır hərdənbir qızların pal-paltarını sayğaca salanda başından ağrı qopurdu. Ömür yarı olmuşdu, sayğacdansa, murad hasil olmurdu.

Əkbər birdən qımışdı:

– Ata, deyəsən, mamam sənə iş tapşıracaq, – dedi. – Ona görə də hay-küy salır.

Ata-oğul bir-birinə baxıb uğundular. Səlimə bir az çaşdı. Kələyinin keçmədiyini görüb Əkbərə acıqlandı:

– Sən mumla, – dedi və mülayimliklə dilləndi. – Xıdır, vallah, lap yadımdan çıxıb, sənə deyim ki, beş-altı «Badamlı» al! Bir də iki qaymaq, dörd şüşə də qatıq al. Düşüb alsan, qızlar gələndən sonra başlardıq biş-düşə…

– Bundan başlayaydın da. – Xıdır gülməkdən yaşarmış gözlərini sildi, qalxdı. – Yaxşı, ordan pul ver, görüm…

Səlimənin iri gözləri daha da iriləndi, içini çəkdi:

– Aaa. Nə pul? – Soruşdu. – Otuz manatın axırına çıxdın bəyəm?

– Nədir, arvad, Əkbər kimi, deyəsən, sən də hesabdan zəifləmisən… Xərclədiyim dəftərdədir, inanmırsan, otur sal çötkəyə…

Səlimə fikirli halda deyindi:

– Heç bilmirəm sən bu pulları necə xərcləyirsən… Hər ay on-on beş manat izsiz-tozsuz yox olur. Belə baxanda maaşımız məlum, alınan şeylər məlum, yediyimiz-geydiyimiz göz qabağında, di gəl, sayğaca salanda, qalırsan məəttəl…

Xıdır ona necə bir nəzər saldısa, Səlimə sözü çevirdi:

– Əh, cəhənnəm olsun hesab da, dəftər də, – dedi və köksünü ötürdü. – İndi daxıldan on manat verərəm. Onsuz da qabaqdan yay gəlir, mənim paltom hələ gözləyə bilər…

Səlimə mətbəxin qapısından çəkildi.

«Daxıl» ər-arvadın ayda on-on beş manat kənara atdıqları mücrü idi. Səlimə onu yeddi qıfıl altında saxlamasa da, evdə heç kəsin ora əl atmağa ixtiyarı yoxdu.

«İki mühasibin bölünməz fondu» – deyə Xıdır həmişə arvadına lağ edirdi. Palto kimi «dəyərli» şeylərə dörd-beş ay, bəzən illərlə pul yığılır, nəhayət, alınırdı.

Xıdır dəhlizə keçdi. Ayaqqabılarını geyinmək üçün əyildikdə Əkbər daldan dilləndi:

– Ata, məni də apar da…

Xıdır başını qaldırmadan mızıldandı:

– Dükanda sənin nə işin var ey? Oturub dərslərinə baxsaydın daha yaxşı olardı. İlin axırına nə qalıb ki? Hesabdan üçü düzəltmək lazımdır, ya yox?

Yalın ayaqlarına keçirtdiyi yaş sürütmələrini şappıldada-şappıldada otaqdan çıxan Səlimə oğluna qahmar çıxdı:

– Əşi, qoy, getsin… – dedi və onluğu Xıdıra uzatdı. – Şey-şüy almağa həmişə biz getməyəcəyik ki? Böyük oğlandır, qoy, öyrənsin…

Söz Xıdırın ağlına batdı. Dükan-bazardan canı qurtaracaq deyənə razılıq verdi. Onlar qapıdan çıxdılar.

Dükan yaxında, evlərindən bir tin aralıda idi. Günün bu vaxtı həmişə adam az olurdu. Satıcı Xıdırı görüb dərhal yaxınlaşdı. Xıdır ərklə soruşdu:

– Nə var, nə yox, Əziz?

– Sağlığın… – Əziz dilini sürüdü.

– Kefin yoxdu?

Əziz elə bil bunu gözləyirdi, dərdləri açıldı:

– Kefimizi bəyəm özbaşına qoyurlar ki? Hərə bir tərəfdən söykəyib lövbərini… Qoyurlar adam başını dolandırsın? Müdir gedir, revizor gəlir, revizor gedir, müxbir gəlir. Bunları birtəhər yola verirsən, tək gəlirlər. Tək adamı yoldan eləməyə nə var? Pul köpəkoğlu

şeydir… İndi də xəbər yayılıb ki, rayonun mağazalarını xalq nəzarəti yoxlayır. Bir həftədir dörd göz olub ətrafımıza baxırıq… Allah saxlasın! Onlar da bir deyillər, iki deyillər… Bir sürüdürlər… Hərəsi də bir dərədən… Hansına yan alasan? Özləri bir-birindən qorxurlar. Eh… bir dəfə elə onların oduna yanmışam… – Əziz köksünü ötürdü. – Hə? Nə alacaqsan?

Xıdır sadaladı.

Əziz belinə yapışan qarnını qayışla möhkəm çəkdiyindən, deyirdin, hər əyilib-qalxanda bu saat beli ortadan ayrılacaq. Yaxası açıq, çirkli xalatının ətəklərini yellədə-yellədə o tərəf-bu tərəfə şütüyüb, Xıdırın dediklərini piştaxtanın üstünə düzdü, sayğacı yaxına çəkdi. Aşıqlar oyuncaq tapança kimi çıqqıldadı, sonra onluğu qamarlayıb daxıla atdı. Qalığını qaytardı.

Xıdır neçə ilin mühasibi idi. Bilirdi ki, sayğacda hesab belə salınmır. Satıcı fikrində hər şeyi hesablayıb, qurtarıb. Sayğacı xala-xətrin qalmasın çıqqıldadır.

Amma Xıdır belə şeylərə alışmışdı. Aldığını çantaya yığdı, başqa alıcıya yanaşmış Əzizə başını tərpətdi, qapıya getdi. Əkbər onun qoluna toxundu:

– Ata, dükançı sənə nə qədər pul qaytardı? Beş manat qırx qəpik?

Xıdır ayaq saxlamadan ona acıqlandı:

– Adə, sənə nə? – dedi və sonra ovcundakı pullara baxdı, başını çevirdi. – Yox, beş manat on qəpik qaytarıb…

Əkbər çığırdı:

– Ata, dükançı səni aldadıb…

Xıdır diksindi, dayandı. Dükandakıların səsə çevrilib onlara baxdıqlarını görüb qızardı. Əlinin dalı ilə oğlunun ağzını qapadı, hirslə pıçıldadı.

– Kəs səsini, səfeh, – dedi və bərkdən əlavə etdi. – Düzdür… lap düzdür.

– Yox, yox, düz deyil… – Əkbər boğula-boğula çığırdı.

İçəridə olanlar qımışdılar. Əziz qanlı-qanlı ata-oğula baxıb, mal gətirmək bəhanəsi ilə tez dal otağa adladı. Xıdır pərt halda oğlunu dükandan sürüyüb eşiyə saldı. Divara söykənib, alnının tərini sildi:

– Üzün qara olsun, belə oğul, məni biabır elədin ki. Mən bundan sonra Əzizin dükanına necə girəcəyəm? – deyindi və acığından güldü. – Bu da mənə hesab bilən olub. Hardan bilirsən, adə, mənə pulu düz verməyib?

– Hesabla da, çətin deyil ki…

– Dayan bir, evə çataq, dərsini verərəm… – Xıdır barmağını onun üstünə silkələdi, amma uşağın inadını görüb fikrində götür-qoy etdi, vurdu-çıxdı, birdən boynunun ardını qaşıdı. – Boy… Əkbər, deyəsən, sən haxlısan, axı…

Əkbər dirçəldi, incikliyi keçdi, qalibiyyətlə çığırdı:

– Bəs, mən sənə nə deyirdim? – dedi. – Hələ inanmırdın…

Xıdır bir əlcə uşağın üstünlüyündən alındı. Siqaret çıxarıb odladı. Tüstünü sinəsinə çəkib, gözünü qıydı və oğlunun qalibiyyət çələngindən xoşhallanmağına imkan vermədi:

– Nə olsun, ey? Qəpik-quruşa görə, deyirsən, qaraqışqırıq salaq? Otuz qəpik nə puldur ki. Onunla tacir olacağıq? Böyük iş gördün. Guya özüm hesablaya bilməzdim…

Əkbər onun zəhmətini yerə vuran atasının üzünə qabardı:

– Elə belə edirsən də… Anam düz deyir ki, pulların başına daş salırsan. Hər dükana gedəndə otuz qəpik az verirlər, yığılır olur manat…

Oğlunun sözündən Xıdır tutuldu. Siqareti yerə atdı, ayağı ilə əzdi. Mülayimliklə onu başa saldı:

– Oğlum, elə bilirsən hesablamaqla iş düzəlir? Əlbəttə, yox… Keçənlərdə çox təcrübə eləmişəm. Lap elə Əzizin otuz qəpik az verdiyini bildim, nə deyim ona? Necə deyim? Axı, adam utanır. Bir özün fikirləş, o boyda kişiyə deyirsən ki, sən beş-on qəpik az vermisən… Onun üzündə su yoxdur, mənə nə gəlib? – dedi və fikrə daldı. Bir azdan Əkbərin uşaq olduğunu yaddan çıxarıb erkən yaz günəşinin şüaları altında xumarlana-xumarlana davam etdi. – Sən hələ balacasan, belə şeyləri qanmazsan, bala. İnşallah, böyüyərsən, görərsən ki, hər yerdə belədir. Elə bir dükan yoxdur ki, orada çəkidə, ya qəpik-quruşda adamları aldatmasınlar. Birində az, bi-

rində çox… Fərq ancaq bundadır. Eh… Bir mən deyiləm ki… Bu oyunu hamının başına gətirirlər də…, getdik…

Xıdır əyilib çantanı götürdü, yola düzəldi. Əkbər ona çatıb soruşdu:

– Deyirsən, heç kim dinmir? Heç bircə nəfər də?

– Niyə ki, dinən də olur… – Xıdır könülsüz dilləndi. – Amma xeyri nədir? Çoxumuz ki, dinmirik. Eh, başqa cür mümkün deyil, axı. Gündə bunlarla üz-üzə gəlirik… Hər gün söyüşsək, hirslənsək, əsəblərimizi korlasaq, bir də görərsən, ürəyimiz partladı. Can şirin şeydir, bala, o beş-on qəpikdənsə, salamatlığımız irəlidir… Əşi, qan bahası kimi bir şeydir də o qəpiklər. Veririk ki, qazandığımızı könül xoşluğu ilə nuş edək, burnumuzdan gətirməsinlər. Bir sözlə, oğul, böyüyərsən, gündə belə şeylərlə rastlaşarsan, sən də alışarsan. Daha deməyəcəksən ki, vay, qəpiyimiz getdi…, – dedi və gülümsədi.

Atasının uzun nitqindən yorulan Əkbər onun gülümsədiyini görüb şənləndi, söz atdı:

– Ata, deyirəm, bəlkə dükançılar hesabı pis bilirlər… Aparaq bizim müəllimin yanına, qoy, öyrətsin onları…

Xıdır uşağın dolağına ayaq saxladı. İstehza ilə:

– Deyirsən də, – dedi. – Onlar sənin müəlliminin müəlliminə hesabdan dərs deyərlər. Nəyi-nəyi, bu elmi onlar çox dürüst bilirlər. Alverin qaydası belədir. Elçin səni aldatmadımı? Şarı sırımadımı sənə? Dükanda da belədir…

Əkbər dişini ağartdı:

– Yaxşı yadıma saldın, ata, Elçin bu dükançının oğludur da… – dedi.

– Ay qırışmalsan ha. – Xıdır da güldü. – Dediyin nədir? Oğlu səni aldadıb, atası da məni? Hə?

– Olduq səninlə heç-heçə, ata. – Elçin əl çaldı. – Daha uşaqlıqda aldığın beşlərdən danışma… Onsuz da beş alan da aldanır, üç alan da… Fərqi nə imiş?

Xıdır nəşə ilə oğlunun saçı dibindən qırxılmış başına bir çırtma vurdu:

– Ay zalım, elə gücün mənə çatır… – dedi. – Nə olaydı bizi aldadanlara heç-heçə edəsən…

Əkbər uğunan atasına baxıb qəhqəhə çəkdi. İkisinin də kefi kökəldi. Həmişə belə olur. Uğursuzluq insanları həmrəy edir…

## ZƏİF DAMAR

Geniş tələbat malları sexinin çilingəri usta Ağasəfa əlinin altında çalışan cavan oğlanı səslədi:

– A bala, qaç, Əhmədağanı çağır gəlsin, qayçılarımızı qəbul etsin. Ayın axırıdır, axı, naryadlar bağlanmalıdır.

Oğlan iri əllərini əskiyə silə-silə yaxınlaşdı. Usta Ağasəfa bir xeyli qayçı qalanmış masaya dirsəklənmişdi, «Prima»nı müştüyə keçirirdi.

– Bunlarmı?! – deyə oğlan domba gözlərini bərəltdi.

Ağasəfa kibrit çəkə-çəkə başını yellətdi.

– Usta, axı, Əhmədağa o günləri bunları çıxdaş eləmişdi. Dedi ki, qəbul eləməyəcəyəm, hamısı zaydır.

– Ayın axırıdır, bala. – Ağasəfa onu könülsüz başa saldı. – Qəbul edəcək. Onun qaydasıdır, bir az naz edir, sonra insafa gəlir. Bir də, onun istəyi bir cüt qayçı idi, verdim o günləri…

Oğlan boynunun ardını qaşıdı:

– Çətin qəbul eləsin! – dedi. – Qayçılar da, qayçıdır ha! Allahın kağızını kəsmir… İki yüzündən biri də fərli deyil…

Ağasəfa sözü uzadan adamdan xoşu gəlməzdi. İndi də daha nəsə demək istəyən oğlana tərs-tərs baxdı. O, dərhal başını aşağı salıb, sexin nəzarətçilər oturan bucağına tələsdi.

Ağasəfa par-par parıldayan qayçıları bir də silməyə başladı. Bir neçə dəqiqədən sonra yekəpər bir kişi olan Əhmədağa gəlib çıxdı. Onun bu məşğuliyyətinə lağ elədi:

– Hə, Ağasəfa, elə bilirsən qayçının ora-burasını silməklə keyfiyyəti də artacaq?!

Usta Ağasəfa nəzarətçinin istehzasını qulaqardına vurdu. Zarafatları vardı, amma indi araya qənbərqulu çıxmasın deyə dinmədi, hesabı içəri verdi. Nəzarətçi isə ondan səs çıxmadığını görüb bir də sancdı:

– Nə olaydı, Ağasəfa, bu qayçıdan birini dükandan alaydın. Harasa qonaqlığa tələsəydin, üzünü qırxaydın, ətirlənəydin, birdən güzgüdə görəydin ki, bığlarım

uzundur. Ora qayçı, bura qayçı, birdən özünün qayırdığın qayçı əlinə keçəydi. Ha çıqqıldadaydın, şaqqıldadaydın, amma kəsməyəydi… ha-ha-ha!

Usta Ağasəfa nəzarətçidən xahiş etdi:

– Sən canın, boşla, işim var, – dedi. – Gül kimi məhsuldur, nəyi xoşuna gəlmir, axı!

– Gül! Adə, gül! – deyə Əhmədağa bir də uğundu. – Belə sənət əsəri desənə! Hər birini sərgiyə göndərmək olar desənə! Ha-ha-ha!

Əhmədağa doyunca lağlağı edib, xeyli çənə-bazardan sonra iki yüz qayçının yüz doxsanını qəbul elədi. Cibindən çıxartdığı xırda möhürlə onları bir-bir möhürlədi. Sonra dişini ağarda-ağarda iş alətini pambığa bükdü, cibində gizlədib bir də söz atdı:

– Nə olar ki, Ağasəfa, bu ay da kef elə! – dedi. – Amma gələn aydan qara günlərini qablaşdır. Bir azdan zavodda dövlət qəbulu olacaq. Onda görək kim dadına çatacaq? Ata görməmişdin, elə bilirdin Şahqulu da atadır! Məni nə var ki, yola gətirməyə? Buyur, bir cüt saz qayçı ilə başımı piylədin, bir belə zay qayçını xırıd elədin, indi dayan, gör, dövlət qəbulu olanda başına nə oyunlar gələcək!

Ağasəfa qıraqda dayanıb tamaşa edən əlaltısını çağırdı:

– Bala, bu qayçıları apar anbara təhvil ver, mənim bir-iki sözüm var Əhmədağaya… – dedi və gözlədi oğlan qayçıları yeşiyə yığıb uzaqlaşsın. – Adə, beş il qabaq

sexə gəldiyin vaxt yadındadır?! Təzəcə səni nəzarətçi qoymuşdular ha!

Əhmədağa diqqətlə Ağasəfanın tütündən saralmış bığlarına baxdı, başını tərpətdi:

– Yadımdadır… Nə olub ki, belə keçmişlərə əl atırsan? – deyə onu iynələmək istədi…

Ağasəfa imkan vermədi:

– Eləsə, o vaxtlara bir də qayıdaq… – dedi. – Allah, necə asıb-kəsirdin, necə basıb-bağlayırdın?! Girinc eləmişdin sexi. Məhsullar tığ vurmuşdu masaların üstündə, qəbul eləmirdin ki, eləmirdin! İkicə aydan sonra necə oldu? Yelini yatırtdılarmı? Yatırtdılar! Yumşaltdılarmı! Yumşaltdılar! İndi çox da dövlət qəbulu, dövlət qəbulu demə, orda da sənin kimi, ya mənim kimi adamlar işləyəcək. Nə dəyişilib, axı?! Sex rəisi həmən, direktor həmən, işçilər də həmən! Qəbul edən də öz aramızdan olacaq, daha aydan-zaddan gəlməyəcək ki?! Bir ay-iki ay başağrısı olacaq, sonra hər şey yoluna düşəcək. Hərənin bir zəif damarı var, çətini onu tutmaqdır… Məsələn, səninki bir cüt qayçılıqdır, onunku bəlkə bir az artıq oldu, ya da, bəlkə Allahın köməyi ilə, əskik oldu. Belə-belə işlər… Əhmədağa…

## DÜZ XƏTT

Hümmət müəllim ikinci qırx beş dəqiqə idi ki, lövhə qarşısında tər tökürdü. Payız günəşi iri aynalardan qucaq-qucaq auditoriyaya dolurdu. İçəri hamam kimi isti idi. Müəllimin boyu alçaq olduğundan pəncələri üstə qalxır, lövhənin yuxarısını yazıb doldururdu. Çal saçları alnına dağılmışdı. Koşi teoremini isbat edirdi.

O, nəfəsini dərmək üçün hərdən fasilə verir, lövhədən aralanır, açıq pəncərəyə yaxınlaşırdı. Şəhəri seyr edirdi. İnstitut binası ilə yanaşı, yolun o tayında ət dükanı vardı. Şüşə qapıları mühazirə salonundan aydın görünürdü. Hümmət müəllim dükanın qarşısında həmişə növbə olduğunun şahidi idi. Elə hey ət şaqqalanır, çəkilir, ötürülürdü. Pəncərəyə yaxın partalarda oturan tələbələrin diqqətini mühazirədən çox bu şaqqalama-çəkilmə-ötürülmə hadisələri cəlb etdiyindən, Hümmət müəllim onlara söz atardı: «Ay uşaq, mən mühəndis hazırlayıram, qəssab yox!» Tələbələr də özlərini yığışdırdılar.

Bu gün hələ ki dükanın önündə heç kim yoxdu. Hümmət müəllim «Gecikir qəssab Baləmi. Gün-günorta yerinə qalxıb, hələ ət gətirməyib. Görəsən, nə olub?!» – Fikirləşdi və tələsmədən lövhəyə yaxınlaşdı.

Qəssab otuz-otuz beş yaşında bir oğlan idi. Kösmərək bədənini ət doğrayan kötükdən ayırmaq olmurdu. Oxşarlıqları göz önündə idi. Hümmət müəllimlə

salam-kəlamı vardı. Heç vaxt onu yubatmaz, növbədənkənar yola salardı. Hümmət müəllim də hər dəfə: «Ay döyənək qulaqdır ha! Beləsinin qulağından ancaq çarıq tikəsən!» – Fikirləşsə də qəssabın hörmət-izzətindən boyun qaçırmazdı. Bu gün də mühazirədən sonra ət dükanına dəyəcəkdi. Evdə qonaqları olacaqdı. Hazırlıq görmək lazımdı.

Hümmət müəllim əlini tabaşirə uzatdı və tələbələrə sarı döndü:

– Uşaqlar, bu teoremin isbatını qulağınızdan sırğa edin asın! Gərəyiniz olacaq. Ali cəbri bundan belə iki il də keçəcəksiniz. Hə?! Hamınız köçürdübsə, pozuram ha… Bəlkə başa düşməyən var, sual verin…

Başa düşən də, düşməyən də yer-yerdən dedi ki, başa düşdük. Hümmət müəllim silgini əlinə aldı, lövhənin bir kənarını sildi. Qulağı səsdə idi. Qeysin dillənməyini gözləyirdi. Hər mühazirənin axırında belə olurdu.

Qeys lap qabaqda oturmuşdu. Müəllim onun üzünə yayılmış yastı burnuna, çil-çil yanaqlarına, qıyıq kimi xırda gözlərinə baxanda daxilində nəsə qaynayırdı. Tələbə danışanda sağ qulağı tərpənirdi. Hümmət müəllim düşünürdü: «Nə barmaq arasına yerləşən qulağı var?! Bu saat dillənəcək…» Amma auditoriyadan səs çıxmadı. Qeys sakitcə köçürürdü. «Ola bilməz ki, bir söz deməsin! – Hümmət müəllim öz-özünə güldü. – Bağrı çatlayar! Heç belə yekəxana tələbəm olmamışdı. Birin-

ci kurslar arasında bu cür kənək uşaq?! Təəccüblüdür! Nadir nüsxədir. Dayan, qoy, imtahanlar gəlsin, görüm, onda da belə dil-dil ötürsənmi?!»

O, çıxarışı axıra çatdırmamışdı ki, Qeysin səsini eşitdi:

– Ay müəllim, olarmı bir söz deyim?!

Hümmət müəllim dərhal çevrildi, Qeysin üzündə elə bir ifadə vardı ki, əl-qolu boşaldı, bilmədi acıqlansın, ya gülsün. Çar-naçar söz atdı:

– Qeys, bir sözlə dərdin düzələrsə, de! Amma artıq olmasın ha! – dedi.

Qeys ayağa durdu:

– Ay müəllim, lazımdımı?! – soruşdu.

– Nə lazımdı?! – Hümmət müəllim başa düşmədi.

– Siz dediz bir söz, mən də bir söz dedim… – Qeys güldü. – İndi icazənizlə bir neçə söz deyim ki, aydın olsun… Olar?

Hümmət müəllim bu atışmaya qulaq asan tələbələrin yanında məğlub olmaq istəmədi:

– Bu başqa məsələ! Bir neçə sözlə nəsə izah edə bilərsən! De!

Qeys astadan dilləndi:

– Müəllim, bütün bunlar nəyimizə lazımdır?!

Bunu elə bir facianə səslə dedi ki, hırıltı auditoriyanı başına aldı. Hümmət müəllim hər nə desən gözləyirdi, bircə bunu yox! Quruyub qaldı.

– Deyirsən nəyinə lazımdır?! – Təkrar etdi.

Qeys gülüşən uşaqlara tərs-tərs baxdı:

– Ə, adamsınız, axı! Bir dayanın da! – dedi. – Hə də, ay müəllim, biz institutu qurtarandan sonra kimin nəyinə lazımdır ki, bu Koşi yazıq nə deyib. Deyib, deyib də! Onun da yəqin yüz dərdi olub, o da başlayıb deməyə. Oğul-uşaq dərdi, çörək dərdi, maşın dərdi… yox, bu yalan oldu, onda maşın yoxdu, fayton idi. O da başlayıb deməyə.

Hümmət müəllimin səsi batdı. Gözü girdələndi:

– Oğul, – dedikdə boğazından xırıltı çıxdı. – Oğul, bilmirəm, instituta necə gəlib çıxmısan, hansı yolla tələbə bileti almısan, amma yadda saxla ki, elm ocağı ilə insan arasında bir düz xətt durur. İki nöqtədən necə ki, bir düz xətt keçir…

Qeys onun sözünü istehza ilə kəsdi:

– Səhviniz var, müəllim, elm ocağı ilə insan arasında kefiniz istəyən qədər düz xətt keçirmək olar, – dedi.

Bu sözdən Hümmət müəllimin çal saçları biz-biz durdu:

– Bala, ağlını azmısan, nədir?! – dedi. – Evkliddən bu yana hamı deyir ki, iki nöqtədən bir düz xətt keçirmək olar… sən isə… onlardan ağıllımı çıxdın?! Bu gün kimi aydın şeydir, daha isbatı gərək deyil. Misalçün iki nöqtə götür, harda istəyirsən, fərqi yoxdur, – dedi və birdən əlini pəncərəyə uzatdı. – O ət dükanını görürsənmi?! Çox yaxşı. Bax, o ət kötüyünün üstündə bir nöqtə götür. Bu otaqda da birini. Aradan neçə xətt keçir?! Hə?!

Qeys dayanıb-dayanıb birdən qəhqəhə çəkdi:

– Müəllim, iş ki o ət kötüyünə çatdı, daha pis. Mənim iynəmə sap saldınız. Heç bilirsiniz o kötükdən bizim instituta neçə xətt çəkmək olar?! İstənilən qədər... Deyimmi neçə?!

Zəng çalındı. Tələbələr isə yerindən tərpənmədilər. Hümmət müəllim auditoriyaya baxdı. Daha heç kimin üzündə təbəssüm yoxdu. Hamı ağzını ayırıb qulaq asırdı.

– Deyimmi, ay müəllim?! – Qeys bir də soruşdu.

– De, bala! – Hümmət müəllim köksünü ötürdü. – De!

– Deyim də! – Qeys başladı barmaqlarını bir-bir bükməyə. – O qəssab qurtardımı bizim institutu?! Qurtarıb. Bacısı oxuyurmu bizdə?! Oxuyur. Arvadını, deyirlər, bu il ali məktəbə qoyub. Evlənən kimi. Fikri vardı qayınanasını da bizim fakültəyə düzəltsin, amma arvadın yaşı aman vermədi. Belə məlum olur ki, çox əqrəbası ət kötüyünün kəramətindən bəhrələnəcək. Bu hələ harasıdır? İnstitutun həyətindəki çayxanadan da bura istənilən qədər düz xətt çəkmək olar... Deyimmi, ya lazım deyil? Qorxuram, təkrar olsun...

Hümmət müəllim dinmədi, dinmədi, birdən qapıya tələsdi. Çıxhaçıxda qanrılıb qayım səslə dedi:

– Elə bilirsən iki nöqtə arasında həmişə bir belə xətt keçəcək?! Şübhəm var. Bir gün gələcək iki nöqtədən ancaq bir xətt keçəcək... Gec-tezi var...

Qeysin verəcəyi cavabdan çəkinib tez aradan çıxdı.

## AYIN AXIRINCI CÜMƏSİ

Həmişə belədir, elə ki, tələsirsən, ortaya mütləq bir əngəl çıxır. Usta Ağabala yuxudan oyananda radioda səhər konserti gedirdi. Sazda «Dilqəmi» çalınırdı. O, hövlnak saata baxdı, vaxtdan keçdiyini gördü, bərk hirsləndi. Elə «dilqəmi» üstündə arvadın ölüsünü dirisinə qatdı. Bir az da buna vaxt itirdi. Sonra cəld əl-üzünü yudu. Ayaq üstə bir tikə çörək yedi, bir stəkan çay içib evdən çıxdı.

Usta Ağabala özünü verdi avtobus dayanacağına, gördü yaman basabasdır. Başa düşdü ki, yuxuya qalan bircə o deyil. Bundan ürəyi bir az sakitləşdi. Bir-iki maşın qarın vura-vura ötdü. Tünlükdə dayandığından usta Ağabalanı ora itələdilər, bura itələdilər, axır ki, o özünü avtobuslardan birinin içində gördü. Yüz oyun gəldi başına. Ayağını tapdaladılar, düyməsini qopartdılar, papağını gözünə basdılar. Usta Ağabala borclu qalan kişilərdən deyildi. Düşəndə o da ayaq tapdaladı, düymə qopartdı, hələ desən, dirsəyi ilə göz də çıxartdı. Özünü zavoda saldıqda rahat nəfəs aldı. Gecikməmişdi, dəqiqəsinə söz ola bilməzdi. Onun dalınca keçid bağlandı, kadr şöbəsinin əməkdaşları Ağabala ilə dabanbasdı gələn işçiləri gecikənlərin siyahısına yazdılar.

O, tələsmədən sexə girdi. Qapıda sex rəisi ilə üz-üzə gəldi. Rəis bir sütül uşaqla söhbət edirdi. Usta Ağabalanı görüb uşağı ona tərəf itələdi:

– Bu da sənin ustan! Zavodun ən yaxşı tornaçısıdır, – dedi və əl verdi, Ağabala ilə görüşdü. – Təhvil al, təzə şagirdindir… Bu gündən işləyir…

Usta Ağabalanın səhərdən gərilmiş əsəbləri dözmədi, hövsələdən çıxdı:

– İstəmirəm! – dedi və bığlarını didişdirdi. – Nədir, zavodda məndən savayı tornaçı yoxdur? Ver, onlara da.

Rəis ondan bunu gözəmirdi:

– Hələ bir dayan… a kişi, sakit ol… – dedi.

– Boğazımdan diri ilan da salsan razı olmayacağam. Neçəsin öyrətmək olar?! – deyə usta Ağabala ayağını möhkəm dirədi.

– Bunun nəyi pisdir, axı? – Rəis təəccübləndi. – Səni də öyrədiblər də! Ananın qarnından hazır usta çıxmamısan ki?!

Rəisin sözü tərs şapalaq kimi Ağabalanı tutdu, o, lənət şeytana, – deyib səbrini basdı. İzah elədi:

– Vallah, zəhmətimə, vaxtıma heyfim gəlir, – dedi. – Bir ucdan öyrədirəm, dərəcə alırlar, altı ay işləməmiş qaçırlar instituta, ya texnikuma. Heç kim sənət dalınca getmir. Üç ildə yeddi şagirdim olub, sexdə biri qalıb, o da tornaçılığın daşını atıb, sürücülük oxumağa gedəcək! Adamı yandırıb tökən də budur...

– Daha keçib, bu uşağı da sınaqdan çıxart… – Sex rəisi gülümsədi.

Usta Ağabalanın qolları boşladı, təslim oldu. Uşağa başı ilə işarə edib getdi soyunmağa. İş paltarında qayı-

dıb, küncdə dayanan dəzgahına yanaşdı. Yox, onunku bu gün gətirmirdi.

Şagirdi Əhməd on-on beş hissəni yontalayıb qoymuşdu yan-yana. Usta bunu görüb gözü çıxdı kəlləsinə. Yanında gələn təzə şagirdini unutdu, qışqıra-qışqıra qaçdı:

– Əhməd, bala, əl saxla! Əl saxla! – dedi və tövşüyə-tövşüyə çatıb soruşdu. – Bu oxları sənmi hazırlamısan?

Əhmədin dişləri sevinclə ağardı:

– Əlbəttə! – dedi. – Bir saat tez gəlmişəm ki, bu gün rekord vuraq.

O, peşə məktəbini qurtarmışdı. Bir aylığa usta Ağabalanın hamiliyinə verilmişdi. Gələn aydan müstəqil işləyəcəkdi. Ustanın beli büküldü, alnını övkələdi, inildədi. Əhməd bunu görüb qorxdu:

– Nə oldu sənə, usta? – Soruşdu. – Başın ağrıyır?

– Ay zalım, sən mənim ciyərimi pörşələtmisən, soruşursan «nə olub!»

Əhməd daha bərk qorxdu. Yazıq uşaq yuxusuna haram qatıb gəlib işləmişdi ki, ustasını sevindirsin, o isə…

– Axı, nə olub? – Soruşdu.

– A bala, bəs bilmirsən, bu gün cümədir?

– Bilirəm! – Əhməd çəkinə-çəkinə dilləndi. – Cümədir də! Həftənin beşinci günüdür…

– Bəs, bilə-bilə cümədir, bu nə hoqqadır çıxarırsan? – Usta Ağabala ona hirsli-hirsli baxdı. – Belə də iş görərlər?

Əhməd and-aman elədi:

– Ay usta, vallah, hər günkü kimi işləmişəm. Nəyi pisdir, axı? – dedi və əlini hissələrə çırpdı. – Bax, bu dünənki hissədir, sən hazırlamısan, bu da bugünkü. Bunları adam bir-birindən ayıra bilmir.

Usta ah çəkdi:

– Əhməd, bala, – dedi, – dünənki dünəndə qaldı, sən bu gündən danış. Əslində, qaydaya görə, hissə yonulanda hər keçiddə sulanmalıdır, yağlanmalıdır, sən bunu etməmisən. Kəski hər keçiddən sonra itilənməlidir, sən itiləməmisən. Daha onu demirəm ki, bu cür böyük sürətlə işləmək olmaz. Bu səninçün yumşaq metal deyil, titan qarışığıdır…

Əhməd əlacsız qalıb əllərini yana açdı:

– Nə bilim, usta. – Dedi. – Mən gələni bir aydır, həmişə necə işləmişik, bu gün də elə… İndi nə olsun, axı?

– Evin tikilsin, oğul yiyəsi! – deyə usta bağırdı. – Ə, bu niyə qanmır! Bu gün ayın axırıncı cüməsidir…

Əhməd birdən özündən çıxdı. Tanımadığı bir adamın yanında onun üstünə qışqıran ustasına bozardı:

– Əşi, olsun da, qoy cümə olsun! – dedi və iti burnu xoruz pipiyi kimi qızardı. – Mənim günahım nədir, axı, söyüb-söylənirsən?

Usta Ağabala səsi qırıla-qırla dedi:

– Bala, hər ayın axırıncı cüməsi sexdə keyfiyyət günü keçirilir. Keyfiyyət günü, bala, yadda saxla! Belə gündə keyfiyyətsiz məhsul vermək lap biabırçılıqdır. Vicdan

da yaxşı şeydir, axı! İndi gör, sən neynəmisən! Söylənməyim, nə edim?! Günaha batırdın məni!

Əhmədin ağzı açılı qaldı.

## «QƏRƏNFİL-2»

Kərkiyev iyirmi ildi ki, sürücülüyün daşını atıb avtomobil müfəttişi işləyirdi. İstefaya çıxmağına beş il qalırdı. Dörd övladını ayaq-baş etmişdi, qalırdı axırıncısı, onu da istefaya çıxana qədər ev-eşik sahibi edəcəyinə gümanı vardı. Bu ümidlə günəş çırtdamamış yerindən qalxır, motosikletinə minir, işə yollanırdı.

Bu gün onu saat doqquzda idarəyə çağırıb, qanını qaraltmışdılar.

– Serjant, qadası, – deyə rəis qapıdan içəri girən Kərkiyevə baxmadan demişdi. – İki ildir dözürəm, götür-qoy edirəm, axır belə bir qənaətə gəlmişəm ki, səninlə bizimki çətin tutsun…

İyirmi səkkiz yaşlı rəisin qarşısında mil dayanan qırx səkkiz yaşlı Kərkiyevin uzun çənəsi getdi kitelinin dik yaxalığına.

– Başına dönüm, yoldaş rəis, – deyə kəkələdi. – Nə günahın sahibiyəm? İşə vaxtında gəlirəm, vaxtında gedirəm, söz gəzdirmirəm. İnsafla iş görürəm, sahəmdə bir kişi məndən narazı deyil. Bir adamın toyuğuna kış demirəm, bir…

Rəis qızılgül kimi təravətli üzünü bozartdı:

– Kəs, a kişi! Bir kişinin toyuğuna kış demirəm! – deyə onun ağzını əydi. – Evi tikilmiş, sən nəinki toyuğa, həttə sahibinə də kış deməlisən! Bu sənin vəzifə borcundur. İyirmi ilin müfəttişisən, bircə sürücünün də vəsiqəsini almamısan! Bir adam da səndən şikayət etmir ki, sən onun talonunu deşmisən! Bu harda görünüb, axı! Şöbənin bütün müfəttişlərindən şikayət var, bir səndən başqa. Ayda on-on beş manat cərimə edirsən. Başqaları üç-dörd yüz cərimə talonunu bir həftədə təhvil verir… Belə də işləmək olar?!

Kərkiyev bu cərimə söhbəti altında nə gizləndiyini yaxşı bildiyindən başını aşağı saldı. O, yaxın ətrafda rəhmli müfəttiş kimi ad çıxartmışdı. Rəis daha qayım səslə yekun vurdu:

– Serjant, belə məlum olur ki, ya düzgün qulluq eləmirsən, ya da əlindən bir iş gəlmir, yəni bacarıqsızsan. Hər iki halda xudahafizləşməli olacağıq. Əlbəttə, bir-iki həftəyə düzəlsən heç, qalırsan…

Kərkiyev astadan pıçıldadı:

– Yoldaş rəis, mən axı, bu yollarda baş ağartmışam.

Rəis eyni pıçıltı ilə məhrəm bir səslə:

– Serjant, əzizim, bəs mən nə deyirəm?! – dedi. – Biz səninlə bu yollarda can qoyuruq… yol qaydalarını pozanların heç vecinə deyil. İyirmi ilin müfəttişisən, sənin kimisinə cip-cip öyrətməyəcəyəm ki! Dünən idarəmizdə

işləməyə başlayan cahıl-cuhul, yola çıxan kimi şoferlərin canına vəlvələ salır. Kimini cərimə edir, kiminin vəsiqəsini alır, kiminin talonunu deşir. Həm bizim başımızı rəislərin yanında uca edir, həm də öz başını! Get, papağını qoyarsan qabağına, dediklərimi götür-qoy edərsən… Yollar hərəkət qaydalarını pozanlarla doludur… Qarnını doldurub otururlar sükan arxasına…

…Kərkiyev motosikletini şosenin ortası ilə sürürdü. Gün günorta yerinə qalxsa da, hələ də özünə gələ bilmirdi. Rəislə söhbətdən sonra başında dünya-aləm bir-birinə qarışmışdı. Asta-asta irəliləyirdi, yanından o üz-bu üz ötüşən maşınlara fikir vermirdi. Onsuz da, uzaqdan sarı motosikleti görən şoferlər mələk qılafı taxır, onun yanından bütün avtomobil müfəttişlərini heyrətə salacaq nizamla keçirdilər. Nə bir fit verən vardı, nə bir ötüşən. Hamı da təhlükəsizlik kəmərini bağlamışdı.

Arabir yağış çiləyirdi. Payız qapını haqlayırdı. Kərkiyevi dərd götürdü. Evin kiçiyi üçün yer götürmüşdü, ev tikdirirdi. Dünən axşam gətirilən sement kisələri bayırda qalmışdı. İslanacaqdı. İstədi qayıdıb evə getsin, sonra əlini yellədi:

«Cəhənnəmə ki! Müftə gələn şeyin axırı belədir də! Nə olar olar!» – Fikirləşdi və kefi duruldu. Dünən sement aparan bir maşını saxlayıb on kisə sement istəmişdi. Şofer də əlüstü aparıb boşaltmışdı. Kərkiyev soruşanda ki, bunun haqqı nədir? Şofer gülümsəyib sürüb

getmişdi. Hər ikisi bilirdi ki, bu havayı söhbətdir. Onların haqq-hesabı Axır-Zamanın gəlişinə qalır. Bu da uzaq gələcəyin işiydi. Yaxın vaxtlarda isə şoferin mənfəəti o idi ki, daha bir kişi bu həndəvərdə onun maşınını saxlamayacaqdı… Bu, hər ikisini razı salırdı…

Birdən qəbuledici xışıldadı, asqırdı, öskürdü, anlaşılmaz səslər yığınından sonra aydınca bağırdı:

– Mən «Qərənfil-Birəm». Mən «Qərənfil-Birəm». Qəbul!

– Eşidirəm «Qərənfil-1». Mən «Qərənfil-İkiyəm». Qəbul!

– Həştad beş altmış… aqa nömrəli qırmızı rəngli… «Jiquli»ni dayandırın…

Kərkiyev sürəti azaltdı, diqqətini topladı:

– Hansı?! Hansı?! Həştad beş altmış altı?! – Soruşdu.

Amma əlaqə kəsilmişdi. Kərkiyev yenidən «Qərənfil-Biri» çağırmağa macal eləmədi. Qarşıdan qırmızı rəngli bir «Jiquli» gəlirdi. Nömrəsinə baxdı: 85-66 idi. Dərhal mikrofonu qoşdu:

– 85-66, maşını dayandırın…

«Jiquli»nin sürücüsü müfəttişi görən kimi qazdan çəkdiyi ayağını əyləcə basdı. Maşını yolun qırağına verdi, aşağı düşdü. Kərkiyev motosikletini hərləyib onun arxasında saxladı, əlini papağına apardı, təntənə ilə dedi:

– Yol hərəkəti təhlükəsizliyi müfəttişi Kərkiyev!

«Jiquli»nin sürücüsü də artistsayağı əlini gicgahına atdı:

– Xırdavat mallar mağazasının müdiri Ağagül! – dedi və gözünə tökülən yumşaq saçlarını geri daraqladı.

– Sənədlərini görüm! – Kərkiyev qaşqabağını tökdü.

– Buyur! – Ağagül qoltuq cibindən çıxartdığı sənədləri ona uzatdı. – Günahımı desənə…

Kərkiyev sənədləri plaşının cibinə dürtdü:

– Postdan keçəndə neynəmisən?! – Soruşdu.

Ağagül qəhqəhə çəkdi:

– İnspektor, lap fontan edirsən ha! Burdan postu necə gördün?!

– Radio ilə xəbər veriblər! Yəqin qaydanı pozmusan da…

– Ola bilər! – deyə Ağagül dərhal razılaşdı və cibindən bir qırmızı onluq çıxartdı. – Cərimə elə, Kərkiyev, bir də eləmərəm… Amma tez ol, tələsirəm…

Kərkiyev onun əlini rədd elədi və qəbuledicini qoşdu:

– «Qərənfil-Bir», «Qərənfil-Bir». Mən «Qərənfil-ikiyəm». Qəbul…

– Eşidirəm! «Qərənfil-Bir» eşidir.

– Dediyin həştad beş altmış altını saxlamışam. Neynəyib?

– Ə, Kərkiyev! – deyə postdan ona acıqlandılar. – Qulaqdan, deyəsən, o söz! Sənə həştad beş altmış yeddini demişəm. Altmış altını yox?! Qandınmı?! Qəbul!

– Qandım… Sağ ol!

Kərkiyev danlaqdan tərləmişdi. Qulaqlığı yerinə qoydu, hirslə xırdavat malları mağazasının müdirinə çığırdı:

– Dolamısan məni?! – dedi. – Deyir, qaydanı pozan sən deyilsən. Tutuquşu kimi «Ola bilər, ola bilər» salmısan elə…

– Bəs, nə deyəydim, a kişi?! – Ağagül soruşdu.

– Günahsız gərək desin: «Günahsızam!» Bildin?

Ağagül təbəssümlə başını buladı:

– Harda görünüb, axı, sürücü müfəttiş deyənin əksini desin?! Mübahisə düşəcək, talon deşiləcək! Kimə lazımdır?! Yaxşısı budur, qanqaralıqsız işi yöndəmə salasan. Bax, indiki kimi!

Kərkiyev bu məntiqin qarşısında yumşaldı:

– Az aşın duzu deyilsən ha! – dedi. – Deyirsən, qaydanı pozmamısan?! Bu gün elə düz gedib, düz gəlmisən?!

Ağagül diqqətlə ona baxdı:

– Adə, sən deyənə zaval yoxdur, – dedi. – Axır söz sənindir. Sənədlərim cibində, yaxam əlində, hara desən getməliyəm! Çünki ixtiyar sahibisən. Qaydanı pozmusan deyirsən, deməli, pozmuşam. Sən boyda kişi ilə çənə bazarına çıxmayacağam ki, – deyə oğlan istehza ilə qımışdı. – Al bu pulu, cərimə elə, çıxım gedim. Qalığın qaytarmasan da olar…

Kərkiyevin içərisində nəsə tərpəndi, sənədləri oğlanın üstünə vızıldatdı:

– Qoy pulunu cibinə, qırışmal, – deyə bağırdı. – Basaram əlli-ayaqlı gedərsən! Öyrəşmisiz hər əlini qaldıran müfəttişi «yağlamağa». Aləmi kor qoyursunuz, orda-burda da dalımızca danışırsınız. Kişisən, axı! Günahın yoxdursa, mübahisə elə, haqqını qoru…

Xırdavat mallar mağazasının müdiri dal-dalı maşınına sarı getdi. Üzündə arsız təbəssümün yerində bir təəccüb donmuşdu.

Kərkiyev uzaqlaşan maşının arxasınca baxa-baxa mızıldandı:

– Elə deyir, talon deş, vəsiqə al, cərimə elə! Niyə, axı? Düşmən ha deyillər ki, bu sürücülər! Adamdırlar da! Elə bu xırdavatçını götür! Gəda olmağına gədadır, amma qaydanı ki pozmayıb. Adamın insafı heç qəbul edərmi beləsinin talonunu deşəsən, vəsiqəsini alasan, ya da cərimə edəsən?!

O, rəisinin qarasınca deyinə-deyinə motosikletinə mindi, işə saldı və şosenin ortasına çıxdı.

## ABŞERON BAĞLARININ GECƏLƏRİ

Dostu Məhəmmədi yaxşı qarşılamışdı. Möhkəm yeyib-içəndən sonra uzun əhvallaşma, otağı başına götürən «yadındamı» sədaları altında yada salınan köhnə tanışların qeybəti gecə saat birə qədər çəkmişdi. Məhəmmədi yatacağı otağa ötürən ev sahibi ayaqları bir-birinə dola-

şa-dolaşa çıxıb gedəndən sonra o, tək qaldı. Soyundu, yorğun halda özünü çarpayıya saldı. Ağır yuxuya getdi. Məhəmməd hələm-hələm gecələr oyanmazdı. İndi isə bir az da içmişdi. Gecənin bir aləmində o dik atıldı. Pəncərə zərblə döyülürdü, «Ay Məsmi!» – harayını elə bil qulağının dibində çəkirdilər. Qonaq ayaqlarını çarpayıdan salladı, masaüstü lampanın zəif işığında döyükdü. Ürəyinə dolan qara-quradan bilmədi neynəsin. «Bu nə işdir? – Məhəmməd tüklü sinəsini xarta-xart qaşıdı. – Kimdir pəncərəni döyən? Bay, bay! Sındı ki! Açım, ya açmayım? Bir az da belə getsə, şüşələr tab gətirməyəcək… Dostumun gəlhagəlidir, qonağı gəlir… Deyəsən, bu məndən də üzlüdür, hır-zır qanmır…» – Fikirləşdi. Daha dözmədi, qalxdı, pəncərənin bir layını açdı, burnunu dəmir barmaqlığa söykədi, gözünü ala-toranlığa dikdi. İki addımlıqda dayanan adam aydın seçilirdi. Səksəkə ilə soruşdu:

– Ay adam, kimsən?

– Salam, qədeş. – Ala-toranlıqda dayananın dişləri ağardı.

– Nə? Hə… Salam.

Məhəmməd bir az sakitləşdi. Dəm də olsa, başa düşürdü ki, ona salamatlıq arzulayandan qorxmağı əbəsdir. Mülayimliklə soruşdu:

– Qapını qoyub, pəncərəni niyə döyürsən?

– Qədeş, o bir balamın ölmüşü, qapını yarım saat döymüşəm. Gördüm, səsə çıxan yoxdur, başladım pəncərəni tıqqıldatmağa…

Səhərin ayazı yavaş-yavaş Məhəmmədin dəmini-mürgüsünü dağıdırdı.

– Kim lazımdır? – Soruşdu.

– Yuxuva daha haram qatmışam da, zəhmət olmazsa, iki araq ver, çıxım edim… Qonaqlarım bağda tək qalıb.

– Nə? Araq? – Məhəmməd quruyub qaldı.

– Hə də! – Bayırdan eşitdi. – Mənim çaxırdan zəhləm gedir, konyakdan isə taxtabiti iyi gəlir. Yenə can qurban arağa.

– Bu evdə araq satılır? Səhv eləmirsən? – Məhəmməd bunu ondan soruşanda fikri yüz yerə getdi.

– Yox, qədeş, bu boyda səhv olmaz. Qəsəbədə bircə ala-bəzək qapı var, o da budur. Elə bilirsən kefliyəm, hə! Canınçun, yox! İçmişəm, amma kefli deyiləm. Sən canın, məni əliboş qaytarma, sorağını eşidib gəlmişəm… – Ala-toranlıqda dayananın kefi, doğrudan da, ala dağda olsa da, çox sərrast danışırdı.

Məhəmməd pis-pis fikirləri rədd elədi başından: «Yox, canım, dostum hara, araq alveri hara?!» Üzünü ovuşdurdu, səsini qaldırdı:

– Səhv edirsən, burda araq satılmır, – dedi.

– Daha mənə yox da! – Həmsöhbəti xırıltılı səslə danışsa da, cavan olduğu bilinirdi. Yalnız bu yaşda adam belə inad olur. – Deyirlər, beşdən sonra hamı arağı burdan alır, indi nə oldu, bizə çatanda, Kürün çeşməsi qurudu?

Məhəmməd işi sakitliklə yöndəmə salmağa çalışdı. Gülə-gülə:

– Qardaş, o söz, bir az içmisənmi? – Soruşdu.

– Elədir, üstünü düzəltsəm pis olmazdı…

– Bir az da mən içmişəm… Daha içdiyimizi burnumuzdan gətirmə də, yeri get, evdəkiləri də narahat eləmə. Həvəsdi bəsdi! Bu qapı axtardığın qapı deyil…

– Yaxşı da! – Həmsöhbəti onu dilə tutdu. – Şüşəsini yeddi manata vermirsən?

Buyur, iyirmi manat, iki araq ver…

Oğlan yavaş-yavaş təbdən çıxan Məhəmmədə dovtələbliklə baxdı, bir addım atıb onunla burun-buruna dayandı və araq qoxuyan nəfəsini Məhəmmədin üzünə verə-verə düdüləyib tökdü:

– Adə, qorxma, özgəsi deyiləm, stansiyadan bir az aralıdakı bağda oluram. Bəlkə eşitmisən, professorun bağı? Bax, ordan. Keçənlərdə professor ailəsi ilə gəlirdi, indi bağı bağışlayıb qızına, qızı da olub arvadım… Professora nə var ki! Bir bağı da Bilgəhdədəir. Hə, bu gün axşamüstü qonağım gəlib. Bir-iki şüşə varımdı. İçmişik, yenə istədilər. Özgəsi olsaydı salardım qapıdan bayıra, dalından da bir təpik! Amma bu rəisimdir, gələcəyim ondan asılıdır. İki cüvanazən də yanında. Kişi ərk eləyib kefə gəlib. Arvadım inciyib, girib otağına, çıxmır bayıra: «Sən buranı nəxanaya çevirmək istəyirsən?!» – deyinir. Axmaq qızı ağlına vurmur ki, bu rəisdir, cəmi işlərim ondan asılıdır. İndi kabab soyuyur, məclisə su

ələnir, sən də qoymusan özünü naza… Al iyirmibeşliyi, iki araq ver, gedim…

Məhəmməd bu uzun əhvalatdan bir şey qanmadı, amma söhbət təzədən arağın üstünə gələndə şabalıd kimi partladı:

– Evin tikilsin, annamaz! Dedim…

– Annamaz özünsən! – Gecənin araq ölüsü də səbrini itirdi.

– Aralan pəncərədən, örtürəm! – Məhəmməd qeyzləndi.

– Ay örtdün ha! – Araq ölüsü əlini dayadı çərçivəyə. – Çopur haramzadə! Allah bilib elə, sənə arvad adı qismət edib! Məsmi!

Məhəmməd özünü itirdi. Bu dəmkeş oğlan ala-toranlıqda onun çopurlarını necə gördü? Gecənin araq ölüsü bilmirdi ki, qabağında dayananın ən ağrılı yeri üzüdür. Qırx ildi bundan əzab çəkirdi. Ev sahibi bir tuman-köynəkdə özünü içəri salmasaydı, kim bilirdi, özündən çıxmış Məhəmməd neynəyəcəkdi.

– Məhəmməd, nə olub? – soruşdu.

– Nə bilim, əşi, biri qəmiş olub ki, araq ver. Deyirəm…

Ev sahibi cəld pəncərəyə yanaşdı:

– Əmioğlu, darvazanı döy, araq onlardadır… – dedi.

– Bu… bu Məsminin evi deyil?! – Səsindən məlum oldu ki, bayırda dayanan da pərt olub.

– Yox ey, yox! Darvazanı döy! – Ev sahibi səbirlə dilləndi.

– Döyürəm də, açan yoxdur, axı!

– İndi mən günahkaram açmırlar? – Ev sahibi çımxırdı.

– Bağışla, qədeş. – Araq ölüsü üzrxahlıq elədi. – Hay-küyə görə bağışla. Günah bu dilbilməzdədir, bayaqdan desəydi səhvsən…

– O da sənin kimi qonaqdır, incimə, bu aradakıları tanımır… Gecən xeyrə!

Ev sahibi pəncərəni örtdü. Məhəmmədin dili açıldı:

– Bu nə işdir, qardaş? – soruşdu.

– Yat, səhər danışaram…

– Onsuz da yuxum qaçıb. Danış.

Ev sahibi qonağın arzusunu yerinə yetirdi. Yanını çarpayının qırağına qoydu, başladı:

– Məhəmməd, qəsəbəmiz kiçikdir, bircə mağazası var. Saat beş oldu bağlanır. Qışda bu yerlərdə adam az olur. Camaat da öyrəncəlidir, nə lazımsa ertədən alır… Yay gələndəsə, iş dəyişir. Bu yanlar Abşeronun gözüdür, hər tərəf bağlardır. Təmiz havası, günəşi can dərmanıdır, torpağı da qızıldır. Ətrafımızda xeyli bağ var. Yay gələndə burda adam əlindən tərpənmək olmur.

– Dost, baş alıb hara getdin? Sən Məsmi xanımdan danış! – Məhəmməd onun yadına saldı.

– Elə onun üstünə gəlirəm… Evimiz onda yıxıldı ki, bir xoş şənbə günü Məsmi öz oğluna toy elədi. Məclis üçün aldığı arağın əllisi artıq qaldı. Səhəri bazar günü idi, mağaza bağlıydı, araqları qaytara bilmədi. Qo-

num-qonşudan cahıl-cuhulu, qonaq-qarası olan daha uzağa getmədi, Məsmiyə üz tutdular. Sonra arvad and içirdi ki, bir axşama əlli araq satıldı… Öz qiymətinə. Bu təcrübədən sonra mənim qara günlərim başladı. Onun evi döndü növbətçi dükana. Məsmi arağı öz qiymətinə alır, iki manat artığına satır… Bağlardan tökülüşüb gələnlər isə, hərdənbir, bu axşamkı kimi, bizə konsert də verir… Məsminin bayır qapısı pəncərəmizin tuşundadır, tanımayan səhv salır. Baş-beynimiz gedir. Şikayət edəsən, necə edəsən! Davaya çıxasan, necə çıxasan?! Arvaddır.…

…Məhəmməd bir neçə vaxtdan sonra dostunu yada saldı, məktub yazdı. O, əhvalatı yada salıb dostuna sataşmışdı: «Qonşun Məsminin arağı yenə boldumu?!» Cavab məktubunu alanda xeyli güldü. Dostu yazırdı: «Məsminin alveri daha da rəvac tapıb! İndi qovrulmuş günəbaxan tumu da satır! «Məsmi» – harayından qulağımız batır…»

## NAĞIL GECƏSİ

Qəsəbədə bircə kombinat vardı. Onun da darvazasının keçidini Əyyub dayısız təsəvvür eləmək çətindi. Çox adamın işi düşdüyündən yaxın ətrafda onu tanımayan yoxdu. Sehrli qapılar ixtiyarında olduğundan bir adam yanından salam-kəlamsız ötməzdi. Kombinatın direkto-

ru da onunla ikiəlli görüşərdi. Amma bu məhşurluqdan Əyyub dayının qoltuğunun altı qarpızlanmırdı. Etibar olunan işi sərrast görürdü. Bircə dəqiqə də kombinatdan aralanmazdı. Axır vaxtlar arvadının da, qızının da adı keşikçi yazıldığından kombinat keçmişdi Əyyub dayının ixtiyarına, kişi gecə-gündüz qapıda olardı.

Amma keçən həftə rəis onu fikrə saldı. Əyyub dayını kənara çəkib dedi: «Dayı, həvəsdi bəsdi, gərək bir keşikçi yerindən vaz keçəsən! Bir nəfər adam var, işə götürmək istəyirəm. Necə baxırsan? Məsləhətin nədir?» Əyyub dayı uşaq deyildi. Rəisin qırımından başa düşdü ki, ona məsləhət-filan qandırmaq mümkün deyil, mübahisə etmədən razılaşmaq lazımdır. Bircə bunu soruşmuşdu ki, kimdir o adam, etibar etmək olarmı? Rəis də bircə kəlmə ilə: «Qohumdur!» – Cavabını vermişdi. Əyyub dayının çiçəyi çırtdamışdı: «Arxayın ol, nəçənnik, ürəyini buz kimi saxla! Sənin qohumun mənim gözümün işığıdı! Kefin istəyən kimi ona hər şeyi başa salacağam. Bu mənim borcumdur. Havayı yerə altmış beş il ömür eləməmişəm ki! Bildiyimi də qəbrə aparası deyiləm. Gərək cavanlarımızı öyrədək də…!» Keşik rəisi razılıqla gülümsəmişdi.

Saat altıda deyilən adam gəldi. Əyyub dayı taxtda yerini rahladı, keşik otağının qapısı ağzında bitib qalmış oğlanı eynəyinin altından süzdü, astadan dedi:

– Gəl keç, həmkar! Utanma daha!

Oğlan irəli keçdi. Sobanın yanındakı kətili çəkib oturdu. Əyyub onun adını soruşdu. Oğlan dedi. Qoca dikəldi, əlini qulağının dibinə qoyub:

– Eşitmədim, – dedi. – Bərkdən desənə!

Oğlan var səsi ilə çığırdı:

– Adım Alxandır, Alxan!

Əyyub dayı başını geri atdı, tərs-tərs oğlana baxdı, hirslə:

– Daha niyə bağırırsan ki?! Şükür allaha, kar-zad deyiləm ki! Düzdür, bir az ağır eşidirəm, bu da qocalıqdandır. Mənim yaşıma çatarsan, onda bilərsən! – dedi.

Alxanın alnını tər basdı, utana-utana:

– Bağışla, ay dayı, – dedi.

Əyyub dayı yumşaldı, hıqqıldayıb təzədən böyrünü yastığa dayadı. Təqaüdə çıxana qədər daş karxanasında yükçü işləmişdi. Söz düşəndə deyirdi ki, o qədər otuz iki kiloluq «kubik» kəsmişəm, o qədər o daşlardan yükləmişəm, üstündən on il keçsə də gözümə sataşanda göbəyimin altı sancır... Amma yalan deyirdi, bu neçə vaxtı keşikçiliklə ev-eşiyini qaydaya salandan sonra canının ağrısı keçmişdi. İnstitutda oxuyan ekiz oğlanlarının hərəsinə bir maşın alıb bağışlayandan sonra isə kişi gözgörəsi cavanlaşmışdı, yükçülük vaxtı əyilmiş beli dikəlmişdi. İndi yanaqları «Qızıl Əhməd» alması kimi işım-işım parıldayırdı. Düzdür, dörd qızını köçürəndə bir şeyi yoxdu ki, onlara verəydi, amma oğlanları üçün ayrı-ayrı kooperativ ev tikdirirdi. Bilirdi ki, ali məktəbi

qurtarandan sonra yazıqlar aldıqları yüz iyirmi manatla yerlə-göy arasında qalacaqlar, o ölüb gedəndən sonra haraylarına çatan da olmaz.

Qoca Alxana buyurdu:

– Zəhmət çək, o sobaya bir az xod ver, nəmişlik olan kimi başlayır ayaqlarım sızıldamağa.

Alxan əlini uzatdı, açarı burdu. Qaz sobası başladı nağara kimi dumbuldamağa. Əyyub dayı ətrafına göz gəzdirdi, deyindi:

– Bilmirəm, bu sovxa müştüyü hara qoymuşam… Sinəm lap qovşurulur…

Alxan daha təbəssümünü saxlaya bilmədi, qalxıb dolabçanın üstündəki müştüyü götürdü, dinmədən qocaya uzatdı. Sonra da yerini dəyişdi. Sobanın istisinə daha dözə bilmədi. İçəri bürkü idi. Əyyub dayı isə «Prima»nı müştüyə taxıb, bir dərin qullab vurdu, toxtaq səslə başladı danışmağa:

– Tələbəsənmi, bala?

Alxan başını tərpətdi.

– Yaxşı edirsən oxuyursan… Mənim də iki kiçik oğlum tələbədir. Gündüz?

Alxan başı ilə təstiq elədi.

– Bizdə, axı iş sutka ilədir?

– Rəis dedi ki, sizinlə danışım, razılığınızı alım. Siz gündüz, mən gecələr keşik çəkim. – Alxan gülümsədi. – Dedi ki, Əyyub dayı qızıl kimi bir adamdır, ürəyi yumşaqdır. Hər şeyi ona danışsan razı olar…

Əyyub dayının bığının altı güldü:

– Yaxşı tapmısız kövrək damarımı! – dedi. – Yaxşı, danışdıq! Bala, bildiyimi mən qəbrə aparmayacağam. Necə ki keşik rəisinə demişəm, işimizin çik-bikini sənə yerli-yerində öyrədəcəyəm. Gərək elə edəm ki, ali məktəbi qurtarana kimi səni yola verim. Eybi yoxdur, bala, bir az döz, yuxuna haram qat, pul əlinə sel kimi axacaq… Qorxuram, bir-iki ildən sonra keşikçiliyə elə alışasan ki, məktəbi qurtarandan sonra çıxıb getmək istəməyəsən… İndi isə, dur, gedək, sənə kombinatı göstərim…

Saat yeddi idi. Payız təzə girmişdi, havalar sərin keçirdi. Xırda-xırda yağış çiləyirdi.

Kombinatın işıqları hələ yandırılmamışdı, toranlıqda ətraf yaxşı görünmürdü. Alxan bir az Əyyub dayının ardınca irəlilədi. Sonra ağlına vurdu ki, qocanın gözləri pis görür, yıxılıb-eləyər, onu ötdü. İki-üç addım atmamışdı ki, Əyyub dayı onun qolundan tutdu:

– Bala, yıxılarsan! – dedi. – Bu arada taxta yığılıb.

Alxan yerində qurudu, doğrudan da az qala taxta qalağının üstünə çıxsın. İxtiyarsız dilləndi:

– Dayı, demə lap nahaqdan gözlərindən şikayətlənirsn. Qırğı kimi görürsən…

Əyyub dayı nıqqıldadı:

– Hardan, bala, – dedi. – Gündüzlər az-çox seçirəm. Axşamlar elə qarasına gedirəm.

Alxan inanmadı:

– Bəs, taxta qalağını necə gördün?

Əyyub dayı pıqqıldadı:

– Eh, ay bala, bəs, yaddaş nəyə lazımdır?! – dedi. – Gündüz sex rəisinin bunları bura yığdırdığını görmüşdüm. Elə-belə taxta deyil, mebel hissələridir. Azından beş altı şifonerlikdir.

Əyyub dayı sonra geniş həyətin ortasında dayanıb, gözü artıq toranlığa alışmış Alxana göstərdi:

– Bu mebel yığma sexidir. O yandakı tikili, preslənmə sexidir. Taxta yonqarlarını burada presləyib, üzləyirlər, laklayırlar. Ondan da o yanda şifer sexidir. Plastik şiferlər var ha, ondan qayırırlar. Yaxşı şeydir, evdə-eşikdə istifadə eləmək olmur. Rənglidir, satışda yoxdur, bir verstlikdən gözə dəyir. Bu mexaniki sexdir. Dəzgahları təmir edirlər. Bu güzgü sexidir. İnşallah, toy eləyəndə, bir yekəsini sifariş edərsən… Bu şirpotreb sexidir… Nərdtaxta, çörək qabı, nə bilim daha nə, xırda-mırda şeylər düzəldirlər. Hədiyyə vermək istəsən, utanmadan yaxınlaşarsan oranın rəisinə, verər.

Onlar kombinatı xeyli dolanandan sonra qayıtdılar. Əyyub dayı taxta uzandı, pəncərənin qabağından bir kitab götürdü, başladı oxumağa. İki varaqdan sonra onun xorultusu gəldi. Alxan Əyyub dayının sinəsi üstünə düşmüş kitabı götürdü, gördü «Min bir gecə» nağıllarıdır. Bekarçılıqdan başladı mütaliə eləməyə.

Bir saat keçdi. Darıxdı. Kitabı qatladı. Çıxdı eşiyə. Kombinatın işıqları yanırdı. Ətraf aydınlıqdı. Yağış da dayanmışdı. Həyəti dolanmağa başladı. Birdən uzaqdan

mebel sexinin həndəvərində iki nəfərin arabada nəsə apardığını gördü. Sinə-sinə yaxınlaşdı. Arabanın hasara tərəf irəlilədiyinə diqqət verdi. Alxan bilmədi neynəsin. Hasarın dalından maşın motorunun səsi gəldi. Dərhal da kəsildi. Hasarın üstünə iki nəfər qalxırdı. Alxan birdən əlini atıb yerdən bir taxta götürdü:

– Ey, kimsiniz?! – Qışqırdı.

Onlar dayandılar. Biri əl arabasından aralandı, binanın kölgəsindən çıxan Alxanın çaydaq cüssəsinə diqqətlə baxdı:

– Biz bizik! – Güldü. – Bəs, sən kimsən?

– Mən keşikçiyəm… – Alxan özünü itirmiş halda dedi.

Enlikürəkli kişi təəccübləndi:

– Yox, əşi?! – dedi. – Bəs, Əyyub dayı hanı?

– Otaqda yatır…

Kişi bərkdən güldü:

– Eləsə, sən də get yat! Bizi Ələmdar göndərib. Əyyub dayının hər şeydən xəbəri var. İşinizdə olun, adə.

Axırıncı söz arabanı aparıb, hasara söykəyənə aid idi. Alxan bir anlıq bilmədi nə eləsin. Hasarın üstündə dayananlar aşağıdan ötürülən mebel hissələrini o yana verirdilər. Belə məlum olurdu ki, onlar dörd deyil, beşdilər. Birdən hirs vurdu Alxanın başına:

– Dayanın! – Çığırdı. – Mən qoymaram kombinatı qarət edəsiniz!

Yekəpər kişi yarı yoldan qayıtdı, qeyzlə:

– Kəs səsini, dılğır! – dedi. – Kimdir qarətçi?! Bu saat boğazını cücə kimi üzərəm.

Alxanın üstünə yeridikdə arxadan Əyyub dayının səsi gəldi:

– Dayan, a kişi, – dedi. – Bu bizim təzə keşikçidir. Nə hay-küy salmısan?!

Yekəpər kişi dayandı:

– Əyyub dayı?! – dedi. – Əşi, gəl, çıx da! Avara eləyib bizi!

– Yaxşı edir! – Əyyub dayı yaxınlaşdı, Alxanın qolundan tutdu. – Niyə gecikmisiniz?! Saat altıya danışmışdıq, axı! Yaxşı, biz gedirik, daha yubanmayın!

Əyyub dayı yekəpərin cavabını gözləmədən Alxanı çəkə-çəkə apardı. Alxan birdən ayağını yerə dirədi:

– Deyirsən, ay dayı, oğurluğa göz yumaq? – Soruşdu.

– Nə oğru-oğru salmısan ey?! – Əyyub dayı deyindi. – Öz işçilərimizdir. Sex rəisinin də, direktorun da xəbəri var. Qoy, işlərini görsünlər. Bir də kombinatın keşikçisi hələ ki, sən deyilsən. Bax, öyrən! Öyrənmək istəmirsən, get, keşik rəisinə de ki, işləmək istəmirəm…

Alxan pərt oldu. Keşik otağına girəndən sonra birdən Əyyub dayının ona yazığı gəldi. Mülayim səslə dedi:

– Bala, keşikçi lazım gələndə gözünü də yummalıdır, qulağını da bağlamalıdır. Hər şeyin dalınca qaçmaq olmaz, axı! Bizim işimiz bu gördüyün qapıdır. Sexlərin ağzı möhürlü olandan sonra nə dərdimizə qalıb kim aparır, kim çapır. Özləri cavab verərlər.

Alxan mızıldandı:

– Sənə nə var ki, ay dayı! – dedi. – Onsuz da gözün pis görür, qulağın ağır eşidir, çətinliklə də yeriyirsən! Mən başıma nə kül töküm?! Gözüm fənər kimidir, qulağım darı dəlir, ayaqdan da zirəngəm. Özümü necə məcbur edim, axı?!

– Bala, cavanlığımda mən də sənin kimi idim! Təqaüdə çıxandan sonra başa düşdüm ki, nahaqmış hər şey! Aparan aparır, sökən sökür, bir həsir bir Məmmədnəsir qalan mənəm! Bala, məndən sənə əmanət, nə qədər cavansan özünə bir gün ağla! Yoxsa çox yanarsan, tüstün özünü kor edər…

– Axı, belə keşikçilik olmaz?!

– Bala, on beş verst hasardır, biz istəsək də onu qoruya bilmərik. Belə də heç olmazsa, gəlib deyib aparırlar.

– Bəs, indi neynəyək?!

Əyyub dayı qocayana bir səslə güldü:

– Heç nə! – dedi. – Otur «Min bir gecə» nağıllarını oxu! Yoruldun, yıxıl yat! Odur, orda yığma çarpayı var…

Alxan ağır-ağır çevrildi, dolabçanın üstündəki «Min bir gecə» kitabına baxdı. Nağıldan heç belə zəhləsi getməmişdi. Gecənin özündə həzin bir nağıl vardı. Bu saat kitab artıq şeydi.

## EL YOLUNDA

Piri kişinin gedən yeri vardı. O, axşamı, bürkünün yatmağını gözləmədi, gün günorta yerini bir qədəm keçmişdi ki, ağacları sulamaq fikrinə düşdü. Kəsik-kəsik rezin boruları bir-birinə bənd eləyib, ümumi su kranına qoşdu, darta-darta dalınca çəkdi.

Kiçik qəsəbədən dəmiryol dayanacağına qədər beş yüz metr ola, ya olmaya. Qışın axırında el yolunu asfaltlamışdılar. Yazda da iki sıra çinar, küknar tingləri əkilmişdi. Torpaq nəm olduğundan pöhrələr tezliklə tumurcuqladılar. El yolu yazın axırında adamın üzünə gülürdü. İməcilik günü əkilmiş tinglər yarpaqlanmış, qəsəbənin yaşıllığa batmış həyətləri ilə bəhsə girmişdilər. Yay gəldi, Abşeronun qumlu torpağının nəmişliyi çəkildi, ağaclar soluxdular.

Suçu Piri birdən qeyrətə gəldi, hər gün nasosu qoşub dirəklərin üstündəki ümumi su çənini doldurandan sonra bu soluxmuş tingləri də suladı... Bir həftədən sonra ağaclar yenidən dirçəldi.

İndi də təzə işə başlamışdı ki, gözü ağaclığa daraşmış qoyunlara sataşdı. Cin vurdu Pirinin təpəsinə.

Heyvanlar İbrahim kişinindi. Özgəninki olsaydı Piriyə bir elə yer eləməzdi. Keçən ay İbrahim ona dağ çəkmişdi. Düz hasarının dalında ondan icazəsiz qaraj tikmişdi. Kirvə idilər deyə Piri səsini çıxarmamışdı, amma

küdurət ürəyində düyün salmışdı. Bir bəhanə gəzirdi ki, İbrahimlə açılışsın.

Pirinin nəzərləri ətrafı dörd gəzdi, cəld tinglərdən birinin altına çalınmış quru payanı dartıb çıxartdı, qoyunların üstünə hücum çəkdi. Birinə bir paya, o birinə iki paya, heyvanların içinə mələşmə düşdü.

İbrahim kişi səsə həyətinin dalındakı təpədə göründü, uzaqdan hay basdı:

– Adə, Piri! Piri! Qoyunlar mənimkidir…

Piri əlini saxladı, bərkdən çımxırdı:

– Belə gözüm aydın! – dedi. – Səninkilər göydən enməyiblər ha! Görmürsən, kor qoyurlar buraları?

– El yoludur da! Həyətinin ağacıdır?! – İbrahim təəccübləndi.

– El yolu olanda nə olar?! – Pirinin gözləri alacalandı. – Hər gün sulayıram, dibini açıram, barı, zəhmətimə qiymət qoysana! – O, yaşıl şüvülü ağzına salıb, şirin-şirin çeynəyən quyruqlu qoça hirslə baxdı, payanı qaldırdı. – Bax! Bax! Sən Allah, gəl, apar qoyunlarını. Təzə əkmişik, heyfdir. Yol da səninçün-mənimçündür. Kölgədə getsək, pismi olar?!

İbrahim təpədən endi, gəldi durdu qoyunlarla Pirinin arasında. Boğazını arıtladı, iri gözlərini bərəltdi:

– Adə, de görüm neçə ildir bu yolun qırağı əkilir? Hə? – Soruşdu.

– Burda kök salandan, hər il… On ildir-on beş ildir… – Piri İbrahimin yekəxana hıqqıltısından çiyrənsə də cavab verdi.

– Atan rəhmətlik! – İbrahim çal saçlarını geri sığalladı. – İndi bircə ağac göstər ki, iki yaşı olsun…

Piri kişinin boynu getdi köynəyinin yaxasına, deməyə söz tapmadı. İbrahim kişi sinəsini qalibanə bir də arıtladı, istehza ilə güldü:

– Susursan?! – dedi. – Özün bilirsən, o yandakı yoncalıq yanımızdakı fermanındır… Yay girəndən sonra, Abşeronda heyvan dişinə dəyən bir şey qalmayanda naxırı yoncalığa sürürlər. Oraya da bir yol var, o da gəlib burdan keçir. Naxırın da ayağı tingliyə dəydimi, qurtardı getdi, bu ağaclardan sağ-islahat qoymayacaq. Neçə ildir şahidik də! Onda neynəyəcəksən?! Hıy?

– Evlər müdiri deyir ki, ya yol boyu daş hasar çəkdirəcək, ya da ferma müdiriyyəti ilə danışacaq, onlar da heyvanı qəsəbənin o tərəfindən otlağa aparacaqlar. – Piri kişi inamsız dilləndi.

– Piri, yekə kişisən, bu gün-sabah baba olacaqsan, uşaq sözü danışırsan! – İbrahim başını buladı. – Evlər müdiri hər iməcilikdə bu sözü demirmi?

Piri kişi haqq sözdən daha da hirsləndi:

– İndi nə deyirsən ey?! – Soruşdu.

– Heyvanlarla işin yoxdur, qoy, yesinlər…

– Elə şey yoxdur! – Piri kişinin ürəyindəki küdurəti vurdu başına. – Çıxart heyvanlarını, yoxsa qıçlarını qıraram!

– Dəyyusun danışığına bax ey! – İbrahimin hirsdən əlləri əsdi. – Əlindəki payanı alıb özünə tutuzduraram, onda qanarsan! Gödək haramzadə!

– Kəs səsini, keçəl qurumsaq! Bu da hasarımın dalını çəpərləmək deyil ey, gözünü ovaram!

Piri hərlənib yenidən pöhrəliyə daraşmış qoyunlardan birini payaya tutdu. İbrahim onun üstünə yeridi, hirslə çığırdı:

– Mənim qoyunumu vurursan? Hə? Hə?

Suçu Piri də qoyunları boşlayıb dava mövqeyi tutdu. Onlar süpürləşdilər.

Qəsəbə camaatı işdə-gücdə idi. Bekar olanlar da istidən çəkilmişdi evlərinə. Harayçılıq etməyə yaxında bir kimsənə yox idi. Dava səbəbkarları isə öz işlərindəydilər.

İbrahim hündür adamdı, Piriyə qapazı qapaz üstündən endirirdi. O da macal tapan kimi kəllə vururdu. Dava uzanırdı. Pirinin burnundan çıxan qan, qoyun sahibinin cırılmış yaxası aranı bir az da qızışdırdı. İndi qana qan çıxmayınca, yaxaya yaxa cırılmayınca onlar bir-birindən əl çəkməyəcəkdilər.

Günəş «müharibə» edənləri yandırıb yaxırdı, toz bulud kimi qalxırdı, tər sel kimi axırdı. Birdən uzaqdan naxırçıların harayı, inəklərin mələrtisi, tappıltısı ətrafa yayıldı. Fermanın naxırı tinglikdən keçirdi, qoruqçuların göz bəbəyi kimi qoruduğu yoncalığa gedirdi. Piri qabırğasına döşənən dürtmələrə daha cavab vermirdi, gözünü dikmişdi ağacları ayaqlayan mal-qaraya… İbrahim ona bir-iki cavabsız yumruq çəkəndən sonra əl çəkdi, tövşüyə-tövşüyə dedi:

– Görürsənmi? Qoyma da! Ver əlini qabağa, qoyma da! Elə mənə gücün çatır…

Piri İbrahimin canından çətin ki, əl çəkəydi, Malabaxanlar naxırı vaxtında otlağa sürürdülər…

## PAZ

Xalıq yeddi il mühəndisliyi ərzində səkkiz iş yeri dəyişmişdi. Bu sürətlə getsəydi, yəqin ki, təqaüdə çıxana qədər şəhərin bütün idarələrini dişinə vuracaqdı. Görürdün, yerini qızdırmayıb hələ, il yarı olmayıb, onun qurdları, budur ha, tərpəndi, hövsələ qazanı pıqqapıqla qaynayır, il başa çatmağa az qalmış müharibəyə qalxırdı. Vaxtın çatdığını kişi daxilən hiss edirdi. İşdən çıxmağını yubatmazdı, bəlkə də lap səbirsizliklə gözləyirdi. Xalıq hər ehtimala qarşı cibində səliqə ilə gəzdirdiyi ərizəni işə girdiyi günün səhəri yazardı. O, həmişə bu işdə hamını qabaqlayardı. Qapının ona göstərilməyini sevmirdi… Hə, elə ki müharibə qızışırdı, hövsələ qazanı daşırdı, «…məni öz xahişimlə azad edəsəniz» sözləri ilə bitən məlum ərizəni qoyurdu rəisin masasının üstünə və gözünü yumub, ağzını açırdı. Ürəyində bir il ərzində yığılanı tökürdü ortaya, döşəyirdi rəisinin qabırğasına. Gözünü açanda görürdü ki, hay-küyə çox adam yığılıb, hamı da ona təəccüblə baxır. Bir ildə ləb tərpədib, kəlmə

kəsməyən Xalıqın belə dil-dil ötməsi lap möcüzəyə oxşayırdı.

O, papağını qoyurdu başına, hesabını, əmək kitabçasını alırdı, üz tuturdu tanımadığı idarələrə tərəf. Belə ki, haçansa baş vurduğu yerlərdə onu, çətin ki, işə götürəydilər.

Onun qəribə bir şakəri də vardı. İşdən çıxan gün hesabına düşən puldan bir təzə kepka alırdı, keçirirdi başına, köhnəsini vururdu qoltuğuna qayıdırdı evə. Kepkalar müxtəlif rəngdə olardı. Birinci dəfə aldığı bozdu, üçüncü dəfə isə qəhvəyi idi. Səkkiz yer dəyişdiyindən evdə bir xeyli kepka yığılmışdı. Üçotaqlı mənzilinin bir otağı onundu. Divara vurduğu mıxlardan asdığı bu rəngbərəng kepkalar içəri girəni mat qoyurdu. Arvadına hərdən elə gəlirdi ki, bu rənglər nəsə deyir. Amma nə?! Baş aça bilmirdi. Axırıncı dəfə aldığı kepka yaşıl parçadandı.

Hamı ilə cəng-cidalda olan Xalıq arvadı Əslinigardan bir az çəkinirdi. Evdə həmişə başıaşağı, mülayim dolanırdı. Siqaret çəkməzdi, araqdan zəhləsi gedirdi, pis-pis yoldaşlarla durub-oturmazdı. Belə baxanda Əslinigar Xalıqdan narazılıq edə bilməzdi, amma kişisinin belə qırdı-qaçdılığı, iş yerini tez-tez dəyişməyi ona dərd olmuşdu. Hər dəfə ərinin dikbaşlığının sorağını alanda təəccüblənirdi. Evdə quzu kimi dolanan Xalıqdan başlayırdı çəkinməyə. Amma onun sözəbaxanlığına alışdığından, həmişə hökmlə danışar, ora-bura buyurar, qə-

ribə də olsa, sözü yerə düşməzdi. Bir dəfə könlündən keçdi ki, ərinə döşəmə süpürtdürsün, görsün etiraz etməyəcək ki! Amma ürəyi gəlmədi. Qorxdu.

Xalıq Əslinigarla altı il qabaq tanış olmuşdu. Növbəti iş yerini dəyişirdi. Bu əsl faldı. Avtobusda durub yer verdiyi qızın dalınca düşmüş, onun qapısından içəri girdiyi zavodda işə düzəlmişdi. Onda Xalıqın iyirmi beş yaşı vardı. Ali məktəbi təzə qurtarmışdı. Beş-altı aydan sonra toyları olmuşdu. Gərdəkdən çıxmaqları ilə iş yerini dəyişməyi bir vaxta düşdü. Təzə gəlin səbəbini soruşmuşdu. Xalıq da astadan izah etmişdi ki, ərlə-arvadın bir idarədə çalışmağının əleyhinədir. Biz də bir şöbədə işləyirik. Sözbaz adam az deyil, məndən sənə, səndən mənə deyəcəklər, aramızı vurarlar. Əslinigar da Xalıqın bu dərrakəli cavabından xoşhallanmışdı, qarşısı alınmalı bir əməlinin qarşısını almamışdı.

…O, bu gün qapıya çathaçatda təzə kepkanı başından götürdü, bir anlığa bilmədi onu hara dürtsün. İstəmirdi arvadı elə kandarda vay-şivən salsın. Əvvəlcədən bunu gözünün altına almışdı. Öz açarı ilə qapını açdı, içəri keçdi. Ayaqlarını xeyli vaxt yaş ayaqaltıya sildi. İşdən bir az qabaq gəlmiş Əslinigar mətbəxdən başını çıxartdı, qeyzlə:

– Əşi, beş dəqiqədir girmisən xarabaya, – dedi. – Qapını bağlasana.

Xalıq arvadın hökmünü yerinə yetirdi. Qapını çəkdi, amma dəhlizdən ayağını götürüb-qoymaqdan usanma-

dı. Mətbəxdə işini qurtaran Əslinigar əllərini döşlüyünün ətəyinə silə-silə ona yaxınlaşdı. Ərinin hələ də qapı ağzında dayanmağından ürəyi düşdü:

– Nə olub, adə?! – Soruşdu. – Əlini dalında niyə tutmusan?! Göstər görüm nədir elə?!

Xalıq günahkar bir təbəssümlə kepkaları üzə çıxartdı. Əslinigarın dolğun yanaqları payız alması kimi saraldı. Hiddət qarışıq bir inilti ilə pıçıldadı:

– Aman Allah, yenə! Aman Allah, yenə başladı! Mağıl bir ildi qulağımız dincdi… Uuuu!

Xalıq qorxa-qorxa onun qoluna toxundu:

– Ay qız, bir dayan! Ay qız! – dedisə də Əslinigar onu eşitmirdi.

– Bağrım çatladı, ay Allah! Ərə getdiyim günə daş düşəydi, od töküləydi, Allah… Uuuu!

– Əsli, sən iki oğlunun canı, özünü üzmə…

Əslinigar tövbə edirmiş kimi əllərini qoynuna qoyub, gözlərini dikmişdi tavana, oxşayırdı:

– Beş ildir bu başıbatmışla yaşayıram, Allah, bir xoş gün görmədim, bir üzüm gülmədi. Necə gözüm bağlandı, necə basaratım bağlandı, buna «hə» dedim. Bu sözü deyən yerdə, ay A llah, niyə məni lal eləmədin?! İki uşaqla canım çıxır, adamların üzünə baxa bilmirəm. Elə gün olur ki, pul ancaq çörək-çaya çatır. Bir mənim aldığım yüz iyirmi manata dolanmaqmı olar?! Bir yandan da qohumların danlaq-tənəsi. Aman Allah! Bir çığırıb soruşsana bu zalımdan, niyə işdən çıxırsan?! Niyə bir yerdə

başını aşağı salıb dolanmırsan?! Biliyi biliyindən, ağlı ağlından, cəsarəti cəsarətindən qat-qat az olan adamlar kimi niyə rahat çörək yemirsən?!

Xalıqı gülmək tutdu, divara söykəndi, kepkaları möhkəm-möhkəm sıxdı və əllərini tavana qaldırdı, arvadı kimi oxşaya-oxşaya onun cavabını verdi:

– Ay Allah, sən arvadıma bir az ağıl ver! – dedi. – İndiyə qədər şahidsən ki, o, məndən güldən ağır söz eşitməyib. Vallah, bunu başa salmaq müsibətdir, neynəyim, axı?! Allahın ustası işləyirəm. Dünən direktor girdi sexə. Məni çağırdı. Deyir: «Planı ayın axırına çıxartmalısan!» Deyirəm ki, ay yoldaş direktor, mümkün deyil, hissələr bu gün gəlib çıxıb, ayın iyirmi yeddisində! Heç cür çatdırmarıq. Deyir: «Canın çıxsın, gecə yatma, fəhlələri də saxla, planı ver!» Sex rəisi də bir qıraqda oturmuşdu. Elə bil bütün bunların ona dəxli yoxdur, gündə düşürlər mənim üstümə! Direktorun sözü mənə bərk yer elədi, gülə-gülə dedim: «Dılğır-dılğır danışma! Canı çıxmalı adam özünsən! Plan vermək istəyirsən, buyur, qolunu çirmələ işlə! Mənsə gedirəm! Bu da mənim ərizəm!» Özün de, ay Allah, düzmü eləmişəm?!

Əslinigar Xalıqın söhbəti lağlağıya döndərməsindən çaşdı, batqın səslə dedi:

– Bəsdir, sən canın! – dedi. – Sex rəisi də işləmisən də, niyə qoyub qaçdın? Hə?

Xalıq əlini yellədi:

– Birini bilirsən, birini yox! – dedi. – Onda da baş mühəndis mənimlə düz sırımırdı. İstəyirdi mən elə bir şeyə qol çəkim ki, sonra dalımdan dəysin, həmdə özü pul qazansın! Səmərəli təklif vermişdi, guya, iki ölü dəzgahı bununla diriltmək olar. Sonra da akt gətirib qoydu qabağıma, guya, bu dəzgahlar işləyir. Ona beş min mükafat verilməli idi, bircə mənim qolum çatışmırdı, çünki dəzgahlar bizim sexdə idi. Hirs vurdu təpəmə…

Əslinigar bir də şivən saldı:

– Ay canı yanmış, eləsə getdiyin konstruktor bürosunda axıra qədər işləyəydin də! Başını aşağı salıb, cizgini çəkəydin! Orda nə plan vardı, nə alan vardı, nə verən?! Rəisin də qızıl kimi bir adamdı. Oranı da qoyub qaçdın…

Xalıq boynunu bükdü:

– Arvad, o iki balamın ölmüşü, yalan demirəm, bir il orda işlədim, az qala bağrım çatlayacaqdı. İş yox, güc yox, səhərdən-axşama qədər laqqırtı vurmaqdan adamın çənəsinin çüyü çıxırdı. Çay içməkdən az qala qarnımızda çay ağacı bitsin! Tab gətirmədim…

Hər əlində bir kepkanı oynadan Xalıqa uzun-uzadı baxandan sonra Əslinigarın dodağı qaçdı. Mülayim bir səslə soruşdu:

– Barı özünə iş yeri tapmısanmı?! Yoxsa yenə aylarla veyillənəcəksən?!

Xalıq birinci dəfə arvadına şəstlə cavab verdi:

– Tapmışam da, girmişəm də!

– Yox, əşi?! – Əslinigar təəccübləndi. – Harda?!

– Sən işləyən zavodda.

– Bay! Nə əcəb səni bizdə işə götürüblər?!

– Bilmirəm…

Əslinigar fikrə getmiş ərinə diqqətlə baxdı:

– Belə şey ola bilməz, axı?! – dedi. – Bəlkə tanımayıblar səni?!

– Danışdın da! – Xalıq başını buladı. – Baş mühəndis özü məni direktorun yanına apardı. Yolda ona deyirəm: «Sizinlə mübahisəmiz olmuşdu. Sizə «başıboş» mühəndis demişdim». Deyir: «Yadımdadır, eybi yox!" Deyirəm: «Mən dikbaşam, sözgötürən deyiləm!» Deyir: «Axtardığımız adamsan ki!» Deyirəm: «Haqsızlıq görən kimi hara gəldi şikayət edəcəyəm!» Deyir ki, qəbulumuzdu, dözərik. Gördüm, nə deyirəm, təsir eləmir, daha dinmədim. Razı oldum.

– Demədilər nə işinə götürürlər…

– Şöbə rəisliyinə…

– Hansına?

– On beşinci şöbəyə…

Əslinigar barmağını dişlədi:

– Deyirəm, axı… – dedi. – Bilirsən hara gedirsən?!

Xalıq özünü itirdi:

– Pis yerdir? Bacarmaram?

– Nə bilim vallah?! Amma onu deyə bilərəm ki, zavodda nə qədər narazı, dovtələb, kənək mühəndis varsa, hamısını o şöbəyə yığıblar. Cərimə batalyonu kimi

bir şeydir. O şöbədə rəislər papaq kimi dəyişilir. Üç aydan bir! Heç kim onlarla bacarmır. Xasiyyətləri düz sənin xasiyyətindir ki var. Səninki onlarla tutar… Ha! Ha!

Xalıq kepkaları əlində atıb-tutdu, var-gəl elədi:

– Bəlkə etiraz edim?!

– Elə şey yoxdur! – Əslinigar dik çənəsini şax tutdu. – Get, işlə! Onlar istəyirlər ki, pazı pazla çıxartsınlar. Bacarsan o şöbə ilə bircə sən bacararsan!

– Deməli, indi də paz olduq!

– Daha nə ilə səni müqayisə edim ki?! – Əslinigar qəhqəhə çəkdi. – Ay başında qoz sındıracaqlar ha! Bir balaca ayağını düz atmasan, şikayəti şikayət üstündə yazacaqlar!

– Əşi, qorxutma məni! – Xalıq inamla dilləndi. – Şikayət edəcəklər! Böyük şeymiş! Mən də edəcəyəm! Mən də yazacağam! Əlimi pişik yeməyib ki!

– Ay-hay! – Əslinigar ona lağ elədi. – Kimdən şikayət edəcəksən? Öz işçilərindən?! Deməzlər sənə ki, utanmırsan?!

Xalıqın boğazı qurudu. Arvadının sözü araya vurulmuş paz kimi fikirlərini haçaladı. Qaldı iki suyun ortasında, bilmədi özünü hansına vursun!

## YOL

Qapının zəngi çalınanda Aslan cizgi taxtasının dalından təzə qalxmışdı, pərdələri aralı pəncərənin qabağında dayanıb, aramsız əyilir-qalxır, əl-qolunun kəskin hərəkətləri ilə eymənmiş sümüklərini açırdı. Arabir əməyinin bəhrəsi olan cizgiyə istehza ilə baxır, fikirləşirdi: «Vallah, öləndə gərək vəsiyyət edəm, başdaşı əvəzinə qəbrimin üstünə bu taxtanı dikəltsinlər, əlimə də karandaş-pozan verməyi unutmasınlar… Qiyamət günü İsrafil zurnasını çalan kimi ayağa durub, başlayacağam cizgi çəkməyə». Zəngin səsi bu yerdə onun muncuq kimi sıralanan xoş düşüncələrini haqladı. Əlindən yerə qoymadığı karandaşı qulağının ardına keçirtdi, köynəyini çiyninə atdı. On beş illik oturaq işdən ağırlaşmış yerişinə haram qatmadan qapıya getdi.

Şənbə günü idi. Arvadı Xanım mətbəxdə çalışırdı. Qab-qacağın aramsız dınqıltısı, günəbaxan yağında qızardılan balığın tavada cızıltısı, suyun şırıltısından məlum olurdu ki, tələsir. Gedəcəkdi. Yaxınlıqdakı texnikumda laborant işləyirdi.

Aslan qapıya çatanda zəng üçüncü dəfə idi ki, çalınırdı. Gələn Elxan idi. Qapını açmadan Aslan bunu təyin etdi. Zəngi səbirsizliklə mələtməyə vərdiş eləmişdi. İki böyüyünün, onuncuda oxuyan övladlarının dərsdən gəlməyinə hələ vardı.

Aslan cəftəni qaldırdı, oğlunu buraxdı içəri. Elxan evin kiçiyi idi. On yaşı bu yay tamam olacaqdı. Dördüncüdə oxuyurdu. Göz-qaşda, oturuş-duruşunda atasına oxşayırdı. Aslan indi onun qaşqabaqlı üzünə baxıb, ürəyində deyindi: «Gör, nə ağız-burun edib, qırışmal! Elə bil daş daşımaqdan gəlir… Heç adamı saymır…»

Elxan ayaqqabısının bağını açmadan necə gəldi çıxartdı. Çantasını sinəsinə sıxdı, sol əlini dalında gizləyə-gizləyə otağa sivişmək istəyirdi ki, Aslan onun yaxasından yapışdı.

– Əlindəkini görüm… – dedi. – O nədir elə?

Elxan işin üstünü açılmış görüb, qaşqabağını bir az da salladı. Əlindəkini üzə çıxartdı:

– Tütəkdir… – dedi.

– Hardandır səninçün, adə?

– Tapmışam.

Bu başdansovdu cavab Aslanı açmadı, saçı seyrəlmiş təpəsini sığalladı:

– Hmm! Nəyinə lazımdır? – Soruşdu.

Elxan mızıldandı:

– Heç… Elə belə…

Aslan indicə «İsrafilin zurnası» haqqında fikirləşdiyini yada salıb pıqqıldadı.

– Bəli də! Bir tütəyimiz çatmırdı! – dedi. – Bəlkə başa salasan, oğlum?

Elxan yaxasını onun əlindən çıxartdı, bir addım geri çəkildi:

– Nəyi başa salım ey! – dedi. – Tütəkdir də! Çalacağam…

Aslan lağ elədi:

– Bəh! Bəh! Bu da deyir oğulam! Hamı gedir quş gətirir, Şahqulu bayquş! – dedi. – Adə, ay evi tikilmiş, sən ki çalmağı bilmirsən…

Elxan yekə başını inadla dala atdı:

– Nolsun? Öyrənərəm də! Çox çətindi bəgəm?!

Aslan oğlunun yekəxanalığından zövq ala-ala başladı onunla əylənməyə:

– Oğul, başına dönüm, kim deyir çətindir?! Bu dünyada mümkün olmayan şey yoxdur. Sənin də bacarığına inanıram. Bilirəm ki, gələcəkdə məşhur adam olacaqsan… Dediyim odur ki, zurnaçılıq kimi bir məşğuliyyətə vaxt sərf etməyə dəyərmi?! Bir özün götür-qoy elə…

Elxan qoymadı atası sözünü bitirsin, kəskin bir səslə:

– Dəyər! – dedi.

Belə qəti cavabı gözləməyən Aslan qulağının ardını qaşıdıqda karandaş düşdü. Əyilib onu yerdən götürənə qədər Elxan bu çarpaz istintaqdan can qurtarmağa macal elədi. Otağa girib qapını dalınca örtdü. Aslan onun ardınca bir-iki addım atıb dayandı, əlini yellədi: «Danışmağın indi yeri deyil, – fikirləşdi. – Bir azdan hər şey aydın olacaq. Məndən inciyib, bu məlum! Amma niyə

acığı tutub, bu qırışmalın yenə?! Çox kinli uşaqdır ha!» Elxan onsuz da gündə bir hoqqadan çıxırdı. Evdə onun işləklərinə hamı alışmışdı, bircə Xanım hirslənirdi. Aslansa belə şeylərə barmaqarası baxırdı. Deyirdi ki, oğlan uşağı elə bir az kənək olmalıdır, yontalamağın mənası yoxdur. «Ev buzovundan buğa olmaz! Özümdən bilirəm». Ona görə də əkizlərin ipini boş buraxmışdı. Dəli-dolu böyüdürdü. «Maşallah, böyüdükcə ağıllandılar. Bu gün-sabah onuncunu qurtarırlar… Görək, başımıza nə gəlir!»

Bir azdan qonşu otaqdan tütəyin dütdültüsü eşidildikdə Aslanın cizgi taxtası arxasında oturmaq həvəsi tamam qaçdı. Ürəyindən keçdi ki, çıxsın eyvana, yerini rahatlasın, qabağında çay, qıçı-qıçı üstündə, damağında siqaret, ikinci mərtəbənin imkan verdiyi bir hündürlükdən ətrafın tamaşasına dalsın. Qübbələri pəncərələrinə qədər qalxan çinarların erkən yaz günəşinin şüaları altında parıldayan təzə-tər yarpaqlarının xəfif yeldən xışıldamağına qulaq assın. Bu istəyini həyata keçirtməyə macal eləmədi. Xanım otağa girdi, başının üstündə dayandı.

– Hə, nədir, tənbəllik basdı səni? – dedi və döşlüyünün ətəyi ilə mətbəxin istisindən nəmçimiş boyun-boğazını sildi. – Sabaha qurtarırsan bu diplom işlərini, ya yox?!

Aslan koramal kimi fısıldadı, ona tərəf çevrilmədən bozardı:

– Allah eləməsin bir adamın ixtiyarı əlinə keçsin! Yaman kəmfürsətsən ha! – Dedi. – Zalım qızı qoymur adam nəfəsini dərsin. Nə qədər «qurtarırsan?» soruşarlar. Keçən həftə gətirməmisənmi?! O yana keçir, deyir, bu yana keçir, deyir! Pah atonnan! Adama sözü neçə kərəm deyərlər! Başa düş, gələn üçüncü gündən tez olmayacaq, iş çoxdur, çatdırmaq olmur!

Xanım əlini onun çiyninə vurdu, əndişə ilə gülümsədi:

– Sən Allah, hirslənmə! – dedi. – Neynəyim, axı, istəyirəm tez qurtarasan, aparım verim sahibinə, pulunu alım. Odur, əkizlər onuncunu qurtarırlar, heç birinin bir fərli üst-başı yoxdur. Bu üç yüz manat isə lap göydəndüşmədir, nəsə eləmək olar. Sənə də söz demək olmur, vurursan adamın ağzından. Elə bil dədəmə verəcəyəm… Öz balalarınındı da!

Aslan dərdi təzələnmiş arvadına baxdı, dərhal sakitləşdi:

– Qanıram ey, arvad, qanıram! Amma daha vatmana, cizgi taxtasına, karandaş qarasına baxa bilmirəm, hamısı zəhləmi töküb! Bütün günü işdə çəkirəm, sonra da gəlib evdə… Gah kurs işi, gah diplom layihəsi, gah da nə bilim nə… İl uzunu belimi dikəltməyə macal eləmirəm… Bir ləhzə dincliyim yoxdur. Sən də daşımaq-

dan yorulmursan. Bunu elə, onu elə, bunu çək, onu çək, bunu hesabla, onu hesabla.

Xanım da hirsləndi:

– Əh! Ağzımı açacaq ha! Yüz altmış sən alırsan, yüz iyirmi də mən! Bununla ailə dolandırmaq olar?! Hələ Allahına şükür elə ki, texnikumda işləyirəm, rəfiqələrim kömək edir, tələbələrini göndərirlər üstümə. Dədəsinin hesabına texnikuma, instituta girənlər olmasaydı nə edərdin?! – dedi və barmaqlarını başladı bükməyə. – Əlindən nə gəlir? Heç nə! Barı bu yolla beş-on manat qazanırsan, nəyi pisdir, axı?! Hesablamışam, ildə beş-altı yüz pul çıxır. Özün bil, istəmirsən, eləmə. Görüm sabah oğlanlarının gözünə necə baxacaqsan. Mən heç, dinmərəm, qanıram səndə günah yoxdur! Yaxşı konstruktor, bilikli mühəndis olmağına şübhəm yoxdur! Sənin işlədiyin diplom işlərini bir müəllim də qaytara bilmir. Amma nə olsun?! Uşaqlara bunu necə izah edəsən? Bir gün desələr ki, iki ali təhsilli valideyn bizi dolandıra bilmir, onlara nə cavab verək?! Hansı üzlə onlara deyərik ki, bala, oxuyun, institut qurtarın, elm dalınca gedin… Dayan görüm, bu nə səsdir?! Qonşudan gəlir?

Aslan oğlunun otağından gələn qarışıq dütdültüyə bir an qulaq asıb, ürəkdən qəhqəhə çəkdi:

– Gözün aydın, sonbeşik haqqın yolunu tapıb! – dedi. – Zurnaçılıq öyrənir də!

Xanım bir an susdu, birdən partladı:

– Daha dişini niyə ağardırsan? – dedi və əl-qolunu ölçdü. – Ağlamaq lazımdır… Buna görə deyirdim ey! Uşağı özbaşına qoysan, zurnaçı olacaq da! Quru sözdən nə çıxar. Gərək sözü yedirdəsən, içirdəsən, geyindirəsən. Bununçün də pul lazımdır. Sən də başlayırsan, ay belim ağrıyır, gözüm qaralır. Buyur, bu da nəticəsi! Yaxşı ata oğluna nümunə olar… Hardan əşi, səndən nə gördülər ki, nə də götürsünlər…

Aslan istehza ilə qeyd elədi:

– Bizim nəsildə zurnaçı yoxdur…

Xanım diqqətini topladı, qara gözləri parıldadı:

– Sözün nədir…

– Heç, ay Xanım, yaxşı igid dayısına oxşar, deyirlər…

– Get, özünə lağ elə!

Xanım dabanı üstə fırlandı, otaqdan güllə kimi çıxdı.

Aslan kiçik qaynını yada salıb gülümsədi. Xanımın qardaşı toylarda tamadalıq edirdi. Ayar adamdı, qırx yaşı vardı, oyunbazlığından qalmırdı. Aslanın onu görməyə gözü yoxdu. Qaynı isə heç nəyi vecinə almaz, gələr-gedərdi. Hər dəfə də yeznəsinin qanını zarafatları ilə qaraldardı. Axırıncı dəfə araları təmiz pozulmuşdu, Aslan onu evdən bayıra salmışdı. Bu belə oldu. Qayın hırıldaya-hırıldaya soruşmuşdu: «Aslan, atan deyəsən yerölçən olub!» Yeznə badalağı hiss etməyib təsdiqləmişdi: «Hə, rəhmətlik rayonlarımızı qarış-qarış gəzmişdi. Az qala mərzlərin, sərhədlərin onda birini o qoymuş-

du. Bir yerdə iki kolxoz arasında, ya iki rayon arasında mərz davası düşəndə onu çağırardılar. Onun sözü qanundu! İşinin akademiki idi, amma texnikum qurtarmışdı…» Qaynı hırıldamışdı: «Yaxşı, atan sənə ölçdüyü yerlərdən, torpaqdan bir parça qoya bilməzdi? On ildir bu iki otaqlıda çürüyürsən”. Aslana elə bil od vurmuşdular. Odu-budu qaynını tanımaq istəmirdi. Hər yerdə də dalınca lağ edirdi.

«Deyəsən, sonbeşik bu avara dayısına oxşayıb. Onun kimi yekəxanadır, danışanda da dodaqlarını onun kimi büzür, gülüşü də ona oxşayır! Tütəkçalan… Bəh, bəh! İşimiz var da!» Bu fikirlər Aslanı elə məşğul etmişdi ki, cizgi taxtasının arxasına keçməyi unutmuşdu. Diplom işlərini çox səliqə ilə çəkirdi. Neçə illərdi ki, mühəndis-konstruktordu, karandaş əlindən düşmürdü. Beş il üçüncü kateqoriya ilə, beş il ikinci, səkkiz ildi birinci kateqoriya ilə işləyirdi. Daha yerində sayırdı. Yüz yetmişə qane olmaqdan başqa əlacı yoxdu. İndi oturacağa yayxanıb, oğlunun tütəyinin dütdültüsünə qulaq kəsilib, bunları götür-qoy etməkdən özünü saxlaya bilmirdi. Bir dəfə, beş dəfə, axırda bu inamsız səslərdən bezikdi. Amma yerindən qalxmağa ərinirdi. Xanım içəri boylandı:

– Dur, o uşağı susdur, – dedi. – Bu səsdən adam dəli olar…

– Özün deməyə qorxursan?

– Mən desəm onunçün pis keçəcək! – Xanım sakitcə xəbərdarlıq elədi. – Onsuz da əlindən yığılmışam! Müəlliməsinə o günləri yolda rast gəlmişəm, şikayətlənirdi. Deyir, Elxan dərslərinə baxmır, sözə qulaq asmır… hamısı sənin günahındır. «Sonbeşik» deyə-deyə qudurtmusan! Mən gedirəm geyinməyə, daha vaxtım yoxdur… Yeməyiniz hazırdı…

Aslan tələsmədən yerindən qalxdı, bığlarını sığalladı, daha nəsə demək istəyən arvadının yanından keçib, oğlunun otağının qapısını taqqıldatdı, içəri keçdi, tütəyi dodağından ayırmış oğluna yanaşdı. Qarşısında çarpayıya yanını qoydu:

– Necədir, oğul, bir şey alınırmı? – Soruşdu.

Elxan gözünü tütəkdən ayırmadan dedi:

– Axır alınar da!

Aslan əlini çənəsinə dayadı:

– Əlbəttə! – dedi. – Amma dərslərini oxusaydın daha yaxşı olardı. Yoxsa özünə məşğuliyyət tapmısan da! Düt-düt-düt! Dəng edirsən bizi…

Elxan dodaqlarını büzdü, gözlərində oynayan istehzanı qalın qaşları altında gizlədən atasına tərs-tərs baxdı:

– Elə hamı «düt-düt-düt», – dedi və atasının ağzını əydi. – Eləyə-eləyə öyrənir də… Guya Əşrəf Əşrəfzadə klarneti əlinə alan kimi «Simayi-Şəms» çalıb! O da düt-düldədib də…

Aslan oğlunun dərrakəli cavabından razı qaldı:

– Elə olmağına elədir ey, amma sən ki zurnaçı olmayacaqsan!

– Kim bilir, – Elxan fikrə getdi. – Bəlkə oldum.

– Paho! – Aslan fit çaldı. – Nə tez fikrini dəyişirsən! Bəs, üç ay qabaq deyirdin, mühəndis olacağam.

Uşaq qızardı.

– Yox, ata, – dedi. – Daha fikrimi dəyişmişəm. Çalançı olacağam. Qoy, böyük qardaşlarım instituta getsinlər. Mən əvvəl tütək, sonra balaban, lap sonra klarnet çalacağam. Toylara gedəcəyəm. Çoxlu-çoxlu pulum olandan sonra daha toylara getməyəcəyəm. Radioda, lap televizorda çalacağam…

– Pis deyil, fantaziyana söz yoxdu! – Aslan gülümsədi. – Məmmədbağır da elə gəlib xanəndə oldu. Musiqi dalınca getmək olar, amma çox «pul-pul» deyirsən ha! Xoşa gəlməyən budur. Niyə gül kimi mühəndisliyi gözdən salırsan, başım çıxmır…

– Mühəndisliyin nəyi yaxşıdır ey? Həmişə şikayətlənirsən ki, on beş il oxumusan, iyirmi ildi işləyirsən, hələ də xeyrini görmürsən… Öz dediyindi də!

Aslan uşağın onu yaman yerdə tutduğunu görüb, dəbbələməyə bəhanə axtardı. Uzaqdan başladı:

– Bala, adam hirslənəndə çox söz deyər. Mən sənətimdən çox razıyam. Neynək, sənin könlündən deyilsə, məcbur eləmirəm, başqa sənət seçərsən. Oxumaq lazım-

dır. Gedib, müəllim olarsan, həkim olarsan, aqronom olarsan! Yüzlərlə ali məktəb var! Bütün bunlarçün oxumaq ki, vacibdir…

Elxan birdən sıçradı yerindən, az qala ağlaya-ağlaya çığırdı:

– Oxumayacağam, dedim, oxumayacağam! – Gözlərindən yaş axa-axa davam etdi! – Çox lazımdır! Siz oxumusunuz da! İki ildir bir velosiped istəyirəm, hələ də almamısınız. Mamama deyirəm, deyir atana de. Sənə deyirəm, deyirsən mamana de. İkiniz bir yerdə olanda deyirəm, lağ edirsiz, deyirsiz pul olanda alarıq, hələ gözlə. Nə qədər gözləmək olar? Bığım çıxanda alacaqsız?! Axı, mən indi istəyirəm…

Aslan başını buladı:

– Utanım yerinə! Yekə kişisən, adə, kişi də ağlayar? Özü də nə üçün, nə üçün, velosiped üçün! – dedi. – Axır alarıq da!

– Haçan ey?! – Elxan əlinin dalı ilə gözünü sildi. – Klarnetçalan Əbiş oğluna maşın alıb ey, maşın! Doğruçu maşın! Ələkbər məndən iki sinif yuxarıda oxuyur da… Səninsə bir velosipedə gücün çatmır… Yox, oxumayacağam, dördüncünü qurtaran kimi daha məktəbə getməyəcəyəm…

Aslan qaraqışqırığın mənasız olduğunu görüb, istehzaya keçdi:

– Ay mən deyən! Bəyəm Əbiş məktəbə getməyib? Oxumayıb?

– Oxuyub! – Elxan birdən xırıldadı. – Amma dördüncü sinfə qədər. Daha sənin kimi on beş il oxumayıb. Ələkbər də deyir ki, böyüyəndə mən də atam kimi çalançı olacağam. İndidən toylara gedir atasıynan. Balabanda ona züy tutur…

Aslan Ələkbərin kim olduğunu soruşmadı, amma Əbişi bir neçə toyda görmüşdü. Bir anlıq fikirdən sonra Elxanı düşündürə biləcək dəlili tapdı. Ah çəkdi, qollarını sinəsində çarpazladı:

– Ay bivec övlad, bivec oğul! – dedi. – Ələkbər səndən min pay ağıllıdır!

Elxan incidi:

– Niyə bivecəm ki?! – Soruşdu. – Sən mənə klarnet al, gör, bir aya çalmağı öyrənirəm, ya yox! Onda deyərsən.

– Adə, ay qanmaz, Əbişin oğlu atasının yolu ilə gedir, çünki babası da zurnaçılıq edirdi. Deməli, Əbiş də atasının yolu ilə gedir… Bəs, sən?! Niyə ata-babanın yolu ilə getməyəsən?!

Elxan özünü itirdi:

– Ata, özün deyirdin də… mühəndisliyin bir hörməti qalmayıb… Daha niyə yolunla gedim?!

Aslan uşağın yavaş-yavaş döndüyünü görüb, əlini onun çiyninə qoydu.

– Oğlum, elə bilirsən zurnaçılıq həmişə hörmətli olub? Yox! Elə bilirsən Əbişin dədəsi milyonerdi? Yox! Amma onlar yollarından dönməyiblər. Sənsə, çətinlik

görən kimi yüz həştad dərəcə dönürsən! Bu da kişilikdəndi?!

Elxan fikrə getdi, sonra masanın üstündən tütəyi götürdü, çarpayının üstünə atdı. Atasına baxmadan soruşdu:

– Ata, doğru deyirsən? Aldatmırsan ki?

Aslan yanağını şappıldatdı:

– Kişi sözü deyirəm, oğlum! Gec-tez mühəndislik də qədir-qiymətə minəcək, oğlum! – dedi. – Bir fikirləş.

Elxan vəd elədi:

– Yaxşı, ata, – dedi. – Fikirləşərəm…

Bu vaxt Xanımın səsi gəldi:

– Elxan, gəl, çörəyini ye! Saat birdir, səhər yediyinin üstündəsən!

Elxan hər şeyi unudub, mətbəxə tələsdi. Aslan başını bulaya-bulaya otaqdan çıxdı, dəhlizdəki bədənnüma güzgünün qabağında geyimli-kecimli dayanmış xanımın təbəssümündən bildi ki, ata-oğul söhbətini axıra qədər dinləyib.

– Deyəsən, xəlvəti qulaq asmaq xasiyyətini tərk edə bilmirsən? – Aslan gəlib onunla yanaşı durdu.

– Day demə! – Xanım güldü. – Səbrinə mat qalmışam da! Qulağının dibinə bir dəfə ilişdirəydin də! Nə qədər danışmaq olar?!

Aslan etiraz etdi:

– Olmaz, arvad, olmaz! – dedi. – Mübahisə vaxtı şillə əsas deyil… Mən onu inandırdım… Amma o da məni inandırdı. Gərək bir velosiped alaq onunçün…

Xanım əyin-başını qaydaya saldı, çevrildi:

– Alaq da! – dedi və ah çəkdi. – Qabaqdan qış gəlmir ki! Mənə çəkməni bir-iki ay gec də almaq olar. Yoxsa uşağın gözündən düşmüşük. Allahın zurnaçısı olub idealı. Sən canın işə bax ey! Ata-ana olmağımız bir yana, biz axı, ali təhsilli yekə adamlarıq! Yəni belə çıxır ki, təqlid olunmalı, nümunə olacaq heç nəyimiz yoxdur?!

Aslan düdüləyib tökən arvadının halını başa düşdü:

– Yaxşı, yaxşı! – dedi. – Görürəm paltonun məhəbbətini ürəyindən çıxarmaq istəmirsən! Neynək, bir diplom işi də gətirərsən! Canım çıxar elərəm…

Xanımın rəngi açıldı:

– Ay sənin qadanı alım! – dedi və birdən şübhə ilə. – Bəlkə…

– Daha bəlkəsi-məlkəsi yoxdur! – Aslan onun sözünü kəsdi. – Daha mühəndisliyin, müəllimliyin daşını atası deyilik ki! Zurnaçılıq öyrənmək də gecdir. Yaş qırxı keçib… Neynək, Allah verən sənətdir də…

Başını aşağı salmış ərinə baxan Xanım birdən onu zurna piləyən təsəvvür edib uğundu. Aslan, gec də olsa, arvadına qoşuldu.

## YAZMAĞIN XEYRİ

Top qarabığ, top qaraş, qırmızıyanaq, dünyasında bir kimsədən qorxmayan Məmi, Hidayətin bir üfürümlük cüssəsini görəndə bığları sallanır, qaşları əsir, yanaqları saralırdı: "Yaza-yaza axırıma çıxacaq bu zalım! – deyə ah çəkirdi. – Bilmirəm nə verib mənə, ala bilmir! Ayağımı sola atıram, yazır, sağa atıram, yenə yazır. Pah atonnan!"

Hidayətin sexdə bircə çilingər Muxtarla arası vardı. Başqaları ilə quru salam-əleyk də eləmirdi. Məmi hərdənbir onun Muxtarla şirin söhbət etdiyini görüb, bir az təəccüblənirdi. Bu gün xeyli götür-qoy etdi. Katibəni göndərdi, Muxtarı yanına çağırtdırdı.

O, əllərini əskiyə silə-silə kabinetə girdi. Məmi saata baxıb:

– Səni çox yubatmayacağam, – dedi. – Muxtar, bir sözümə mərd-mərdanə cavab ver. Neçə ildir bir yerdə işləyirik. Mən necə sex rəisiyəm?

Muxtarın siqaretindən qaralmış dişləri göründü:

– Yaxşı-pis rəissən də! Beş ildir işləyirik, hələ desən iki bu qədər də işləyə bilərik… Buynuz çıxarmasan əgər… ha-ha-ha.

Məmi onun zarafatına qoşulmadı. Muxtar özünü yığışdırdı:

– Yenə nə olub axı, qanın qaradır?! – Soruşdu.

– Qoyur mərdimazar uşağı! – deyə Məmi sexə işarə etdi. – Hidayətin məktubu gəlib. Yazır ki, sex rəisi mənə pul qazanmağa imkan vermir. Qoymuram ev alsın! Zavkom çağırıb məni danlayır. Deyirəm: “Başına gönüm, mən ev verən olsaydım nə dərdim vardı ki! Özüm hələ də atamın qoltuğu altında oluram. Onun ağlına nə gəldi yazacaq, siz də məni çək-çevirə salacaqsınız?” Sözüm hamının ağlına batsa da, yenə də hər məktub gələndə yığılıb məni danlayırlar ki, yola vermirsən. Bir töhmət də bu gün yapışdırıblar…

Muxtar başını aşağı saldı, o, Hidayəti yaxşı tanıyırdı.

– Mənnik nə var ki?! – Soruşdu. – Neynəyim?

– Qadan alım, otur bir gün onu dilə tut, başa sal. Nə yapışıb, axı, yaxamdan?! İstəyirsə, ona başqa sexdə yer tapım, ərizəsini yazsın, keçirdim ora. Deyərsənmi?

Muxtara elə bil od uzatdılar. Qalxdı yerindən, dal-dalı qapıya getdi. Gözünü ona dikmiş Məmiyə dedi:

– Yox, yox, mən ona bu sözü deyə bilmərəm…

Məmi təəccübləndi:

– Nə olar, əşi!

Muxtar əl-qolunu ölçdü:

– Qardaş, sən onu yaxşı tanımırsan! – dedi. – Bu sözü ona deyən kimi götürüb məndən də yazacaq…

Məmini gülmək tutdu:

– Ay səni! – dedi. – Adə, yazsın da! Gəlib əlindən çəkic-açarını almayacaqlar ki! İyirmi ilin çilingərisən, uşaq-uşaq danışırsan!

– Ay-hay! – Muxtar əlini yellətdi. – Baxma, Hidayət yazmağa şey tapar. Odur icazəsiz qaraj tikmişəm, yazacaq, başlayacaqlar maraqlanmağa. Onda evim yıxıldı…

Məmi ah çəkdi, başını aşağı saldı. Muxtarın ona yazığı gəldi, müəllimliklə məsləhət gördü:

– Əşi, ürəyinə salma, – dedi. – İt hürər, karvan keçər deyiblər… Bir yandan baxanda o da qınamalı deyil. Dörd uşaqla qalıb ailələr yataqxanasının bir otağında. Onun yerində sən də olsan, yazarsan! Direktordan da yazarsan, zavkomundan da…

Məmi hirslə çımxırdı:

– Daha belə yox da! – dedi. – Elə bilirsən mən yazmamışam?! Mən də yazmışam… Bir on il qabağın söhbətidir. Qonşu zavodda işləyirdim. Düzü, şöbə müdirim məni yola vermirdi. Lap xirtdəyə yığılmışdım əlindən. Götürüb bir saz məktub yazdım…

Muxtar yüngül bir lağla maraqlandı:

– Hə, bir xeyri oldumu?

– Hardan, əşi? – Məmi könülsüz güldü. – Tökülmüşdü elə! Şöbə müdiri idi, böyüdüb direktor müavini elədilər, bu da yazmağımın xeyri…

Muxtar uğundu:

– Ha-ha-ha! – deyə hər «ha» dan sonra qarnı atılıb-düşdü. – Bir az döz, ay Məmi! Bəlkə səni də direktor müavini elədilər…

Telefon zəngi onların söhbətini yarıda qoydu. Sex rəisini yerli komitəyə çağırırdılar.

Məmi sexə iki saatdan sonra qayıtdı, yerli komitədə qabırğasına o qədər döşəmişdilər ki, onun top bığlarının hər tükü bir nizəyə dönmüşdü. Katibə kabinetdən gələn nərilti-iniltidən çaşıb qalmışdı. Muxtar içəri girəndə Məminin halına dəsmal çıxarıb ağlayan lazımdı.

– Yenə?!

– Hə… – Məmi qara bığlarının nizələrini didişdirdi. – Bu dəfə Hidayətin mərkəzə yazdığı məktubun müzakirəsi idi…

Muxtar açıq qapıda dayanana işarə etdi. Hidayət içəri girdi. Məmi onu görən kimi qalxdı ayağa, hülqumu qalxdı-endi. Yanaqları rəngdən-rəngə düşdü. Muxtar vaxtında göz vurdu. Cəld Hidayətin əlindəki kağızı aldı, gətirib qoydu Məminin qarşısına.

Rəis oturdu, oxudu, gözünə işıq gəldi, əlləri əsə-əsə dərkənar qoydu. Hidayət qonşu sexə keçmək haqqında ərizə yazmışdı.

Hidayət kağızı alıb rəisin boğuq rəngindən qorxmuş halda qapıdan çıxdı. Elə ki kabinetdə ikisi qaldı, Məmi yerindən qalxıb gəlib Muxtarı qucaqladı.

– Ölənə qədər duaçınam… – dedi. – Sən onu necə razı saldın?

Muxtar kürsülərdən birini çəkdi altına, yayxandı, özündən razı halda dedi:

– Burdan çıxan kimi onu sexin ortasında tutdum. Dedim: «Qardaş, özünü gözlə, heç demə, Məmi də yazanmış! Başlayıb o da… o söz…» Hidayətin gözü kəlləsinə çıxdı…

Məminin boğazı qurudu:

– Mən ondan yazmışam?! Kimə? Haçan? Qarışdırma görüm…

– Dalına qulaq as, sözümü kəsmə, deyirəm: «Sən Məminin eləliyinə baxma, yaza-yaza çox adamın evini yıxıb!» Hidayətin rəngi oldu tabaşir kimi. «Sənin əlindən də o qədər yığıb ki, deyir, onu mən zavoddan çıxartdıracağam, özünü də məhkəməyə verdirəcəyəm…» Hidayət başladı yalvarmağa ki, get Məmini dilə tut, qoysun çıxım gedim başqa sexə. Deyirəm: «Onu dilə tutmaq asan iş deyil! Amma dostluğumuz xətrinə çalışaram. Sən dinib-danışmazan ha! Yoxsa işləri korlarsan…» Sonrası da məlumdur da…

Məmi neçə vaxtdı belə ürəkdən gülməmişdi:

– Məmi də yazandır… Demə, ay Muxtar, yazmağın da xeyri varmış… ha-ha-ha! İşə bax ha, gör harda dadıma çatdı.

# İTİK İMPULS

Mühəndis Cavad Cavadov neçə gündü ki, dünyada vardan-yoxdan nəsibi bir olan başını da itirmişdi. Yığdığı elektron sxeminə təkrar-təkrar verdiyi min impulsun biri çıxışa çatmamış dirigözlü yoxa çıxırdı. Nəzarət-ölçü cihazlarına qoşulmuş naqillərin toxunmadığı yer qalmamışdı. İtik impuls tapılmırdı ki, tapılmırdı. Təcrübəni təkrar edirdi. Nəticə əvvəlkindən fərqlənmirdi. İş onun başını elə qatmışdı ki, az qala yorğan-döşəyini də gətirib laboratoriyada salsın. Həmkarları Cavadı səhər-axşam otaqda görməyə alışmışdılar. Arabir zarafat edirdilər: «Bu adamı daha nömrələmək lazımdır, çünki şöbənin əsaslı inventarına çevrilib».

İşdə onun yaxşı hörməti vardı. Hamı Cavadın ildən-ilə təpəsinə doğru genişlənən alnını, kürsü ayağına oxşar yekə burnuna təbəssümlə baxsa da, hesabatlarda, ölçmələrdə çətinə düşən onun üstünə qaçırdı.

Bu gün laboratoriyada ağız deyəni qulaq eşitmirdi. İşçilər tədqiqat institutundan bir az aralı, tindəki ət dükanında işləyən qəssabın başına yığışmışdılar. O, hərdən dostu, laboratoriya müdirinin yanına gəlirdi. Zarafatcıl, kara gələn bir oğlandı. Dostunun işçiləri dükana gələndə əlindən gələn hörməti edirdi. Ətin yaxşı yerindən kəsirdi, daha sür-sümük qoymurdu. İndi dəftərçəsini qabağına qoyub, qızların sifarişini yazırdı:

– Sənə iki kilo kabablıq… Yazdım. Sənə beş kilo dolmalıq. Yazdım… Yağlı yerindən… Baş üstə.

Cavad cihazlarla, kitablarla qalaqlanmış masanın arxasında elə bil iynə üstündə oturmuşdu. Birdən səbri tükəndi, lehimləyicini qalaydana çırpdı, çığırdı:

– Balam, belə səs-küydə impuls yox, heç yüklü dəvə də tapmaq olmaz… İnsafınız olsun da, bu nə bazardır?!

O, yerindən qalxıb onlara yanaşdı. Cavadın axtarışlarından xəbərdar yoldaşlarından biri söz atdı:

– Qəssab qardaş, yaz, Cavad üçün dəvə əti!

Hırıltı otağı başına aldı. Bircə qəssab gözlərini döyə-döyə qalmışdı. Zarafatın duzu ona çatmamışdı. Qəssab:

– O impuls dediyin nəmənədir, Cavad qardaş? – Soruşdu.

Qəhqəhə otağı başına götürdü. Qəssabın səkkiz sinif təhsili vardı. Otuz beş varaq kitab oxumamışdı. İndi hərə bir atmaca atırdı:

– İmpuls ətin bir növüdür…

– Afrikadan gətirilmə import ətdir…

– Əşi, yox, zubr ətidir…

Otaqdakılar doyunca güləndən sonra sakitləşdilər. Cavad onlara acıqlandı:

– Adamsınız, axı! İndi bilmir də, nə olar ki! – Qəssaba çevrildi. – Bunlardan incimə, qardaş…

Qəssab çöndərib gülümsədi, dəftərçəsini cibinə qoydu:

– Doğrudan ey, bu impuls nədir, axı?! – Təkrar maraqlandı.

– Necə başa salım?! – Cavad qulağının ardını qaşıdı və gözünü pıqqıldamaq istəyən qızlara ağartdı. – Elektrik siqnaldır…

– Bahalıdırmı?! – Qəssab pərt olmadan soruşdu.

– Vallah, nə deyim? – Cavad doğrudan da duruxdu. – Belə şeyə hələ qiymət qoymayıblar. Məsəlçün, sən onun mininə bir qəpik verməzsən, mənim üçünsə qiymətsizdir…

– Eh, mən də deyirəm nə olub? – Qəssab əlini yellətdi. – Bu nə itkidir ki!

Laborant qızlardan biri pıqqıldayanda qəssab cəld ona tərəf çevrildi:

– Gülmə, ay qız, gülmə! Sizə bir əhvalat danışım, onda bilərsiniz itki necə olur. – O, söhbətə başladı. – Dünən bazadan mal almışam… On qoyun, dörd mal cəmdəyi. Yoldan bir maşın tutdum, tələsirdim. Yüklətdirdim, düzəldim yola. Gəlib çatdım dükana. Bir mal cəmdəyi, iki qoyun cəmdəyi əskik gəlir. Başı alovlu cumdum bazaya, dedilər, biz düz vermişik. Maşını axtardım, tapmadım, nömrəsini də bilmirdim. Harayım hara çatacaqdı ki! Azından beş-altı yüz manat zibilə düşdüm. Sən bundan danış! Yoxsa mini bir qəpiyə dəyməyən nəmənədən nə olacaqmış?!

Cavad onun cavabını səbirsizliklə gözləyən iş yoldaşlarına baxdı, bir şaqqanaq çəkdi. Söhbətə qəssabsayaq başladı:

– Qəssab qardaş, sənə nə var ki! O əskik gələn ətin pulunu ikicə həftəyə çıxaracaqsan! Könlünə dəyməsin, vallah, çıxaracaqsan. Bir belə müştəri gəlir dükana, hərəsindən beş-on qram qırtsan işin düzələcək. Dərd mənim dərdimdir. Mən yazıq bu itik impulsu kimin qabırğasından çıxaracağam ki, aylıq mükafatımı kəsməsinlər?! Kimin qulağından kəsəcəyəm, bilmirəm… Sən bundan danış…

Cavadla qəssab arasında gedən bu elmi mübahisəni laboratoriya müdirinin içəri girməsi kəsdi.

## QİSAS GÜNÜ

Beydulla çox hövsələli adamdı. Yüz götürüb bir qoyandı. Amma bir gün səbr kasasının daşacağını yaxşı bilirdi. Beydulla bu gün evə qayıdanda yay Günəşi batmağa üz qoymuşdu. Darvazanın qarşısında, yolun üstünə tökülmüş qapqara laxtalanmış qanı görəndə kişinin ürəyi düşdü. Hövlnak atıldı içəri, qaça-qaça həyətdən keçdi, özünü evə saldı. Dünya başına dolanırdı, qan onu yaman qorxutmuşdu. Tələsik soruşdu:

– Nə olub?! O nə qandır?!

– Heç! – Arvadı qaşqabağını tökdü. – İslamın maşını itimizi basıb… Heyvan elə yerindəcə qaldı…

– Bu iş haçan olub?

– Sən işə gedəndən bir az sonra…

Beydulla dil-dodağını gəmirdi. Bircə bunu soruşdu ki, İslam kişi gəlib üzrxahlıq eləməyib ki?! Amma arvadının qırımından başa düşdü ki, gəlməyib. Daha nəsə demək istədi, vaxtında özünü saxladı. Başa düşdü ki, arvadının gül ağzı açılacaq, sonra onu dayandırmaq da olmayacaq. "İslam fironluq edəcək, sən də buna dözərsən… Bir o qalıb ki, onun əlindən baş götürüb kənddən-məhəllədən köçəsən. Daha qonum-qonşu arasına utandığımdan çıxa da bilmirəm. Abrımız getdi, axı. Elə hamı deyir ki, Beydulla İslamdan qorxur. Baxanda elə də çıxır da. Buyur, tamaşa elə. İti vurub gəbərtdi. Qapıdan baş uzadıb bir quru üzrxahlıq da eləmədi. Nə üçün? Çünki səni saymır, adam yerinə qoymur. Sənə o da azdır. Sənin kimi kişinin itini də öldürərlər, hələ o yana da keçərlər…"

Beydulla xeyli vaxt eyvanda var-gəl elədi. Televizorda futbol gedirdi. Beş oğlunun beşi də oturub tamaşa edirdi. Arabir eyvana boylansalar da, heç birindən səs çıxmırdı. Hamını bir sual məşğul edirdi: – Nə edək?!

Beydulla birdən yerindən qopdu, tələsmədən həyətə düşdü. Axtarıb lomu tapdı. Hasara yaxınlaşdı. Bir, iki,

üç… Otuz iki kiloluq daşlar bir-bir hasarın o üzünə, yola töküldü.

Batmaqda olan günəş toz içində əlləşən Beydullanı yandırsa da, məşğuliyyətindən qalmırdı. Hər dəfə lomu qaldırıb-endirəndə hıqqıltıdan savayı bunu da eşitmək olurdu:

– Məni mərdimazar elədilər. Mən belə deyildim, hıx! On ildi dözürdüm, daha mümkün olmadı, hıx! Allah pis adama nəhlət eləsin, hıx!

Beydullanın yaşı əllini ötmüşdü. Boydan cüssəsizdi, xırda sümüklü bədəni şiv kimi nazikdi, şümal üzü qırışsız, dolu yanaqlarının dərisi dəf kimi tarım-pardaxlı idi. Uzaqdan baxan onu məhəllə yeniyetmələrindən ayıra bilməzdi. Kişi lazımlı adamdı. Görürdün, məhəllənin xeyir-şər yığnaqlarının irili-xırdalı apar-gətir işlərini Beydulla elə səliqə ilə, elə xoşluqla, elə dillə ətrafında fırlanan yeniyetmələrin boynuna qoyurdu ki, birinin də cınqırı çıxmazdı. Ayaqçısı olduğu məclislər həmişə sahmanlı keçirdi. Yığnaq sovuşanda məclis sahibləri Beydullanın atasına rəhmət oxumaqla kifayətlənməyib puldan-paradan da cibinə basırdılar. Əvvəllər pul götürmürdü. Qonum-qonşunun işi irəli olsun deyə, çalışırdı. Yaşa dolandan sonra cibinə zornan basılan əlliliklərdən, yüzlüklərdən daha imtina eləmirdi. “Bax, götürməsən, inciyərəm!”, “Sən oğlanlarının canı”, “Halal olmaz mənə!” and-amanından bezikmişdi. Kənd böyük idi,

iyirmi min əhalisi vardı. Beydulla isə ən şöhrətli ayaqçı idi. Yay başlar-başlamaz qapısını kəsdirərdilər. Kişini ildə azından yüz toya çağırardılar. O da kimsəni, imkan olan yerdə, naümid qaytarmazdı, haqqına minnət gedib işini görərdi.

Sözü ülgüc kimi adamı kəsirdi. Yəqin elə buna görə də heç kim onunla ağız-ağıza verməzdi. Bircə hasarbir qonşusu İslamdan yan gəzirdi. On ildi ki, gediş-gəlişləri yoxdu.

İslam kişi yekəpər, davakar, hirsli bir adamdı. Qolları metrə yarımdan bir az qısa olardı. Üstünə gələndə elə bilirdin qol-budaqlı bir ağac yerindən qopub. Allah ona yeddi qız vermişdi. Qalib gələnə qədər irəliləmək istəsə də, daha qocalmışdı, mümkün edə bilməmişdi. Deyəsən, nəsli oğul görməyəcəkdi.

Aralarının soyumasına bir səbəb olmamışdı. Əvvəllər mehriban dolanırdılar. Beydullanın dilindən çıxan xoş bir söz qonşuları Araz çayı kimi ayırmışdı. Bu da belə olmuşdu.

Beşinci oğlu təzəcə doğulmuşdu. Beydullanı təbrik edənlərdən biri demişdi:

– Bəxtəvər başına, ay Beydulla, oğlanların dalbadal gəlir, gəlinlərin də hasarın o üzündə hazır dayanıblar. Deyirlər, dalı da gəlir…

Həmin günlərdə İslamın arvadı altıncı qızı qoymuşdu yerə. İşarə də buna idi.

Beydulla bığını qürurla sığallayıb demişdi:

– Bəs necə! Gəlinlərim, maşallah, şəkil kimi dayanıblar hasarın dalında. Bircəciyini də əldən buraxmayacağam. Hamısını oğlanlarıma alacağam…

Feldşer Həşim söhbətə qarışmışdı:

– Nəbadə, oğlanların beşinə də İslamın qızlarını alasan ha!

– Elə niyə? – Beydulla təəccüblənmişdi.

– Təbabət elmi deyir ki, gərək qan təzələnsin. Qohumlar arasında ərə getmə-evlənmə nəsli cırlaşdırır …

Başqa bir qonşu da söz atmışdı:

– Həşim düz deyir də! – Gülmüşdü. – Bir də gördün ki, nəvələrinin hamısı qızdır. Əgər nəslinizdə çıraq yandıran görmək istəyirsənsə, oğlanlarının, heç olmazsa, birini başqa yerdən evləndir.

Bu mükalimələr ağızdan-ağıza keçir, bəzənir-düzənir, qoyulur İslamın ovcuna. Guya, Beydulla deyibmiş ki, İslamdan qız almaq düzgün deyil, Allah o nəslə oğulu cirə ilə verir...

Araları o vaxtdan dəydi.

İslam kişi başladı arabir Beydullaya sataşmağa. On ildi sancırdı, əlindən nə pisliklər gəlirdisə edirdi, amma ürəyi soyumurdu. Sonbeşiyi də qız doğulandan sonra kişi lap dəli olmuşdu. Beydullanın qarasına da nifrət edirdi. Elə bil onu oğulsuz qoyan qonşusu idi. Beydulla baş qoşmurdu. Nə deyirdisə, dözürdü. Qonşusun-

dan çəkindiyini açıq boynuna almasa da, ürəyinin dərin guşəsində bir xof gizlənirdi. Bilirdi ki, bir gün üzləşəcəklər, yumruq davasına çıxmalı olacaqlar. Bu da Beydullanı heç açmırdı.

Yaxınlarda İslam kişi borc-xərc bir qırmızı «Jiquli» almışdı. Naşı olduğundan yavaş-yavaş, ikinci sürətlə sürülən maşının səsi məhəlləni başına götürürdü. Gündə adam neçə dəfə kəndi o baş-bu baş dolanarmış! İslam kişi sükanın arxasından düşmürdü. Feldşer Həşim şəbədə qoşmaqda usta olduğundan demişdi ki, bir azdan İslam subaşına da maşınla çıxacaq.

Beydullanın evi kəndin qırağında idi. İslam kişi də qarajını elə tikmişdi ki, hər gün yolu onun darvazasının qarşısından keçsin. Cahıl uşaqlar kimi hər dəfə də uzun-uzadı fit verir, belədən-eləyə, elədən-beləyə şütüyürdü. Bir də görürdün ki, maşını qonşunun hasarının dalında saxlayıb ayağını gah qaza, gah da əyləcə basır, təkərlər torpağı vıcıltı ilə eşir, motorun səsi ərşə dayanırdı. Bu vaxtları Beydulla oğlanlarının qarşısını gücnən alırdı.

İndi Beydullanın zərbələri altında daşlar küçə uşağının ağzından çıxan günəbaxan tumunun qabıqları kimi yolun eninə də, uzununa da səpələnirdi. Yarım saatın içində hasarın bir qanadını dağıtmışdı. Daşlar yolun ortasında qalaqlanmışdı. Bir-ikisi də dərəyə dığırlanmışdı.

Kişinin alnından tər sel kimi axırdı. O, hələ də lomu hərləyir, hıqqıldayır, deyirdi:

– Hıx! Hampaçılıqdırsa, belə eləməzlər! Hıx! Kişilikdirsə, belə eləməzlər!

– Adə, neynəyirsən orda! Dəli olmusan?! Hasarla nə işin?

Beydulla arvadının səsinə çevrildi, lomu ağaca söykədi, əlinin dalı ilə tərini sildi:

– Dinmə, arvad! – dedi. – İslamdan qisasımı alıram…

Arvad ona boğma çıxartdı:

– Ala ey! – dedi. – Evi dağılmışın oğlu, harda görünüb ki, özgəsinin acığına adam öz evini xaraba qoysun?!

Beydulla sakitcə:

– Dəli olmamışam, ağlım başımdadır… Deyirəm, qisas alıram, deməli qisas alıram… İslamın sevər yerini mən yaxşı bilirəm… – Nəsə demək istəyən arvadının sözünü kəsdi. – Daha məni dəng eləmə, bu kişi işidir, çıx get…

– Necə, mənim işim deyil?! – Arvad bu sözdən lap odlandı. – Bəs, indi həyət-baca açıq qalacaq?! Yoldan keçən boylanacaq… Yüz göz baxacaq…

– Eh! Axmağın qızı, ağzımı açacaq ha! – Beydulla ona qışqırdı. – Rədd ol, mitilin biri! Yüz göz yox, min göz baxsın, zərin tökülməyəcək ki! Kimin nəyinə lazımsan?!

Bu vaxt mağazanın tinindən çıxan qırmızı «Jiquli» daş qalağının qarşısında əyləndi. Beydulla arvadı ilə «şi-

rin» söhbəti yarımçıq qoymalı oldu. O, açıq pəncərədən İslamın irilənmiş gözlərini görüb, daxili bir rahatlıqla köksünü ötürdü. Lomu hər ehtimala qarşı əlinə aldı, çıxdı daş qalağının üstünə. Nəzərləri bir anlığa uzaqda dayanmış, harayçılığa çıxmış məhəllə camaatının üstündə dayandı, təəccübləndi. Heç bilmək olmurdu, bir belə adam hardan bilmişdi ki, Beydulla bu gün İslamla haqq-hesabını üzəcək.

İslam boylana-boylana maşından düşdü. Beydullanın beş oğlunun daş qalağını əhatə etməyi bir oldu. Qonşular bir-birinə baxdılar. Birinci İslam dillənməli oldu:

– Bu nədir, adə?! – Qeyzlə soruşdu. – Niyə yolumu kəsmisən?

Beydullanın dodağı qaçdı, istehza ilə dilləndi:

– Qonşu, birincisi, salam verərlər! İkincisi, işləyənə «Allah qüvvət versin» deyərlər. Axırıncısı da budur ki, yol haçandan sənin oldu? Nə yoğurdum, nə yapdım… Əcəb! Buraları abad edən mən, asfalt saldıran mən, yol sənin oldu! Nə yaxşı şeymiş!

Camaat güldü. İslam kişi pərt halda bir xal aşağı enməli oldu:

– Yaxşı, qoy ikimizin olsun! – dedi.

– Yox, qonşu, bizim yolumuz həmişə ayrı olub!

– Neynək, – deyə İslam ah çəkdi, yumruqları düyünlədi. – Neynək! Bu hasarına nə olmuşdu ki, söküb qoymusan?

– Pis qonşulardan həzər! – deyə Beydulla siqaret çıxartdı. – Hasar əyilmişdi. Təzədən tikəcəyəm…

– Haçan, inşallah?! – İslam kişi içəridən partlayırdı, amma Beydullanın qaşqabaqla dayanmış beş oğlunu görəndən sonra qeyzini boğmuşdu, ondan gözlənilməyən bir mehribanlıqla danışırdı. – Bəlkə, kömək eləyim, bir-iki saata hasarı qaldıraq?!

– Yox, yox, sən zəhmət çəkmə! Payızda qurtararam, inşallah!

İslamın alnındakı damarlar şişib oldu qol yoğunluğunda:

– Nə? Payızda? – Soruşdu. – Bəs, mən maşını qaraja necə salacağam?!

Beydulla çiyinlərini çəkdi:

– Özün bilən yaxşıdır?! – dedi. – Qarajı hasarımın dalında tikəndə bunu fikirləşəydin də! Bəs, bilmirdin, özgə atına minən tez düşər! Yolunu o yandan sal!

İslamın iri yumruqları düyünləndi, amma Beydullanın başının beş keşikçisi vardı, güman yeri yenə öz başı oldu. Vurdu təpəsinə:

– Onda evim yıxıldı ki! – dedi. – O yol dolanbac, dardır. Heç usta şoferlər ordan maşın keçirə bilməzlər, o ki olam mən! Beydulla, bir yol elə keçim, maşın hayıfdır…

Beydulla gözün yumub başını buladı:

– Üz vurma, İslam kişi, sənə yol verməyəcəyəm! Çünki çox kəmfürsət, yolsuz adamsan! Çox yaxşılıqlar

eləmişəm, xeyri olmayıb. Qonşuluqda nə arzulamısan yerinə yetirmişəm. Yadındadırmı, beş-altı il qabaq orta hasarın yanında peç qoymuşdum, uşaqlar yayda bişdüş edirdilər, dedin, külək tüstünü evimə qovur, dəyişdir yerini. Dedim: «Baş üstə, qonşu!» Dörd il qabaqsa qol-budaqlı tut ağacını kəsdirdin mənə, dedin, yarpaqları, meyvəsi həyətimi zibilləyir. Cızdağım çıxa-çıxa kəsdim! Toyuq hinimiz həyətin bir küncündə idi, hay saldın ki, iydən boğulduq. Dəyişdirdim yerini. Daha nə istəyirsən. Bəlkə köçüm bu məhəllədən?! Utanma, könlündən keçirsə, de!

Camaat yer-yerdən dedi ki, düz deyir. İslam kişi də xeyli götür-qoydan sonra boynuna aldı ki, Beydulla haqdır. Köksünü ötürdü:

– Olan olub, keçən keçib! – dedi. – Beydulla, gəl, olmuşların üstündən xətt çəkək!

– İslam, çox xətt çəkmişəm, daha qələm quruyub, mürəkkəbi qurtarıb! – deyə Beydulla inadla dilləndi. – Məni mərdimazar sən elədin! İndi cəzandır çək!

– Əşi, biri od olanda, biri su olar! – deyə feldşer Həşim uzaqdan dilləndi. – Gor qonşususunuz, bir-birinizi yola verin.

– Camaat, birəlli əl çalmazlar! Mən çox əlləşmişəm, bir şey çıxmayıb! – deyə Beydulla başını aşağı salmış İslama baxmadan davam etdi. – Qonşuluqdu, niyə qoymadı ki, həyətindən su çəkim. Özü ki, Həşim kişi, səndən

götürmüşdü. O vaxt mənə dediyi söz yadınızdadır da?! Dedi ki, suyumun təzyiqi azalar! Çox dedim, az eşitdi. Əlacım kəsildi, bir ətək pul tökdüm, borc-xərc turba aldım, usta tutdum, az qala iki kilometrdən həyətimə su çəkdim. Budur qonşuluq?!

İslam kişi dinməz qayıtdı, oturdu maşına, dala sürdü. Camaat da dağılışdı.

Bir saatdan sonra məhəlləyə hay düşdü ki, İslam kişi Əliqulunun dalanında maşını ilişdirib divara, sağ qanadını möhkəm əzib.

Beydulla sevinmədi.

## TELEQRAM

Evin sonbeşiyi BAM-dan gəlirdi, teleqram vurmuşdu. Elə bil zəlzələ olmuşdu. Bir-birinə dəymiş ev köçürülmə məntəqəsinə oxşayırdı.

Əmisinin gəlmək xəbərini eşidəndən sonra Orxan daha oynamağa yığılan qonşu qızlarına fikir vermirdi. Təzə paltarını zorrama geydirib, səhərdən axşama qədər darvaza önündə, əlləri cibində, var-gəl edir, ona: «Qaç evə!» – deyən ev adamına tərs-tərs baxır, yekə-yekə cavab qaytarırdı:

– Getmirəm! Mən əmimi gözləyəcəm.

Orxan əmisinin üzünü görməmişdi, çünki beş yaşı hələ yayda tamam olacaqdı.

Bibiləri onu danışdırmaqdan ləzzət aldıqlarından deyirdilər:

– Baban onsuz da əmini evə qoymayacaq…

Orxan qaşlarını çatırdı:

– Yox, qoyacaq! Mən deyirəm, qoyacaq! – deyirdi. – Gələr ona toy edərik! Axı, o, Nataşa ilə gəlir!

Bibiləri xısın-xısın gülür, atalarının kölgəsini görən kimi susurdular. Kişi «Prima»nı «Prima»nın oduna yandırır, həyəti qara bulud kimi dolanırdı. Teleqram onu əymişdi. İki gündü heç kimi dindirmirdi. Küsülü kimi dolanır, arabir dodaqları səssiz tərpənir, pırpız qaşları altında qəzəblə parlayan gözlərini həyətin o başındakı evə dikirdi. Teleqram gələn gündən böyük oğlu gözünə dəymirdi. Deyəsən, qorxudan bayır-bacaya da çıxmırdı. Vaxtilə atasının saqqızını oğurlamışdı: «Qaqaşım qoy, getsin, ay dədə, – demişdi. – Orada işlər, özünə pul qazanar, qayıdar ev-eşik salar, toyunu edər. Bu saat oralarda pulu lapatkə ilə kürüyürlər. Qoy, getsin, mane olma! Görmürsən, neçə ildi tər tökürəm, daş üstə daş qoyuram, hələ də evimi bir tərəfə çıxara bilmirəm. Niyə? Çünki pulum yoxdur. Mühəndis maaşı ilə dolanmaq belədir də! Evin binasını Kamal doğulanda qoymuşam, indi uşağın on beş yaşı var, əsgərlik yaşına çatıb, hələ də

qurtara bilmirəm. Vallah, dədə, bir əlim bir başım olsaydı, baş alıb gedərdim bu xaraba şəhərdən…»

Kişi də əsgərlikdən yenicə qayıtmış oğluna BAM-a getməyə yarıkönül izn vermişdi. «Amma iki şərtlə, – demişdi. – Birincisi, oğul, sənə Rusiyətdə beş ildən artıq qalmağı qadağan edirəm. Vədə tamam oldu, gördün dirəyin qızıldandı, yenə daşını atıb, gəlməlisən. İkincisi, demişdi…» Burda kişi kitaba yazılmayan biədəb bir söz işlətmişdi. Qardaşın ikisi də qızarmışdı. Bu sözün mənası belə idi ki, oğul, nəbadə oralarda «ilişib» qalasan. «Mənə kişi kimi söz versən, – demişdi, – yol sənindir, amma fikirləş ha!» Kiçik oğul da, müxtəsər fasilədən sonra, kişi kimi söz vermişdi. O gedən beş il keçmişdi.

Kişi həyəti addım-addım dolanırdı, ürək yanğısı ilə deyinirdi: «Buyur, bu da onun kişi sözü! Dəyyus oğlu dəyyus! Gör, necə yoğunlayıb ki, utanmaz-utanmaz tel də vurur, bə mən arvadım Nataşa ilə gəlirəm. Qarşılayın! Tfu, sənin zatına! Bircə ocağımızın başında urus qızı çatmırdı».

Dalınca hərlənən Orxan fikrini dağıtdı. Nəvəsi nəsə üyüdüb-tökürdü. Kişi dilavər uşağa çəp-çəp baxdı, amma acıqlana bilmədi. Ayaq üstə durmaqdan qıçları ağrıyırdı, keçib tut ağacının altında oturdu. Gəlib dizinin dibini kəsdirmiş Orxana hasarın yanında oynayan qızları göstərdi:

– Gedib oynasana, balası, – dedi. – Nə pıtrağ kimi yapışmısan yaxama!

Qəsəbədə dörd-beş üçmərtəbə bina vardı. Camaat arasında bunlar «neftçi evləri» kimi məşhurdu. Adından məlum olurdu ki, neft mədənlərində çalışan fəhlə-qulluqçular üçün tikilib. Üçmərtəbənin biri kişinin gen-bol həyətinə yaxındı. Keçən il qəzaya düşüb tələf olmuş İvanovun dul qalmış arvadı orda yaşayırdı. İki xırda qızı mehrini onların həyətinə salmışdı, hər gün gəlir, kişinin nəvələri ilə oynayırdılar. Hasarbir qonşunun Sevinc adında qızı da onlara qoşulurdu. İvanovun yeddi yaşlı qızının adı Nataşa idi.

Orxan babasına qulaq asmadı, gəlib girdi qucağına. Kişi daha dinmədi. Uşaq isə durub-durub birdən dedi:

– Baba, ay baba?!

– Hıy…

– Mənə toy elə də!

Kişi diksindi, kənara çırt atıb, deyindi:

– Bəli də! Əmindən bal tutub barmaq yaladıq, arzu-kama yetdik, hindi növbə sənindi!

Orxan başa düşmədi, yalvardı:

– Qurban olum, baba elə də, nolar?!

Kişinin çal qaşları alnına yeridi:

– Nədi, təntimisən?! – Soruşdu, uşağın başa düşməyib gözlərini döydüyünü görüb, köksünü ötürdü: – Yax-

şı bala deyirəm atana gələn il sənə kiçik toy vursun. Razı qaldınmı?

Orxan ayağını yerə vurdu:

– Yox! Yox! – dedi. – Kiçik toy istəmirəm. Kiçik toy pisdir!

Kişinin eyni açıldı:

– Baa! – deyə qımışdı. – Toy toydu da! Kiçik toyun nəyi pisdi?!

– Pisdi, onda adamı ağrıdırlar. Odey Sevincin qaqaşı üçün eləmişdilər. Şalvar geyə bilmirdi, yaylıq bağlayırdı… – Orxan barmağını babasının üstünə silkələdi. – Aldada bilməzsən! Mən böyük toy istəyirəm. Əmimçün də elə, mənimçün də! Sonra da gəlin gətir!

Kişinin kefi açıldı, bir «Prima» çıxardıb müştüyə keçirtdi, nəvəsi ilə başladı məzələnməyə:

– Belə de! – dedi – Böyük toy deyirsən, elərik! Hələ əmini qoyaq bir qırağa, de görüm, sənə kimi alaq?! Deyiklin varmı?

Orxan fikrə getdi, birdən bağırdı:

– Baba, mənə də Nataşa al! Əmim kimi!

Kişinin dodağı qaçdı:

– Öhö! Öhö! Öhö! Ay bəzzat! – dedi və sinəsini bir də arıtladı. – Bə əvvəllər deyirdin Sevinci alacam! Noldu fikrini dəyişdin?

Orxan babasından aralandı, bir ayağı üstə hoppana-hoppana dedi:

– Yox, Nataşa yaxşıdı, Sevinc pisdi. Ona deyirəm, get, üzünü yu, deyir, sudan qorxuram. Bax, bu Nataşanı almasan, gedəcəm Məskoya, orda Nataşa çoxdu, ordan gətirərəm.

Kişi bu yerdə daha heç cür özünü saxlaya bilmədi, için-için güldü:

– Ay gözünə dönüm! – dedi. – Avara əminlə haqqın yolunu tapıbsız! Ay pıtrağ, Nataşa nəyinə lazımdı? Səndən böyükdü, döyəcək səni!

Orxan əllərini saldı cibinə, babasının önündə şax dayandı:

– Hı! Mən elə bu boyda qalacam?! Böyüyərəm də! Odey, səhər iki boşqab sıyıq yemişəm. Mamam deyir, kim çox sıyıq yesə, tez böyüyər…

Kişi daha ağzı sıyıq kəsən nəvəsinin diribaşlığından məmnun halda başqa bir bəhanə gətirdi:

– Sən ki rusca bilmirsən! – dedi. – Nataşa ilə necə danışacaqsan?

Orxan cingiltili səslə güldü:

– Ha! Gör, nə boydasan, bunu da bilmirsən! – dedi. – Əlnən danışacağıq, lallar kimi… Televizorda görməmisən?!

Kişi doyunca güldü:

– Sənə day sözüm yoxdu! – dedi və yaşaran gözlərini sildi.

Qalxıb nəvəsini qucağına götürdü, təzədən yerə qoydu və dalından vurdu:

– Yaxşı, day, bəsdi! – dedi. – Sən, qaç, qızlarla oyna! Odey, Nataşa səni çağırır. Yəqin darıxıb səninçün! Yeri!

Orxan qaça-qaça uzaqlaşdı. Qızlara qarışdı. Baba dərindən köksünü ötürdü: «Bir qamçı boyu var, danışmağına bax!» – düşündü. Başını qaldırıb onlara baxdı. Gördü Nataşa Orxanı qucaqlayıb, Sevincsə çirkli əllərini yanına salıb, tamaşa edir. Kişi bu səhnəni seyr edib, istehza ilə gülümsədi: «Bu oğlan da kisəmizdən getdi!» – dedi.

## MANATIN MƏZƏNNƏSİ

Molla Fəti vədəni ötürmədi, orucluğun elə birinci günü telefon açdı. Vərdişkarlıqla uzun-uzadı əhvallaşdı:

– Nə var, nə yox, müəllim? Alver necədi, müəllim? Evdə-eşikdə salamatlıqdımı? Orucluq əziyyət vermir ki?

Dərdayıl ali təhsilli riyaziyyat müəllimi idi, həmişə uzunçuluqdan qaçırdı, mollanın bütün suallarını cəmləyib qısa bir cavab verdi:

– Hər şey yaxşıdı.

– İstilərlə neynəyirsən? Bağa köçmürsən?

– Bağ? – Vəziyyət Dərdayılı elə sıxmışdı ki, bağ yadına düşmürdü. – Görək, inşallah!

Molla əl çəkmək fikrində deyildi, biliciliklə:

– Müəllim, manat yaman büdrədi ha! Amma Allah üzümüzə baxdı, yaxşı qurtardıq, yıxılmadı! – dedi, sonra gümanla soruşdu. – Sən bilən əvvəlki məzənnəsinə qayıdacaqmı?

Dərdayıl müəllim könülsüz:

– Çətin söhbətdi! – dedi.

Molla, nəhayət, mətləbə gəldi:

– Müəllim, sənin rəhmətlik valideynlərinin ruhunun səlamətliyi üçün "Quran" oxuyuram. İnşallah, beş günə-bir həftəyə xətm elərəm, – dedi. – Məclisimizi haçana salaq?

Dərdayıl müəllimin əli pula çatandan sonra, hər il, cavan yaşında Allah rəhmətinə getmiş valideynlərinə ramazan ayında "Quran" oxutdurur, ehsan süfrəsi açırdı. Bu il durumu yaxşı deyildi, molla demişkən manat büdrəmişdi, üzləşdiyi maliyyə çətinlikləri artıq özünü büruzə verirdi. Mal sahibləri pulunu dollarla tələb edirdilər. Amma Dərdayıl müəllim bu il də ənənəni pozmadı. Hər dəfə ehsanın vaxtını mollanın öhdəsinə buraxdığından, indi də:

– Öz məsləhətinə bax, molla əmi! – dedi. – Yaxşısını sən bilərsən!

– Ramazan ayının birinci həftəsi necədi?

Dərdayıl müəllim bir az təəccübləndi:

– Molla əmi, biz həmişə mərasimi orucluğun üçüncü həftəsinə salırdıq, axı! – dedi, sonra nə fikirləşdisə istehzasını saxlaya bilmədi. – Tələsməyindən məlum olur ki, əlin aşağıdı. Güman ki, manatın büdrəməyi səni də silkələyib!

Dərdayılın istehzası dəstəkdən gələn hənirtinin rəvanını dəyişildi. Xəttin o başından mollanın utancaq səsli gəldi:

– Düz tapmısan, müəllim, neçə aydı quraqlıqdı! Bu qrizis nə pis şeymiş! Gör, iş nə yerdədi ki, insanlar, qrizisin qorxusundan ölməyi də tərgidiblər! Həəə, əlqərəz, uzunçuluq eləyib lap başağrısı verdim! Həəə! Mənə elə gəlir ki, ramazan ayının birinci şənbəsi yaxşı gündü, müəllim! – dedi və cavab gözləmədən fikrini əsaslandırmağa tələsdi. – Hamı bizim kimi boş-bekar deyil! Hökumət işində, şirkətlərdə çalışanlar var. Asudə vaxta salıram ki, sənin adamların arxayın toplaşa bilsinlər.

Dərdayıl müəllim daha uzatmadı, təkliflə razılaşdı.

Mollanın elə bir savadı yox idi, amma gəlirini-çıxarını yaxşı bilir, külfətini dolandırmaq üçün dəridən-qabıqdan çıxırdı. Cavan olsa da ailəsi böyükdü, səkkiz qızı, bir oğlu vardı. Artıq dördmü, ya beşmi qızını köçürtmüşdü. Dərdayılın bir övladı vardı. Amma mollanın bütün toy məclislərində iştirak eləyir, karlı nəmər salırdı. Onlar bağ qonşusu idilər. Molla xahiş-minnət gözləmədən hər yaz hasardan aşır, onun talvara qaldırılmış meynələrini

kəsirdi. Yaydan yaya bağa köçən müəllimin ev-eşiyinə il ərzində göz olur, sahibsiz qoymurdu.

Dərdayılın var-dövləti başından aşmasa da imkanlı idi, şəhərin lap mərkəzində, metronun yaxınlığında xudmani bir xəm-xurd dükanı açmışdı. Dostu hacı Məşti ilə icarəyə götürdükləri yarımzirzəmidə on beş ildi kəsbkarlıq edirdilər. Gen-bol yaşamasalar da kefləri yaxşı, çörəkləri başlarının altında idi. Axır vaxtlara qədər həmişə qazancda olduqlarından, icarəni də vaxtlı-vaxtında verirdilər, özlərinə də bir şey qalırdı.

Şəriki hacı Məşti ağır adamdı, sızanaqlı üzü gülməzdi. Keçənlərdə bir yol Dərdayıl müəllimi qınamışdı:

– Dostum, qazancını heçə-puça nahaq xərcləyirsən. Bilirsən ki, mən də “Qurandan” çıxmışam. İstəsən məclislərini də yola verərəm, rəhmətə gedənlərinə də “Quran” oxuyaram. – Onun molla Fətidən acığı gəlirdi. – Nə deyirsən? Həm mollanın laqqırtısından canın qurtarar, həm də pulun cibinə qalar.

Dərdayıl razı olmadı:

– Hacı, molla Fəti yazıqdı, bir çətən külfəti var, çörəyinə bais ola bilmərəm, – dedi, sonra dostunu inandırmağa çalışdı. – Vallah, pis adam deyil, həyət-bacama göz olur, meynələrmi kəsir, yayda qonaq-qara gələndə əl yetirir...

Hacı Məşti qaşının üstündəki iri xalı qaşıdı, birdən qətiyyətlə:

– Müəllim, bu molla tayfası ki var, İslamın birinci düşmənidir! Hamını dini-imandan pisikdirən onlardı! – dedi, ürək yanğısı ilə deyindi. – Əşi, "Quranı" da pulnan oxuyarlar!? Bu hansı kitabda yazılıb, axı!?

Dərdayıl müəllim istehza ilə gülümsədi:

– Yerlimizdi də, daha neynəmək olar! – dedi, şərikinə hörmət eləsə də fikrindən dönmədi. – Bir eldən, bir obadanıq.

– Bu qırılmışların hansı bizim eldən deyil, axı? – Hacı deyindi, amma daha inad eləmədi.

Onların hər üçü, doğurdan da, Azərbaycanın Cənub bölgəsindən idi.

Bu il isə vəziyyət gözlənilmədən dəyişmişdi, alverləri rəvanlığını itirmişdi. Ayın axırı gələndə hər ikisinin qanı qaralırdı. Zirzəminin sahibi ağızdan yava bir qadın idi, icarə haqqını yarım saat gecikdirəndə gül ağzını açırdı, başlayırdı pis-pis söylənməyə.

Bu il Dərdayıl müəllim çox adam çağırmadı. Ehsan məclisində yalnız ailə üzvləri, yaxınları, bir də hacı Məşti xanımı ilə iştirak edirdi.

İftara yarım saat qalmış maşını qoşdu, hacı Məştilə mollanı yanına oturdub qəbirüstə getdilər. Qəbiristan yaxında, gölün sahilindəki təpədə idi. Ətrafın həzin mənzərəsi insanın könlünə neştər kimi işləyirdi. Qəbiristana çökən toranlıq kədər gətirirdi. Molla "Yasin" surəsini oxuyana qədər kədərlənmiş Dərdayıl məzarın

ətrafına əl gəzdirdi. Sonra hər üçü bir yerdə həmdi-surəni oxudu, salavat çevirdi. Dərdayıl müəllim övladlıq borcunu yerinə yetirib xeyli yüngülləşdi. Qəbiristanı tərk eləyəndə mollaya dil-ağız elədi:

– Oxuduğun "Quran" sənə kömək olsun! – dedi, sonra şərikinə minnətdarlığını bildirdi. – Allah səni də, hacı, dostluqda əskik eləməsin.

Evə qayıdanda artıq təamlar masaya düzülmüşdü. Qadınlar üçün qonşu otaqda süfrə salındığından içəridə ancaq kişilər idi. Molla "Quran"ı avazla oxuyub tapşırdı, sonra kondisionerin xoş sərinliyində iftarı bütün qaydası ilə açdılar. Əvvəl qaynanmış su, sonra duru yemək, sonra da plov verildi. Yeməkdən sonra molla tərpənmədi. Dərdayıl təəccübünü büruzə vermədi.

Qonaqlar bir az da oturub dağılışdılar. Otaqda hacı Məşti, molla Fəti, Dərdayıl müəllim qaldı. Ev sahibi köynəyinin döş cibindən çıxartdığı əlli manatlığı mollanın qabağına qoydu:

– Allah imanını kamil eləsin, molla əmi! – dedi. – Bu pul az da olsa, çox bil.

Molla tərəddüdlə pulu ev sahibinə tərəf itələdi:

– Utanıram da deməyə, müəllim, – dedi. – Ya bu əlliliyin üstünü düzəlt, ya da əlli dollar ver.

Dərdayıl müəllim molladan bunu gözləmədiyindən tutuldu, bilmədi nə desin. Hacı Məşti öskürüb təsbehini

çıxartdısa da çevirmədi, əsəbiliklə qaytardı çibinə. Bir az acıqla şərikinə müraciət elədi:

– Buyur, hətta molla da manatdan imtina edirsə, deməli, bir azdan heç əhli-qübur da manatı bəyənməyəcək! – dedi, sonra üzünü mollaya tutdu. – Rəhmətliyin oğlu, azərbaycanlının azərbaycanlı ölüsünə Azərbaycanda "Quran" oxuyursan, Amerika dolları istəyirsən! Deyəsən, harda yaşadığını unutmusan!

Molla dili dolaşa-dolaşa:

– Hacı, hacı, bilirsən ki, dollara nisbətdə manat dəyərini yarıbayarı itirib. Bazar-dükan od tutub yanır... Mən də gözümü buna dikmişəm...

– Ay oxuduğun sənə qənim olsun! Biz, bəyəmləri, malımızı dollarla satırıq ki, sənə də dollarla verək? – deyə hacı Məşti səsini ucaltdı.

Molla Fəti başını aşağı saldıqda hacı Məşti Dərdayıl müəllimə dedi:

– Dərdayıl müəllim, gələn il orucluqda "Quranı" özüm oxuyacağam, daha molla Fətiyə əziyyət verməzsən.

Molla, deyəsən, səhv elədiyini anladı. Pulu masadan götürüb dəhlizə adladı. Nimdaş ayaqqabılarını tərs-avand ayağına çəkdiyinin fərqinə varmadan qapıdan çıxdı.

## ƏDƏBİYYATIN LƏTAFƏTİ

Yaşlı şairlərdən birinin, adını çəkməyəcəyik, həm yaradıcılıq gecəsi keçirilirdi, həm də yeddi cildlik külliyyatının təqdimatı idi. Kiçik salon dolmuşdu. Belə tədbirlərin, səbəbkarını tanıdı, ya tanımadı, bircəciyini də buraxmayan satirik yazıçı Həşim Güllü bu dəfə gecikdiyindən qabaqda oturmağa yer tapmayıb boylandı. Arxa sıradakılar sıxlaşıb ona yer elədilər. Model kimi açıq-saçıq geyinmiş cavan xanımla yanbayan oturdu. Yazıçı qəzetlərin, internet saytlarının əməkdaşlarını tanıyırdı, amma bu qadını tanımadı. "Yəqin təzə işə başlayanlardandı!" – deyə fikirləşdi.

Ədəbi mühitin bütün görkəmli simaları iri dəyirmi masanın ətrafında əyləşmişdilər. Səbəbkarın ədəbiyyatdakı xidmətləri danılmaz olduğundan deyilən təriflər heç tənqidçilərdə də şübhə doğurmurdu. Məclisi idarə edən vəzifəli şəxs qarşısında çinlənmiş külliyyata toxunaraq:

– Bu kitablar, ədəbiyyat tacının cıqqasına çevriləcək kitablardır, – dedi, yeni natiqə söz verməzdən əvvəl çıxışının bünövrə daşını qoydu. – Buyurun, müəllim! Hörmətli qələm yoldaşımız böyük şair haqqında görək nə deyəcək...

Səksən yaşlı şairin, adını çəkməyəcəyik, tériflərə aludəçiliyi hamıya məlum idi. Natiqlərin ağzından gözünü

çəkmirdi, onları baxışları ilə daha dolğun təriflərə ruhlandırırdı.

Həşim Güllü deyilənləri irişə-irişə dinləyir, yumorlu hekayələrinə mövzu axtarırdı, amma fikirlərini toplaya bilmirdi. Cavan qadın bütün bədəni ilə ona sığınmışdı. Onun ətri-rayihəsi Həşim Güllünü həyəcana gətirmişdi. Bir sözlə, altmış yaşlı kişi hayıl-mayıl olmuşdu. Qadınla tanış olmaq eşqinə düşdü.

– Xanım qız, yerinizi dar eləmədim ki?

Qadın ətrafda eşidiləcəyindən çəkinmədən bərkdən:

– Bütün ömrüm boyu belə dar yer arzulamırammı! – dedi, sonra müsahibinə tərəf əyildi, astadan, gülümsəyərək səbəbkara işarə ilə qeyd elədi. – Əcəb böyük şairdi! Səksən yaşı var, yeddi cild kitab yazıb. Bir belə yaşayan şairin yetmiş cild kitabı olmalı idi.

Ədəbi gecənin səbəbkarını sevməsə belə Həşim Güllü qadının istehzasından xoşlanmadı. Ona yanakı baxdı. Qadının toppuş yanaqları işım-işım işıldayırdı, ənlik-kirşansızdı. Həşim Güllünün döşünə yatan qadınlardan olduğundan müsahibini acılamaqdan çəkindi. Mülayimliklə soruşdu:

– Neçə yaşınız var, xanım qız?

Qadın, nədənsə, hikkələndi:

– Otuz yaşım var. Nədi ki? Söz demək yaşım çatmayıb?

Həşim Güllü mübahisədən qaçdı:

– Heç kim sizin söz demək hüququnuzu əlinizdən almaq istəmir, xanım! Sadəcə, demək istəyirəm ki, adama döyüş uzaqdan asan gəlir. Lağ elədiyin səksən yaşlı şair Sovet dövründə dövlət mükafatı almışdı.

Qadın onu dinləmədi, çantasında eşələndi, bir qutu siqaret çıxartdı, gözlənilmədən təklif elədi:

– Bəlkə mənimlə foyeyə çıxasınız? Tanışlığın bünövrəsini qoyarıq... – dedi, cavab gözləmədən qalxıb döşəməni taqqıldadaraq bayıra çıxdı.

Həşim Güllüyə maraq üstün gəldi, bir az yubandı, sonra yanındakıların təəccüblü baxışları altında qadının dalınca getdi. Ayaqyolunun qarşısında divara söykənib siqaretini tüstülədən qadın cazibədar bir gülüşlə astadan soruşdu:

– Siz də yazıçısınız?

Bu sual Həşim Güllüyə güllə kimi dəydi. Çallaşmış gur saçlarını əsəbiliklə geri sığalladı. O, kifayət qədər tanınmış yazıçı idi, tez-tez TV-nin ekranlarında görünürdü. Ədəbiyyat aləmində tənqidi məqalələri ilə məşhur idi. Elə bildi onu ələ salırlar. Diqqətlə baxandan sonra əmin oldu ki, qadın tam ciddi soruşur. Könülsüz halda başını tərpətdi, ağızucu:

– Yazıçı-tənqidçiyəm.

Qadın əl çəkmək fikrində deyildi:

– Neçə kitabınız var? – Soruşdu.

Həşim Güllü çap olunmuş kitablarının sayını dedi. Qadın qəribə bir həqarətlə:

– Beş? Niyə belə az? – Soruşdu. – Yəqin istedadınız azdı ki, belə az yazmısınız.

Həşim Güllü vurğunluqla qadına baxıb izah elədi ki, bir az tənbəlliyi, bir az da maddi problemləri var.

– Kitabı da məlumdur ki, lopuxa nəşr eləmirlər! – Güldü. – Yoxsa yazmağa nə var ki! Əlimdə bu saat iki kitablıq yazım var, sandıqda yatır!

Müsahibi onun nədən yazdığını bilmək istədi. Həşim Güllü başdansovdu dedi:

– Satira və yumorla məşğulam, arada tənqidi məqalələr də yazıram. – Qadın üçün anlaşıqlı olsun deyə əlavə elədi. – Yəni lağlağı yazıram.

– Təəccüblü deyil ki, sizi heç kim tanımır. Lağlağı kimə lazımdı.

Həşim Güllü qadına baş qoşduğuna görə peşman oldu. Həvəssiz halda:

– Bəs, nədən yazmaq lazımdı? Bəlkə məsləhət verəsiniz! Yol göstərəsiniz!

Yazıçının zəhərli istehzasını qadın eyninə almadı:

– Gecdi, bu yaşda sənə məsləhət də kömək etməyəcək! – dedi. – Gərək məhəbbətdən-sevgidən yazaydın! Əbədi mövzudu, hamını cəlb edir.

Həşim Güllü hirsləndi. Qadınla tanışlıqdan vaz keçdi, onunla yuxarıdan aşağı danışan gözəlçəni yerinə oturtmaq fikrinə düşdü:

– Ay qız, get, bozbaşını bişir! Məsləhətçimə bax! Özün bir şey yazginən, sonra ona-buna vedrə bağla. Bəlkə deyəsən, hansı divar qəzetində cızma-qara edirsən!?

Qadın siqaretini çırtma ilə zibil yeşiyinə göndərib təzəsini odladı.

– Mən də yazıçıyam! – dedi. – Bu günə kimi on dörd kitabım çıxıb.

Həşim Güllü quruyub qaldı. Təkrar soruşduqda qadın istehza ilə:

– Düz eşitmisən! – dedi. – Yeddi şeir, səkkiz nəsr kitabım var. Yaxınlarda daha iki romanım çıxacaq, nəşriyyatdadı.

– Maşallah! Bir belə kitabı nəynən buraxırsınız?

– Sponsorum var! – deyə qadın dişini ağartdı, foyedə gəzişən kəlpeysərə tərəf əlini uzatdı. – Gördüyün kişi sponsorumdu! İstəsən səninlə tanış eləyə bilərəm.

Yazıçı qadının dediyi tərəfə baxdı. Kəlpeysərin görkəmindən ürəyi düşdü, bu yaşda yumruq-təpiyə dözəsi canı yox idi.

– İstəməz! – dedi, amma marağı qorxusuna dov gəldi. – Ədəbiyyat jurnallarında, qəzetlərində çap olunursuz?

– Yox! – Qadın pıqqıldadı. – Kimə lazımdı sizin səfsəfə ilə dolu qəzet-jurnallarınız?

– İmzanızı söyləyə bilərsinizmi?

Qadın birdən hiddətləndi, gözəl üzü dəyişdi:

– Guya bilmirsən? Haqqımda məqalə yazırsan, amma tanımırsan! – dedi, sonra istehza ilə irişdi. – Yazdığın məqalə başına dəysin! Adım Lətif Lətafətdir.

– Nə???

– Nənə! – Qadın açıqla çımxırdı. – Ağzını Allah yolunda qoymusan, iş bilmişəm, tənqidçiyəm! “Ədəbiyyatımızın Lətafətsiz günləri”ni yazmaqla nə demək istəyirsən, axı!? Onu dolayırsan, bunu dolayırsan, sənə nə, xalx nə təhər yazır. Şairəm, şair deyiləm, yazıçıyam, yazıçı deyiləm, özüm bilərəm! Sənə nə borc! Yadında qalsın, bir də cızma-qaralarında adımı çəksən, özündən küs! Deyərəm, qol-qabırğanı sındırarlar, qoca dəyyus!

Qadın Həşim Güllünün məqaləsi dərc olunmuş qəzeti çantasından çıxarıb yerə atdı. Ayaqqabılarını ona yaxşı-yaxşı silib dabanlarını taqqıldadaraq foyedə gəzişən kəlpeysərə yanaşdı, qoluna girdi. Onlar deyə-gülə uzaqlaşdılar.

Həşim Güllü durduğu yerdə səntirlədi, ayaqları sözünə baxmırdı, qadının tapdaladığı qəzetin üstünə çökdü. Pıçıldadı: – Şükür, yaxşı qurtardım! – dedi, sonra qəzetin baş redaktorunun dalınca deyindi. – Əlin quruyaydı o kitabı mənə verdiyin yerdə! Dilin quruyaydı, bundan bir şey yaz, dediyin yerdə! Ədəbiyyatın lətafətini dadmaq elə mənə qalıb!...

## PARKDA «ƏDƏBİ DİSPUT»

Şəhərin hörmətli ziyalılarından biri olan Ədhəm müəllim söhbət həvəskarı idi. Amma bir müddət idi ki, o, auditoriyasız qalmışdı. Şura hökuməti dağılandan sonra heç yerə dəvət almırdı. Onun söhbətlərinin müştağı olan zavodlar, fabriklər, kolxoz-sovxozlar dağılmış, kitabxana, mədəniyyət sarayları isə maddi çətinliklərin caynağında çabalayırdı. Məktəblərdən isə heç danışmağa dəyməzdi. Bazar iqtisadiyyatı hər yeri bazara çevirmişdi. Bir vaxtlar yazıçılar ittifaqı, bilik cəmiyyəti xətti ilə ədəbi görüşlərə, təntənəli mərasimlərə ezam olunardı. İllah da rayonlara göndəriləndə Ədhəm müəllimin könlü gül kimi açılırdı. Şair demişkən, bir qaraquş kimi uçan xəyalı, vətən torpağını seyrə çıxırdı. Bulaq başında doyunca yeyib-içəndən sonra Ədhəm müəllim düşürdü kolxozçuların canına. De ki deyəsən. Kişinin sinəsi dolu idi, söz fontanı səngimək bilmirdi.

«Ax, hanı o dövran! Adam özünü adam hiss edirdi. – deyə Ədhəm müəllim gözünü yumub xəyala gedərdi…, və açanda reallıq onu kədərləndirərdi. – İndi kimə lazımsan, ay Ədhəm? Dil tərpədən kimi vururlar adamın ağzından. Bəs, müəllim, sus, bu sən girən kol deyil».

Danışmaq azarı Ədhəm müəllimin ürəyini üzürdü. Həmişə çənəsinin altına salmağa adam gəzirdi. Axır

vaxtlar işlədiyi yerdə otaq yoldaşları üzə durdu. Şöbə rəisinə şikayət elədilər:

– Bizi işdən qovsan da, bu adamla bir otaqda oturmayacağıq.

Rəis təəccüblə:

– Ədhəm müəllim sizə neyləyir? Axı, o, mədəni, savadlı bir adamdır. İşini də əla bilir.

– Ay rəis, bu adam səkkiz saat dil boğaza qoymur. Dərdimiz-çorumuz azmış, bu da bir yandan başlayır keçən günlərdən danışmağa. O qədər danışır ki, adam az qalır özünü assın.

Rəis işçiləri sakitləşdirib yola saldı. Ədhəm müəllimi yanına çağırdı, bir xeyli danladı, sonra ondan iltizam aldı ki, daha xamuş dolanacaq. İş yoldaşlarından qəlbi sınmış Ədhəm müəllim qurdunu öldürmək üçün qonşu otaqlara ayaq açdı. Amma o biri şöbələrin cavanları hörmət-izzət bilmirdilər. Onun hər sözünü lağa qoyurdular. Ədhəm müəllim də abrına qısılıb qonşu şöbələri gəzmək adətini tərgitdi.

Bazar günü lap darıxdı. Evdəkiləri öz söhbəti ilə bezdirəndən sonra geyinib bayıra çıxdı. Həyətdə domino oynayan qonşular onu görən kimi dərhal dağılışdılar. Bilirdilər ki, ona baş qoşsalar, bazar gününü haram eləyəcək. Ədhəm müəllim ah çəkdi. Bağçaya tərəf irəlilədi. Oralarda həmişə həmsöhbət tapmaq olardı. Hava ayaz olduğundan bağçada seyrəklikdi. Təmiz havanı

köksünə çəkən Ədhəm müəllim oturacaqlardan birinə yanını verdi. Bir az keçdi. Parkın kimsəsizliyindən darıxdı, durub getmək istədi. Birdən iki nəfərin peyda olması onu sevindirdi. Amma bu adamlardan gözü su içmədi. Onlar bərkdən danışır, dirəşə-dirəşə gəlirdilər. Deyirdin, indi yıxılacaqlar. Ədhəm müəllimlə üzbəüz oturacaqda qərar tutduqda, məlum oldu ki, ikisi də dəmdi. Arağın iyi gül kimi havanı dərhal bulandırdı.

Ədhəm müəllimin könlü bu qonşuluqdan açılmadı. Çünki bunlar söhbət adamı deyildilər. Yerini dəyişməyi isə şəxsiyyətinə sığışdırmadı. Əlini-qolunu ölçə-ölçə danışan pəzəvəng kişi arıq yoldaşına deyirdi:

– Qəm eləmə, lələşin sənin xəcalətindən çıxacaq. Mən həmişə deyirəm ki, Əlibala kişi adamdı. Mərdlikdə tayı-bərabəri yoxdu. Mənim canım sənə qurbandı, Əlibala! Sən mənim gözümün işığısan, Əlibala!

Onun xırıltılı səsindən ağaca qonmuş quşlar pırıltı ilə uçdular. Ədhəm müəllim dözmədi, səsi bağçanı başına götürən pəzəvəng kişiyə irad tutdu:

– Ay vətəndaş, sakit danışsana!

Pəzəvəng kişi sözünü yarımçıq kəsib ona çəpəki bir nəzər saldı, deyəsən, Ədhəmin cılız görkəmi onda heç bir hörmət hissi oyatmadı. Arıq yoldaşından soruşdu:

– Sən bu kişini tanıyırsan?

– Yox.

– Mən də tanımıram. Bəs, niyə söhbətimizə müdaxilə edir?

Əlibala deyilən kişi hıçqırdı:

– Bilmirəm, – dedi və gümanla. – Bəlkə, o, bizi tanıyır?

– Tanıdı, tanımadı, mənə vətəndaş niyə deyir?

– Doğrudan ha, – dedi və yenə gümanla. – Bəlkə, vəzifə adamıdır, adət eləyib?

Pəzəvəng dilini nırçıldatdı:

– Vəzifə adamının parkda nə işi? Onların başı rüşvətdən ayılmır, – dedi.

Əlibala barışdırıcılıqla:

– İşin olmasın, vətəndaş deməyində bir qəbahət yoxdur… – dedi.

Pəzəvəng ona qulaq asmadı, ayağa durub Ədhəm müəllimin qarşısında dayandı və əlini onun çiyninə qoydu:

– Vətənin daşına qurban olum! Vətənin qumuna qurban olum! Amma niyə mənə vətəndaş deyirsən? Sənə neyləmişəm?

Ədhəm müəllim çaşıb qaldı, bilmədi bu sözün müqabilində nə desin. Əlibala yoldaşına züy tutdu:

– Doğurdan ha, vətəndaş sözü beş il qabaqkı məhkəməni yadıma salır. «Vətəndaş müttəhim, siz özünüzü günahkar sayırsınızmı?» «Yox, vətəndaş hakim». Doğrudan da, hakim vətən daşı idi. Haqqını alandan sonra

günahkarı buraxdı, məni türməyə saldı. İki il iş kəsdi mənə.

Pəzəvəng ona çımxırdı:

– Yaxşı, yaxşı, köhnə palan içi tökmə, – dedi. – Mənim bayırda çəkdiyimi sən içəridə çəkmədin! İnan Allaha, sənin halını fikirləşəndə könlüm qubar eləyirdi. Bu işi bir tutmuşduq, gərək, cəzanı da bir çəkəydik.

Söhbət çox maraqlı olsa da, şəxsiyyətinə göstərilən etinasızlıq Ədhəm müəllimi qəti təmin eləmirdi. Pəzəvəngin əli zindan kimi ağır idi. Bu vəziyyətdə söhbətdən ləzzət almaq olmazdı. Ədhəm müəllim səbrlə dilləndi:

– Ay yoldaş, olmaz ki, əlini çəkəsən?

Pəzəvəng əlini çəkmədi:

– Yoldaş, yoldaş, – deyə təkrar elədi. – Bu söz də işimizə yaramır. Düşüncəsi ayrı, dünyagörüşü fərqli olan yad adamları, nəinki, birləşdirmir, hətta, ayırır. Bu söz tarixin arxivinə keçib. Elə deyil, Əlibala?

Əlibala dərhal dilləndi:

– Əlbəttə, amma bir qeydim var. Haçansa varlıların, əsilzadələrin fəhləyə yoldaş deməyi fəhlə sinfinin böyük qələbəsi idi. İnqilab etmiş zəhmət adamının özünü təsdiqi idi. Yəni, ay bəy, ay xan, ay varlı, səni hakimlikdən salmışam, varını-dövlətini əlindən almışam, özümə bərabər etmişəm, özümə yoldaş etmişəm!

Pəzəvəng Ədhəmin çiynindən çəkib əl çaldı:

– Əla, – dedi. – Yox, həqiqətən də türmə sənə düşüb. Lap filosof olmusan, ay gözünə dönüm. Davam elə.

Tərifdən ruhlanan Əlibala:

– Amma, kommunizm ideyaları bir xəyala çevriləndən sonra bu müraciət mənasını itirdi. Bəy yenə bəy oldu, varlı yenə varlı oldu. Deməli, biz eyni yolun daşları ola bilmədik.

Pəzəvəng bir də əl çaldı, Ədhəm müəllimin şlyapasına bir yağlı çırtma vurdu, şit-şit güldü:

– Anladınmı?

Ədhəm müəllim düşdüyü axmaq vəziyyətə mat qaldı. Hələ də sülh yolu ilə canını qurtarmaq fikrində idi. Şlyapasını düzəldib:

– Dostum, bu hərəkətin gülməli deyil, – dedi. – Mən də hərdən içirəm, amma kimsəyə dolaşmıram. Sizsə şitini çıxarırsınız. Yol verin, mən gedirəm.

Pəzəvəng Əlibalanın sərxoş qəhqəhələri altında Ədhəm müəllimi oturacaqdan qalxmağa qoymadı:

– Hara? Söhbətimiz yarımçıqdır hələ. Otur. Bir də haçan rastlaşacağıq? – dedi. – İndicə mənə dost dedin. Çox səfeh müraciətdir. Sözün özü gözəldir. Dost! Adamın könlü açılır. Bax, bu Əlibala ilə bir xalvar çörək kəsmişəm, neçə illər bir yerdə işləmişəm, gəliş-gedişimiz var. Yaxşı pullar qazanmışıq. Daha zavodda alümin-mis qalmadı satmayaq. Bir manatını da onsuz yemirdim. Hələ də bir-birimizə dost deyə bilmirik.

Əlibala heç gözlənilmədən bomba kimi partladı. Ayağa sıçradı, hiddətlə:

– Sənin kimi dostu olana düşmən lazım deyil, – dedi və sərxoş çılğınlıqla. – Mən sənin kəramətindən türməyə düşdüm. Dəfələrlə sənə dedim ki, bəsdir, tamahını saxla, qulaq asmadın. Axırı da belə oldu. Dost dosta can qurban edər, sən isə məni dünya malına satdın, hər şeyi belimə yüklədin. Dedin, Əlibala, hamısını boynuna al, mən qıraqda olsam adam tapıb səni çıxarmaq asan olacaq. Mən axmaq da razılaşdım. İki il gupladılar böyrümə. Budur dostluq?

Pəzəvəng kişi cücə kimi büzüşdü və boğuq səslə Ədhəmə:

– Eşitdinmi? Əlibala bayaq dediyimə qüvvət verdi. Haqq sözə nə deyəsən? – dedi və Ədhəmin yaxasını boşladı, dönüb Əlibalanı qucaqladı. – Sənə mənim canım qurban, Əlibala! Amma o dünya malını tək yemədim, sənin ailənlə bölüşdüm, valideynlərinə əl tutdum, qoymadım onlar korluq çəksin. Bunu niyə demirsən? Yad adamın yanında niyə məni xəcil edirsən? Elə bilər mən xəspuşun biriyəm.

Ədhəm müəllim bir-birinə sarılmış bu iki sərxoşun yanından sivişib aradan çıxmağı fikirləşirdi ki, pəzəvəng ona tərəf döndü:

– Sən de, mən pis adamam?

Ədhəm müəllim könülsüz halda:

– Qardaş, niyə pis olursan ki? – dedi.

Pəzəvəng küt-küt ona baxdı, mızıldandı:

– Mənə qardaş deyəndə qonşumuzun bir sözü yadıma düşür: «Atamın bir arvadı, anamın bir əri, sən hardan çıxdın?»

Əlibala ürəyini boşaldandan sonra, deyəsən, yumşalmışdı, pəzəvəngə bir dürtmə vurdu, pis-pis güldü:

– Bəlkə, dədənin əsgərlik günahlarıdır? – dedi.

Pəzəvəng boynunun ardını qaşıdı, diqqətlə Ədhəmin üzünə baxdı, başını buladı:

– Yox, bu kişinin sifətində dədəmdən bircə nişanə də yoxdur.

Ədhəm bayaqdan birinci dəfə güldü:

– Ə, sən lap fontan eləyirsən ki! – dedi.

Pəzəvəng ona nəsihətlə:

– «Ə» müraciətini kənddə-kəsəkdə işlədirlər. İsmin tək halıdır. Biz mədəni insanlarıq, ədəbiyyatımızın min ildən çox tarixi var, – dedi. – İnsan isə cəmi yaranmışların əşrəfidir. Bu əşrəf cəm halında müraciətə layiqdir. Məsələn, ingilislərdə tək hal yerli-dibli yoxdur.

Əlibala səbirsiz halda:

– Gəl, çıxıb gedək, işim var, – dedi. – Bura sənin üçün ədəbiyyat dərnəyi deyil ki.

Ədhəm müəllimin dili dinc durmadı:

– Söhbətimiz çox maraqlıdır, – dedi. – Bəlkə, davam eləyək?

Pəzəvəng kişi tərs-tərs ona baxdı:

– Yeri, adə, – dedi. – Əlibala, sən öl, bu da bizi dolayır.

Ədhəm müəllim bal şirinliyi ilə:

– «Adə» bakılıların sevimli ifadəsidir. Onun Şirvan variantı «a adə»-dir. Demək olar ki, müraciətin cəm halıdır. Bir az lorudur. Ermənilərin «ara» müraciətinə oxşayır.

Pəzəvəng qeyzləndi:

– Yum, ağzını, – dedi. – Erməni özünsən. Salaram təpiyimin altına, ağlın başına gələr…

Əlibala şaqqıltı ilə güldü:

– İşin yoxdur, mən ölüm, – dedi. – Ayə, bu bizim adamdır.

Ədhəm müəllim davam etdi:

– «Ayə» deyimi Qazaxda, Borçalıda tez-tez işlənilir. Gəncəlilər «alə» deyir, muğanlılar «ədə» deyir, Salyanlılar «ələ» deyir…

Pəzəvəng quruyub qalmışdı, Əlibala isə uğunub özündən gedirdi:

– Əkişi, bu lap dəsgah imiş ki! Xalq qaynaqlarını əzbər bilir.

– «Əkişi» də fərli müraciət deyil. Təhqirli heç bir şey yoxdur, amma naqolay səslənir, – deyə Ədhəm müəllim dərhal dilləndi.

Pəzəvəng kişi sinirli halda əlini sinəsinə qoydu:

– Ay müəllim, qurtar. Yeri, yolunla get. Qoy, dərdimizi çəkək.

Ədhəm müəllim istehza ilə vaysılandı:

– Vay-vay-vay! İndi «müəllim» sözü lap hörmətdən düşüb. Adam eşidəndə xəcalət çəkir.

Əlibala qarnını tutdu:

– Ha, ha, ha, əmioğlu, qurtar, sən Allah, – dedi. – Daha məndə can qalmadı.

Ədhəm müəllimsə özünü heç cür saxlaya bilmirdi, yaman qızışmışdı:

– Elə demə, qadan alım, əmioğlu müraciətini eşidəndə adam özünü Maştağa kəndində hiss edir. Vallah, polyaklar yaxşı edir, kişilərə «pan», qadınlara «pani» deyə müraciət edir. Almanlar «her», «frau» deyir. İngilislər «mister», «missis» deyir. Fransızlar «müsyö», «madam» deyir. Bircə biz yazıqlar, bir müraciət forması tapa bilmirik.

Əlibala heyrətlə:

– Bu lap dərya imiş ki!

Pəzəvəng birdən özündən çıxdı:

– Bu dəryalardı da bizi bu günə qoyan. Dünyanın hər yerindən xəbər verirlər, yaxşını pisdən ayırırlar, amma camaata bir gün ağlamırlar. Belələrini dünya işığına gərək həsrət qoyasan, ağılları başlarına gəlsin. Bax, belə…

O, gözlənilmədən Ədhəm müəllimin şlyapasının yanlarından tutub var gücü ilə çəkdi aşağı. Ədhəm müəllim çənəsinə qədər pərçimlənmiş şlyapanı sahmana salınca onlar hırıldaşa-hırıldaşa uzaqlaşdılar.

Bu «ədəbi disput» Ədhəm müəllimə dərs oldu. Onu çənə vurmaq azarından xilas etdi. Tanış-biliş nə illah elədisə, bunun səbəbini öyrənə bilmədi. Bu bir sirr olaraq qaldı.

## İDARƏ ZARAFATLARI

Kompüter şöbəsi geniş pəncərələri lazımsız əşyalarla qalaqlanmış dəhlizin lap axırında yerləşirdi. Belə məlum olurdu ki, bu idarədə müasir texnika hələ lazımi qiymətini almayıb. Amma belə deyildi. Bir neçə işçinin çalışdığı geniş otaqdakı avadanlıq təzə idi, parıldayırdı. İçəridə bir nizam, sahman vardı. Monitor və prosessorların yüngül uğultusundan savayı bir hənir eşidilmirdi. Bu sərdabə sakitliyini küncdəki masanın arxasında qurdalanan texnikin işlətdiyi elektrik alətlərinin səsi arada pozsa da, hərə öz işi ilə məşğuldu, kimsənin cınqırı çıxmırdı. Qonşu şöbənin əməkdaşları dəhlizdə saatlarla deyib-gülür, siqaret çəkir, qeybət qırır, idmandan-siyasətdən mırt vurardılar. Kompüter şöbəsinin işçiləri isə səhər otağa girər, bir də axşam oranı tərk edərdilər.

Şöbədə ağsaqqal Qədim kişidən savayı daha üç nəfər çalışırdı. Biri bütün məhəbbətini işə sərf elədiyindən qarıyıb qalmış Rəfiqə xanımdı. Geyim-kecimi, oturuş-duruşu çox qadına nümunə ola bilərdi. Amma bəzənməyi, düzənməyi kimin üçün idi, məlum deyildi. İkincisi, tündməcazlığı ilə xeyirxahlarını da özünə düşmən eləyən Rəvandı. Onun solğun üzündən həmişə zəhrimar damırdı. Üçüncüsü bir sərək rus balası idi, çilingər işlərini yerinə yetirirdi. Onun gözü kompüterlərdə idi. Biri boşalan kimi arxasına keçir, internetə girir, saytları mənasız yerə veyillənirdi. Şöbədə bir nəfər də vardı, amma onun təsvirinə bu hekayədə ehtiyac görmürük. Çünki, hadisə vaqe olanda həmin şəxs xəstəxanada idi.

İşçilər bir-birini təhəmmül eləyirdilər. Dinməz yola gedirdilər. Hətta, Bağır müəllim də özünü müdir kimi aparmırdı, dartıb dağ başına qoymurdu. Onlarla bərabər fərdi kompüterində çalışır, onlarla bir yerdə çay içir, nahar eləyirdi. Müdirin dedi-qodudan zəhləsi gedirdi. Bu əməl sahibləri ilə arası yox idi. Şöbənin əməkdaşları da onun xasiyyətini götürmüşdülər.

Axır vaxtlar vəziyyət dəyişmişdi. İdarəyə xeyli təzə texnika gətirilmişdi. Şöbənin işi artmışdı. Texnikanı quraşdırmaq, əyər-əskiyini düzəltmək, əməliyyatçıları hazırlamaq, proqram təminatı vaxt və adam istəyirdi. Baş qaşımağa macal eləmirdilər. Bağır müəllimin təkrar xahişindən sonra şöbəyə göndərilən cavan mühəndislər

onu məyus eləmişdi. Bu gənclərin dovtələbliyinə söz ola bilməzdi. Bağır müəllim bir neçə sualla onların kəmsavadlığını üzə çıxaranda belə, cavanlar xəcalət çəkmirdilər. Arsız-arsız gülürdülər. Onları işdən çox maaş cədvəli maraqlandırırdı. Kompüter arxasında oturmaqdan qarnı belinə yapışan şöbə müdiri təbdən çıxırdı. Dilinin ucunda dolanan latayırı zorla udurdu. Əslində, heç tərbiyəsi də bu lüğətdən istifadə eləməyə yol vermirdi. Hövsələsini zorla basıb şöbə əməkdaşlarının qulağını yağır eləmiş məşhur kəlamlarını təkrarlayırdı:

– Sizin aldığınız ali məktəb diplomu ilə savadınız əks mütənasibdir. Amma biz sizə kömək eləməyə hazırıq. Kompüterə yiyələnmək lazımdır. Bu, dünyanın bir nömrəli sənətidir, hər şeyin açarıdır. Biz cavan olanda deyirdilər ki, əsrimiz kosmos əsridir. Bax, həmən kosmos əsrinin lokomotivi kompüterdir. Kompüteri bilsəniz, gələcəkdə hər şeyiniz olacaq.

Zəmanə cavanlarını belə şirin vədlər cəlb eləmirdi. Bir-iki həftədən sonra aradan çıxırdılar. Bu, Bağır müəllimi çox da kədərləndirmirdi. Bilirdi ki, belə bivec mühəndislərin yerini idarənin kadr şöbəsi yaxşı bilir. Yazdığı növbəti xidməti məlumatdan xeyli vaxt xəbər çıxmadı. Bir gün idarə rəisi onu yanına çağırdı. Müqəddiməsiz dedi:

– Bağır müəllim, deyirlər sən cavan mütəxəssisləri yola vermirsən? Bir yandan adam tələb eləyirsən, bir

yandan da gələnləri top-tüfənglə qarşılayırsan. Bu nə işdir?

Rəislə münasibəti xoş olsa da, heç vaxt sərvaxtlığını itirməyən Bağır müəllim onunla mübahisə eləməzdi. İndi də mülayimliklə özündən on yaş kiçik olan həmsöhbətinə baxdı, gülümsədi:

– Ay rəis, mən qovmuram, özləri qaçırlar. Mənim nə günahım var? – dedi və hələb-həlbət geri çəkilməyə yer elədi. – Vallah, bilmirəm, kadrlar şöbəsi bu bisavadları haradan tapıb göndərir?

Rəis şumal yanağını qaşıdı, kürsüyə yayxandı. Cavanlığına yaraşmayan xaşal qarnı çalxalandı. İstehza ilə məsləhət gördü:

– Neynək, onun göndərdikləri xoşuna gəlmir, özün tap gətir. Ölkədə kompüteri bilən yoxdur bəyəm? – deyə soruşdu.

Bağır müəllim yüngül bir istehza ilə:

– Bizə baxmayın, rəis, biz öyrəncəliyik. İndi otuz-qırx «şirvan»a mütəxəssis tapmaq mümkün deyil, – dedi. – Heç kim havayı hamballıq eləmək istəmir.

Rəisin yaraşıqlı sifəti əyildi:

– Ay kişi, nə danışırsan? – dedi. – İdarədə ən böyük maaşı sənin işçilərin alır, yenə narazısan?

Bağır müəllim xəyalpərvərliklə:

– Ay rəis, xaricdə kompüter mühəndisinə ayda dörd-beş min dollar verirlər ey! – dedi. – Haçan bizdə də belə olacaq?

Rəis ona şübhə ilə baxdı, ağır bədənini yüngülcə kürsüdən qaldırdı. Dəyişmiş səslə:

– Xaricdə küçələri də şampunla yuyurlar…, – dedi. – İndi bundan bizə nə? Deyəsən, kompüter başını xarab eləyib. Yeri get, qanımı qaraltma.

Bağır müəllim pərt olmadan soruşdu:

– Rəis, bəs, işçi məsələsi nə yerdə qaldı? Vallah, çatdırmırıq.

Rəis başdansovdu:

– Sənə adam verəcəyəm, amma hünərin var onları yola vermə, – dedi.

Bu söhbətdən bir neçə gün keçməmişdi ki, şöbəyə iki nəfər gəldi. Hər ikisi ali məktəbi təzə qurtarmışdı. Bağır müəllim içində qırıla-qırıla qaldı. Rəislə söhbətini yada salıb yeni işçilər üçün mizan-tərəzi qurmadı. Bilirdi ki, bu ona baha oturacaq. Müxtəsər tanışlıqdan sonra dərhal onları yerbəyer elədi. Bu qərarı ilə şöbə əməkdaşlarını çaşdırdı.

Təzə mühəndislərdən biri qız idi. Adı Gülşəndi. Bu zalım qızının yanında fotomodellər yalandı. O qədər gözəl idi ki, içəri girəndə otaq işıqlanırdı. Təndürüst boy-buxununda bir mütənasiblik vardı. Adətən gözəlin ağlı dabanında olar, deyərlər. Amma bu qız səfeh deyildi, gözlərindən hiyləgərlik yağırdı. Bir neçə gündən sonra məlum oldu ki, Gülşən Allahın bəlasıdır, dilinə dil çatdırmaq mahal işdir.

O biri cavanın adı Coşqun idi. Deyib-gülən, lağlağı sevən bir oğlan idi. Eybi bir bu olsaydı keçinmək olardı. Tezliklə onun daha bir çatışmayan cəhəti üzə çıxdı. Şöbədəki həmkarlarından fərqli olarıq Coşqun qonşu otaqları gəzir, burdan vurub ordan çıxırdı. Sakit oturmaqla arası yox idi, civə kimi hərəkətdə idi. Onun sayəsində idarənin dedi-qodusu tezliklə şöbəyə ayaq açdı.

Otağın sakitliyi pozulmuşdu. Gülşənlə Coşqunun öcəşməsi bitib-tükənmirdi. Qızın yağlı atmacalarını oğlan sərrast cavabları ilə dəf eləyirdi, hamını güldürürdü.

Bir gün Coşqun səhər şöbəyə girəndə salamlaşmaq əvəzinə bərkdən dedi:

– Dərvişlərə eşq olsun!

Onun sözünə Gülşən şaqqıltı ilə güldü. O biriləri isə donub qaldı. Haçandan-haçana Qədim kişi boğazını arıtladı, yerinə adlayan Coşqundan soruşdu:

– Oğlum, bizə təzə ad qoymusan? – dedi və başını buladı. – Bərəkallah! İndiki cavanlara nə deyəsən! Nə böyük bilirlər, nə kiçik.

Coşqun burnunu çəkdi:

– İncimə, ağsaqqal, sizə bu adı mən yox, qonşularınız qoyub, – dedi və təəccüblə. – Doğrudanmı, xəbəriniz yoxdur?

Məlum oldu ki, şöbədə bu ləqəbdən heç kimin xəbəri yoxdur. Coşqun istehza ilə:

– Hamı sizə lağ eləyir, ələ salır, sizin isə heç nədən xəbəriniz yoxdu. – dedi. – Niyə belə xanənişin olmusunuz? Deyin, gülün, əylənin, həmişə işlə məşğul olmazlar ki!

Qədim kişi vaxtından qabaq ağarmış bığlarını sığalladı, qımışdı:

– Oğlum, hələ ağzın isti yerdədir. Eybi yox, bir az keçər işə başın qarışar, sən də əylənməyə vaxt tapmayacaqsan, – dedi. – Gör, sənə nə deyirəm, bala, qıçlarına yazığın gəlsin! Ədə, nə mərtəbələri sayırsan, otur, oxu, öyrən, özünə bir gün ağla…

Rəvan acıdilliklə söz atdı:

– Qədim kişi, indiki cavanların yazıq yeri qıçları deyil, başlarıdır.

Rəvanın təzəlikdə cavan arvadı rəhmətə getmişdi. Otuz beş yaşında dul qalmışdı. Qaraqabaq, kəmhövsələ bir kişi idi. İşi yaxşı bildiyindən həmkarları ona çox şeyi keçirdilər. Cavan mütəxəssislərin şöbəyə gəlişi Rəvanın durğun həyatını pozmuşdu. Əvvəllər başını işdən ayırmayan kişini elə bil dəyişmişdilər. Qızdırmalı adamlar kimi yerində qərar tutmurdu.

Coşqunun Gülşənlə öcəşməsi şöbənin hüznlü havasına bir şuxluq gətirmişdi. Rəfiqə xanımın dodaqlarından təbəssüm əskilmirdi. Gülşən anlamadığını təkrar-təkrar Qədim kişidən soruşanda onun bu həvəsinə kompüter oyunlarından başqa heç nə ilə maraqlanmayan Coşqun lağ eləyirdi:

– Ay qız, kişidən əl çək, onsuz da səndən işləyən çıxmaz, – deyirdi. – Bir də bu sir-sifətlə sənə sənətmi qəhətdir? Məsləhətimə qulaq as…

Bir dəfə Rəfiqə xanım zarafatla soruşdu:

– Ay Coşqun, Gülşənə nə sənəti məsləhət görürsən, axı?

Coşqun uğundu:

– Bu qızdan bir yaxşı model, bir də yaxşı məşuqə çıxar! O isə vaxtını burda bica yerə havaya sovurur, – dedi və söhbətə qulaq asan Gülşəni çağırdı. – Ay qız, bura gəl, köməyin lazımdır.

Gülşən hirslə ona yaxınlaşdı:

– Ağzına gələni danışırsan ha! – dedi. – Nə olub?

Coşqun dedi:

– Yaxşı, hirslənmə, zarafatdır da edirik. Ay qız, bu oyun zəhləmi töküb, kömək elə başqasına keçim, – dedi.

İş onda idi ki, bu neçə ayda Coşqun kompüteri açıb-bağlamağı belə əməlli öyrənə bilməmişdi. Gülşən qondarma bir mehribanlıqla dedi:

– Ay Coşqun, ay Allahın mağmını, belə sadə şeyləri də yadda saxlaya bilmirsən. Bu nə işdir? Anadan belə doğulmusan, ya dörd il aldığın ali təhsil səni belə kütləşdirib?

Rəfiqə xanım ürəkdən şaqqıldadı:

– Ha, ha, ha! Allah səni sevindirsin, Gülşən! Mağıl bu neçə ildə məni doyunca güldürən tapıldı.

Qədim kişi həmişə kədərli olan Rəfiqə xanımın şənlənməyinə sevindi. Söz atdı:

– Ay Rəfiqə xanım, sən güləndə tələbəlik vaxtlarım yadıma düşür. Deyəsən, təzə gələnlərin ayağı sayalıdır.

Rus balası da dirçəlmişdi. Həmyaş olduqlarından Coşqunun böyründən əl çəkmirdi. Tez-tez: – Qoşqun! Qoşqun! – deyə Coşqunu səsləyir, hamını güldürürdü.

Rəvan üzə vurmasa da, təzə gələn oğlandan acığı gəlirdi. Müdirin tapşırığına baxmayaraq ona təhkim olunmuş Coşqunla heç məşğul olmurdu. Necə ki adları bir-biri ilə təzadda idi, eləcə xasiyyətləri də müxtəlifdi. Gülşən bunu məsxərəyə çevirirdi: «Rəvan belə dedi, Coşqun elə dedi! Rəvan gəldi, Coşqun getdi!» Qız ikisinə də eyni gözlə baxır, zarafatından qalmırdı. Amma rəqabət hissi Rəvanla Coşqunun arasını lap soyutmuşdu.

Qədim kişinin sayəsində Gülşən operator kimi az-çox işləyə bilirdi. Amma tez-tez rəisin qəbul otağına qaçırdı. İşdən yayınmağa bəhanə axtarırdı. Rəisin katibəsi olan xalası ona müxtəlif kənar tapşırıqlar verirdi. Qədim kişi heyfsilənirdi:

– Rəfiqə, deyəsən, zəhmətim batıb gedəcək, – deyə deyinirdi. – Qız şöbədə uzun müddət qalana oxşamır.

Bu gün çay dəsgahına Coşqun baxırdı. Otaq üzrə növbətçi idi. Hazırlıq görəndən sonra hamıya çay süzdü. Hərə fincanını gəlib götürdü. Coşqun da yerinə keçdi. Bir neçə qurtumdan sonra Rəvan birdən hirslə dedi:

– Çay duzludur!

Coşqun istehza ilə:

– Nə duzudur?! – dedi. – Rəvan müəllim, hələ təyin edə bilməmisənsə, axıra qədər iç!

Rəvan yerindən sıçradı, onun üstünə yeridikdə Qədim kişi tez araya girdi:

– Çayda duz nə gəzir? – dedi. – Biz də içirik. Bəlkə naharda yediyin duzlu balığın tamıdır damağında qalıb?!

Rəvan hikkə ilə:

– Sən bilmirsən, ağsaqqal, bu südəmər uşaq mənə ilişir, yəqin çayıma duz qatıb. Mən bunu belə qoymaram, onun başına oyun açacağam.

Coşqun ona borclu qalmadı, eyni dovtələbliklə:

– Görək kim kimin başına oyun açacaq. Onsuz da canımı boğazıma yığmısan.

Onları zorla aralaşdırdılar. İşdən sonra Qədim kişi yubandı, şüşəli arakəsmənin dalında oturmuş müdirin yanına girdi. Müqəddiməsiz başladı:

– Bağır müəllim, Rəvanla təzə gələn oğlan bir-biri ilə yola getmirlər. Başımıza bəla açmasalar yaxşıdır.

Şöbə müdiri eynəyini qırağa qoydu, kompüterin ekranını söndürdü. Fikirli halda:

– Rəvan Coşqunla heç məşğul olmur, axı, – dedi.

Qədim kişi narazı halda:

– Rəvan başına nə kül töksün ey, – dedi. – Bizə iş bilən lazımdır. Daha ali məktəbi dünən bitirən yox. Bir

də Coşqunu öyrətmək mümkün deyil. Riyaziyyatı bilməyən adama proqramlaşdırmanı nə təhər öyrətmək olar? Bilmirəm, bunları hardan tapıb gətirmisən…

Müdir bezgin halda:

– Rəhmətliyin oğlu, boğazıma zorla keçiriblər, məndən soruşurlar bəyəm? Coşqun rəisin qohumudur, Gülşən də onun katibəsinin. Görmədin təntənə ilə ştat açdılar, iclas zalından masa, kürsü gətirdilər? – dedi və könülsüz soruşdu. – Nə olub yenə?

Qədim kişi əhvalatı danışdı:

– Gülşən şöbəyə gələndən sonra Rəvan lap dəymədüşər olub, işini rahat görə bilmir. Saatlarla xəyala dalır. Coşqun da ki it oynadanın biri, Gülşənlə birləşib onu cinlədir.

Bağır müəllim dərindən köksünü ötürdü:

– Ay Qədim kişi, sənə demək artıqdır, çalış yola ver. Bir bəladır da gəlib düşüb şöbəyə. Görək, bu xəmir nə qədər su aparacaq. Biz idarənin rəisi ilə üz-göz ola bilmərik, axı, – dedi və sözü çevirdi. – Gərək ki, Gülşən pis deyil. Yaddaşı da yaxşıdır, özü də çalışqandır.

Qədim kişi narazılıqla:

– Yaddaşın bura nə dəxli var? Onun fikri-zikri başqa yerdədir. Bundan əlavə, xalası onu tez-tez yanına çağırır, iş tapşırır, öz yerində oturdur. Yəqin ki, xəbəriniz var.

Bağır müəllim başını tərpətdi və heyrətlə:

– Deyirəm, ay Qədim kişi, indiki cavanların gələcəyi nə olacaq? Elə Gülşəni götür. Dünya gözəlidir, bir evin yaraşığıdır, amma quşbeyindir. Elə dingildəyir.

Qədim kişi güldü:

– Elə ən böyük eybi gözəlliyidir də! Kifir olsaydı biliyə, sənətə vaxt ayırardı.

Bağır müəllim yüngül bir istehza ilə:

– Qədim kişi, qocalırsan ha! Gözəlliyi daha eyib sayırsan.

Qədim kişi çaşdı:

– Əşi, söz gəlişi dedim də, – dedi və xahiş elədi. – Coşqun üçün bir kənar iş fikirləş, nə qədər boş-bekar gəzəcək? Girir-çıxır, girir-çıxır, lap dəng olmuşuq.

Bağır müəllim köksünü ötürdü:

– Özün bilirsən ki, iş tapşırmalı adam deyil. Kompüteri bilmir, proqramlardan başı çıxmır, təmir işindən danışmağa dəyməz, – dedi və birdən gülümsədi. – O deyildi monitora televizor deyən?

Qədim kişi bığlarını tumarladı:

– Hə, o, idi, – dedi. – Hələ bu nədir, Coşqun altını yeddiyə vurmaq üçün kalkulyatordan istifadə edir.

Rəis başını buladı:

– Vallah, hərdən bir mat qalıram, o, ali məktəbi nə təhər qurtarıb? Zəmanə lap xarab olub. Amma neyləyəsən, yola vermək lazımdır. Çibanı deşmək bizə qalmayıb ki.

Qədim kişi müdiri yaxşı başa düşürdü. Bağır müəllimin qırx yaşı olmasına baxmayaraq çox müdrik adam idi. Bacarığı, işgüzarlığı ilə şöbə müdiri olmuşdu. İdarədə ondan başqa vəzifədə olanların hamısı rəisin qohum-əqrəbası idi. Həşərat kimi daraşmışdılar. Bunlarla dil tapmaq hər kişinin hünəri deyildi.

Bir neçə vaxtdı idarədə söz gəzirdi ki, maaşlar artacaq. Gözləməkdən hamının gözünün kökü saraldı. Artımdan hələ də bir xəbər yox idi. Bu barədə ən çox danışan Bağır müəllimin işçiləri idi. Neyləsinlər? İdarədə bircə bunlar quru maaşa baxırdılar. O biri bölmələrin əməkdaşları sahələrə çıxır, camaatdan beş-on «şirvan» qırtırdılar. Bir şöbənin işçiləri borcu olanlardan, o biri şöbənin işçiləri qanunsuz işıq çəkənlərdən, sayğacsız işləyənlərdən zor-xoş nəsə alırdılar. Başqa şöbə kabellərin və sayğacların təmiri ilə məşğul idi. Hamının əli pulnan oynayırdı, bircə onlar barmaq sorurdular.

Bağır müəllim bu gün səhər yarım saat yubanmışdı. Şöbəyə girəndə otaqda bir şənlik hiss elədi. Hamının üzü gülürdü, bircə Rəvana çırtma vursaydılar qanı çıxardı. Müdiri görən kimi işçilər özlərini yığışdırdılar. Hərə öz masasına tərəf tələsdi. Bağır müəllim arakəsmənin arxasına keçəndə:

– Qədim kişi, dünənki hesabatı kimə tapşırmışdın? – Soruşdu.

Şöbənin ağsaqqalı ayağa durmadan:

– Rəvan məşğul olur, – dedi.

Müdir başını çevirmədən:

– Hazırdısa qoy, gətirsin, tələsirəm, – dedi. Nəsə yadına düşdü, geri döndü. – Gülşən hardadır?

Rəfiqə xanım başını ekrandan ayırdı:

– Xalası xəstələnib, onu əvəz eləyəcək, – dedi.

Bağır müəllim yerinə adladı, bir xeyli gözlədi, saatına baxıb başını buladı, hirslə səsləndi:

– Ay Rəvan, nə oldun?

Rəvan içəri girdi, müdirin qabağına bir kağız qoydu. Bağır müəllim onun hirsli sifətinə baxdı, gözünün ucu ilə verilən kağızı nəzərdən keçirtdi.

– Sən işdən çıxmaq istəyirsən? Ərizə yazmısan?

– Hə.

– Niyə, nə olub ki?

– Səninlə işləmək istəmirəm.

– Nədir aşığın alçı durub?

– Mən küçədə aşıq-aşıq oynamamışam. Sizin dediyinizi də başa düşmürəm.

Bağır müəllim səbrlə:

– Rəvan, başın xarab olub? Sənin ərizənə qol çəkən deyiləm. Sən bizə lazımsan.

– Yaman da lazımam. Məndən başqa hamının maaşını artırırsan.

Bağır müəllim təəccüblə:

– Maaş artırmaq nədir? Kimin maaşı artıb?

– Hamının. Ərizəmin üstünü yaz, mən gedirəm. Sizin kimi ədalətsiz adamla mən daha bircə gün də işləmək istəmirəm.

Bağır müəllim daha hövsələsini saxlaya bilmədi:

– Neynək, etiraz etmirəm, – dedi və ərizənin üstünü yazdı. – Get, hesabını al.

Rəvan ərizəsini qapıb kabinetdən güllə kimi çıxdı. Aynalı qapı nə cür çırpıldısa, şüşələr yerə töküldü. Bağır müəllim ümumi otağa keçdi. Soruşdu:

– Buna nə olub?

Rəfiqə xanım eynəyini çıxartdı, gözünü ovdu:

– Bilmirik.

Bağır müəllim:

– Bəs, kim biləcək? Bunun başına hava gəlib? – dedi və deyindi. – Elə deyir, mənim maaşımı artırmamısan. Kimin maaşı artıb ki, onun da maaşı artsın?

– Bağır müəllim, – deyə Qədim kişi qaşlarını çatdı. – Xəbəriniz yoxdur?

– Nədən?

– Əmr çıxıb. Elan lövhəsinə vurulub. Rəvandan başqa hamının maaşı iki dəfə artırılıb. Bayaq qırğın salmışdı: «Mən bunu belə qoymayacağam! – Qışqırırdı. – Bağır müəllimə uşaq-muşaq lazımdı! Qoy, onlarla da işləsin». Coşqun zarafatla söz atdı ki, işləyənlərin maaşı artıb. Rəvan da az qaldı onunla əlbəyaxa olsun, «Bu hamısı sənin əməllərindir, – deyirdi. – Allah sənin bəlanı versin».

Bağır müəllim Coşquna baxdı. O, özünü itirmiş halda:

– Bağır müəllim, vallah, mənim heç nədən xəbərim yoxdur. Bilmirəm onun ağlına belə şeylər hardan gəlir, – dedi. – Onun maaşının artıb-artmamağının mənə nə ziyanı var?

Bağır müəllim köksünü ötürdü:

– Yəqin, idarə rəisi bizə sürpriz edib. Neçə vaxtdır söz verirdi, amma niyə məndən xəbərsiz bu işi görüb, məlum deyil, – dedi və Rəfiqə xanıma çevrildi. – Bacımsan, bu şüşələri yığışdır, mən bir rəisə dəyim.

Müdir otaqdan çıxdı, elan taxtasına yapışdırılmış əmrin qarşısında bir anlıq ayaq saxladı. Başını buladı, mühasibata yolandı. Deyinə-deyinə fikirləşdi ki, çox qəribə işdir, maaşlar şöbə müdirindən xəbərsiz nə təhər arta bilər? İkinci mərtəbəyə qalxanda pilləkənlərdə operativ şöbənin müdiri ilə rastlaşdı. Müxtəsər kef-əhvaldan sonra həmkarı dilləndi:

– O nədir eləmisən?

Bağır müəllim başa düşmədi:

– Nəyi deyirsən, Ənvər müəllim?

– Deyirlər, Rəvanı işdən çıxartmısan.

Bağır müəllim çiyinlərini çəkdi:

– Özü ərizəsini yazıb, mən çıxartmamışam.

Həmkarı gülümsədi:

– İşdən başqa cür də çıxarırlar? – dedi. – Gözlə ha, Rəvan köhnə işçidir, bu işi belə qoymayacaq. Aləmi qatacaq bir-birinə. Həm də işləyəndir. Sənin başına bəla açmasa, yaxşıdır. Xətrini istədiyimdən deyirəm, ey! Sən, axı, mənim kadrım olmusan.

Bağır bir müddət onun şöbəsində işləmişdi. Ali məktəbdən birbaşa Ənvər müəllimin əlinin altına düşmüşdü. Özü kimi kənək, pulagir adam çətin tapılaydı. Bağıra vəzifə təklif edəndə Ənvər müəllim onu xeyli dilə tutdu ki, razı olmasın. Halbuki, şöbədə it-pişik kimi dolanırdılar. «Ay yuyulmamış çömçə, deyən lazımdır, sən Rəvanın vəkili-zadı deyilsən ki?» – Bağır fikirləşdi, amma düşündüklərini ürəyində saxladı. Vəzifə onu püxtələşdirmişdi:

– Görək də, neyləyirik, Ənvər müəllim, – deyə saxta hörmətlə dilləndi.

– Ay sağ ol, cibindən getmir ki! Hamının maaşını artırmısan, onun da maaşını artır. Beş-on «şirvan»la idarəyə nə ziyan dəyəcək ki?

Bu yerdə Bağır müəllim hirsləndi:

– Əh, bu da deyir, artır! – dedi və özü öz hirslənməyinə güldü. – Ay canım, mən maaş artıranam? İdarə rəisinin əmrindən heç mənim də xəbərim olmayıb.

Ənvər müəllim burnunu çəkdi:

– Qardaş, indi özünü mənə tanıtmayacaqsan ki? Müdirdən xəbərsiz maaş artırırlar? Kimə nağıl danışırsan?

Söhbətin bu yerində Ənvər müəllimi telefona çağırdılar. O, Bağır müəllimə ağzını açmağa macal vermədi:

– Cavanlığına salma, Rəvanla işin olmasın. Başın ağrıyacaq. Təzə gələnlərin maaşını artırdığın kimi, onun da maaşını artır. Şöbənin işini aparır, düşmənin deyil, iki uşağı var… Bir az kəmhövsələdi. Amma bacarığına, biliyinə söz ola bilməz. Başım vəzifədə ağarıb, bilirəm deyirəm. Bir də çörəyi çörəkçiyə verərlər. İndi tələsirəm, məni gözləyirlər, sonra söhbət edərik.

Bağır müəllim aralanmaq istəyən həmkarının qolundan tutdu:

– Ay Ənvər müəllim, belə işçi qədri bilənsən, niyə Rəvanı bildir şöbəndən didərgin saldın? Yazığın başına turp əkirdin ki, ay zalım. İndi sənə pənah gətirib, neynək, götür yanına!

O, qızarıb-bozaran Ənvər müəllimin cavabını gözləmədi, hirslə ondan aralandı. Mühasibatın qapısında Firuzəyə rast gəldi. Bir yerdə ali məktəbi qurtarmışdılar. Firuzə sahə müfəttişi işləyirdi. Qarabuğdayı, dildən pərtöv bir qız idi. Onunla hər barədə söhbət eləmək olardı. Bağır müəllim hərdən bir onunla dərdləşirdi.

– Hə, köhnə dost, hardasan? Çoxdandır görünmürsən? Vəzifəyə keçəni dost-tanışı unutmusan.

Bağır müəllim sevindi:

– Səni görməyimə şadam, Firuzə? Pul təhvil verirsən?

– Hə, – Firuzə başını tərpətdi. – Sonra yanına düşəcəkdim, səninlə davam var.

– Baaa! İşimiz düzəlib ki! Dostlar da davaya gəlirsə, düşmənlərə nə deyəsən. Nə işin vardı ki? – deyə Bağır müəllim maraqlandı.

Firuzə hiylə ilə dilləndi:

– Maşallah, zövqünə söz yoxdur, – dedi. – O, fotomodeli hardan tapıb işə götürmüsən?

Bağır müəllim ona diqqətlə baxdı:

– Özgəsinin işinə burnunu soxmaqdan əl çəkmədin də! İnstitutda da belə idin ha. Heç dəyişməmisən.

Firuzə onun ağrıyan yerini tapdığını görüb:

– Ha, ha, ha! – Güldü. – Deyəsən, aranı xəlvət görmüsən? Elə bilirsən arvad dekretdədir, xəbər verən tapılmaz? Elə günü bu gün bu xəbəri qoyacağam onun ovcuna.

– Gecikmisən, artıq çatdırıblar.

– Doğrudan?

– Vallah.

– Atışmadan-filandan?

– O yerə çatmadı. İzahat yazdım, sülhlə hər şeyi həll elədik. Dedim, zorla keçirdiblər boğazıma.

– İnandımı?

– Əlbəttə, amma gücnən yola gətirdim.

Firuzə birdən şit-şit güldü:

– Amma, deyirlər ki, fotomodelin daha iki namizədi var, – dedi və tələbəlik yoldaşının üzündə nə gördüsə üzrxahlıqla əlavə etdi, – vallah, eşitdiyimi deyirəm.

Bağır müəllim bilmədi gülsün, ya hirslənsin:

– Camaat dedi-qodu ilə məşğul olmaqdan ləzzət alır da! – dedi. – Təsadüfən bilmirsən ki, idarədə bunları kim toqquşdurur?

– İndi deyəcəksən, Rəvanı başqa şeyə görə işdən çıxartmısan?

Bağır müəllim doğrudan acıqlandı:

– Boş-boş danışma, ay qız, yoxsa aramız dəyəcək.

Firuzə qaşlarını çatdı:

– Sənin xeyrinə danışıram. Rəvan qardaşım deyil, qohumum deyil. Abırsız adamdır, orda-burda timsah kimi göz yaşı tökür, səni rüsvay edir. Sən ki, onun şakərini bilirsən. Bayaq müavinin kabinetindən çıxırdı. Bilirsən ki, müavin də sənə ilişməyə bəhanə axtarır.

Bağır müəllim fikirli halda ondan aralandı, mühasibata girməkdən vaz keçdi. Birbaş rəisin kabinetinə yollandı. Amma tərslikdən o, hələ gəlməmişdi. Müavinin katibəsi onu görüb sevindi. Dedi ki, Vəli müəllim səni təcili axtarır. Bağır müəllim könülsüz halda müavinin yanına girməli oldu. Onunla əvvəldən düz gəlməmişdi. Vəli müəllim dəvə kimi kinli idi. İki il qabaq iclasda kompüterin xeyrindən naqqallıq eləyəndə Bağır müəllim təcrübəsizlikdən hirslənmişdi. Guya, nəyisə sübut

edirmiş kimi ayağa qalxıb populyar bir nitq irad etmişdi. Təzə şöbə müdirinin bu dilavərliyi müavinin xoşuna gəlməmişdi. O, iclasdakılarla gözləşib  atmaca atmışdı: «Baş alıb hara gedirsən, ay kişi? Kompüter üzrə mühəndis olduğunu bilirik də!» Bağır müəllim hazırcavablıq eləmişdi: «Əlbəttə, bircə müavin olmaq üçün mühəndis olmaq lazım deyil». Müavin bunu heç vaxt unutmurdu. Bağır müəllimin şöbəsi ilə əlaqədar bütün məsələlərin həllini uzadırdı. İndi də müavin onu görəndə soyuq halda:

– Keç, otur, – dedi. – İşlərin necədir?

Bağır müəllim ehtiyatla cavab verdi:

– Pis deyil.

– Mən elə deməzdim. – Müavin istehza ilə qımışdı. – Bura bax, səni ona görə şöbə müdiri təyin etməmişik ki, sən idarənin köhnə işçilərini didərgin salasan. Şöbə sənin şəxsi mülkiyyətin deyil, xoşun gəlməyəni çıxarasan, asıb-kəsəsən.

Bağır müəllim əsəbi halda:

– Olmaya Rəvandan söhbət gedir? – Soruşdu. – Vallah, özü ərizəsini yazıb.

Vəli müəllim yüksək pafosla:

– Yaxşı işçinin şıltaqlığına dözmək lazımdır, cavan oğlan, – dedi. – Biz ki sənin yekəxanalığına dözürük. Deyirsən, özü yazıb ərizəsini! Aydındır, adamı dəli eləməyə nə var ki? Dünən gələnin maaşını artırırsan,

onun da maaşını artır. Başa düşürəm, biri qohumdur, biri dostdur, amma hər şeyin əndazəsi var da…

Bağır müəllim daha dözməyib ayağa qalxdı:

– Mənim idarədə qohumum yoxdur. Maaşı da mən artırmıram. Bu idarə rəisinin səlahiyyətidir. Sualınız varsa ona verin, – dedi. – Başqa bir sözünüz yoxdursa, mən gedirəm.

İdarə rəisinin adı gələndə müavin duruxdu. Bağır müəllim də onun susmağından istifadə edib kabinetdən cəld çıxdı. Hirsindən şöbəyə nə cür çatdığını bilmədi. İçəridə bayaqkı şənlikdən əsər-əlamət qalmamışdı. Hamı peşman-peşman boylanırdı. Bağır müəllim təəccübləndi:

– Sizin kefinizin də heç ortaq məxrəci yoxdur ha! Ya sevinirsiniz, ya da qaş-qabağınızı tökürsünüz. İndi nə olub?

Qədim kişi başını bulaya-bulaya:

– Mən dedim, axı, bu təzə gələnlər başımıza oyun açacaq, – dedi.

Bağır müəllimin rəngi ağardı:

– İndi nə baş verib?

– Bayaqkını deyirəm də. Rəisin əmri qəlp çıxdı. Demə, bu Gülşənin zarafatı imiş. Dünən xalasını əvəz eləyəndə idarənin blankında bir yalançı əmr yazıb, gətirib asıb bizim elan taxtamıza. Məlum oldu ki, bütün qalmaqalın səbəbkarı bu qız imiş.

Bu hadisədən sonra Bağır müəllim bir müddət özünə gələ bilmədi. Düzdür, Rəvan da öz yerinə qayıtdı, ondan üzr də istədi, günahkar da cəzasını aldı, amma Bağır müəllimin ürəyi həmişə səksəkəli qaldı. Şöbəyə göndərilən təzə işçiləri görəndə onu lap əsmə tuturdu.

## UŞAQ ZARAFATLARI

Haqqında söylənən rəvayətlərə görə, Bəydadaş bu ikimərtəbəli qəsəbənin vurub-yıxan cayıllarından olub. Başına özü kimi dörd-beş dəli-dolu cavanı yığıb qəribə işlərdən çıxırmış. Mizan-tərəzi qurur, qərar verirmiş. Cavanlığına baxmayaraq sözü ötürdü. Deyilənə görə, ədalətsizliyə yol vermirdi. Elə bu səbəbdəndi ki, qəsəbədə qurdla qoyun yanaşı otlayardı. Bir kişi, ya qadın ayağını qırağa qoydumu Bəydadaşın hökmü ilə rastlaşırdı. Başqa vaxt kimsəyə dəyib-dolaşmazdı, amma hamı onun hökmünü hiss edirdi. Bəydadaş qeyrətli cayıl idi. Qız-gəlinlərin geyim-kecimi, oturuş-duruşu gözündən yayınmırdı. Biri əndazədən çıxan kimi kəsirdi valideynlərinin başının üstünü. Onun bu təəssübkeşliyi çox adamın xoşuna gəlirdi. Atalar oğullarına, analar qızlarına onu nümunə göstərirdi. Amma Bəydadaş tutulanda hamı rahat nəfəs aldı. Bu da insanların naşükürlüyünə dəlalət eləyirdi. Nahaq deməyiblər ki, yaxşı igidin adını

eşit, sözünü dinlə, amma üzünü görmə. Odur ki, onun türmədən çıxması qonşuları sevindirmədi. Hamı istəyirdi ki, Bəydadaş rəvayət kimi, əfsanə kimi qalsın. Real Bəydadaş kimsəyə lazım deyildi. Bəli, həyat dilemmalarla doludur.

İndi heç Bəydadaş da əvvəlki Bəydadaş deyildi, beş-altı il yediyi hökumət çörəyində nə illah vardısa Bəydadaş türmədən çıxandan sonra da dadı damağından çəkilmirdi. Azadlıqda günü səksəkədə keçirdi, suyu üfürə-üfürə içirdi. Ona-buna o qədər badalaq vurmuşdu ki, indi sərvaxtlığını itirə bilməzdi. Ürək qızdırmağa adam tapmırdı. Elə bil qəribliyə düşmüşdü. Köhnə dostlarının üzü dönmüşdü. Əvvəllər ətrafında fırlanmağı özünə fəxr bilən cavanların bir qismi məhəllədən köçmüşdü, qalanları da onunla rastlaşanda candərdi əhvallaşır, tez də aralanırdılar. Bu ona bir elə də təsir eləmirdi. Bir halda ki, Məmmədlə Məhiş ona ayaqüstü dəymişdi, başqalarından nə gözləyəsən. Əslində, köhnə dostları da ona lazım deyildi. Başqa cür yaşamaq istəyirdi. Hər şeyi unutmaq istəyirdi. Nə zəmanə o zəmanə idi, nə adamlar da o adamlar. Özü da dəyişilmişdi. Qürrəli, özündən razı, bazburutlu cavan ahıl kişidən seçilmirdi. Başı ağarmışdı, belinin donqarı çıxmışdı.

Evlərinin də işığı azalmışdı. Ağsaqqal atası günahkar halda saatlarla susurdu. Həbsxana yollarında canını qoymuş anasının üzü gülmürdü. Ailənin Bəydadaşla

bağlı ümidləri puça çıxmışdı. O, evin yasxana havasına dözmədi. Türmədən çıxandan sonra dincəlmədi, təklif olunan birinci işdən ikiəlli yapışdı. Dəyirmana yükçü düzəldi. İş ağır olsa da, məvacibi pis deyildi. Dolanmaq olardı. Bir neçə ay keçdi. İndi Bəydadaş iri kisələrə güc vurduqca, içində yığılmış xılt durulur, hikkəsi keçirdi. Canı əzikləndikcə mülayimləşirdi. Amma bayır-bacaqda görünəndə qonum-qonşu ehtiyatla kənara çəkilirdi. Deməli, köhnə əməlləri hələ yaddaşlardan silinməmişdi. Bu da Bəydadaşı çox kədərləndirirdi.

Bir məsələ onu narahat eləyirdi. Kiçik qardaşı Bəydadaş azadlığa buraxılan günü evi tərk eləmişdi, ilim-ilim itmişdi. Bir müddət sorağını verən tapılmadı, elə bil yerə batmışdı. Kiçik qardaşı anadangəlmə şikəst idi. Bir ayağını çəkirdi. Sısqalığına baxmayaraq çox kinli idi. Bəydadaş onu sevirdi, başına pərvanə kimi fırlanırdı, pasibanlıq eləyirdi. Amma kiçik qardaşı beş ildə bircə dəfə də böyük qardaşının görüşünə gəlmədi. Bundan Bəydadaş sındı, yaman sındı. Həyatı gözündən düşdü.

Bir müddət keçdi. Axır ki kiçik qardaşından xəbər çıxdı. Məlum oldu ki, qəsəbəyə qayıdıb. Özü də adı pisliyə çıxmış bir qadınla yaşayır. Onun bu əməli ata-anasını xəcil elədi.

Atası bazar günü dünənki söhbəti təzələdi, çəkinə-çəkinə:

– Bəlkə mənimlə yol yoldaşı olasan? – dedi. – Qorxuram sözümü yerə salsın. Sifariş yollayıb ki, gözümə görünməyin. Deyirəm, bəlkə, səni eşitdi, evə qayıtdı.

Bəydadaş atasının sözünü çevirmədi, durub geyindi, yanına düşdü. Qonşu blokun qabağından keçəndə ikinci mərtəbədən dörd-beş pomidor atdılar. Dəyməyinə dəymədi, amma sıçrantı Bəydadaşının atasının üst-başını yaman günə qoydu. Bu təsadüfü işə oxşamırdı. Kişi dəsmalla üzünü sildi, qeyzlə yuxarı boylandı:

– Bu Bilalın qırılmışlarının işidir. Sırağagün də üstümə çirkab su atdılar. Bu gün də belə! Lotuluq eləyirlər, – dedi.

Bəydadaş üstündəki pomidor sıçrantısını etinasızlıqla çırtmaladı, qeyzdən əsən cüssəsiz atasının qoluna toxundu:

– Boşla, dədə, uşaq zarafatlarına baş qoşmağına dəyməz…, – dedi.

Oğlunun sakit səsindən kişi lap özündən çıxdı, neçə vaxt ürəyində saxladığını onun üzünə vurdu:

– Türmədən çıxandan sonra lap xoşqeyrət olmusan ha! – dedi. – Sən belə deyildin, axı!

Bəydadaş istehza ilə irişdi:

– Düz deyirsən, belə deyildim. Yadındadır, uşaqlıqda nə hoqqalardan çıxırdım. Bəyəm eyvandan az pomidor, qarpız atmışam? Mənə görə sənin üstünə şikayətə az gəlirdilər? Bağçanın tərbiyəçiləri, məktəbin müəllimləri,

həyətin adamları əlimdən dad çəkirdilər. Sən isə üzdə məni danlayır, üzrxahlıq eləyirdin: «Uşaqdır, qanmır, tənbehini çəkərəm!» – deyirdin, arxada başımı sığallayırdın, deyirdin: «Mənim qorxmaz oğlum! Mənim ürəkli oğlum». Yadındadır, dədə? – dedi və onun qəribə mühakimələrindən çaşıb qalmış atasına təklif elədi: – Qayıt evə, bu üst-başla hara gedəcəksən ki? Qardaşımla özüm danışaram…

Bəydadaş qəsəbənin kənarında təzəlikdə peyda olmuş «gecəqondularda» soruşa-soruşa axtardığı daxmanı tapdı. Tələm-tələsik yapılmış bu dam evdən çox tövləyə oxşayırdı. Sınıq-salxaq qapıdan qabağına çıxan kiçik qardaşına yazığı gəldi. O, əvvəlkindən daha çox axsayırdı. Üzü qaxac armud kimi büzüşmüşdü. Yalnız kinli gözləri əvvəlki kimi parıldayırdı. Bəydadaş mülayimliklə:

– Salam, qardaş, bu nə işdir? Adam da valideynlərini unudar? – deyə soruşdu.

Bəydadaşın zoruna-hökmünə uşaqlıqda səcdə eləyən kiçik qardaşı indi onun əyilmiş belinə, yazıq görkəminə razılıqla baxdı, dodaqları xəbisliklə qaçdı. Elə bil neçə ildi ki, bu günü gözləyirdi:

– Valideyn qədri bilənə bax! – dedi. – Barı sən bu sözü dilinə gətirmə! Onları o günə qoyan sənin əməllərin deyilmi? Sənin qoçuluğun deyilmi? Yazıqlar türmə yollarında qocaldılar. Onlar həmişə səninlə nəfəs alırdılar.

Mən onlar üçün bir heç idim. Şikəst oğul kimə lazımdır? Amma sən sən idin! Sən də onları yaman yarıtdın! Ağ günə çıxartdın! İndi də gəlib başıma ağıl qoymaq istəyirsən! Xəbərin varmı, sənin əvəzində məhəllədə döyülən də mən idim, söyülən də! Deyirdilər: «Bu çolax filankəsin qardaşıdır! Vurun! Qardaşı məhəlləyə qan uddururdu, biz də əvəzini bu çolaxdan çıxaq!» Cani qardaşı olmağı Allah heç kimə göstərməsin!

Əvvəllər yanında dil tərpətməyən kiçik qardaşının dilavərliyi Bəydadaşı heyrətləndirdi. Aciz-aciz dedi:

– Qardaş, sən yaxşı bilirsən ki, mən cani deyiləm, adam öldürməmişəm, ev yarmamışam, məhəllənin qeyrətini çəkmişəm. Gədanın birisi bizim qız-gəlinə sataşanda sakit dura bilməzdim, axı!

Kiçik qardaş yana baxıb mızıldandı:

– Bir-iki şillə çəkəydin də! Daha niyə qanına qəltan eləyirdin?

Bəydadaş köhnələri yada salıb yana-yana dedi:

– Vallah-billah, mən ona heç şillə də vurmadım. Ona çox dedim, çıx get, xata-bəlanı bizdən uzaq elə, eşitmədi, üstümə hücum çəkdi. Məmməd də, Məhiş də Allahın şahididir! Mən də onu yüngülcə itələdim. Nə biləydim belə olacaq, bədbəxt yerə yıxılacaq, daşa dəyəcək, başı qarpız kimi partlayacaq. Hələ Allah üzümə baxdı, ölmədi, ancaq şikəst oldu. Kim mənim yerimdə olsaydı belə eləyərdi. Elə sən də...

Kiçik qardaşı kinli bir qətiyyətlə:

– Hər kəs öz yerinə layiqdir, – dedi. – Sən bir o hadisənin yox, cəmi əməllərinin cəzasını çəkirsən. Get, daha gözümə görünmə…

– Dayan, qardaş! Tutalım günahım vardı, cəzasını da çəkmişəm, daha nə istəyirsən? Mənə bir də məhkəmə qurulmalıdır?

Bəydadaş sözünü bitirə bilmədi, qardaşı salxaq qapını onun üzünə bağlamışdı. Bağlı qapını isə döyməyinə dəyməzdi. Bəydadaşın başı hərləndi. Keçən həyatını götür-qoy eləməyə belə heyi qalmadı. Necə geri döndüyünü deyə bilməzdi. Yaşadığı ikimərtəbəli binanın tininə çatanda payız günəşi günorta yerinə qalxmışdı. Yarpaqları saralmış ağacın altında dayanmış maşına fikir vermədi. Keçib getmişdi ki, arxadan onu səslədilər:

– Ay kişi, bu binada olansan?

Bəydadaş səsə çevrildi, arxasında bitmiş polis zabitini görəndə istəmədən devikdi. Amma dərhal özünü ələ alıb başını tərpətdi. Zabit tələbkarlıqla soruşdu:

– Bu binada yaşayan Bəydadaşı tanıyırsan?

Bəydadaşın başına elə bil soyuq su tökdülər, tutulmuş səslə:

– Bəydadaş mənəm, – dedi. – Nə işdir ki?

Polis zabiti çəkinmədən yekəpər və donqar kişinin qolundan yapışdı:

– Eləsə maşına otur! – dedi. – Bölməyə gedəcəyik. Bax ha, müqavimət göstərmək fikrinə düşmə, işin pis olacaq.

Bəydadaş özünü topladı, mümkün qədər mülayimliklə:

– Hara deyirsiniz gedərəm. Amma qolumu buraxın, tanış-biliş yanında məni xəcil eləməyin.

Polis zabiti xahişi yerinə yetirdi, lakin onun müqavimətsiz tabe olacağına şübhə ilə işarə elədi. Maşından daha iki polis nəfəri düşdü. Bəydadaş dinməz maşına mindi. Beş illik təcrübəsindən bilirdi ki, mübahisə eləməyin mənası yoxdur. Tərpəndilər. Bir müddət dinməz getdilər. Maşını idarə eləyən şən polis zabiti darıxdı, geri baxmadan istehza ilə soruşdu:

– Kişi, heç soruşmursan səni bölməyə niyə aparırıq?

Arxada iki polis nəfərinin arasında oturmuş Bəydadaş laqeyd halda:

– Nə xeyri var? – dedi. – Soruşsam, deyəcəksiniz, orada bilərsən…

Polis zabiti məzələnməyində idi:

– Bəlkə polisə aparılmağının səbəbini də bilmirsən?

Bəydadaş köksünü ötürdü:

– Polisə adamı bica yerə aparmırlar ki! Yəqin bir səbəbi var da… – dedi və susdu.

Polis zabiti əyləci basdı, maraqla Bəydadaşa baxdı:

– Söhbətcil adama oxşamırsan, sözü səndən kəlbətinlə çəkirik…– dedi.

Bəydadaş gülümsədi:

– Susmaqdan gözəl nə var ki! Artıq-əskik danışaram, salarsız təpiyinizin altına. Sizin bu saat əliniz-ayağınız gidişir…

Onun bu dərrakəli cavabı içəridəkilərin xoşuna gəldi. Bir polis nəfəri ürəkdən güldü:

– Əmioğlu dərsini əzbər bilir ha! – dedi. – Güman ki, təcrübəsi var…

Bölməyə çatdılar. Bəydadaşı növbətçi polis çavuşuna təhvil verəndə hələb-həlbət tapşırdı:

– Bunu da o iki nəfərin yanına sal, amma ehtiyatlı ol! Bir təhər adama oxşayır. Rəisə də məlumat ver, daha mənim vaxtım yoxdur. Siyahıda bir neçə nəfər də var. Görək onları da tapırıqmı… Yoxsa təzə rəisin yanında üzü qara qalarıq.

Növbətçi küncdə dayanmış Bəydadaşa maraqla baxdı:

– Bəs, bunu nə üstə tutmusunuz? – Soruşdu.

Polis zabiti çiyinlərini çəkdi:

– Allah bilir! Əməliyyata rəis özü başçılıq eləyir… Daha biz getdik.

Növbətçi onu əylədi:

– Dayan görüm! – dedi. – Saxlanma barədə yenə akt olmayacaq?

Polis zabiti çevrilib ona pis-pis baxdı:

– Nə böyük zibildirlər ki, onlara kağız məsrəf olunsun! Bas getsin, rəisin əmridir… – dedi və tələsik aralandı.

Növbətçi narazı halda dəmir barmaqlıqlı qapını açdı. Bəydadaşı zəif işıqlandırılmış bir otağa itələdi. Dalınca da qapını şaqqıltı ilə örtdü.

Bəydadaşın gözü toranlığa alışana qədər bir neçə dəqiqə keçdi. İçəridə divar boyu düzülmüş taxta oturacaqların birində iki nəfər yanaşı oturmuşdu. Qapının səsinə başlarını qaldırmışdılar. İçəri girəni görüb hövllə qalxdılar. Heyrətlə çığırışdılar. Bəydadaş otağın ortasında quruyub qaldı. Uşaqlıq dostları Məmmədlə Məhişi burada görüb təmkinini itirdi. Onlarla polis təcridxanasında rastlaşacağını ağlına gətirməzdi. Yaxınlaşanda uşaqlıq dostlarının görkəmi onun könlünü açdı. Polislər, deyəsən tənbəllik eləməmişdilər, ikisinə də yaxşıca əl gəzdirmişdilər. Ağız-burun, baş-göz qoymamışdılar. Köhnə dostlar inciklikləri unudub qucaqlaşdılar. Başqa cür ola da bilməzdi. Elə bu başdan xarab Məmmədi götür. Bəydadaş onunla on il bir partada oturmuşdu. Öl desə ölərdi, qal desə qalardı. Bir az fitə gedənliyi vardı. Hər deyilənə inanardı. Məhiş isə başqa xasiyyətdə idi. Nadinclikdə onlardan geri qalmasa da, hiyləgərliyinə söz ola bilməzdi. Onlardan bir sinif aşağıda oxuyurdu, amma vaxtını dostları ilə keçirirdi.

Xoş-beşdən sonra oturdular. Məmməd şadlıqla Bəydadaşa sığındı:

– Səni görməyimə çox şadam, qardaş! – dedi.

Bəydadaş istehza ilə qımışdı:

– Elə mən də sizi burada görməyimə şadam… – dedi.

Məmməd onun sözünün gizli mənasına varmadan davam elədi:

– Lap yetim günündə idik. Nə yaxşı oldu! – dedi. – Sən hara, bura hara?

Bəydadaş eyni istehza ilə:

– Mənim burada olmağımda təəccüblü nə var ki! Oylaq mənim oylağımdır. Deyin görüm sizin buralarda nə itiniz azıb? Danışın görüm.

Onun hazırcavablığı dostlarının kefini açdı. Məmməd hələ də qan gələn burnunu dəsmalla silib dedi:

– Vallah, lap günahsız yerə məni bura qatıblar. Belə şey olar? Belə qanunsuzluq olar? Belə insafsızlıq olar?

Bəybala üzünü turşutdu:

– Bəsdir, sıtqadın! – dedi. – Qayda ilə danış.

– Oturmuşdum çayxanamda, müştərilərlə məşğul idim. Sən görməmisən, Məhiş görüb. Xudmani bir çayxanam var. Yüz minnətlə yer alıb tikmişəm, kür-kürlə başımı dolandırıram, mərdimazar uşağı tökülüşdü üstümə. Çay payladığım yerdə qamarladılar məni. Stəkan-nəlbəki töküldü sındı. Mən də onları söydüm. Polislər elə bil bunu gözləyirdilər, düşdülər üstümə, döy

ki döyəsən. Soruşuram, günahım nədir, axı, deyirlər biz bilmərik, rəis bilər…

Məhiş tələsik dilləndi:

– Mənə də elə dedilər…– dedi. – Məni marşrutdan hop götürüblər. Məmməd bilir, bir mikroavtobusum var, qonşumla şərikli işlədirəm. O, pul yığır, mən sükandayam. Keçən ay bir iş düşdü, tutub vəsiqəmi aldılar. İndi maşını qonşum sürür, mən pul yığır və müştəri çağırıram. Günorta polislər maşını əylədilər, adımı deyən kimi hamının gözü qabağında qolumu burdular. Qiryət mənə güc gəldi, müqavimət göstərdim. Dərhal düşdülər üstümə. Onlar çox, mən tək! Qol-qabırğa qoymadılar məndə… Neynəmişəm heç özüm də bilmirəm…

Məmməd lap uşaq kimi:

– Bəydadaş, sənin başın həmişə yaxşı işləyirdi. Sən bilən bizi bura niyə qatıblar? – Soruşdu.

Bəydadaş olanlardan baş açmasa da dostlarının təlaşından həzz alaraq ciddi halda:

– Qorxmayın! – dedi. – Məmməd, sizi mənim xahişimlə bura gətiriblər.

Məmmədin gözü kəlləsinə çıxdı:

– Həəə!? Niyə?

– Məmməd, gördüm neçə ilin dostları məndən uzaq qaçırlar, yaman günümdə əl tutmurlar, bu yola əl atdım. Neynəyim? Beş il türmədə sizin üçün burnumun ucu göynəyirdi, gəlmədiz! Dedim, türmədən çıxaram,

yaxşı olacaq. Türmədən çıxandan sonra da yenə də gül üzünüzə həsrət qaldım, gəlmədiniz. Bu yola əl atdım. Narahat olmayın, söhbətimizi qurtaran kimi deyərəm, sizi buraxacaqlar…

Məmməd sərək-sərək ona baxırdı. Gözləri yaşardı, riqqətlə dedi:

– Bəydadaş, yanında üzüqarayıq, bağışla! Gəlməyə utanırdıq, necə olsa o hadisədə bizim də günahımız vardı, amma cəzasını tək sən çəkdin. Gərək bizi üzrlü sayasan. Köhnə vaxtlar üçün lap burnumun ucu göynəyirdi, Bəydadaş! Yaxşı eləyib bizi bir yerə yığmısan! Amma gərək bizi polisə yox, restorana yığaydın.

Bayaqdan mısmırığını sallamış Məhiş Məmmədin səfehliyinə hirsləndi:

– Yum ağzını, səfeh! Heç ağlın artmadı da! – dedi. – Bəydadaş zarafat eləyir…

Məmməd küt-küt onlara baxıb burnunu çəkəndə Bəydadaş illərdən bəri birinci dəfə ürəkdən güldü:

– Ha-ha-ha! Qanmır da, Məhiş! Yadında deyil, onun səfehliyindən necə bəlalara düşürdük? Zalım ağıllanmaq bilmirdi! Doqquzda oxuyanda zarafatla dedim ki, bizi bağaja qoyan Ənvərin başını əkmək lazımdır. Bir gün dərsdən çıxıb evlərimizə dağılışdıq. Bir neçə saatdan sonra Məmməd təngnəfəs bizə gəldi. Dedi, tapşırığını yerinə yetirdim. Deyirəm, hansını? Dedi ki, Ənvəri aldadıb məktəbin zirzəmisinə salmışam, başına torba

keçirib əl-qolunu bağlamışam, gedək işini bitirək ! Yadındadır? Ha-ha-ha!

Məhişin də üzü güldü:

– Necə yadımda deyil? Sən gələnə qədər Ənvərin işini bitirmək istəyirdi. Mən qoymadım. Dedim, sənin icazən olmadan bunu eləmək olmaz, – dedi və yadına saldı. – Gərək ki, o oğlan bizim məktəbdən çıxdı, axı?

Bəydadaş ağarmış saçlarını sığalladı:

– Elədir, başqa məktəbə keçdi, – dedi. – Bilirsən, zirzəmidən onu çıxaranda bərk yazığım gəldi. Yalvarırdı ki, onu öldürməyək! Deyirdim ki, səni öldürən yoxdur, Məmməd zarafat eləyir. Yazıq inanmırdı. Gücnən sakitləşdirib evə yola saldım. Əgər şikayət eləsəydi üçümüz də dəsxoşa gedərdik. Yazığın günahı elə də böyük deyildi…

Məmməd arsız-arsız güldü:

– Yaman da yazıq idi! – dedi. – Satqının biri idi. Sinifdə kim neynədi, necə oturdu, necə durdu, dərhal qaçıb qoyurdu direktorun ovcuna. Rəhmətlik atamı iki gündən bir məktəbə çağırırdılar. O da evə qayıdan kimi eləmirdi tənbəllik, salırdı qayışın altına. Sən də başlamısan…

Söhbətin bu yerində qapı açıldı. Bir yaşlı kişini içəri ötürdülər. Dostlar donuxdular. Bu dülgər Rəcəb idi. Onlara əməkdən dərs verirdi. Hamı ona ancaq üzdə müəllim deyirdi. Bəydadaşla arası kök idi. Rəcəb müəllim

lap qocalmışdı, daha donqarı çıxmışdı. Salamlaşıb özünü onların yanına verdi. Deyəsən, Bəydadaşı tanımadı. Dostlar onun oturmağını gözlədilər. Tanışlıq verib söhbətləşməyə macal eləmədilər. Qapı yenidən açıldı. İçəri bir dəstə polis girdi. Qabaqda cavan, yaraşıqlı bir mayor gəlirdi. Forma onu elə tuturdu ki, elə bil hökumət libasında doğulmuşdu. Mayoru müşayiət eləyən tanış polis zabiti və polis nəfərlərinin nizamlı sırasını bölmə üzrə növbətçi tamamlayırdı. Mayor siqaretini ağzından çıxarmadan dedi:

– İşıq verin!

Növbətçi dərhal onun əmrini yerinə yetirdi. İçəri çıraqban oldu. Mayor içəridəkiləri gözdən keçirib başını buladı:

– Elə bu? Bəs, qalanları hanı? – deyə tənə ilə soruşdu.

Polis zabiti günahkar halda irəli çıxdı:

– Əlimizə düşən bunlardı, rəis! İnşallah, sabah o birilərini də taparıq, – dedi. – İki nəfərin yaşadığı ev nəzarətdədir, üç nəfərin yeni ünvanını dəqiqləşdirmək üçün rayon pasport şöbəsinə müraciət eləmişik, sonra canım sənə desin…

Rəis əlinin hərəkəti ilə onun sözünü yarıda kəsdi, onlar içəri girəndən ayağa qalxmış dörd nəfəri təşəxxüslə süzdü, bığaltı güldü və polis zabitinə döndü:

– Bölmənin hasarı üçün bizə neçə maşın daş lazımdır? Dünən saymışdın, axı… – Soruşdu.

Polis zabiti dərhal dəftərçəsini çıxartdı:

– İyirmi maşın daş olsa gen-bol çatar, rəis…

Rəis toppuş əllərini sanballı qarnının üstündə çarpazladı:

– Eləsə sənədləri hazırla, qoy, hərəsinə on beş sutka iş versinlər. Göndərək bunları Nardaran daş karxanasına… – dedi və siqaretin kötüyünü yerə atdı.

Məhiş cücə kimi büzüşdü, dostlarından utanmadan yalvardı:

– Rəis, başına dönüm, mənim bir çətən külfətim var. Çevir məni onların başına, burax gedim. Vallah, bir günahım yoxdur. Heç bilmirəm bu mərdimazar uşağı niyə məni tutub gətirib? Puldan-paradan nəyim var sizə qurbandır…

Məmməd isə başladı səfehləməyə:

– İxtiyarınız yoxdur! Mən şikayət eləyəcəyəm… Polislər mənim əmlakımı sındırıb. Nə ixtiyarla məni tutub saxlayırsınız? Elə bilirsən biz adamsızıq? – deyə haray saldı.

Rəis birinin yalvarışından, o birinin çığırtısından ləzzət alaraq polis zabitinə döndü:

– Bu zırramaya əl gəzdirməmisən? Gör, necə bağırır…

Zabitin işarəsi ilə polis nəfərləri Məmmədin üstünə yeridilər. O, qorxaraq səsini kəsdi, köməksiz halda dost-

larına baxdı. Amma onlardan səs çıxmadı, hərə öz hayında idi. Bircə Rəcəb müəllim dilləndi:

– Ay rəis, bu sinni yaşımda məni niyə gətirmisən bura? Müəllim babayam, kimin toyuğuna daş atmışam? Günahım nədir?

Rəis ona çəp-çəp baxdı:

– Günahın yekəsi sənin kimilərdədir, qoca! Cavanları tərbiyə eləmək olar, səni yox! Özün də haranın müəllimi oldun ki! Dülgər Rəcəb deyilsən? Özünü mənə tanıdacaqsan?...

Bəydadaş bayaqdan dinmirdi, rəisin toppuş əllərinə baxırdı. Handan-hana onu tanıdıqda rahatlıqla köksünü ötürdü. Rəisin sözünü kəsdi:

– Uşaqlar, gözünüz aydın, rəis bizim sinif yoldaşımız Ənvərdir, – dedi və yüngül bir istehza ilə əlavə elədi. – Məktəbimizdən gör necə böyük adamlar çıxır…

Hamı quruyub qaldı.

Rəis tanındığını görüb qılafından çıxdı. Uşaq kimi sevinə-sevinə:

– Əlbəttə, Ənvərəm! – dedi. – Sənin yaddaşına söz ola bilməz! Heç mənim də yaddaşım pis deyil. Məktəbdəki oyunlarınız yaxşı yadımdadır. Girinc eləmişdiz məni. Evdən alma gətirirdim, almamı əlimdən alırdınız. Bufetdən bulka alırdım, bulkamı yeyirdiniz. Çantamdan bir fərli qələm çıxarırdım, əlüstü yoxa çıxırdı. Qorxudan səsimi çıxara bilmirdim, xəlvətə salıb qapazlayırdınız.

Hətta, bu cüvəllağı əmək müəllimi də mənə gün verib-işıq vermirdi. O da sizə qoşulmuşdu. Məktəbin qapı-pəncərəsini mənə qaşıtdırır, sonra da rənglətdirirdi. Belə şeylər yaddan çıxmır! Zirzəmidə çəkdiyim qorxu indi də yuxuma girir. Hə, əvəzini ödəmək zamanı gəlib. Sizi on beş gün döyəcək, söyəcək, təpikləyəcəklər. Bundan sonra bəlkə, canımdakı köhnə ağrılar çıxdı…

Bəydadaş mülayimliklə dilləndi:

– Ənvər qardaşım, sən haqlısan! – dedi. – Bizi söy, döy, təpiklə! Bu sənin haqqındır! Amma uşaqlıq zarafatlarına görə adamı türməyə salmazlar, axı!

Rəis şaqqıltı ilə güldü:

– Deyirsən, onlar hamısı uşaq zarafatları idi? – dedi. – Düzdür, indi uşaq deyilik, amma heç qocalmamışıq da! Elə mən də sizinlə uşaq zarafatı eləyəcəyəm. Siz o cür bacarırdınız, mən də belə bacarıram. O vaxt imkan sizin əlinizdə idi, indi mənim əlimdədir. Mən zarafatlarınıza dözürdüm! Siz də dözün! Mən heç kimi satmadım! Siz də kişi olun, dözün!

Rəis tələsmədən qapıya getdi. Dostlar uğunan polislərə baxa-baxa qaldılar. Heç birinin bu zarafata gülməyi gəlmirdi.

## MÜBAHİSƏLİ BURUN

Torpaqları müxtəlif yerdən götürülsə də Məmmədəli bəylə Zərəfşan xanımın nikahı zamanın sınağına tab gətirdi, çat vermədi. Bir-birindən xasiyyətcə fərqlənən ər-arvad xoşbəxt yaşayırdı. Əlbəttə, xırda-para narazılıqlardan heç bir ailə sığortalanmayıb. Fikir ayrılığı da, umu-küsü də olurdu, həyatdır da, amma atışmaya heç biri yol vermirdi. Bir tərəfdən Zərəfşan xanımın anadangəlmə ciddiliyi, o biri tərəfdən Məmmədəli bəyin südnən gələn qeyri-ciddiliyi qanqaraçılığı sipər çəkirdi. Məntiqə qalsa günləri dalaşmada keçməli idi. Lakin belə deyildi. Ərinin ayar zarafatlarını dinməz təhəmmül eləyən arvadın səbrinə söz ola bilməzdi. Eləcə də arvadının mənasız iddialarını lağlağıya çevirən kişinin bacarığı da tərifə layiq idi.

Bu belə.

İndi də qəhrəmanlarımızın cizgilərini çəkək.

Məmmədəli bəyin boyu orta, başı balaca, gözləri xırda, üzü də sızanaqlıdır. O, fiziki qüsurlarına qarşı etinasız idi. Əksinə, qüsurlarına özü lağ eləyirdi. Bununla da ona sataşanların silahını əlindən alırdı.

Zərəfşan xanım isə güzgüdən qaçırdı, çünki surəti onu fərəhləndirmirdi. Allah-təala ona Quba alması kimi toppuş yanaqlar, qələmlə çəkilmiş qaş-göz əta eləmişdi, hələ hamını valeh eləyən bir cüt zənəxdanı demirəm!

Amma xanım burun sarıdan yarımamışdı, burnu qırğı dimdiyi kimi əyri idi. İllər keçdikcə burnunun üstündəki sümük böyüyürdü, Zərəfşan xanımın ürəyini sıxırdı.

Bu da belə. Söhbətin məğzinə varaq.

Əllini xırdalayan Məmmədəli bəyin heç bir işi düz deyildi. Hara əl atırdı bir əmma çıxırdı. Şura hökuməti ömrünü ona tapşırandan sona işləri bir az da korlandı. İllərlə işlədiyi zavod bağlanandan sona xeyli vurnuxdu, amma murad hasil olmadı. Xahiş-minnətdən sonra sərəncamla yer aldı, evinin tinində bir xırda köşk qoydu, başladı hamı kimi çərçiliyə. Başqaları irəli getdi, pul sahibi oldu, Məmmədəli bəysə nə artırdı, nə də azalırdı. Üzüyumşaqlığından nisyələr onu yıxdı. Amma necə olsa da, balalarının çörəyini çıxarırdı. Tale bunu da ona çox gördü. Küçə ticarəti ilə mübarizə adı altında onu da çoxları kimi çörəksiz qoydular. Nümunəvi şəhər yaradan məmurlar qaldırıcı kranla onun köşkünü qaldırıb uzaq bir zibilliyə atdılar. Məmmədəli bəyə bazarda yer verdilər. İki metrlik piştaxtaya möhtac elədilər. Kim olsaydı başına hava gələrdi, həyatından bezikərdi, amma Məmmədəli bəy kənək qoz kimi idi, sınana oxşamırdı. Nə deyib-gülməyindən qalırdı, nə dolaq-zarafatından.

Çöldə-bayırda necə idisə evdə də elə idi. Məmmədəli bəy özülə şadlıq gətirirdi. Qapıdan girən kimi on yaşlı Nərmin böyrünü kəsdirirdi. On beş yaşlı Arifin üzündə şeytanlar peyda olurdu. Məmmədəli bəy çöpə gülən qı-

zından arxayın idi. Oğlunun sakit, yuxulu görkəmindən ehtiyatlanırdı. Uşağın mimikasından baməzəlik yağırdı. Birini yamsılayanda, ya təqlidini çıxaranda adamda can qalmırdı. Hazır məzhəkə ustası idi. Məmmədəli bəy anlaşılmaz bir arzu ilə oğlunun işləklərinə rəvac verəndə Zərəfşan xanım kəmiltifatlıqla susurdu. Təklikdə isə Arifi danlayırdı:

– Ay Allahın mağmını, şüvül kimi uzanırsan, amma ağlın artmır. Bu oyunbazlıqları burax getsin, dərslərinə fikir ver. Oxu, adam arasına çıx, bizim kimi əziyyət çəkmə. Onun-bunun ağzını əyməkdən nə çıxar? Lağlağı ilə necə baş dolandıracaqsan?

Axırıncı hadisədən məlum oldu ki, Zərəfşan xanım haqlıdır.

Səhər mətbəx masası arxasında oturmuş ata-oğul Allah verəndən yesələr də, qulaqları səsdə idi. Evin xanımı onlara dinməz qulluq eləyirdi. Arif zərbənin haradan dəyəcəyini bilirdi. Məmmədəli bəy isə işdən hali olmasa da arvadının tərpənişindən hiss eləmişdi ki, nəsə olub. Loxmasını ötürüb söz atdı:

– Çinədanını boşaltsana! – dedi. – Görürəm sözlüsən…

Zərəfşan xanım hirsini boğub mülayimliklə:

– Axşam daha yorğun gəlmişdin, başını ağrıtmadım, – dedi. – Sənin bu yerəbaxan oğlun bir yekə hoqqa çıxarıb. Məktəbə getmək lazımdır. Onu litsey sinfindən adi

sinifə keçiriblər. Get, gör, nə məsələdir… Vallah, bütün günahlar səndədir. Başını sığallaya-sığallaya başımıza çıxartmısan. Bu da axırı…

Məmmədəli bəy təəccüblə:

– Neynəyib ki? Kimin gözünə torpaq atıb? – deyə soruşdu. – Gedib aydınlaşdıraydın da…

Zərəfşan xanım oğluna hirslə baxdı:

– Getməyə ehtiyac qalmadı. Zəng elədim, öyrəndim...

Zərəfşan xanım qohum-əqrəbadan savayı heç kimlə münasibət qurmurdu. Naqisliyinə görə bayıra-bacağa az çıxırdı. Məmmədəli bəy buna istehza ilə:

– Hə…, zənglə nə aydınlaşdırdın? – deyə soruşdu.

– Öyrəndim ki, Arif direktorun təqlidini çıxarıb. O da acığa düşüb belə eləyib.

Məmmədəli bəy ürəkdən güldü:

– Ha, ha, ha! Nə böyük iş imiş! – dedi. – Məşhur artistlərin, nazirlərin, hətta prezidentlərin təqlidini çıxarırlar. Nə olar ki? Yalnız müqəddəs şəxsiyyətlər toxunulmazdır. Məktəb direktoru isə övliya deyil ki!

Zərəfşan xanım həmrəyliklə atasına baxan oğluna göz ağartdı:

– İndi hər nədir! İxtiyar onun əlindədir! – dedi.

Məmmədəli bəy Arifə tərəf çevrildi:

– Anan düz deyir, ay şuluq kişi! – dedi. – İşin-gücün qurtarıb? Hamıdan qurtardın direktora keçdin? Qaşınmayan yerdən qan çıxarırsan? Danış, görüm…

Arif atasının mülayim danlağından tərlədi:

– Bir işdi oldu da! Məktəb klubunda tamaşa verirdik, səhnədə bir-iki gülməli monoloq dedim, bir-iki pantomima göstərdim. Birdən şeytan məni yoldan çıxartdı, direktorun da hərəkətlərini, yerişini təqlid elədim. O qədər əl çaldılar ki…

Məmmədəli bəy yerindən qalxdı:

– Yaxşı, indi məktəbə gedərəm, görüm nə deyirlər, – dedi.

– Bəs, işin nə olsun?

– Bazar bir-iki saat mənsiz də keçinər, – deyə Məmmədəli bəy arvadına cavab verdi və sataşmaqdan özünü saxlaya bilmədi. – Ay xanım, hirslənmə, burnun yenə xoruz pipiyi kimi qızaracaq.

Arif irişdi:

– Ata, işləri korladın. Zərəfşan xanım yenə bizi dindirməyəcək. Burundan lap nahaq söz saldın…

Evin xanımı həmrəy kişilərə qəzəblə baxdı, heç nə demədən mətbəxdən güllə kimi çıxdı.

Axşam Məmmədəli bəy bazardan evə gec qayıtdı. Zərəfşan xanım qapıda maraqlandı:

– Nə oldu, getdin? – deyə soruşdu. – Bir şey elədin?

– Getmişdim, alınmadı, – Məmmədəli bəy ayağını soyuna-soyuna cavab verdi. – Direktor dedi ki, daha əmr vermişəm, gələn rüb qaytararam öz sinfinə.

Zərəfşan xanım tənə ilə:

– Əli boş getmişdin?

– İş əndazədən çıxıb, əli dolu da getsəydim xeyri yox idi. Direktor dedi, ara soyusun, bir də dəyərsən, həll edərəm.

– Vallah, adamyarıdan deyilsən. Sulu çaydan da susuz qayıdırsan.

Məmmədəli keçib divanda yerini rahatladı:

– Boşla, ay xanım, – dedi. – Nə böyük işdir ki? Oğlunu doqquz «a»-dan doqquz «b»-yə keçiriblər. Az nadinclik eləsin. Bundan sonra hər addımını ölçər.

Zərəfşan xanım yanğı ilə:

– Elə olar da, nə tökərsən aşına, o da çıxar qaşığına. Uşaqların da özün kimidir.

Məmmədəli qızının gətirdiyi çayı qabağına çəkdi, tam ciddi:

– Bilirsən, nə var, arvad?

Zərəfşan xanım ərinin ciddi görkəminə aldanmadı, daha onun cikini də bilirdi, bikini də. Mübahisənin səbəbkarı da qaşqabaqlı halda qapıdan boylandı. Məmmədəli bəy müdrik görkəm aldı, böyründə oturmuş on yaşlı qızını qucaqladı, ağzını açacaqdı ki, Zərəfşan xanım onu qabaqladı:

– Bilirəm, lap yaxşı bilirəm, – dedi və gözlənilmədən Məmmədəli bəyi təqlidən davam elədi. – Vallah, kişi, mənim burnum düzəlməsə, bizim işlərimiz düzələnə oxşamır. Gəl, sən daşı ətəyindən tök, məni həkimə apar.

Qoy, burnumun artıq-urtuğunu kəsib sahmana salsınlar, bəlkə bəxtimiz açıldı. Hə, belə demək istəyirdin?

Uşaqlar uğundular. Məmmədəli bəy çaşıb qaldı. Zərəfşan xanım nadir hallarda zarafat eləyərdi. Məmmədəli bəy özünə gəlib xanımını təriflədi:

– Afərin! – dedi. – Sən də bizim adam oldun, yoxsa zarafat eləyən kimi qaşqabağını tökürdün…

Zərəfşan xanım onun sözünü kəsdi:

– Sən araya söz qatma! – dedi. – Bu gün həkimə getmişdim. Dedi ki, vaxtıdır, kəsmək olar, sonra gec olacaq.

Məmmədəli bəy durub gəzişdi, qayıdıb yerinə keçdi:

– Yox, mən buna razı ola bilmərəm! – dedi. – Məni qızıla da tutsalar səni bıçaq altına göndərə bilmərəm.

– Sən canın, razı ol. Deyirlər, beş yüz dollara başa gələcək. – Zərəfşan xanım xahiş elədi. – Adam lap xəcalət çəkir. Zəhrimar sümük elə hey böyüyür.

– Ay xanım, buna bir ətək pul lazımdır, axı! Bəyəm havayıdır? Neçə paçka «şirvan» lazımdır.

Zərəfşan xanım burnunun hürgücünə barmağını toxundurdu:

– Məndə nə var ki! Bir burundur. Camaatın arvadları az qala bütün əzalarını dəyişdirir, yenisini tikdirirlər. O gün televizorda deyirdilər ki… Adı nədir o aktrisanın…, hə…, beş min dollarlıq plastik əməliyyat elətdirib. Sən isə mənə beş yüz dollar xərcləmək istəmirsən…

Məmmədəli bəy ciddiləşən söhbəti lağlağıya çevirməyə çalışdı:

– Bilirsən, ay xanım, mən səni o donqar burnuna görə yüz qızın içindən seçmişəm. Sən isə onu kəsdirib məni bu zövqdən məhrum eləmək istəyirsən, – dedi və uşaqlara baxdı.

Onun bu məzəsinə heç biri gülmədi. Məmmədəli bəy köksünü ötürdü:

– Mən qarnımızın çörəyini gücnən qazanıram, ay xanım, sən bahalı plastik əməliyyatdan dəm vurursan. Sənə neçə dəfə deyərlər ki, indi buna gücüm çatmır. Allah imkan verər burnuna da əncam çəkərik. Səbr elə…

Arif qapının çərçivəsindən aralanmadan gözlənilmədən dilləndi:

– Mamanın burnu Ginnes kitabına düşməsə ata tərpənməyəcək, – dedi.

Yerində edilmiş bu qeyd hamını güldürdü. Məmmədəli bəy təslim oldu:

– Yaxşı, yaxşı, gələn ay bu işlə məşğul olarıq. Bir az alacağım var… – dedi və onun əleyhinə gedən oğlunu zarafatla hədələdi. – Səninlə isə, ay şuluq kişi, bir azdan söhbət edərik.

Məmmədəli bəy şam yeməyinə girişdi. Doyandan sonra divanın yastığına yaslandı, televizora gözünü dikdi. Bütün günü ayaq üstə olduğundan yorğun idi. Oğlunun tənbehini sonraya saxladı. Saat on olmazdı ki, onu

yuxu basdı. Gözünün acısını almamışdı ki, çığırtıya dik atıldı. Başının üstündə dayanmış oğluna acıqlandı:

– Nə olub? – Soruşdu. – Zəlzələdir?

Arif dili topuq vura-vura dedi:

– Ata, ata! Mamanın burnu sınıb! Qan sel kimi axır…

Məmmədəli bəy qeyzlə ayağa durdu:

– Axmaqlama, dəyyus! Başqa zarafat tapmırsan!?

Arif and içdi:

– Vallah, zarafat eləmirəm. Hamamxanadan çıxanda mamanın ayağı sürüşüb, üzü divara dəyib.

Məmmədəli bəy başılovlu dəhlizə çıxdı. Həmişə mübahisələrə səbəb olan burun, doğrudan da, sınmışdı. Zərəfşan xanımın boyun-boğazı qan içində idi. Dəhlizdəki xırda kürsüdə başını geri atıb ağrıdan zıqqıldayırdı. Qorxudan özünü itirmiş Nərmin böyründə durub bilmirdi ki, neyləsin. Məmmədəli bəy xanımın dərini deşib sallanan burun sümüyünə baxdı, bilmədi gülsün, ya ağlasın. Arvad yaman gündə idi. Daha durmaq vaxtı deyildi. Köhnə maşınını işə salmaq üçün aşağı qaçanda oğluna tapşırdı ki, anasının qoluna girib aşağı düşürtsün. Kişi mərkəzi xəstəxanaya çatana qədər ürəyini yedi. Ömründə birinci dəfə idi ki, zarafat eləmək yadına düşmürdü. Zərəfşan xanıma tərəf baxmağa qorxurdu. Xəstəxanaya çatdılar. «Bura bütün ölkəyə xidmət eləyən yeganə şəfaxanadır ki, gecə də oyaqdır, gündüz də» – deyə qapıçı onu məlumatlandırdı. Məlum oldu ki, sü-

mük udanların, qulağına qurd-quş dolanların, ilan çalanların, quduz it qapanların yolu burdan keçir.

Yuxulu şəfqət bacısı zərərdidənin qoluna girib oturtdu, həkimin yuxulu gözləri alnına qaldırılmış gücləndiricinin altında itdi. Onun ləngliyində nə vardısa Məmmədəli bəy əlini cibinə atdı, olan pulunu həkimin xalatının cibinə dürtdü. Bundan sonra otaq hərəkətə gəldi.

Bir azdan Zərəfşan xanım cərrah masasında tir-tap uzanmışdı. Ailənin, qohumların xəlvəti məzə yerinə çevrilmiş burun yuxudan kal durmuş yekəpər həkimin cənginə keçmişdi. O, necə kobud tərpənirdisə xəstənin çığırtısı otağı başına götürmüşdü. Məmmədəli bəyin ürəyinin başına od düşdü, gözlərindən gildir-gildir yaş axdı, amma əli qoynunda dayanmaqdan savayı bir şey eləyə bilmirdi. Həkim hər dəfə yarım arşınlıq dəmir millə zədəli burnu eşəndə Zərəfşan xanım zarıldayırdı. Sonra cərrah əlini saxladı, qonşu otağa keçdi, tez də qayıtdı. Rezin əlcəklərini çıxarıb hirslə zibil yeşiyinə atdı. Girişdə divara söykənmiş Məmmədəli bəyə yanaşdı. Narazılıqla dilləndi:

– Ay elli, verdiyin qəpik-quruşdur ki! – dedi.

Məmmədəli bəy təəccüblə:

– Ay rəhmətliyin oğlu, on beş «şirvan» azdır? Yenə pul istəyirsən? – dedi.

Həkim inadla:

– Sən gəl haqqımızı kəsmə, bir eylə də əlavə elə. Tibb bacısına da, baş həkimə də bir şey çatsın…

Məmmədəli bəy heyrətlə:

– Bərəkallah, həkim! – dedi. – İki daşın arasında, gecə yarı baş həkim hardan yadına düşdü?!

Həkim burnunu çəkdi:

– Eh, ay elli, sən bilmirsən, xəstəxananın qapısından girən haqqında baş həkimə məruzə edirlər. Haqqı çatmasa, ciyərimi çıxaracaq.

Zərəfşan xanımın iniltisi artdı. Məmmədəli bəy xahiş elədi:

– Başına dönüm, həkim, tez elə, yazıq daha ağrıya dözə bilmir.

Həkim şirin-şirin gülümsədi:

– Elli, narahat olma! Xanımınıza heç nə olmayacaq. Əməliyyatı yüksək səviyyədə keçirəcəyəm. İynə vurmuşam, indi keyiyəcək, – dedi və bayaqkı söhbətə bir də nərdivan qoydu. – Əlavə bir şey verəcəksən?

Məmmədəli bəy istehza ilə hər iki cibini çevirdi. Həkim onun bu hərəkətindən narazı qaldı. Başını buladı. Zıqqıltısı get-gedə azalan xəstəyə yan aldı. Yenə yarım arşınlıq mili götürüb Zərəfşan xanımın burnunu qurdaladı. Xəstə inildədikdə Məmmədəli bəyi yenə ağlamaq tutdu. Həkim çevrilib ona baxdı. Kişinin kövrəldiyini görüb istehza ilə:

– Vay, vay, lap xıncım-xıncım olub e! – dedi. – Ay elli, sən xanımı nə yaman vurmusan?! Heç insafın yoxdur?

Məmmədəli bəy heyrətlə:

– Həkim, mən heç adam döyənə oxşayıram? İçəri girən kimi səni başa saldım, axı! Arvad əlində vedrə hamamxanadan çıxanda ayağı sürüşüb, üzü üstə qabaqdakı divara dəyib. Uşaqlarım Allahın şahididir, – dedi və xahiş etdi. – Sən Allah, işinlə məşğul ol! Müstəntiq deyilsən ki?

Həkim:

– Hirslənmə, elli, mən elə işimlə məşğulam, – dedi. – Keyiməsə heç nə edə bilmərəm. Ölkədə hamı yatır ey, elli! Bir mənəm gecə yarısı əməliyyat aparan. Hələ narazısan da.

Məmmədəli:

– Bəs, haçan keyiyəcək? Yazıq elə zarıyır, – deyə soruşdu.

Həkim tibb bacısına baxıb şaqqıltı ilə güldü:

– Verdiyin pula müqabil ağrıkəsici vurulub da. Yaxşı pul ver, bahalı keyidici vurum, tez keyisin.

Bu söhbət əsnasında xəstənin iniltisi kəsildi. Həkim dərhal qollarını çırmayıb işə başladı. Xəstənin burnunu dinməzcə bir xeyli əlləşdirdi. Gah masanın o tərəfinə keçdi, gah bu tərəfinə keçdi. Başdansovdu bir tikiş vurdu. İşindən razı halda Məmmədəli bəyi çağırdı:

– Gəl bax, gör, necədir? Belə idi? Oxşayır?

Məmmədəli yaxına gəldi diqqətlə tikiş qoyulmuş buruna baxdı, sözün düzünü dedi:

– Oxşamır, həkim, düzü, arvadım burundan yarımayıb. Əvvəl qırğı dimdiyi kimi əyri idi, hürgücü vardı, indi isə dübbədüzdür.

Həkim başını qaşıdı:

– Belə saxlasaq necə olar? O hürgüc dediyin sümüyü çıxarıb atmışam. Onsuz da kəsilməli idi. Lap vaxtında sınıb. Belə yaxşıdır. Bəyəm, burun düz olsa, işə yaramaz?

Məmmədəli bəy etiraz etdi:

– Qoy, əvvəlki kimi qalsın. Açığı, gözümüz alışıb, huşu üstündə olsaydı heç özü də razı olmazdı.

Həkim bir az da xəstəni incidəndən sonra təəssüflə dedi:

– Yox, əvvəlki formanı verə bilmirəm. Sümüklər xıncım-xıncımdır. Qoy, belə qalsın. Sınmış sümüyü yerinə tikə bilmərəm ki!

Məmmədəli bəyin damarı tərpəndi. Məzə ilə inad elədi:

– Olmaz, ay həkim. Mən onu elə əyri burnuna görə yüz qızın içində seçib bəyənmişəm. Heç razı ola bilmərəm ki, onun burnuna xələl gəlsin. Arvadımın burnunu necə var, elə də saxla.

Yekəpər cərrah yavaş-yavaş əsəbiləşirdi:

– Nə fərqi var, axı? Burun, burundur da, əyri, ya düz. Təzədən sındırıb yığmalıyam? Zəhmətimə hayfın gəlmir?

Məmmədəli, nəhayət, həkimin ağrıyan yerini tapdığına sevindi, tam ciddiliklə başladı onu dolamağa:

– Ə, sən nə təhər cərrahsan ki, bir işi axıracan görə bilmirsən? – dedi. – Sənə deyirlər, arvadımın burnunu necə var, o cür də yığ. Yoxsa, orda-burda danışaram, səni hörmətdən salaram.

Həkim peşəkarlığına şübhə ilə yanaşan Məmmədəli bəyin üstünə çığırdı:

– Balam, o əyri burun sənin nəyinə gərəkdir, axı? Nə yapışmısan ondan?

Məmmədəli bəy barmağını qaldırdı:

– Əşi, arvad mənim deyil? Qoy, burnu əyri qalsın!

Həkim onun qoluna girib qırağa çəkdi:

– Ay qardaş, yenidən kəsib-tikmək xəstəyə əziyyət verər! Gəl, sən bu daşı ətəyindən tök, razı ol, – deyə xahiş elədi.

Məmmədəli bəy ürəyində sevinə-sevinə, üzdən isə narazılıqla:

– Ay həkim, sən bilmirsən… – deyə köksünü ötürdü.

– Nə inad adamsan! – Həkim heyrətləndi. – Nəyi bilmirəm ki?

– Həkim, inadımın səbəbi var. Qonum-qonşu elə bilər ki, daha pullanmışam, arvadın üstünə maya qoyuram, plastik əməliyyatlara pul xərcləyirəm.

– Lap yaxşı, bunun nəyi pisdir ki. Qoy, istəməyənlər paxıllıqdan partlasınlar.

– Eh, həkim, dərdim böyükdür, borc aldığım adamlar bir himə bənddirlər. Dərhal tökülüşüb gələcəklər ki, bəs, daha pullanmısan, borcumuzu ver.

Həkim onu razı salandan sonra huşu üstünə gələn Zərəfşan xanıma yaxınlaşdı. Cəld işə başladı. Bu əvvəlki adam deyildi, əllərini görmək olmurdu. İynənin keyi keçmiş Zərəfşan xanımı tibb bacısının köməyi ilə masadan düşürtdü və incik-incik başını tərpətdi, sualedici nəzərlərlə Məmmədəli bəyə baxdı. Amma xəstənin sahibindən səs çıxmadıqda mızıldandı:

– Yaxşı, – dedi. – Qoy, belə olsun. Özün peşman olacaqsan…

Məmmədəli bəy bu hədəni eyninə almadı, özündən razı halda Zərəfşan xanımı xəstəxanadan çıxartdı. Maşına oturdub tez onu evə çatdırdı. Xəstəni təzə yerbəyer eləmişdilər ki, qapı döyüldü. Açıb gördü ki, bir polis zabitidir. Soruşdu:

– Nə lazımdır, qardaş?

Polis özünü təqdim edib, içəri keçdi.

– Bizə xəstəxanadan məlumat daxil olub ki, bu ünvanda dalaşıblar, ər arvadın burnunu sındırıb, aradan çıxıb. Zərərçəkən ölümcül halda xəstəxanaya çatdırılıb, ilkin tibbi yardım alıb.

Məmmədəli bütün bunları bir nəfəsə deyən polis zabitinin hökmü qarşısında aciz-aciz məzələndi:

– Polis qardaş, sizə düz məlumat verməyiblər. Dalaşan olmayıb, bədbəxt hadisə baş verib, arvad yıxılıb, burnunu sındırıb. Ər də heç yerə qaçmayıb, qarşınızdadı.

Polis soruşdu:

– Zərərçəkən hardadır?

– Yataqdadır.

– Hadisə necə olub? Nə üstə dalaşmısınız? – deyə polis zabiti eyni hökmlə soruşdu.

– Dedim ki, dalaşmamışıq, arvadım yıxılıb burnunu sındırıb.

– Kişi, inandırıcı bir şey fikirləşə bilmirsən? Adam yıxılanda qolu sınar, qıçı sınar. Day, burnu sınmaz ki.

Məmmədəli:

– İndi olub da, – dedi. – Mən də xəbər tutanda elə sənin kimi fikirləşdim. Adamın da burnu sınar?

Polis Məmmədəli bəyin baməzəliyi qarşısında az qala öz zabitəsini itirəcəkdi. Qaşqabağını tökdü:

– Məni dolamısan? – Soruşdu. – Yığış, zərərçəkəni də götür, şöbəyə gedəcəyik. Orda izahat yazılmalıdır.

Məmmədəli istehza ilə:

– Zərərdidənin getməyə təhəri var ki?

Polis zabiti inadla dedi:

– Mən bilmərəm, – dedi. – Qanun belə tələb edir. Zərərçəkən dindirilməli, protokol tərtib edilməlidir, hadisə qeydə alınıb iş açılmalıdır. Hanı zərərdidə? Yataq otağındadır? İcazə verirsən? Bir-iki sualım olacaq…

O, Məmmədəli bəyin razılığını gözləmədən yataq otağının açıq qapısından boylandı. Soruşdu:

– Bacı, mən polisdənəm. Danışa bilirsən?

Zərəfşan xanım gözünü açmadan:

– Hə, – dedi.

– Lap yaxşı, bacı, səni kim döyüb, burnunu kim sındırıb? Şikayətin kimdəndir?

Zərəfşan xanım ağır-ağır:

– Yıxılmışam, qardaş, kimdən şikayət eləyəcəyəm ki?

Polis onu dilə tutdu:

– Qorxma, bacı, qorxma. Qanun sənin tərəfindədir. Qadına əl qaldıranın canını alacağıq, – dedi və ev sahibinə tərəf döndü. – Hadisəni gecə ilə də olsa, araşdıracağıq. Yığışın, gedək.

Məmmədəli bəy istehza ilə:

– Ora getsək sənə heç nə çatmayacaq ha! – dedi. – Nəzirdən-niyazdan verəcəkdim, indi özün bil…

Polis zabiti işarəni anlayıb boğazını arıtladı, ipək kimi yumşaldı:

– Bu başqa məsələ! – dedi. – Qəzanın şahidləri kimdir?

– Oğlumla qızımdır.

Polis zabiti atasının arxasında dinməz dayanan Arifdən soruşdu:

– Oğlum, ananın burnu, doğrudan, divara dəyib sınıb?

Arif zorla gizlətdiyi istehza ilə:

– Doğrudan, polis əmi, – dedi. – Amma mamamın burnu sınmalı burun idi, atam hələ səbrli kişidir, bu işi qəza-qədərin umuduna buraxmışdı.

Polis zabiti oğlanın hazırcavablığına heyran qaldı. Daha işi uzatmadı, anasının burnuna yağ damızdıran Nərmindən soruşdu:

– Sən də təsdiq eləyirsən, qızım?

Uşaq başını tərpətdi. Hadisə qıza necə təsir eləmişdisə üzü gülmürdü.

Polis zabiti dəftərinə nəsə yazdı. Umacaqla ev sahibinə baxdı. Məmmədəli bəy onun ümidini doğrultdu, əlini qoltuq cibinə atıb axırıncı əlli minliyini çıxarıb zabitin cibinə basdı. Polisin üzü güldü, dilləndi:

– Yaxşı da, sabah şöbəyə gələrsən. Bacıya əziyyət vermə daha. Özün kifayətsən. Gələndə pasportlarınızı da gətirərsən. Gecəniz xeyrə.

Məmmədəli onu yola salandan sonra, yataq otağına keçdi:

– Arvad, sonra elə bilmə ha, burnun havayı düzəlir. Bir ətək pul xərcləyirəm, – dedi və döşünə döydü. – Mən dediyimi yerinə yetirən oğlanam. Axır ki, əyri burnunu sahmana saldıq. İndi görək, əyilən işlərimiz düzələcəkmi?

Zərəfşan xanımın dodağı qaçdıqda uşaqların da üzü güldü.

# MÜNDƏRİCAT

ƏDƏBİYYATIN KÖHNƏ BAZARINA TƏZƏ NIRX
*(Məmməd Oruc)* ........................................................................3

**Hekayələr**

HEÇ NƏ İTMİR ........................................................................7
MİNARƏNİN ƏRİ ........................................................................10
DAŞ HASAR ........................................................................15
MƏŞQ ........................................................................22
BORC ........................................................................28
TƏCRÜBƏ ........................................................................33
MƏKTUB ........................................................................39
QARAQABAQ XALAM ........................................................................42
SİBİRƏ EZAMİYYƏT ........................................................................49
HƏR ŞEYİN ÖZ ADI ........................................................................54
İSTEHSALAT TƏCRÜBƏSİ ........................................................................57
QIŞ YUXUSU ........................................................................62
İLK MƏHƏBBƏT ........................................................................66
OMBA AĞRISI ........................................................................72
HASARIN SÖKÜYÜ ........................................................................76
“XAN” DÜYÜSÜ ........................................................................81

FÜZULİ VƏ ELEKTRONİKA ....................................................89
MİLÇƏK RUZİSİ ....................................................93
GÖZ AĞRISI ....................................................99
XEYİR İŞ ....................................................104
YAXŞI OĞLANIN "DAYISI" ....................................................110
"ŞİRİN DÖRDLÜK..." ....................................................121
QAYÇI ....................................................133
DAŞ KÜÇƏ ....................................................137
YALANÇI ƏMİLƏR ....................................................141
SONUNCU YEZNƏ ....................................................143
PAPAQÇI OĞLU ....................................................161
QOY, DOLANSINLAR ....................................................166
YALANÇI OĞUL ....................................................169
ŞORBA ....................................................177
XƏZİNƏ ....................................................181
HESAB ....................................................187
ZƏİF DAMAR ....................................................199
DÜZ XƏTT ....................................................203
AYIN AXIRINCI CÜMƏSİ ....................................................208
«QƏRƏNFİL-2» ....................................................212
ABŞERON BAĞLARININ GECƏLƏRİ ....................................................218
NAĞIL GECƏSİ ....................................................224
EL YOLUNDA ....................................................233
PAZ ....................................................237
YOL ....................................................245

YAZMAĞIN XEYRİ ....................................................................259
İTİK İMPULS ............................................................................264
QİSAS GÜNÜ ............................................................................267
TELEQRAM ...............................................................................277
MANATIN MƏZƏNNƏSİ ..........................................................283
ƏDƏBİYYATIN LƏTAFƏTİ ......................................................290
PARKDA «ƏDƏBİ DİSPUT» .....................................................296
UŞAQ ZARAFATLARI ..............................................................328
MÜBAHİSƏLİ BURUN...............................................................346